# AZƏRBAYCAN
# VƏ
# AVROPA ŞURASI

***(Avropa Şurasının 60 illik yubileyinə həsr olunur)***"

“AVRASİYA PRESS”
BAKI - 2009

Azərbaycan Respublikasının Prezidenti yanında
Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi
Şurası tərəfindən nəşr edilmişdir.

Buraxılışa məsul: **Adil Vəliyev**
siyasi elmlər namizədi
Tərtibçi: **Səadət Yusifova**
hüquq elmləri namizədi
Rəyçi: **Ruslan İsmayılov**
filologiya elmləri namizədi

**Azərbaycan və Avropa Şurası**
Bakı, "Avrasiya Press" 2009, 240 səh.

Kitabda Avropa Surasının 60 il ərzində formalaşdırdığı dəyərlər sistemi, Azərbaycan Respublikasının bu nüfuzlu beynəlxalq qurumla əməkdaşlığının dinamikası, ölkəmizin götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi kimi məsələlər əhatə olunur.

**İSBN 978-9952-442-26-7**

© "Avrasiya Press", 2009

"Tarixi yolların qovuşuğunda yerləşən ölkəmizin Avropa Şurasına qəbul olunması həm Azərbaycan üçün, həm də bu təşkilat üçün çox mühüm hadisədir. Biz ümumavropa dəyərləri xəzinəsinə öz töhfələrimizi gətirməyə hazırıq. Bu töhfələr həm Avropada demokratik sabitliyin möhkəmlənməsinə, həm də avropalıların şərq xalqlarının tarixi taleyini daha yaxşı və dərindən dərk etməsinə kömək edəcəkdir.

Bu, bir tərəfdən qabaqcıl demokratik ideyaların, hüquqi baxışların yayılması, digər tərəfdən isə bütün xalqların milli-mənəvi xüsusiyyətlərinə hörmət bəslənilməsi üçün yaxşı zəmin olacaqdır. Mən bu mötəbər təşkilatın gələcək inkişafı və möhkəmlənməsində öz ölkəmin xüsusi rolunu və məsuliyyətini bunda görürəm."

**Heydər Əliyev**
Avropa Şurası Parlament Assambleyasının
sessiyasında Azərbaycanın Avropa Şurasına üzv
qəbul olunmasına həsr olunmuş nitqindən.
25 yanvar 2001-ci il.

"Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır. Biz bu siyasətimizə möhkəm sadiqik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin. Budur bizim siyasətimiz və uzun müddətdir onu həyata keçiririk. Bu gün Azərbaycanda baş verənlər bu siyasətin davamının nəticəsidir."

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
Avropa Şurası Parlament Assambleyasının
sessiyasındakı nitqindən.
29 aprel 2004-cü il.

# ÖN SÖZ

Dövlət müstəqilliyi bərpa edildikdən sonra Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanda hüquqi demokratik dövlət quruculuğu istiqamətində fundamental islahatlar həyata keçirilmişdir. İnsan hüquq və azadlıqlarının qorunması və hər bir vətəndaşın layiqli həyat səviyyəsinin təmin olunması dövlətin ali məqsədi elan olunmuşdur. Bu məqsədlə yeni məhkəmə sistemi, hüquq müdafiə mexanizmləri yaradılmış, liberal bazar iqtisadiyyatı və sosial dövlət prinsiplərini rəhbər tutan iqtisadi münasibətlərə keçid təmin olunmuşdur.

Hazırda hüquqi dövlət quruculuğu prosesi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün fəaliyyət istiqamətlərində aparılan islahatlar daha da dərinləşdirilir, ən qabaqcıl dünya təcrübəsi, texnologiyalar Azərbaycana gətirilir.

Bu məqsədlə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq həyata keçirilir. Belə təşkilatlardan biri də Avropa Şurasıdır. İnsan hüquqları, plüralistik demokratiya və qanunun aliliyini müdafiə etmək, Avropanın mədəni özünəməxsusluğunu və müxtəlifliyi qorumaq və inkişaf etdirmək, onun qarşısında duran məsələlərin ümumi həllini tapmaq, siyasi, hüquqi və konstitusional islahatları dəstəkləməklə demokratik sabitliyi təmin etmək Avropa Şurasının prioritetləridir. Bu dəyərləri bölüşən, daim yenilənmə iddiasında olan hər bir ölkə Avropa Şurasının üzvü ola bilər. Şuranın uzun illər ərzində ideoloji cəhətdən bölünmüş qitədə sülhün bərqərar olmasına, üzv-ölkələrdə aparılan islahatlara, o cümlədən mədəniyyətlərarası dialoqa verdiyi töhfə onun 60 illik tarixinin ən böyük nailiyyətidir.

Avropa Şurasının 60 illiyinə həsr olunmuş bu nəşr həmin təşkilatın yaranmasını doğuran tarixi şərtlər, onun strukturu və fəaliyyət xüsusiyyətləri, yeni üzvlərin qəbul olunması siyasəti, Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf dinamikası, ölkəmizin götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi kimi məsələləri əhatə edir və mövzu ilə bağlı ictimaiyyətin məlumatlandırılması məqsədini daşıyır.

Bu baxımdan təqdim olunan kitabın ictimaiyyətin diqqətini cəlb edəcəyinə, eyni zamanda ölkəmizin Avropa Şurası ilə əməkdaşlığı ilə bağlı məlumatlılığın artmasına səbəb olacağına inanıram.

Nəşri ərsəyə gətirən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasına gələcək fəaliyyətində uğurlar arzu edirəm.

**Fuad Ələsgərov,**
**Azərbaycan Respublikası Prezidentinin**
**Administrasiyasının Hüquq mühafizə**
**orqanları ilə iş şöbəsinin müdiri**

*I fəsil*

## Avropa Şurası: ümumi məlumat

### § 1. Tarixi baxış

Vahid Avropa evinin yaradılması ideyası yeni deyil. Avropa birliyinin ilk layihəsi ilk dəfə hələ 600 il əvvəl P. Dö Bua tərəfindən irəli sürülmüşdür. Tarixi inkişaf prosesində siyasi və hüquqi düşüncələrin rəngarəngliyi bu ideyanın həyata keçirilməsi üçün müxtəlif planların irəli sürülməsinə, onların realizə olunması üçün müəyyən addımların atılmasına səbəb olmuşdur. Hələ XVI əsrdə Fransa kralı IV Henri o vaxtkı Avropa dövlətlərini birləşdirən "xristian respublikası" yaratmaq planlarını irəli sürmüşdü. Bu plan mahiyyət etibarı ilə dini zəmində dövlətlərin birləşdirilməsini nəzərdə tutsa da, Avropada təhlükəsizliyin birgə qorunmasına yönəlmişdi. 1690-cı ildə ingilis V.Peni Avropada Ümumavropa parlamenti çağırılması yolu ilə sülhün təmin olunması məsələsinə həsr olunmuş kitab çap etmişdi.

Vaxtilə Napoleon Avropanı silah gücünə birləşdirməyə çalışdı. Lakin nə qədər qəribə olsa da, məhz Napoleon üzərində qələbə çalan dövlətlərin 1814-1815-ci illərdə çağırdığı Vyana konfransı mahiyyət etibarı ilə tarixə ilk Ümumavropa konqresi kimi düşdü. XIX əsr isə avrosentrizm ideyalarının formalaşması ilə yadda qaldı. İki dünya müharibəsi arasında 1923-cü ildə R.Kudenxove-Kalergi Avropa birliyinin yeni layihəsini irəli sürdü. "Panavropa manifesti" meydana çıxdı. 1930-cu ildə isə Fransanın xarici işlər naziri A.Brian "Avropa Federal İttifaqının təşkili haqqında Memorandum"u Millətlər Liqasına təqdim etdi. Bu, "Avropa ideyası"nı özündə ehtiva edən və hökumət səviyyəsində qəbul edilmiş ilk sənəd idi. Lakin Hitlerin Almaniyada hakimiyyətə gəlməsi və İkinci dünya müharibəsinin başlaması bu layihənin həyata keçməsinə mane oldu.

Lakin bəzən Avropa Şurasının yaranmasını İngiltərə hərbi kabinetinin başçısı U.Çörçillin 1942-ci ilin oktyabr ayında verdiyi bəyanat ilə əlaqələndirirlər. Bəyanatda deyilirdi: "Mən millətlər arasında sədləri əhəmiyyətli dərəcədə aradan qaldıran, maneəsiz hərəkət üçün imkan yaradacaq Avropa Birləşmiş Ştatlarının yaradılmasını gözləyirəm". O göstərirdi ki, Avropa iqtisadiyyatına vahid bir tam halında baxılmalıdır.

Uinston Çörçillin bəyanatı Avropada geniş əks-səda doğurdu. İkinci dünya müharibəsindən sonra Avropada federalist cərəyanlar yenidən canlanmağa başladı. Bunlardan Avropa Federalistlər İttifaqı, Avropa İqtisadi Əməkdaşlıq Cəmiyyəti, Avropa birliyinin müdafiəsi üzrə Fransa Şurası, Avropanı birləşdirmək uğrunda Böyük Britaniya hərəkatı, Xristian Demokratların Beynəlxalq İttifaqı kimi assosiasiya və cəmiyyətlər Avropa federasiyasının yaradılması ideyaları ilə çıxış edirdilər.

1947-ci ildə həmin cəmiyyət və təşkilatlar Avropanı birləşdirmək hərəkatını əlaqələndirmək üçün beynəlxalq komitə yaratdılar. Bu komitə 1948-ci il mayın 8-

10-da Haaqada Avropanın inteqrasiya problemlərinə həsr olunmuş konqres çağırdı. Konqresdə Avropanın birləşdirilməsi, inteqrasiya barədə müxtəlif layihələr təqdim olunmuşdu. Bu layihələr əsasən, iki qrupa bölünürdü. Birinci qrup layihələrdə Avropa Federasiyası yaratmaq təklif olunurdu. Bu layihələrə əsasən, Avropada "millətlərüstü orqanlar", o cümlədən Avropa parlamenti yaratmaq nəzərdə tutulurdu. Parlamentə əhalinin hər milyonundan bir nəfər nümayəndə seçilməli idi. Bu cür layihələr federalizm tərəfdarı olan fransızlar, belçikalılar, hollandlar və qərbi almaniyalılar tərəfindən irəli sürülmüşdü.

İkinci qrup layihələrdə isə məşvərətçi, yalnız koordinasiya xarakterli Avropa təşkilatı yaratmaq nəzərdə tutulurdu. Bu cür layihələr konfederasiya tərəfdarı olan Britaniya, Skandinaviya assosiasiyaları nümayəndələri tərəfindən irəli sürülmüşdü.

Konqresdə bu iki cərəyanı birləşdirən kompromis xarakterli qətnamələr qəbul edildi. Konqres Avropa dövlətlərinin iqtisadi və siyasi ittifaq yaratmaqları, həmçinin ayrı-ayrı üzv dövlətlərinin parlament nümayəndələrindən təyin olunmuş üzvləri olan Avropa məsləhətverici assambleyası yaratmağı təklif etdi.

1948-ci ilin iyul ayında Avropa konqresinin qərarlarının təsiri altında Fransa Brüssel Paktının Şura iclasında paktın üzvü olan ölkələrə (Böyük Britaniya, Fransa, Benilüks ölkələri) Avropa assambleyası yaratmaq məqsədilə müşavirə çağırmaq təklif edildi. Böyük Britaniya hökuməti bu təklifə mənfi münasibət bildirdi. 1948-ci ilin oktyabr ayında Şuranın növbəti sessiyası zamanı bu təklif yenidən verildi. Qərara alındı ki, Avropa Federasiyası problemlərini, xüsusilə də Avropa parlamenti assambleyasını yaratmaq təklifini öyrənmək məqsədilə Avropa Birliyi Daimi komitəsi yaradılsın. Komitədə yenə də fikir ayrılığı meydana çıxdı. Fransa və Belçika tərəfinin fikrincə, gələcəkdə Avropa Parlamentinin əsasını təşkil edə biləcək Avropa parlamentləri assambleyası yaradılmalı idi. İngiltərənin fikrincə isə, ayrı-ayrı hökumətlərin nümayəndələrindən ibarət birgə məsləhətverici orqan (Avropa Nazirlər Şurası) yaradılmalı idi.

1949-cu ilin yanvarında komitə kompromis razılığa gəldi. Koordinasiya xarakterli təşkilat — Avropa Şurasının yaradılması qərara alındı. Bu təşkilatın iki — hökumət və parlament orqanları olacağı nəzərdə tutulurdu. Təşkilatın funksiya və quruluşuna dair ətraflı qərar hazırlanması üçün 1949-cu ilin mart ayında Londonda Brüssel Paktına daxil olan ölkələr, Danimarka, İtaliya, İrlandiya, Norveç və İsveçin səfirlərinin iştirakı ilə müşavirə keçirildi. Mart və aprel aylarında müşavirədə Avropa Şurasının Nizamnaməsi hazırlandı. 1949-cu il may ayının 5-də yuxarıda adları çəkilən ölkələrin xarici işlər nazirləri nizamnaməni imzaladılar. 5 may hər il Avropa Şurasının yaradılması günü kimi qeyd olunur. Avropa Şurasının Nizamnaməsi preambula, 10 fəsil və 42 maddədən ibarətdir. Nizamnamənin 1-ci maddəsinin "a" bəndinə əsasən, Avropa Şurasının məqsədi üzv dövlətlərin ideya və prinsiplərinin müdafiə və həyata keçirilməsi üçün onlar arasında sıx əlaqələr yaratmaq, Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək etmək, plüralist demokratiya və insan hüquqlarının müdafiəsi

və möhkəmləndirilməsi, vahid mədəniyyətin formalaşması üçün Avropa özünüdərkini möhkəmləndirmək və inkişaf etdirməkdən, üzv dövlətlərin iqtisadi və sosial tərəqqisinə yardım etməkdən ibarətdir.

Avropa Şurası Nizamnaməsinin 1-ci maddəsinin "b" bəndində göstərilir ki, Avropa Şurasının məqsədi yaratdığı orqanlar vasitəsilə ümumi əhəmiyyətli məsələlərin müzakirəsi, sazişlərin bağlanması, iqtisadi, mədəni, sosial, elmi, hüquqi, inzibati məsələlərdə birgə fəaliyyətdə həyata keçirilməlidir. Bu göstərir ki, Avropa Şurasının səlahiyyət dairəsi ümumi xarakter daşıyır. Yəni, bu beynəlxalq təşkilatın fəaliyyət dairəsi müəyyən bir sahə ilə məhdudlaşmır, üzv dövlətlərin fəaliyyətinin müxtəlif dairələrini əhatə edir. Ona görə də Avropa Şurası ümumi səlahiyyətli beynəlxalq (regional) təşkilat hesab olunur. Nizamnamənin Avropa Şurasının məqsədlərindən bəhs edən 1-ci fəslində həmçinin göstərilir ki, üzv dövlətlərin Avropa Şurasında iştirakı onların BMT-də, digər təşkilat və beynəlxalq ittifaqlarda fəaliyyətinə mənfi təsir göstərməməlidir. Nizamnamənin 1-ci maddəsinin "d" bəndinə əsasən, hərbi məsələlər Avropa Şurasının səlahiyyətlərinə aid edilmir. Avropa Surasının vəzifələri 3 qrupa ayrılır:

1. Üzv ölkələr arasında "insan fəaliyyətinin" bütün sahələrində əməkdaşlığın genişləndirilməsi yolu ilə birliyin möhkəmləndirilməsi.
2. Avropa Şurasına daxil olmayan Avropa dövlətləri ilə sosial, hüquq, mədəniyyət, təhsil, səhiyyə, "belə əməkdaşlığın arzulandığı" digər sahələrdə əməkdaşlıq.
3. BMT və onun orqanlarının fəaliyyətində "Avropa töhfəsini" verməklə iştirak etmək.

Hüquqi statusuna görə Avropa Şurası regional beynəlxalq təşkilatdır. Belə ki, Avropa Şurası eyni region dövlətləri tərəfindən beynəlxalq saziş əsasında yaradılmışdır və təşkilatın fəaliyyəti BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğundur. Nizamnamədə başqa təşkilatlar və başqa dövlətlərlə müqavilə bağlaması barədə qeyd olmasa da, təcrübədə Avropa Şurası digər beynəlxalq təşkilatlarla və dövlətlərlə əməkdaşlıq barədə müqavilələr bağlayır. Məsələn, Avropa Şurası özünün mənzil qərargahı ilə əlaqədar Fransa dövləti ilə müqavilə bağlamışdır.

İsrail dövləti Avropa Şurasında, ABŞ, Kanada, Yaponi ya Avropa Şurasının dövlətlərarası strukturlarında müşahidəçi statusuna malikdir.

Avropa Şurası beynəlxalq təşkilatların fəaliyyətinin ənənə və metodlarından istifadə edir. Onun funksiyasını əsasən koordinasiya təşkil edir. Avropa Şurası operativ funksiyalar da yerinə yetirir. Bu da, əsasən, seminar, simpozium, hazırlıq kursları, açıq mühazirələr, sərgilərin təşkili və sairdir.

Avropa Şurasının üzvləri: 1949-cu ildə 10 dövlət — Belçika, Böyük Britaniya, Danimarka, İrlandiya, İtaliya, Lüksemburq, Fransa, İsveç, Norveç, Niderland təşkilatın nizamnaməsini imzalamaqla onu təsis etmişlər. 1974-cü ilə kimi təşkilata daha 8 dövlət — Yunanıstan (1949), Türkiyə (1949), İslandiya (1950), Almaniya (1950), Avstriya (1956), Kipr (1961), İsveçrə (1963), Malta

(1966) daxil olmuşdur. 1990-cı ilə kimi Avropa Şurasına Portuqaliya (1976), İspaniya (1977), Lixtenşteyn (1978), San-Marino (1988), Finlandiya (1989) da daxil olmaqla, təşkilatın üzvlərinin sayı 23-ə çatmışdır. Macarıstan (1990), Polşa (1991), Bolqarıstan (1992), Litva (1993), Rumıniya (1993), Slovakiya (1993), Sloveniya (1993), Çexiya (1993), Estoniya (1993), Andorra (1993), Albaniya (1993), Latviya (1995), Makedoniya (1995), Moldova (1995), Ukrayna (1995), Rusiya (1996), Xorvatiya (1996), Gürcüstan (1999), Azərbaycan (2001), Ermənistan (2001), Bosniya-Herseqovina (2002), Serbiya (2003), Monako (2004) və Çernoqoriya (2007) təşkilatda tam hüquqlu üzv kimi təmsil olunmaqla təşkilatın üzvlərinin sayı 47-yə çatmışdır.

Avropa Şurası struktur baxımından beş orqandan ibarətdir: Nazirlər Komitəsi, Parlament Assambleyası, Avropa İnsan Hüquqları Məhkəməsi, Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresi və katiblik.

İngilis və fransız dilləri Avropa Şurasının rəsmi dilləridir. Parlament Assambleyası iclaslarında işçi dil kimi alman və italyan dillərindən də istifadə olunur. Avropa Şurasının qərargah mənzili Strasburq şəhərində yerləşir.

## § 2. Avropa Şurasının strukturu

### *2.1. Nazirlər Komitəsi*

Nazirlər Komitəsi nizamnamənin 15-16-cı maddələrinə müvafiq olaraq Avropa Şurasının adından fəaliyyəti həyata keçirməyə səlahiyyəti olan icraedici və sərəncamverici orqandır. Avropa Şurasının üzvü olan hər bir dövlət Nazirlər Komitəsində bir nümayəndə ilə təmsil olunur. Komitədə nümayəndə kimi xarici işlər naziri iştirak etməlidir. Nizamnamənin 14-cü maddəsinə əsasən, xarici işlər naziri başqa şəxslə əvəz oluna bilər. Əgər bu mümkündürsə, həmin şəxs hökumətin üzvü olmalıdır. Faktiki olaraq ancaq 1-ci sessiyasında 1949-cu ildə bütün üzv dövlətlər xarici işlər nazirləri səviyyəsində təmsil olunmuşdur. Digər hallarda isə Nazirlər Komitəsində üzv dövlətlərin xarici işlər nazirləri ilə yanaşı, digər vəzifəli şəxsləri, çox vaxt isə üzv dövlətlərin Parisdə akkreditə olunmuş diplomatik nümayəndələri iştirak etmişlər.

Komitənin hər bir üzvü bir səsə malikdir. Nazirlər Komitəsi, bir qayda olaraq, ildə iki dəfə — may və dekabr aylarında toplanır və qapalı iclaslar keçirir. Nazirlər növbəliklə 6 ay müddətində komitənin sədri funksiyasını yerinə yetirirlər.

Nazirlər Komitəsi Parlament Assambleyasının səlahiyyətinə aid olan məsələlərdən başqa, Avropa Şurasının daxili və təşkilati işlərinə aid bütün məsələlər barədə məcburi xarakterli qərarlar qəbul edir. Bu məqsədlə komitə maliyyə və inzibati sahədə zəruri sərəncamlar verir. Nizamnamənin o qədər mühüm əhəmiyyət kəsb etməyən müddəalarında dəyişikliklər edilməsi ilə bağlı təkliflər komitənin əksər üzvlərini təmsil edən üçdə iki hissəsinin səs çoxluğu ilə qəbul edilir. Bəzi qərarlar, məsələn, yeni üzvlərin qəbulu komitə üzvlərinin hamısının üçdə iki səs çoxluğunu tələb edir. Nəhayət, bir sıra qərarlar, məsələn, təşkilatın nizamnaməsinin mühüm müddəalarında dəyişikliklərlə bağlı təkliflər,

Parlament Assambleyasının, Nazirlər Komitəsinin fəaliyyəti barədə hesabatların təsdiqi nisbi yekdillik əsasında qəbul edilir. İş həcminin artması və təşkilatın rolunun yüksəlməsi ilə əlaqədar olaraq Nazirlər Komitəsi 1952-ci ildə Nazirlərin Nümayəndələri Komitəsini yaratmışdır. Nazirlər Komitəsinin səlahiyyətlərinin bir hissəsi həmin komitəyə verilmişdir. Təşkilatın siyasətinin mühüm problemləri istisna olmaqla, müxtəlif məsələlər üzrə Nazirlərin Nümayəndələri Komitəsi qərarlar qəbul edə bilər və bu qərarlar Nazirlər Komitəsinin qərarları ilə eyni hüquqi qüvvəyə malik olur. Təcrübədə nümayəndələr komitəsi Nazirlər Komitəsinin vəzifələrinin əsas hissəsini yerinə yetirir. Bundan əlavə, nümayəndələr komitəsi Nazirlər Komitəsinin iclaslarının materiallarını hazırlayır. Hər il üzv dövlətin nümayəndələr komitəsində bir nəfər nümayəndəsi olur. Bu nümayəndələr, bir qayda olaraq, üzv dövlətlərin Avropa Şurasına akkreditə olunmuş nümayəndələridir.

1955-ci ilin oktyabr ayında Nazirlər Komitəsi Avropa komissarları institutunu yaratmışdır. Komissarlar Avropa Şurasının nümayəndələri kimi üzv ölkələrin hökumətlərində akkreditə olunurlar. Digər tərəfdən, üzv dövlətlərin hökumətləri Avropa Şurasında özünün daimi nümayəndələrini təyin edir. Bu cür nümayəndələrin bəziləri eyni zamanda Fransada öz ölkələrini təmsil edən nümayəndələr olur və Avropa Şurasının qərargahı yerləşən Strasburq şəhərində yaşayırlar. Nizamnamənin 19-cu maddəsinə əsasən, Nazirlər Komitəsi müvafiq sənədlərlə birlikdə özünün fəaliyyəti barədə hesabatı Parlament Assambleyasının sessiyalarına göndərir.

### *2.2. Parlament Assambleyası*

Avropa Şurasının ikinci mühüm orqanı məşvərətçi nümayəndəli orqan olan Parlament Assambleyasıdır. Bu orqan əvvəllər "Məsləhətverici Assambleya" adlanmışdır. Həmin orqan özünün xarakter və vəzifələrinə görə Nazirlər Komitəsindən fərqlənir. Avropa Şurasının Nizamnaməsinin 25-ci maddəsində əsasən Assambleya Avropa Şurasına üzv ölkələrin Parlamentləri tərəfindən seçilmiş və ya həmin Parlamentlərin üzvlərindən təyin olunmuş üzvlərdən ibarət nümayəndələrdən təşkil olunur. Hər bir nümayəndə təmsil etdiyi üzv dövlətin vətəndaşı olmalıdır. O, eyni zamanda Avropa Şurasının Nazirlər Komitəsinin üzvü ola bilməz. Assambleyanın Prosedura Qaydalarının 6.1 saylı Qaydasına əsasən milli parlamentlər Assambleyanın üzvlüyünə irəli sürüləcək əsas və əvəzedici şəxslərin mandatlarına dair məlumatı Assambleyanın Sessiyanın başlanmasına ən azı bir həftə qalmış bu quruma təqdim etməlidirlər. Prosedura Qaydalarının 6.2a saylı Qaydasının tələbinə əsasən hər bir nümayəndə heyətinin tərkibi, yerlərin sayı imkan verdiyi təqdirdə milli parlamentdə təmsil olunan bütün siyasi partiyaları təmsil edən üzvlərin də nümayəndə heyətinə daxil edilməsi yolu ilə formalaşdırılmalıdır. Nümayəndə heyətlərinin tərkibində həm əsas və həm də əvəzedici üzvlərin müəyyən olunması zamanı gender balansının da təmin olunması vacib şərtlərdən biridir. Nümayəndə heyətinin əsas üzvündən birinin bu və ya digər

səbəbdən Assambleyanın sessiyalarının və komitələrinin işində iştirak edə bilmədiyi halda onu əvəzedicisi əvəz edir. Əvəzedici şəxsin çıxış etmək və səs vermək hüququ vardır.

Parlament Assambleyası özünün daxili reqlamentini qəbul edir, öz üzvlərindən sədrini və onun müavinlərini seçir. Sədr və onun müxtəlif ölkədən olan 20 müavini, siyasi qrup və əsas komitələrin rəhbərləri Assambleya Bürosunu təşkil edir. Avropa Şurasının Nizamnaməsinin 28-ci maddəsinin və Assambleyanın Prosedura Qaydalarının 14.4 saylı Qaydasının tələblərinə əsasən sədr növbəti sessiyaya kimi vəzifədə qalır. Lakin yaranmış ənənəyə uyğun olaraq seçilmiş sədr növbəti bir il müddətinə bu vəzifəni həyata keçirmək üçün seçkilərdə iştirak edə bilər. Assambleyanın sessiyalarına rəhbərlik edən sədr onun işinə rəhbərlik edir, lakin nə müzakirə, nə də səsvermədə iştirak etmir. Sədrin müavinləri isə iclaslarda iştirak etmək, çıxış etmək və səs vermək hüququna malikdirlər.

Hazırda Parlament Assambleyası 318 üzv və eyni sayda əvəzedicidən və o cümlədən "xüsusi dəvət olunmuş qonaq" və "müşahidəçi" statusu almış nümayəndələrdən ibarət məşvərətçi qurum şəklində fəaliyyət göstərir. Assambleyanın üzvləri fərdi olaraq öz mülahizələrinə görə səs verirlər. Onlar heç kəsdən təlimat ala bilməz, öz fəaliyyətlərinə görə heç kəsə hesabat vermirlər. Milli Parlamentlər tərəfindən Assambleyaya göndərilmiş nümayəndələr yalnız onları göndərmiş orqan tərəfindən geri çağırıla bilərlər. Lakin Assambleyanın sessiyasının gedişi zamanı onun üzvlərinin geri çağırılması üçün Assambleyanın özünün razılığı olmalıdır. Assambleyanın üzvləri onun işində milli qruplar şəklində iştirak edirlər. Assambleyada ayrı-ayrı üzv ölkələrdən olan parlament nümayəndələri üçün yerlərin sayı eyni deyildir. Yerlərin sayı hər şeydən əvvəl bu və ya digər ölkənin əhalisinin sayından asılıdır. Əhalisinin sayı təxminən bərabər olan ölkələr qruplara ayrılmışdır. Hər qrup əhalinin sayına uyğun sayda yerlə Assambleyada təmsil olunmuşdur. Eyni qrupa aid olan ölkələr eyni sayda yerlə təmsil olunurlar. Kiçik dövlətlərə münasibətdə aşağıdakı prinsip rəhbər tutulur: əhalisinin sayından asılı olmayaraq Assambleyada həmin dövlətin ən azı üç əsas siyasi partiyası təmsil olunmalıdır. Üzv ölkələrin nümayəndələrinin sayı 2 nəfərdən 18 nəfərə kimi olur. Assambleyada beş siyasi qrup mövcuddur: Avropa Xalq Partiyası qrupu, Sosialist qrupu, Avropa Demokrat qrupu, Avropa naminə Liberallar və Demokratların Alyansı, Avropa Birləşmiş Solçular qrupu.

Avropa Şurasının Nizamnaməsinin 32-ci maddəsinə əsasən Assambleya ildə bir dəfə öz sessiyasını keçirir. Sessiyanın keçirilmə tarixi və müddəti Assambleya tərəfindən müəyyən olunur. Assambleyanın Prosedura Qaydalarının 1.1 saylı Qaydasının tələbinə əsasən Assambleya ildə bir dəfə, bir neçə yarımhissə sessiyalara bölünmüş növbəti sessiyasını keçirir. Təcrübəyə əsasən Assambleya adətən özünün ildə dörd dəfə Qış, Yaz, Yay və Payız yarımhissə sessiyalarına toplanır. Assambleyanın Prosedura Qaydalarının 4.1 saylı Qaydasının tələblərinə əsasən ümumilikdə Assambleyanın sessiyası 31 gündən artıq davam edə bilməz. Yarımhissə sessiyalar bir neçə gündən 10 günədək davam edir. Assambleyanın

Prosedura Qaydalarının 2 saylı Qaydasına əsasən Assambleyanın fövqəladə iclası Nazirlər Komitəsi və Assambleya sədrinin qarşılıqlı razılığı əsasında çağırılır. Parlament Assambleyası səyyar yay sessiyalarından birini üzv dövlətlərin birində keçirə bilər. Assambleyanın plenar sessiyaları Avropa Şurasının Fransanın Strasburq şəhərində yerləşən inzibati binası "Avropa Sarayı"nda keçirilir.

Assambleyanın işi 10 komitə, Assambleyanın Sədri Başda olmaqla Büro, 20 Sədr müavini, 5 siyasi qrupun və müvafiq komitələrin sədrləri tərəfindən hazırlanır və həyata keçirilir. Parlament Assambleyası öz sessiyalarında Avropa Şurasının səlahiyyətlərinə daxil olan və Nazirlər Komitəsi tərəfindən sessiyaya çıxarılmış müxtəlif səpkili məsələlər də daxil olmaqla, Daimi Komitənin təqdim etdiyi hesabat əsasında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri də müzakirə edir. Parlament Assambleyası iclaslarının gündəliyini sərbəst müəyyənləşdirir.

Assambleya Nazirlər Komitəsinə ünvanlanmış Tövsiyə, Assambleyanın mövqeyini ifadə edən Qətnamə və Nazirlər Komitəsinin üzvlük müraciətlərinə, müqavilə layihələri və digər mövzulara dair sənədlər üzrə Rəy də daxil olmaqla üç növ sənəd qəbul edir.

Parlament Assambleyası tərəfindən qəbul olunmuş sənədlər o cümlədən tövsiyələr, qətnamələr və rəylər qurumun Nazirlər Komitəsi, milli hökumətlər, parlament və siyasi partiyaların fəaliyyətinin səmərəli şəkildə qurulmasında yardımçı rol oynayır. Bu mənada, adı çəkilən sənədlərin milli qanunvericilikdə və həyatda yerini tapması bütövlükdə Avropalıların həyat şəraitinə təsir göstərir və onun inkişafına xidmət edir. Assambleyasının fəaliyyət sahəsi İnsan hüquqları və demokratiyanın qorunması və təşviqi, Üzv ölkələrin üzərilərinə götürdükləri vəzifə və öhdəliklərin yerinə yetirilməsi, İnsan hüquqlarının müdafiəsi çərçivəsində terrorizmin dəf olunması, Regional fəlakətlər, Qaçqın və miqrantların vəziyyəti, Mədəniyyətlərarası və dinlərarası dialoq, Sosial bütövlük və bərabərlik kimi bir sıra mühüm məsələləri əhatə edir.

Avropa Şurasının Parlament Assambleyası həmçinin Avropa Şurasının Baş Katibi və onun müavinini, Assambleyanın Baş katibini, Avropa Şurasının İnsan Hüquqları üzrə Müvəkkilini, İnsan hüquqları üzrə Avropa Məhkəməsinin hakimlərini və İşgəncələrin qarşısının alınması üzrə Komitənin üzvlərini seçir.

Dövrümüzün aktual və perspektiv məsələlərini, o cümlədən müasir cəmiyyətin problemləri və beynəlxalq siyasətin müxtəlif cəhətləri ilə bağlı məsələləri müzakirə etməklə yanaşı, Assambleya yüksək kürsüdən müraciət etmək və deputatların bu və ya digər məsələlərə dair suallarını cavablandırmaq məqsədilə tanınmış dünya və Avropa siyasətçiləri, dövlət xadimlərini də öz sessiyalarında iştirak etməyə dəvət edir.

Son dövrlərdə Parlament Assambleyası öz funksiyalarını xeyli genişləndirmişdir. Belə ki, Assambleya sessiyalararası müddətdə iclaslar keçirən müxtəlif sahələr üzrə ixtisaslaşmış - Siyasi işlər; Hüquqi işlər və İnsan hüquqları; İqtisadi işlər və inkişaf məsələləri; Sosial, səhiyyə və ailə məsələləri; Miqrasiya, Qaçqınlar və Əhali; Mədəniyyət, elm və təhsil; Ətraf mühit, kənd təsərrüfatı, yerli

və regional hakimiyyətlər; Qadınlar və kişilər üçün bərabər hüquqlar, Avropa Şurasına üzv ölkələrin öhdəliklərinin yerinə yetirilməsi üzrə komitə (Monitorinq komitəsi), Prosedura qaydaları, İmmunitetlər və İnstitusional məsələlər kimi komitə və çoxlu sayda alt-komitələr təsis etmişdir.

Assambleyanın ixtisaslaşmış komitələrindən əlavə, Assambleya və onun komitələrinin fəaliyyətini əlaqələndirən, yarımhissə sessiyalar və plenar iclasların təşkili və s. məsələlər üzrə qərarlar qəbul edən Bürosu, Prezident Komitəsi və Birgə Komitə fəaliyyət göstərir. Bundan əlavə Assambleyanın işində xüsusi rol oynayan Daimi Komitə mövcuddur. Assambleyanın bəzi səlahiyyətləri adı çəkilən komitəyə verilmişdir. Daimi Komitə sessiyaların vaxtını müəyyən edə, Assambleyanın işinin davamlılığını təmin edə, o cümlədən də komitələr tərəfindən hazırlanmış hesabatların mətnlərinə baxa və onları təsdiq edə bilər.

Avropa Şurasının siyasi təşkilat kimi fəaliyyət göstərməsi onun Nizamnaməsində öz əksini tapmasa da, bu qurumun fəaliyyət dairəsi onun siyasi xarakterini səciyyələndirir. Parlament Assambleyası Avropa və beynəlxalq məsələlərdə parlamentarların təsirinin gücləndirilməsi məqsədilə bir sıra mötəbər parlament təşkilatları o cümlədən Avropa Parlamenti, ATƏT-in Parlament Assambleyası və digər beynəlxalq parlament institutları ilə sıx əlaqələr qurmuşdur. Parlament Assambleyası həmçinin Avropada İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı üçün platforma rolunu oynayır və Birləşmiş Millətlər Təşkilatının bir neçə ixtisaslaşmış qurumları ilə də yaxından əməkdaşlıq edir.

Belə ki, Avropa Şurası həm Avropa - beynəlxalq dövlətlərarası, həm də qeyri-hökumət təşkilatlarının, həmçinin digər nüfuzlu beynəlxalq qurumların Avropadakı fəaliyyətini əlaqələndirir, onlara bu istiqamətdə yaxından köməklik göstərir. Bundan əlavə, Avropa Şurası Avropa Birliyi ilə sıx əlaqələr yaradaraq mütəmadi qaydada bu təşkilatların parlament orqanlarının hər il iki günlük birgə iclaslarının keçirilməsini təşkil edir.

Avropa Şurası, xüsusən də onun Parlament Assambleyası sosial, siyasi, iqtisadi və mədəniyyət sahəsində böyük təşəbbüskarlıq göstərərək olduqca geniş fəaliyyət həyata keçirir. Avropa Şurası Parlament Assambleyasının sessiyalarında üzv və qeyri-üzv dövlətlərə dair mühüm məsələlər və problemlər müzakirə olunur.

Avropa Şurası öz işinə Şuranın üzvü olmayan Avropa dövlətlərini də cəlb edir və üzv ölkələrin hökumətlərinin Avropanın bütün problemləri üzrə Parlament Assambleyası ilə məsləhətləşmələr keçirməsinə səy göstərir. Bununla da Avropa Şurası çərçivəsində bu ölkələrin xarici siyasətinin əlaqələndirilməsinə cəhd göstərilir.

Avropa Şurasının digər sahələrdə olduğu kimi iqtisadi sahədə də fəaliyyəti öz geniş diapazonuna görə seçilir. Bu mötəbər qurum Avropa dövlətləri arasında iqtisadi və ticari sahədə əməkdaşlığın möhkəmləndirilməsinə yönəlmiş metod və vasitələrin hazırlanması və təklif olunmasının təşəbbüskarı kimi çıxış edir, həmçinin üzv dövlətlərin hökumətlərinin iqtisadi əməkdaşlığının möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsləri təşviq edir.

1954-cü ildə Avropa Mədəniyyət Konvensiyası qəbul edilmişdir. Bu konvensiya təhsil, mədəniyyət, irs, idman və gənclər sahəsində Avropa Şurasının fəaliyyət dairəsini müəyyən edir. Artıq bu konvensiyaya 40-dan artıq dövlət, o cümlədən Azərbaycan Respublikası da qoşulmuşdur. Avropa Şurasının mədəniyyət proqramı iki istiqamətə yönəlmişdir:

Avropa qitəsinin mədəni mozaikasını təşkil edən orijinallığının dərk edilməsi və inkişafına yardım;

Avropa birliyinin qarşılaşdığı problemlərin tam uyğun həllini axtarmaq.

### *2.3. Avropa İnsan Hüquqları Məhkəməsi*

Avropa İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya insan hüquqlarının beynəlxalq müdafiəsi sistemində xüsusi yer tutur. O, 15 dövlət tərəfindən 1950-ci il noyabrın 4-də Roma şəhərində qəbul olunmuşdur və 1953-cü il sentyabrın 3-dən qüvvədədir.

Konvensiya İnsan hüquqları Bəyannaməsində təsbit olunan bəzi hüquqların kollektiv həyata keçirilməsi istiqamətində atılan ilk addım kimi qiymətləndirilir. Maraq doğuran məqam ondan ibarətdir ki, konvensiya yalnız dövlətlər arasında mübahisələrlə məhdudlaşan daimi məhkəmə orqanının səlahiyyəti haqqında ənənəvi təsəvvürlərdən imtina etdi. O, vətəndaşların dövlətlərüstü yürisdiksiyaya birbaşa müraciətini mümkün etdi. Vətəndaşların hüquqlarının məhkəmə müdafiəsi müvafiq dövlətlərin müstəsna səlahiyyəti olmaqdan qurtardı. Bununla vətəndaşın beynəlxalq hüquq subyektliyinin tanınması yolunda mühüm addım atıldı.

Bu novellanın əhəmiyyətindən danışan Strasburq Məhkəməsinin keçmiş üzvlərindən J.Fitsmoris yazırdı ki, Avropa insan hüquqları Konvensiyası əvvəllər məlum olmayan tamamilə yeni tipli konvensiyadır. O, iştirakçı-dövlətlər üçün elə öhdəliklər nəzərdə tuturdu ki, belələrini hökumətlər hələ öz üzərlərinə götürməmişdilər. Konvensiyanın qəbulundan 20 il əvvəl belə öhdəliklər tamamilə mümkün olmayan, beynəlxalq hüquqdan kənara çıxan öhdəliklər kimi görünərdi. Bu, ilk növbədə inqilabi anlayışa — vətəndaşın öz hökumətindən beynəlxalq məhkəmə forumuna şikayətlə müraciət etmək hüququna aiddir.

Konvensiya mülki və siyasi hüquq və azadlıqları bəyan etməklə yanaşı, həm də konvensiyanın üzv-dövlətləri tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməsinin təmin edilməsi mexanizmini də yaratmışdır. Öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarət üç orqanın — 1954-cü ildə təsis edilmiş İnsan Hüquqları üzrə Avropa Komissiyasının, 1959-cu ildə təsis edilmiş Avropa İnsan hüquqları Məhkəməsinin və üzv dövlətlərin xarici işlər nazirlərindən və ya onların nümayəndələrindən təşkil olunan Avropa Şurası Nazirlər Komitəsinin üzərinə qoyulmuşdu.

Konvensiyanın ilkin mətninə görə, iştirakçı-dövlətlərə qarşı şikayətlər ya digər iştirakçı-dövlətlər, ya da fərdi şikayətçilər (adi şəxslər, bir qrup şəxslər və qeyri-hökumət təşkilatları) tərəfindən verilə bilərdi. Lakin fərdi şikayət verilməsi qaydası fakültətiv xarakter daşıyırdı və yalnız onu tanıyan dövlətə münasibətdə

tətbiq edilirdi (sonradan 11-ci Protokol qüvvəyə mindi və bu hüquq məcburi xarakter aldı).

Əvvəlcə ərizəyə komissiya tərəfindən baxılırdı. Komissiya onun məqbulluğu məsələsini həll edirdi. Ərizə məqbul elan edildikdən sonra komissiya tərəflərə mübahisəni dostcasına həll etmək təklifi edirdi. Uğursuzluq olduğu halda isə komissiya işin faktiki hallarını özündə əks etdirən və mübahisənin mahiyyəti üzrə hüquqi rəyin ifadə olunduğu məruzəni hazırlayırdı. Məruzə isə Nazirlər Komitəsinə göndərilirdi.

Əgər iş məhkəmənin yurisdiksiyasını tanımış cavabdeh dövlətə toxunurdusa, komissiya və müvafiq dövlət məruzə Nazirlər Komitəsinə göndərildiyi andan üç ay müddətində yekun və məcburi xarakterə malik qərarın qəbul olunması məqsədilə ərizəni baxılmaq üçün məhkəməyə təqdim edə bilərdilər. Adi şəxslər işi məhkəməyə təqdim etmək hüququna malik deyildilər.

Əgər iş məhkəməyə verilməmişdisə, Nazirlər Komitəsi konvensiyanın təmin etdiyi hüququn pozulub-pozulmaması halının olub-olmadığını qərara alır və müsbət həll olunduğu halda pozuntunun qurbanına «ədalətli kompensasiya» ödənilir. Nazirlər Komitəsi məhkəmə tərəfindən qəbul olunan qərarların icrasının təmin edilməsinə cavabdeh idi.

Konvensiya qüvvəyə mindikdən sonra ona əlavə 14 protokol qəbul olunur. 1, 4, 6, 7, 12 və 13-cü protokollar konvensiya tərəfindən bəyan edilən insan hüquq və əsas azadlıqlarının sıralamasını genişləndirir. 2-ci Protokol məhkəməyə məşvərətçi rəy çıxarmaq səlahiyyəti verir. Protokolun cavabdeh-dövlət tərəfindən ratifikasiya olunduğu və seçki komitəsi tərəfindən bəyənildiyi təqdirdə 9-cu Protokol fərdi şikayətçilərə məhkəməyə özlərinin müraciət etməsi hüququnu verir. 11-ci Protokol isə nəzarət mexanizmini təkmilləşdirir. Digər protokollar isə konvensiya tərəfindən təsis edilən orqanların təşkili və onların proseduru ilə bağlı idi.

1980-ci illərdən başlayaraq konvensiya orqanlarına verilən işlərin sayının durmadan artması onun fəaliyyətini çətinləşdirir və konvensiyanın nəzarət mexanizmlərinin islahatlarını zəruri edirdi. Bu baxımdan 11-ci Protokolun qəbulu şikayətlərə baxılmasını sürətləndirmək üçün strukturu sadələşdirmək məqsədi daşıyırdı. Eyni zamanda, Nazirlər Komitəsinin həlledici rolu məhdudlaşdırılırdı, keçmiş komissiya və məhkəmə vahid və daimi fəaliyyət göstərən məhkəmə ilə əvəz olunurdu.

*I. Məhkəmənin işinin təşkili*

Avropa İnsan Hüquqları Məhkəməsi konvensiyanın üzv-dövlətlərinin sayına uyğun olan hakimlərdən ibarətdir. Hakimlər Avropa Şurası Parlament Assambleyası tərəfindən altı il müddətinə seçilir. Lakin hər üç ildən bir məhkəmə tərkibinin təkmilləşməsi məqsədilə ilkin seçkilərdə hakimlərin yarısının səlahiyyəti üç ildən sonra başa çatdırılır.

Hakimlər məhkəmənin işində şəxsi keyfiyyətdə iştirak edir və dövlət adından çıxış etmirlər. Onlar müstəqilliklə, qərəzsizliklə və məhkəmədə işin daimi xarakteri ilə bir araya sığmayan fəaliyyətlə məşğul ola bilməzlər. Hakimlərin səlahiyyət müddəti onların 70 yaşı tamam olduqdan sonra başa çatır.

Plenar iclaslarında məhkəmə üç il müddətinə məhkəmənin Sədrini, iki sədr müavinini və iki seksiya sədrini seçir.

Reqlamentə görə məhkəmə dörd seksiyaya bölünür. Onların tərkibi üç ilə təsdiqlənir, coğrafi meyar əsasında tarazlaşdırılır və konvensiya üzvü olan dövlətlərin müxtəlif hüquqi sistemlərini təmsil etməlidir.

Hər seksiyada üç hakimdən ibarət komitələr on iki aylıq müddətə yaradılır.

Yeddi hakimdən ibarət palatalar hər seksiyada rotasiya əsasında yaradılır. İşə baxan palatanın tərkibinə mütləq şəkildə palatanın sədri və cavabdeh-dövlətdən seçilən hakim daxildir. Əgər sonuncu seksiyanın üzvü deyilsə, onda o, ex officio palatanın üzvü keyfiyyətində iştirak edir. Palatanın üzvü olmayan Seksiyanın üzvləri iclasda ehtiyat hakim keyfiyyətində iştirak edir.

Böyük Palata on yeddi hakimdən ibarətdir. Onlarda ex officio məhkəmənin sədri, məhkəmə sədrinin müavini və seksiya sədrləri iştirak edir.

*II. Məhkəmə icraatı*

Konvensiyada təsbit olunmuş hüquqların pozulması ilə bağlı şikayətlər istənilən iştirakçı-dövlət (dövlətlərarası bəyanat) və ya adi şəxs (fərdi şikayət) tərəfindən birbaşa məhkəməyə verilə bilər. Ərizəçilərə izahlı qeydlər və ərizə forması məhkəmənin katibliyindən alına bilər.

Məhkəmədə icraat çəkişmə prinsipi əsasında açıq şəkildə aparılır. İstisna hallarda palata və ya Böyük Palata başqa cür qərar çıxarmasa, dinləmələr çox nadir hallarda keçirilir və açıq olur. Tərəflərin katibliyə təqdim etdiyi sənədlərin hamısı, bir qayda olaraq, istifadə üçün açıqdır.

Fərdi ərizəçilər sərbəst şəkildə ərizə verə bilərlər, lakin hüquqi təmsilçilik tövsiyə olunur və hətta dinləmələr zamanı və ya iş məqbul hesab edildikdən sonra məcburi hesab olunur. Kifayət qədər maddi imkanı olmayan ərizəçilər üçün Avropa Şurası tərəfindən hüquqi yardımın göstərilməsi sxemi işlənib hazırlanmışdır.

Məhkəmənin rəsmi işçi dilləri fransız və ingilis dilləridir, buna baxmayaraq, ərizələr iştirakçı-dövlətlərin istənilən rəsmi dilində verilə bilər. İş məqbul hesab edildikdən sonra palatanın və ya Böyük Palatanın sədri ərizənin verildiyi dildən istifadəni davam etdirməyə icazə verməzsə, məhkəmənin rəsmi işçi dillərindən birindən istifadə edilir.

- Sikayət ərizələrinin məqbulluğu məsələsinə baxılması

Hər bir fərdi ərizə məhkəmənin seksiyalarından birinin baxışına verilir. Məhkəmənin sədri məruzəçi-hakimi təyin edir. Ərizənin ilkin öyrənilməsindən sonra məruzəçi ərizənin üç nəfərdən ibarət tərkibdə komitə və ya palata tərəfindən baxılıb - baxılmayacağı məsələsini həll edir.

Qərarın qəbulu üçün ərizənin əlavə öyrənilməsinə ehtiyac yoxdursa, komitə yekdil qərarla ərizəni məqbul elan edə və ya baxılası işlər siyahısından çıxara bilər.

Hakim-məruzəçi tərəfindən bilavasitə palataya verilən işlərdən əlavə, palatalar üç hakimdən ibarət komitənin məqbul hesab etmədiyi fərdi ərizələrə, həmçinin dövlətlərarası şikayətlərə baxır. Məhkəmənin özünün müəyyən etdiyi şəkildə işin məqbulluq və mahiyyəti üzrə məsələlər ayrı-ayrı qərarlarda və ya bir qərarda nəzərdən keçirilir.

Palatanın baxdığı iş konvensiyanın müddəalarının dərin şərhini tələb edirsə və ya iş üzrə qərar artıq mövcud presedent praktikası ilə ziddiyyətə daxil olarsa, palata istənilən vaxt belə işi Böyük Palataya verə bilər. Bir şərtlə — işin Böyük Palataya verilməsi niyyəti haqqında bildirişin verildiyi andan bir ay müddətində tərəflərdən heç biri öz narazılığını bildirməsin. İş verildiyi halda o, palatada nəzərdə tutulan analoji prosedur əsasında baxılır.

İlkin mərhələdə iş üzrə icraat, bir qayda olaraq, yazılı formada aparılır, lakin palata dinləmələrin aparılması haqqında qərar qəbul edə bilər. Bu halda, eyni zamanda, ərizəyə mahiyyəti üzrə baxılır. Səs çoxluğu ilə qəbul olunan məqbulluq haqqında palatanın qərarı əsaslandırılmalıdır.

- Şikayətə mahiyyəti üzrə baxılma

Şikayət məqbul hesab edildikdən sonra palata tərəflərə əlavə sübutları və yazılı izahatları təqdim etməyi təklif edə bilər. Bundan başqa, ərizəçilərdən «ədalətli kompensasiya» tələbini təqdim etmək də xahiş olunur. Şikayətin məqbulluğu məsələsinin baxılması mərhələsində dinləmə keçirilməyibsə, onda Palata işin mahiyyəti üzrə ayrıca dinləmə keçirilməsi barədə qərara gələ bilər.

Ədalət mühakiməsinin lazımi şəkildə həyata keçirilməsi üçün palatanın sədri işdə tərəf kimi iştirak etməyən istənilən iştirakçı dövlətə və ya ərizəçi olmayan başqa maraqlı şəxsə yazılı qeydlərini təqdim etmək və ya istisna hallarda dinləmələrdə iştirak etmək təklifini və ya belə icazə verə bilər. Ərizəçinin vətəndaşı olduğu iştirakçı-dövlətin prosesdə tam iştirak etmək hüququ var. İşə mahiyyəti üzrə baxılan zaman katibin vasitəçiliyi ilə mübahisənin dostcasına həlli üzrə danışıqlar aparıla bilər. Dostcasına həll barədə danışıqlar konfidensial xarakter daşıyır.

- Məhkəmənin qərarı

Palata səs çoxluğu ilə qəbul olunur. İşin baxılmasında iştirak edən hər bir hakim qərara əlavə olaraq üst-üstə düşən və ya düşməyən xüsusi rəyini təqdim edə və ya belə xüsusi rəyin olduğunu göstərə bilər.

İş konvensiyanın və ya ona protokolların müddəalarının şərhi və ya tətbiqi ilə bağlı ciddi məsələlər qaldırırsa, palata qərar qəbul etdiyi vaxtdan sonra üç ay müddətində tərəflərdən hər biri işin Böyük Palataya verilməsi xahişi ilə müraciət edə bilər. Belə ərizələrə Böyük Palatanın beş üzvündən — məhkəmənin sədrindən, mübahisəli qərarı qəbul edən palatanın məxsus olduğu seksiyanın sədri istisna olmaqla, seksiyaların sədrlərindən və ilkin palataya daxil olmayan

hakimlər sırasından növbəlik əsasında seçilən hakimdən ibarət kollegiya tərəfindən baxılır.

Palatanın qərarlarından üç ay keçdikdən sonra və ya tərəflər əvvəldən işi Böyük Palataya verməyəcəklərini bəyan etsələr və ya beş hakimdən ibarət kollegiya işin verilməsi haqqında müraciəti rədd edərsə, qərar qətidir.

Kollegiya işin verilməsi haqqında müraciəti təmin edərsə, Böyük Palata səs çoxluğu ilə öz qəti qərarını qəbul edir. Məhkəmənin bütün qəti qərarları cavabdeh dövlətlər üçün məcburi xarakter daşıyır. Məhkəmənin qərarlarının icrasına nəzarət Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən həyata keçirilir. Nazirlər Komitəsi konvensiyanın müddəalarını pozmaqda təqsirli bilinən dövlətlərin məhkəmənin qərarlarından doğan xüsusi öhdəliklərin və ya ümumi xarakterli öhdəliklərin icrası ilə əlaqədar adekvat tədbirlər görməsi məsələsini yoxlayır.

- Məşvərətçi rəy

Məhkəmə Nazirlər Komitəsinin xahişi ilə konvensiyanın və ona olan protokolların müddəalarının şərhi ilə bağlı hüquqi məsələlər üzrə məşvərətçi rəy verir. Məhkəmədən məşvərətçi rəyin istənilməsi barədə Nazirlər Komitəsinin qərarı səs çoxluğu ilə qəbul olunur. Məşvərətçi rəyin çıxarılması barədə xahişlər Böyük Palata tərəfindən nəzərdən keçirilir və onun rəyləri səs çoxluğu ilə qəbul olunur. Hər bir hakim rəyə əlavə olaraq xüsusi rəyini ifadə edə bilər. Bu rəyin nəticələri qərarla üst-üstə düşə və düşməyə bilər və ya yalnız xüsusi rəyin olduğu göstərilə bilər.

*III. 1998-ci il islahatı və sistemin böhranı*

Müraciətlərin sayının artması məhkəmənin yüklənməsinə və işlərə baxılması vaxtının uzanmasına gətirib çıxarırdı. Belə ki, ərizənin verilməsi anından qəti qərar çıxarılana qədər beş il müddət keçə bilərdi. Ərizələrin sayının artması, mürəkkəbliyi, 90%-nin qeyri-məqbulluğu, eləcə də Avropa Şurasının tərkibinin 1989-cu ildə 23 dövlətdən bu günə qədər 47 dövlətə çatması məhkəmədə islahatların həyata keçirilməsini zəruri etdi.

Məhkəmənin islahatları milli səviyyədə Avropa insan hüquqları Konvensiyasının tələblərinin icrası prosesinin təkmilləşdirilməsi və məhkəməyə daxil olan fərdi şikayətlərin effektiv seçilməsi və baxılmasını təmin etmək üçün Avropa Konvensiyasına dəyişikliklər edilməsini, Nazirlər Komitəsi tərəfindən məhkəmə qərarlarının icrasına nəzarətin möhkəmləndirilməsini nəzərdə tuturdu.

Üç illik hazırlıq fəaliyyətinin nəticəsi olan Avropa Konvensiyasına dəyişikliklər edilməsi barədə 14-cü Protokol 2004-cü il mayın 13-də imzalanmaq üçün açılır. Azərbaycan Respublikası 14-cü Protokolu 2005-ci il fevralın 2-də imzalamışdır.

14-cü Protokolda bir sıra müddəalar müəyyən olunur:

— Açıq şəkildə məqbul olmayan işlər: üç hakimdən ibarət komitə tərəfindən qəbul olunan bu işlər bir hakim tərəfindən qəbul olunacaq (maddə 26), onlara məhkəmə səlahiyyətlərinə malik olmayan məruzəçilər kömək edəcək. İdeya

ondan ibarətdir ki, işlərin, yəni, «ümidsiz» işlərin ələnməsi üçün məhkəmənin imkanları genişlənsin.

— Təkrarlanan işlər: işlər milli səviyyədə eyni struktur çatışmazlıqları ilə bağlı olduqda belə işlərə sadələşdirilmiş prosedur çərçivəsində üç hakimdən ibarət komitə tərkibində baxılması (daha indiki kimi yeddi hakimdən ibarət yox) təklif oluna bilər.

— Yeni məqbulluq meyarı: məhkəmənin daha çox çevikliyini təmin etmək məqsədilə yeni məqbulluq şərtinin (maddə 35 3.b) tətbiqi təklif olunur (mövcud daxili vasitələrin tükənməsi, altı ay müddəti kimi şərtlərə əlavə olaraq). Bu şərtə uyğun olaraq əgər ərizəçi əhəmiyyətli dərəcədə zərərə məruz qalmayıbsa və «insan hüquqlarına riayət olunması» məhkəmədən işə tam daxil olmanı və işə mahiyyəti üzrə baxmanı tələb etmirsə, məhkəmə ərizəni baxılma üçün məqbul saymaya bilər. Lakin əhəmiyyətli zərər çəkməyən ərizəçinin hüquqi müdafiəsini təmin etmək məqsədilə məhkəmə ərizəçinin ölkəsində müvafiq hüquqi müdafiə vasitəsi nəzərdə tutulmayıbsa, ərizəni qeyri-məqbul hesab edə bilməz.

Məhkəmə qərarlarının daha effektiv icrası üçün dövlətin məhkəmənin qərarının icrasından imtina etdiyi halda, protokola görə, Nazirlər Komitəsinin üçdə iki səs çoxluğu ilə qəbul olunmuş qərar əsasında məhkəmə bu məsələyə baxa bilər.

Digər tədbirlər sırasında hakimlərin səlahiyyət müddətinin bir müddət üçün də uzadıla bilən altı ildən bir müddətli doqquz il müddətinə (maddə 23) dəyişdirilməsi dayanır. Avropa İttifaqının konvensiyaya qoşulması imkanını verən müddəa nəzərdə tutulur.

Lakin Rusiya 14-cü Protokolu ratifikasiya etmədiyindən sənəd qüvvəyə minmədi. Vəziyyətdən çıxış yolu kimi 2009-cu il mayın 27-də "tək hakim" institutunun yaradılmasını və yeni işlərə baxılması (məqbulluq) qaydalarını nəzərdə tutan müvəqqəti xarakterli 14-ci bis Protokol imzalanmaya açıq elan olundu və 2009-cu il oktyabrın 1-də qüvvəyə mindi.

### *2.4. Avropa Yerli və Regional Hakimiyyət Konqresi*

Avropa Şurası həm yerli və həm də regional səviyyələrdə demokratiyanın rolunu hər zaman yüksək dəyərləndirmişdir. Elə bu səbəbdəndir ki, vətəndaşların harada yaşamaqlarından asılı olmayaraq onların istəklərinə cavab verəcək yerli özünüidarə üsulunun təşviqi və inkişaf etdirilməsi Avropa Şurasının prioritet istiqamətlərindən biri kimi qəbul edilir. Avropanın Yerli hakimiyyətləri Konfransı 1957-ci ildə Avropa Şurasının tərkibində təsis olunmuşdur. Bu təşkilat daha sonra öz adını dəyişərək yerli və regional icmaların seçilmiş nümayəndələrini bir araya gətirən bir quruma çevrilmişdir. Hal-hazırda Avropa Yerli Özünüidarə Xartiyası bu qurumun hüquqi bazasını təşkil etməkdədir. 15 oktyabr 1985-ci ildə Avropa Şurasına üzv ölkələrə imza üçün təqdim olunmuş bu sənəd 9 sentyabr 1988-ci ildə qüvvəyə minmişdir. Bu Xartiya onu imzalayan ölkələrin milli qanunvericiliyində yerli özünüidarə prinsipini müəyyən edən əsas instrument kimi çıxış edir. 1994-cü ildə Konfrans Avropa Şurasının məşvərətçi qurumu olan Yerli və

Regional Hakimiyyətlər Konqresi ilə əvəzlənmişdir. Ədalətli və balanslaşdırılmış şəkildə həm yerli və həm də regional hakimiyyətlərin nümayəndələrinin təmsil olunduğu qurum iki palatalıdır: Yerli Hakimiyyətlər Palatası və Regionlar Palatası. Qurumun Prosedura Qaydalarına əsasən üzvlük və qurumun fəaliyyəti Nizamnamə ilə müəyyən edilmiş Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinə dair Qətnamə CM/Res (2007) və əlavə edilmiş 2 may 2007-ci il tarixli Xartiya ilə və o cümlədən onun qəbul etdiyi Prosedura Qaydaları ilə tənzimlənir.

Bu orqan yerli və regional özünüidarəçilik orqanını təmsil edir və Avropa Şurasının məşvərətçi orqanıdır. Konqresin əsas məqsədi yerli və regional hakimiyyətin Avropanın birləşdirilməsi prosesində və Avropa Şurasının işində iştirakını təmin etməkdən ibarətdir. Avropa Şurası tərəfindən qəbul edilmiş bir çox konvensiya və sazişlərdə yerli və regional hakimiyyətin əməkdaşlıq məsələləri öz əksini tapmışdır.

Konqres - Avropa Şurasında Avropa region və bələdiyyələrinin səsidir; Yerli və Regional səviyyələrdə seçilən nümayəndələr üçün ümumi problemləri müzakirə etmək, təcrübələri ilə bölüşmək və öz nöqteyi-nəzərlərini hökumətlərə çatdırmaq üçün forum qismində fəaliyyət göstərir; Yerli və Regional siyasət məsələləri ilə bağlı Nazirlər Komitəsinə və Parlament Assambleyasına tövsiyələr verir; yerli və regional hökumətləri təmsil edən milli və beynəlxalq təşkilatlar ilə yaxından əməkdaşlıq edir; iştirakı işləyən demokratiyada vacib olan ictimaiyyətin biliyini artırmaq məqsədilə yerli və regional səviyyələrdə dinləmələr və konfranslar təşkil edir; Avropa Şurasının bütün üzv dövlətlərində yerli və regional demokratiyanın vəziyyətinə dair ölkələr üzrə mütəmadi hesabatlar hazırlayır; Avropa Yerli Özünüidarəetmə Xartiyasının yerinə yetirilməsini nəzarət edir; Yeni üzv dövlətlərə effektiv yerli və regional özünüidarəetmə təşkili istiqamətindəki irəliləyişlərin praktiki aspektləri ilə bağlı yardım edir.

Müxtəlif siyasi və iqtisadi quruluşa malik yeni dövlətlərin yaranması Konqresi öz məqsədlərini yenidən nəzərdən keçirməyə və aşağıdakıları yenidən formalaşdırmağa vadar etdi: Avropa Şurasının xüsusilə yeni demokratiyaya malik bütün dövlətlərində effektiv yerli və regional hakimiyyət strukturlarının dəstəklənməsi; üzv olan və üzvlüyə namizəd olan ölkələrdə yerli və regional demokratiya vəziyyətinin öyrənilməsi; vətəndaşları yerli və regional demokratiyada effektiv şəkildə iştirakını təmin etmək məqsədilə təşəbbüslərin irəli sürülməsi; Avropa siyasətinin formalaşmasında yerli və regional hökumətlərin maraqlarının təmsil olunması; regionlar gələcək nəsillərə qoruyub saxlamaq məqsədilə sülh, dözümlülük və davamlı inkişaf naminə regional və beynəlxalq əməkdaşlığın təşviqi; Avroregionların yaradılmasının təşviqi; yerli və regional seçkilərin müşahidəsi kimi yeni məqsədlər müəyyən olundu.

Yuxarıda da qeyd olunduğu kimi, Konqres iki palatadan ibarətdir: Yerli Hakimiyyətlər Palatası və Regionlar Palatası. İki palatalı assambleya 315 əsas və 315 əvəzedici üzvdən ibarətdir. Onlardan hər biri Avropa Şurası üzv dövlətlərində

200.000-dən çox yerli və regional hakimiyyətlərdən seçilən nümayəndələrdir. Konqres alternativ əsasda hər bir Palatanın üzvləri sırasında özünün prezidentini seçir. Prezident iki sessiya müddəti ərzində öz vəzifələrini icra edir.

Konqres ildə bir dəfə olaraq Strasburqda iclas keçirir və akkreditə olunan Avropa təşkilatlarını və xüsusi status və müşahidəçi qismində digər qeyri-üzv dövlətləri salamlayır.

Milli nümayəndə heyətlərinin üzvlərindən təşkil olunan Daimi Komitə müxtəlif Komitələr ilə birgə Konqresin payız və Yaz plenar sessiyalararası arasında görüşür.

Konqres öz işini dörd nizamnamə komitəsi arasında bölür: Avropada yerli və regional demokratiyanın inkişafı üzrə hesabatların hazırlanması ilə məşğul olan və müstəqil ekspertlər Komitəsi tərəfindən dəstəklənən İnstitusional Komitə; Media, gənclər, idman və kommunikasiya məsələləri ilə məşğul olan Mədəniyyət və Təhsil Komitəsi; Ətraf mühit, məkan və şəhər planlaşdırılması ilə məşğul olan Davamlı İnkişaf Komitəsi; Məşğulluq, vətəndaşlıq, miqrasiya, icmalararası əlaqələr, qadın və kişilər arasında bərabərlik və həmrəylik məsələləri ilə bağlı məşğul olan Sosial Birlik Komitəsi.

Regionlar Palatası həmçinin Qanunverici hakimiyyətə malik olan Regionlarla iş üzrə İşçi Qrupa malikdir. Konqresin Baş Rəhbəri büdcənin idarə olunmasına və Konqres Katibliyinin 40 nəfərədək əməkdaşına rəhbərlik edir. Avropa Şurasının katibliyi konqresə əməli köməklik göstərir.

Avropa Yerli Özünüidarəetmə Xartiyası (1985) effektiv yerli Özünüidarəetmənin demokratiya üçün zəruriliyi prinsipini irəli sürmüşdür. Xartiya yeni demokratiyalarda qanunverici islahat modeli qismində çıxış edir. Bəzi dövlətlər artıq Xartiyanın prinsiplərini öz konstitusiyalarına tətbiq ediblər. Ərazi İcmaları və ya Hakimiyyətləri arasında Transsərhəd Əməkdaşlığı üzrə Avropa Konvensiyası (1980) və onun iki əlavə Protokolu yerli və regional hakimiyyətlərin ictimai xidmətlərin və ətraf mühitin qorunmasındakı hüququnu tanıyır.

Xaricilərin Yerli Səviyyədə İctimai Həyatda İştirakı üzrə Avropa konvensiyası (1992) səsvermə hüququ daxil olmaqla xaricilərə mülki və siyasi hüquqların verilməsi prinsipini irəli sürür.

Regional və ya Azlıq Dilləri üzrə Avropa Xartiyası (1992) Avropa mədəni irsinin yekcins hissəsi olaraq regional və milli azlıq dillərinin qorunmasına və onların hüquqda, məktəblərdə, ictimaiyyətdə, mədəni, iqtisadi və sosial həyatda və mediada geniş istifadəsinə yardım edir.

Avropa Landşaft Konvensiyası (2000) hakimiyyətlərə Avropadakı landşaftları qorumaq, idarə etmək və planlaşdırmaq məqsədilə yerli, regional, milli və beynəlxalq səviyyələrdə tədbirlər görmək öhdəliyini irəli sürür.

Avropa Şəhər Xartiyası (1992) Avropa şəhər və qəsəbədə vətəndaşların hüquqlarını müəyyən edir. O, mənzil tikintisi, şəhər memarlığı, nəqliyyat, enerji, idman və əyləncə, çirklənmə və şəhər təhlükəsizliyi kimi şəhər idarəetməsi üçün praktiki şəhər idarəetməsi üçün praktiki xidmət təklif edir.

2003-cü ildə üzərində dəyişiklik edilən Gənclərin Bələdiyyə və Regional Həyatda İştirakı üzrə Xartiya (1992), gənclərə onlara aid olan qərar qəbuletmə proseslərində rol oynaması və qonşuluqda, bələdiyyə və regiondakı sosial dəyişiklik proseslərində aktiv şəkildə cəlb olunması üzrə ali prinsipləri müəyyən edir.

***2.5. Avropa Şurasının Katibliyi***

Avropa Şurasının Katibliyi tədqiqat aparır, hesabatlar hazırlayır, Avropa ictimaiyyətini Avropa Şurasının fəaliyyəti ilə tanış etmək məqsədi ilə təşkilatın sənədlərini nəşr edir.

Katiblik Nazirlər Komitəsi və Parlament Assambleyası qərarlarının hazırlanmasında mühüm rol oynayır. Katibliyə Baş katib rəhbərlik edir. Onu Nazirlər Komitəsinin təqdimatı ilə Parlament Assambleyası 5 il müddətinə seçir. Baş katib katibliyin işinə görə Nazirlər Komitəsi qarşısında cavabdehlik daşıyır. Avropa Şurasının katibliyi böyük aparata malikdir. Hazırda Avropa Şurasının üzvü olan dövlətlərinin vətəndaşından təyin edilən 1200 məmuru olan Baş katiblik Avropa Şurasının işini təmin edir.

Avropa Şurasının ali orqanı kimi üzv ölkələrinin dövlət və hökumət başçılarının Zirvə toplantısı fəaliyyət göstərir. Bu toplantı ilk dəfə 1993-cü ildə Vyanada, ikinci dəfə 1997-ci ildə Strasburqda, üçüncü dəfə isə 2005-ci il Varşavada keçirilmişdir.

**§ 3. Avropa Şurasının fəaliyyət istiqamətləri**

***3.1. İnsan hüquqları***

*Avropa İnsan Hüquqları Konvensiyası*

1950-ci il tarixli İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyası Avropa Şurasının ən böyük nailiyyətlərindən biridir. İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Konvensiya İnsan hüquqları Bəyannaməsində təsbit olunan bəzi hüquqların kollektiv həyata keçirilməsi istiqamətində atılan ilk addım kimi qiymətləndirilir. Əhəmiyyətinə görə presedenti olmayan bu beynəlxalq müqavilə hər bir vətəndaşın ayrılmaz hüquq və azadlıqlarının məcmusunu özündə ehtiva edir, dövlətlər qarşısında onun yurisdiksiyasına düşən hər bir şəxsə bu hüquqları təmin etmək öhdəliyi qoyur.

Bundan əlavə, konvensiya insan hüquqlarının müdafiəsi üzrə yeni mürəkkəb nəzarət mexanizmini təsis edir və bunun vasitəsilə dövlətlər, bəzi hallarda isə vətəndaşlığından asılı olmayaraq ayrı-ayrı şəxslər konvensiyanı imzalayan dövlət tərəfindən konvensiyanın müddəalarının pozulması iddia olunanda bu məhkəmə institutuna müraciət etmək imkanı qazanırlar.

Aparılan islahatlardan sonra Avropa İnsan Hüquqları Məhkəməsi fiziki şəxslərin birbaşa müraciəti üçün açılmış və onun yurisdiksiyası konvensiyanın bütün iştirakçı dövlətləri üçün məcburi xarakter almışdır. İnsan hüquqlarının

pozulması müəyyən edilən məhkəmə qərarlarının monitorinqini aparmaq isə Nazirlər Komitəsinə həvalə edilmişdir.

Azərbaycan Avropa İnsan Hüquqları Konvensiyasını 2001-ci il yanvarın 25-də imzalamış və dekabrın 25-də ratifikasiya etmişdir. Avropa Məhkəməsinin yurisdiksiyası ölkəmizə münasibətdə 2002-ci il aprelin 15-də qüvvəyə minmişdir.

Bu baxımdan Avropa Məhkəməsi və onun fəaliyyəti ölkəmiz üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, məhkəmənin praktikası daxili qanunvericiliyin və hüquq tətbiqi təcrübəsinin təkmilləşməsinə müsbət təsir göstərir. Bu qarşılıqlı əlaqə Avropa hüquq standartlarının milli qanunvericiliyə implementasiyasını təmin edir və respublikamızın vahid Avropa hüquq məkanına inteqrasiyasını stimullaşdırır.

*Sosial iqtisadi hüquqlar*

1961-ci ildə qəbul edilmiş və 1965-ci ildə qüvvəyə minmiş Avropa Sosial Xartiyası əsas hüquqların geniş dairəsindən istifadə etməyə təminat verir. Əmək hüququ, ədalətli əmək haqqı, bərabər əməyə görə bərabər haqq, sosial sığorta, tibbi yardım, peşə hazırlığı, həmçinin əmək müqavilələrinin bağlanması, tətil hüququ bu sahəyə aid edilir.

*İşgəncələrin qadağan olunması*

İşgəncə və qeyri-insani və ya insan ləyaqətini alçaldan davranış və cəzaların qarşısının alınması üzrə Avropa Konvensiyası 1987-ci ilin noyabr ayında qəbul edilmiş və 1989-cu ilin fevralında qüvvəyə minmişdir. Konvensiya çərçivəsində yaradılmış İşgəncələrin qadağan olunması üzrə Komitədə fəaliyyət göstərən ekspertlər dövlət orqanlarının qərarı ilə azadlıqdan məhrum edilmiş məhbusların saxlanıldığı cəzaçəkmə müəssisələrinə baş çəkmək və səfərlərin nəticəsi ilə əlaqədar əldə olunan nəticələri və tövsiyələri özündə ehtiva edən konfidensial hesabatlar hazırlamaq və maraqlı dövlətlərə təqdim etmək səlahiyyətlərinə malikdir. Konvensiyanın iştirakçısı olan dövlətlər belə şəxslərin vəziyyətini yüngülləşdirməkdən imtina edərsə, komitə bu məsələ ilə əlaqədar hazırladığı hesabatı çap edə və ya açıq bəyanatla çıxış edə bilər. Bundan əlavə, hesabat maraqlı dövlətin tələbi ilə də onun şərtləri ilə birlikdə nəşr oluna bilər. Təcrübədə dövlətlərin əksəriyyəti bu hesabatların nəşrinə razılığını verir.

*İnsan hüquqları üzrə komissar* — Avropa Şurasının Nazirlər Komitəsinin 7 may 1999-cu il tarixli Qətnaməsi ilə təsis edilmişdir. Məqsədi üzv-dövlətlərdə insan hüquqlarının effektiv təmin olunmasını təşviq etmək, üzv-dövlətlər tərəfindən Avropa Şurasının insan hüquqları üzrə standartlarının implementasiyasına dəstək göstərməkdir. O, Avropa Şurasının üzvü olan dövlətlərdə insan hüquqları ilə bağlı təhsilin və məlumatlılığın artırılmasına yardım edir, səfərlər edir, qanunvericilikdə və təcrübədə insan hüquqları ilə bağlı çatışmazlıqların müəyyən edilməsi, milli ombudsman təsisatlarının fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə tövsiyələrini verir.

### 3.2. Kütləvi informasiya və kommunikasiya vasitələri

Avropa Surası Nazirlər Komitəsi kütləvi informasiya vasitələri sahəsində siyasətin həyata keçirilməsində riayət edilməli olan prinsipləri dəqiq müəyyənləşdirmək məqsədilə 1982-ci ildə Söz və informasiya azadlığı haqqında Avropa Bəyannaməsini qəbul etmişdir.

**3.3. Qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq**

Avropa Şurası QHT qismində cəmiyyətin dinamik elementləri ilə əlaqələrdən geniş şəkildə faydalanır. Təşkilatın üzləşdiyi əsas çağırışlardan biri yeni üzv dövlətlərdə QHT-nin və vətəndaş cəmiyyətinin rolunu artırmaq və Panavropa prinsipi əsasında iştirak demokratiyasını gücləndirməkdir. Avropa Şurasının əməkdaşlıq proqramları tərəfdaş QHT-lərə etibar edir və demokratik islahatlar üzrə mərkəzləşir.

Avropa Şurası Beynəlxalq QHT-lərin Konfransı (İN-GOs) Avropa Şurasında iştirakçı statusu olan beynəlxalq QHT-lərdən təşkil olunmuşdur. Avropa Şurası bu status vasitəsilə beynəlxalq QHT-ləri hökumətlərarası fəaliyyətlərə cəlb edir, parlament və mühüm sosial məsələlər üzrə yerli və regional hakimiyyət üzvləri ilə assosiasiyalar arasındakı dialoqu təşviq edir.

**Məsləhətçi və iştirakçı status:** Beynəlxalq QHT-lər 1952-ci ildən etibarən Avropa Şurası yanında məsləhətçi statusuna malikdirlər. 2003-cü ilin noyabrında beynəlxalq QHT-lərə iştirakçı statusu verildi ki, bu, öz növbəsində, onların Avropa Şurasının fəaliyyətində mühüm rolunu tanımasından irəli gəldi. Bu status Nazirlər Komitəsinin Qətnaməsi (2003)8 tərəfindən müəyyən olunur. Bu cür statusa malik olmaq istəyən beynəlxalq QHT-lər Avropa Şurasının məqsədlərini izləməli və onun fəaliyyətinə öz töhfələrini verməlidirlər. Bu günə kimi 400-dən çox beynəlxalq QHT bu cür statusa malikdir. Onlar ümumi tədbirlər planı haqqında yekun qərar vermək məqsədilə ildə bir dəfə Avropa Şurası Beynəlxalq QHT-lərin Konfransını keçirirlər.

**Əlaqələndirmə Komitəsi:** Konfrans tərəfindən seçilən Əlaqələndirmə Komitəsi Avropa Şurasının Katibliyi və beynəlxalq QHT-lər arasında daimi dialoq və əməkdaşlığı təmin etmək məqsədilə mütəmadi olaraq iclaslar keçirir. O, Avropa Şurasının siyasi qurumları — Nazirlər Komitəsi, Parlament Assambleyası, Yerli və Regional Hakimiyyətlər Konqresi və İnsan hüquqları üzrə komissarla yaxından əlaqə saxlayır.

**Qruplaşmalar:** İştirakçı statusuna malik beynəlxalq QHT-lər ildə üç dəfə Parlament Assambleyasının sessiyaları zamanı iclas keçirən on tematik qruplaşma (İnsan Hüquqları, Gender Bərabərliyi, Avropa Sosial Xartiyası və Sosial Siyasətlər, Yoxsulluq və Sosial Birlik, Təhsil və Mədəniyyət, Vətəndaş Cəmiyyəti və Avropada Demokratiya, Səhiyyə, Ətraf Mühit, Şəhərlər, Şimal-Cənub Dialoqu və Həmrəylik) təsis edib. Bu qruplar təşkilatın fəaliyyətləri haqqında ilkin məlumat alaraq və özlərinin kollektiv nouhaudan istifadə edərək bu fəaliyyətlərin həyata keçirilməsinə öz töhfələrini verməklə, Avropa Şurasının nümayəndələri ilə mütəmadi dialoq aparırlar.

**Əməkdaşlığın müxtəlif formaları:** Beynəlxalq QHT-lərlə əməkdaşlıq sadə məsləhət formasından tutmuş, xüsusi layihələr üzrə geniş miqyaslı əməkdaşlıq daxil olmaqla, müxtəlif forma alır. Beynəlxalq QHT ekspertləri məsləhətçi qismində müxtəlif layihələrdə iştirak edə, institusional və müvəqqəti əsasda hökumətlərarası komitələrin işinə öz töhfəsini verə, Baş katib üçün memorandum hazırlaya, Parlament Assambleyasının komitələrinə və Yerli və Regional Hakimiyyətlər Konqresinə yazılı və şifahi bəyanatlar verə və Avropa Şurası tərəfindən təşkil olunan seminar və iclaslarda çıxış edə bilər. İştirakçı statusuna malik beynəlxalq QHT-lər öz fəaliyyətləri çərçivəsində Avropa Şurasının məqsəd və fəaliyyətləri haqqında məlumatlar yayırlar.

2003-cü ilin noyabrında beynəlxalq QHT-lərə iştirakçı statusu verilməzdən əlavə, QHT-lərin bütün üzv dövlətlərdə demokratiya və açıq cəmiyyətin gücləndirilməsindəki həlledici rolları və onların Avropa Şurasının fəaliyyət proqramlarına öz konstruktiv töhfəsini verməsini əks etdirən Avropa Şurası və milli QHT-lər arasında əməkdaşlıq sənədi (Qətnamə(2003)9) əlavə olundu.

### 3.4. Terrorizmlə mübarizə

Terrorizmlə mübarizə üzrə 1977-ci il Konvensiyası terrorizmə qarşı mübarizədə əməkdaşlıq məsələlərini nizama salır.

### 3.5. Canlı təbiət

Avropada canlı təbiətin və ətraf mühitin mühafizəsi üzrə Bern Konvensiyasının məqsədi təbiətin bütün aspektlərini əhatə edən nadir və məhvolma təhlükəsi altında olan heyvan və bitki növlərinin, təbii yaşayış məntəqələrinin mühafizəsindən ibarətdir.

### 3.6. Təbii fəlakət və texnoloji qəzalar problemləri üzrə elmi əməkdaşlıq

Böyük təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması üçün 1987-ci ilin may ayında böyük təbii və texnoloji qəzaların qarşısının alınması, müdafiəsi və yardımının təşkili haqqında açıq razılaşma bağlanmışdır. Sazişin məqsədi elmi-texniki əməkdaşlığın effektivliyinin artırılmasıdır.

### 3.7. İdman

İdmanda onun xeyirxah ideyalarının mühafizəsi məqsədilə Avropa Şurası öz fəaliyyətini iki istiqamətdə həyata keçirir:

hazırda mövcud olan ənənələrdən idmanın "təmizliyinin" mühafizəsi;

həyat səviyyəsinin yüksəldilməsi vasitəsi kimi kütləvi idmanın inkişafı.

### 3.8. Xuliqanlıq

Beynəlxalq görüşlərdə futbolla bağlı zorakılıqların qarşısının alınması üçün hazırlanmış Avropa Konvensiyası idman meydançalarında və ətrafda adamların təhlükəsizliyinin təmin edilməsi məqsədilə hüquqi cəhətdən məcburi tədbirləri nəzərdə tutur.

### 3.9. Sərhədyanı əməkdaşlıq

Bu konvensiya sərhədyanı ərazilərdə yerləşən qonşu rayonlar arasında regional inkişaf, ətraf mühitin mühafizəsi və xidmət sahələrinin yaxşılaşdırılması istiqamətində müqavilələrin bağlanmasını nəzərdə tutur.

### 3.10. Məlumatların müdafiəsi

Bir sıra ölkələrdə kompüter texnologiyaları sahəsində qanunların qəbul olunmasında mühüm rol oynamış bu konvensiyanın məqsədi kompüter məlumatlarından qeyri-düzgün istifadə olunmasının qarşısının alınmasına xidmət edir.

Avropa Şurasının fəaliyyət dairəsinə konvensiyaların qəbul edilməsi ilə yanaşı, müxtəlif sferalar üzrə qruplar və orqanlar təşkil etmək, həmçinin konfranslar və digər tədbirlər keçirmək də aiddir.

### 3.11. Pompidu qrupu

Üzv dövlətlərin narkomaniya və narkotik vasitələrlə qanunsuz alverə qarşı mübarizə fəaliyyətini əlaqələndirən bu qrup ildə iki dəfə nazirlər səviyyəsində keçirdiyi konfranslarında öz fəaliyyətinə yekun vuraraq yeni vəzifələr və əməkdaşlıq sahələri müəyyənləşdirir. Narkotikdən sui-istifadənin profilaktikası, narkomanlar arasında QİÇƏ-ə qarşı mübarizə, narkomanların müalicəsi məqsədilə strategiyanın hazırlanması Pompidu qrupunun daim diqqət mərkəzindədir.

### 3.12. Gənclərin fəaliyyəti

Müasir dövrdə şəxsi azadlıq, demokratiya, insan hüquqlarına hörmət və bir sıra digər dəyərli sərvətlərə sadiq qalan avropalı gəncləri Avropada və beynəlxalq səviyyədə fəal vətəndaşlar kimi hazırlamağa, özlərinin gələcəyini qurmaq üçün fəaliyyətə cəlb etməyə çalışan Avropa Şurası bu sahədəki fəaliyyətində məhz sadalanan ideyalara istinad edir.

Minlərlə avropalı mehmanxana tipli təhsil müəssisəsi olan və məqsədi gəncləri onlara aid problemləri analiz etməyə və bu problemlərin həlli yolunu axtarmağa sövq etməkdən ibarət olan Avropa Gənclər Mərkəzinin və Avropa Gənclər Fondunun təşkil etdiyi tədbirlərdə iştirak edir.

Avropa Gənclər Mərkəzinin əməkdaşlarından gənclərin işi üzrə hökumətlərarası əməkdaşlıq məsələlərinin həlli üçün təyin edilən katiblik 1985-ci ildən keçirilən gənclərin işi üzrə nazirlərin konfransını hazırlayır və müşavirələr keçirir.

Avropa Gənclər Fondu isə gənclər təşkilatına beynəlxalq fəaliyyətlərini həyata keçirmək üçün maliyyə vəsaiti ayırır.

Hər iki orqan öz fəaliyyətini birgə idarəçilik prinsipləri əsasında quraraq ümumilikdə gənclərin mühüm maraqlarını ifadə edir.

### 3.13. Səhiyyə

Bu sahədə Avropa siyasətini həyata keçirən Avropa Şurasının məqsədi üzv dövlətlərin səhiyyə ilə bağlı siyasətinin vahid şəklə salınması, tibbi məsələlər üzrə profilaktiki və maarifçilik tədbirlərinin həyata keçirilməsinə nail olmaqdır. Gənclərin QİÇS-ə yoluxmasının və narkomaniyaya cəlb olunmasının qarşısının alınması məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı və Avropa İttifaqı ilə birlikdə həyata keçirilən gənclərin eksperimental proqramı fəaliyyət göstərir. Tibbi avadanlığın və kompüter texnikasının inkişafı ilə əlaqədar olaraq tibb işçilərinin hazırlanması üçün üzv dövlətlərdə daim fəaliyyət göstərən qruplar təşkil edilir.

**3.14. Dərman üzrə Avropa Komissiyası**

Komissiyanın məqsədi cəmiyyəti düzgün olmayan və dələduzluqla istehsal edilən dərman preparatlarından müdafiə etməkdir. Avropa farmakopiyası Avropada istehsal olunmuş tibbi preparatların keyfiyyətinə təminat verir.

**3.15. Qan**

Hazırda milli qanköçürmə mərkəzləri Ümumavropa şəbəkəsində birləşmişdir. Şura insan toxumalarının qruplar üzrə növlərə ayrılması metodikasının təkmilləşdirilməsi və vahid şəklə salınması üzrə iş aparır. Şura kompüterləşdirilmiş transplantasiya mərkəzi yaratmışdır ki, bu da köçürülən orqanlardan səmərəli istifadəyə və bir çox insanın həyatının qorunmasına kömək edəcəkdir.

**3.16. Arxitektura və arxeoloji irsin mənimsənilməsi və mühafizəsi**

Avropada arxitektura irsinin mühafizəsi üzrə və Avropada arxeoloji irsin mühafizəsi üzrə konvensiyaların məqsədi bu sahələrdə siyasətin möhkəmləndirilməsi, inkişafı, vahid şəklə salınması və sözügedən sahələrdə Avropa əməkdaşlığının hüquqi çərçivəsinin hazırlanmasına yönəlmişdir. Tarixi və arxitektura irsi sahəsində fəaliyyət Mədəni irs üzrə komitə tərəfindən əlaqələndirilir. Bərpa sahəsində bütün mütəxəssisləri birləşdirərək Ümumavropa şəbəkəsi yaratmış Avropa Mərkəzi arxitektura abidələrinin mühafizəsi və bərpası ilə məşğul olur.

**3.17."Avroimic"**

Avropada kino və audivizual istehsala kömək fondu olaraq 1988-ci ildə yaradılıb və ən azı, üç üzv dövlətin məşğul olduğu filmlər və ya ən azı, üç Avropa ölkəsində çəkilən sənədli filmlərə qismən maliyyə yardımı göstərir.

**3.18. Avropa qlobal qarşılıqlı asılılıq və həmrəylik Mərkəzi**

Üzv dövlətlərə Şimal-Cənub dialoqu problemləri və qlobal qarşılıqlı asılılıq məsələləri üzrə ictimai rəyin formalaşmasına köməklik göstərir.

*II fəsil*

## Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf dinamikası

Müasir dövrdə Ümumavropa məkanında insan hüquqlarının qorunması və yeni müstəqillik əldə etmiş dövlətlərdə demokratik proseslərin inkişaf etdirilməsi istiqamətində, habelə beynəlxalq münasibətlər sisteminin tənzimlənməsində, qitədə sülhün, təhlükəsizliyin saxlanmasında, qlobal problemlərin həllində müstəsna rol oynayan Avropa Şurası öz strukturuna, işinin çoxşaxəliyinə görə mürəkkəb bir sistemdir. Bu baxımdan ölkəmizin Avropa Şurası ilə əməkdaşlığının inkişaf dinamikasını nəzərdən keçirmək maraqlı olardı.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan dünya dövlətləri ilə, universal və regional beynəlxalq təşkilatlarla əlaqələr qurmağa başlayır.

Azərbaycan qarşıya çıxan bir sıra mühüm problemlərin, ilk növbədə dövlət müstəqilliyinin qorunub saxlanması və möhkəmləndirilməsi, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll olunması, bazar iqtisadiyyatı istiqamətində islahatların həyata keçirilməsi və dünya inteqrasiya prosesinə sıx cəlb olunmasında beynəlxalq təşkilatların rolundan istifadə etmək məqsədilə qısa müddət ərzində Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏM, daha sonra ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Avropa Şurası, Avropa Birliyi, NATO və başqa beynəlxalq və regional qurumlarla qarşılıqlı faydalı əlaqələr yaratdı. Müstəqil Dövlətlər Birliyi (MDB), GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) kimi qurumların yaradılmasında yaxından iştirak etdi.

1991-1992-ci illərdə - BMT-yə, ATƏT-ə, İslam Konfransı Təşkilatına daxil olmaqla Azərbaycan müstəqil dövlət kimi iradəsini ifadə edərək beynəlxalq aləmdə ilk addımlarını atdı.

Bu gün Azərbaycan dövlətinin xarici siyasət kursu ölkənin müstəqilliyinin, təhlükəsizliyinin, ərazi bütövlüyünün təmin olunması, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması, digər dövlətlərlə formalaşmış bərabərhüquqlu və faydalı münasibətlərin sərhədlərinin genişlənməsi və balanslaşdırılmış praqmatik xarici siyasətin həyata keçirilməsindən ibarətdir.

Bu gün Azərbaycan, demək olar ki, əksər nüfuzlu beynəlxalq təşkilatların üzvüdür. Avropanın demokratik və təhlükəsiz əraziyə çevrilməsinə kömək üçün üzv dövlətlər arasında sıx əlaqələr yaratmasında müstəsna xidmətləri olan Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlığın təhlili öz aktuallığı baxımından digər qurumlarla müqayisədə daha yüksəkdə durur.

Bu gün Avropa Şurası ilə yeni dövlətlərin əlaqələrinin yaranması formaları, mahiyyət və məqsədləri, inkişaf istiqamətləri geniş tədqiq edilməli məsələlərdəndir. Azərbaycan Respublikası ilə Avropa Şurası arasında bu əlaqələr aktuallığına görə son dərəcə diqqəti cəlb edir.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin yaranmasının, inkişaf edib möhkəmlənməsinin, onların tarixi kökləri və hüquqi əsaslarının tədqiq edilməsi, Avropa Şurası ilə əməkdaşlığın ölkənin xarici siyasətindəki və daxili həyatındakı rolunun öyrənilməsi, Azərbaycanda demokratiyanın inkişafı və insan hüquqlarının qorunması sahəsində əldə olunmuş nailiyyətlərdə Avropa Şurasının rolu, bu təşkilatlarla perspektiv istiqamətlərin müəyyənləşdirilməsi, ümumiyyətlə, Avropa Şurası təşkilatının öyrənilməsi, onun mahiyyətinin, quruluşunun və fəaliyyətinin tədqiqi bu gün Azərbaycan üçün zəruridir.

Azərbaycanın beynəlxalq münasibətlər sisteminə daxil olması, dünya siyasət aləminə qoşulması çətin və ağrılı olmuşdur. Əslində, suveren Azərbaycanın diplomatiyasının qurulmasına sıfırdan başlanmışdır. Yeni epoxaya qədəm qoyan Azərbaycan çoxlu problemlə üzləşmiş, bunlardan ən kəskin və qorxulusu

ölkəmizin beynəlxalq aləmdən təcrid edilməsi təhlükəsi olmuşdur. Bu çətin vəziyyətdən çıxmaq məqsədilə neçə illər ərzində ardıcıl səylər göstərilmişdir.

Mərkəzi və Şərqi Avropa ölkələrinin sosialist blokundan çıxması və eləcə də yeni müstəqil dövlətlərin yaranması Avropa Şurasının siyasətində köklü dəyişikliklərə gətirib çıxardı və "qapılarının onların üzünə açılması" ilə nəticələndi.

1989-cu ildə Avropa Şurası namizəd ölkələrin nümayəndələri ilə AŞ PA məruzəçiləri arasında diskussiya üçün əsas ola biləcək "check list" hazırladı. Adətən, hüquq ekspertlərinin məruzəsindən sonra müvafiq məruzəçilər barəsində məruzə və ya rəy hazırlanmalı olan ölkələrə bir neçə səfər etdilər. AŞ PA qəbulolunma proseduru zamanı AŞ PA yanında "xüsusi dəvət olunmuş statusu" deyilən effektiv bir alət işləyib hazırladı. 1992-ci ilin yanvarında Azərbaycan rəsmi olaraq "xüsusi dəvət olunmuş statusu"nun verilməsi barədə xahişlə Avropa Şurasına müraciət etdi. Bu status assambleyanın və bir çox komissiyaların işində səsvermə və AŞ PA tərəfindən qəbul olunacaq mətnə təkliflər verilməsi hüququ istisna olmaqla, iştirak etmək hüququ verirdi. "Xüsusi dəvət olunmuş statusu" almamışdan əvvəl xahiş edən tərəf insan hüquqları sahəsində siyasi və hüquqi əhəmiyyət kəsb edən məcburi xarakterli bir sıra beynəlxalq alətləri qəbul etməlidir. O, AŞ PA-ya məruzəçilərin səfəri zamanı təşkilata məlum olan layiqli tərəfdaşlara malik olmaq imkanı verir, bu da missiyanın uğurunu təmin edir. Qeyd etmək lazımdır ki, əslində, yeni dövlətin qəbulu assambleyanın məruzəçiləri ilə "xüsusi dəvət olunmuş" milli parlamentin nümayəndə heyətinin əməkdaşlığının nəticəsidir; bu əməkdaşlığın effektivliyi bir çox hallarda qəbulolunmanın tezliyini şərtləndirir. Son məruzə AŞ PA-nın plenumuna təqdim olunur. Prosedur namizəd dövləti Avropa Şurasına üzvlüyə dəvət etməyi Nazirlər Şurasına tövsiyə edən rəyin qəbul olunması ilə başa çatır. Bu normativ fəaliyyət təşkilata qəbul olunan zaman dövlətin öz öhdəliklərini yerinə yetirməsində ifadə olunur və 1993-cü ildə nəzarət prosedurunun yaranmasına gətirib çıxardı.

Lakin 1992-ci ildə Avropa Şurasının özü Cənubi Qafqaz regionuna qədər genişlənməyə hazır deyildi. Üstəlik, bu təşkilatın ölkəmizə münasibəti də müsbət deyildi və hətta 1992-ci ildə Avropa Şurasının qeyri-üzv ölkələr üzrə komitəsi Ermənistan — Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar respublikamızın əleyhinə bəyannamə qəbul etmişdi. Belə bir şəraitdə ilk növbədə Avropa Şurasında Azərbaycanın obyektiv, düzgün imicini formalaşdırmaq lazım idi.

Müdafiə və təhlükəsizlik məsələləri istisna olmaqla, Avropa Şurası bir çox fəaliyyət istiqamətlərini əhatə edir. Onun proqramına insan hüquqları, kütləvi informasiya vasitələri, hüquq sahəsində əməkdaşlıq, sosial və iqtisadi problemlər, səhiyyə, təhsil, mədəniyyət, idman, gənclik, yerli və regional idarəetmə və ətraf mühitlə bağlı məsələlər daxildir.

Avropa Şurasının Nizamnaməsinə görə, onun üzvü "qanunun aliliyi prinsipini tanıyan və yurisdiksiyası altında olan şəxslərə insan hüquqları və əsas azadlıqlarından istifadə etməyə şərait yaradan" Avropa dövlətləri ola bilər.

Hərbi məsələlərdən uzaq, sırf siyasi təşkilat olan Avropa Şurası demokratik idarə formalı ölkələr arasında sıx əlaqələri nizamlamağa çalışır.

Belə ölkələrdən birinə çevrilən Azərbaycan əlverişli perspektivlər və real imkanlar qazanır.

Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulmaqda maraqlı olması qısa müddətdə ölkədə yaradılmış siyasi sabitlik, respublikamızda demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, bazar iqtisadiyyatının bərqərar olmasına yönəldilmiş siyasi-iqtisadi islahatlar, insan hüquqlarının qorunması sahəsində həyata keçirilmiş tədbirlər Azərbaycanın Avropaya inteqrasiya proseslərinə qoşulması üçün əlverişli zəmin yaradırdı.

Azərbaycanın əlverişli geosiyasi mövqeyi və zəngin təbii ehtiyatları Avropanı Azərbaycana cəlb edirdi. Bu baxımdan, Avropa beynəlxalq təşkilatlarının Azərbaycanla əməkdaşlığa meyilli olmaları təbii qəbul edilməli idi.

Azərbaycanın Avropa Şurası ilə əlaqələri aşağıdakı siyasi məqsədləri güdür:

qazanılmış müstəqilliyin təsdiqi və möhkəmləndirilməsi; insan və vətəndaş hüquqlarının təmin edilməsinin gücləndirilməsi;

Avropa dövlətləri ilə diplomatik münasibətlərin beynəlxalq təşkilat çərçivəsində çoxtərəfli əsaslarda dərinləşdirilməsi;

ölkəmizin xarici siyasətinin dövlətlərin və xalqların dinc yanaşı yaşaması, sülhü və təhlükəsizliyin qorunması və digər beynəlxalq hüquq prinsiplərinə əsaslandığını nümayiş etdirmək;

öz məqsədlərini və mövqeyini dünya ictimaiyyətinə çatdırmaq üçün Avropa Şurasının ali tribunasından istifadə etmək

Avropa Şurası ilə Azərbaycanın əlaqələrinin qurulmasını və inkişafını şərti olaraq üç mərhələyə bölmək olar:

1992-ci ildən 28 iyun 1996-cı ilə qədərki dövr;

28.06.1996-cı il — 25 yanvar 2001-ci ilə qədər olar müddət;

25.01.2001-ci ildən sonrakı dövr.

**§ 1. I mərhələ:**

I mərhələ Azərbaycanın Avropa Şurası ilə sistemsiz və pərakəndə əlaqələrini əhatə edir. Bu mərhələdə əlaqələrdəki belə qeyri-müəyyənlik, Ermənistanın təcavüzkarlığına qarşı mübarizəyə daha çox diqqət verilməsi və bir sıra daxili proseslərlə, bu məsələdə daxili və xarici siyasətdə qeyri-sabitliyin mövcudluğunu aydın şəkildə göstərməsi ilə səciyyələnir. Bu dövrün başaçatma həddinin ilkin olaraq 1993-cü ilin sonu kimi qəbul edilməsi, nəticədə birinci mərhələnin də, öz növbəsində, iki hissəyə ayrılmasına imkan yaradır.

**Birinci hissə:** Azərbaycan Respublikası rəsmi şəkildə ilk dəfə 1992-ci ilin yanvarında Avropa Şurasına müraciət edərək "xüsusi dəvət olunmuş" statusu ilə təşkilatın fəaliyyətində təmsil olunmaq istədiyini bildirmişdi. Lakin bu dövrdə Cənubi Qafqaz ölkələrinin Şuranın fəaliyyətində iştirakı məsələsi hələlik açıq saxlanmışdı, bir tərəfdən Avropa Şurasının Qafqaz regionuna kimi genişlənməyə

hazır olması üçün lazımi fəaliyyət mexanizmi hələlik mövcud deyildi, digər tərəfdən, Qafqaz respublikalarında genişlənən demokratik hərəkatın dönərsizliyi hələlik şübhə altında idi.

Avropa Şurası ilə işgüzar əlaqələrin qurulmasına nail olmaq məqsədilə Azərbaycan hökuməti və parlament nümayəndələri 1992-ci ilin iyun və oktyabrında Şuranın mənzil-qərargahının yerləşdiyi Strasburqa səfərlər etdilər ki, məhz bu zaman təşkilatla əməkdaşlığın formaları, habelə Avropa Şurasının Dağlıq Qarabağ münaqişəsini nizama salmaq üçün vasitəçilik missiyasının məzmun və mahiyyəti razılaşdırıldı.

Avropa Şurasının respublikamıza münasibəti erməni millətçiləri tərəfindən Azərbaycana qarşı aparılmış təbliğat əsasında formalaşaraq, bu dövrdə Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə doğru-düzgün çatdırılmaması və hətta Parlament Assambleyasının üzvü olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin 1992-ci il fevral ayının 5-də Dağlıq Qarabağa dair Azərbaycanın mövqeyinə zidd olan bəyanat qəbul etməsi ilə nəticələnmişdi. Belə bir şəraitdə, ilk növbədə, Avropa Şurasında Azərbaycanın obyektiv, doğru-düzgün imicini yaratmaq, Azərbaycanın Avropa Şurasının prinsiplərinə uyğun xarici siyasət yeritdiyini, insan hüquqlarının müdafiəsi və demokratiya yolu ilə inkişaf etdiyini bəyan etmək lazım idi. Bu sahədə aparılan iş özünün real nəticələrini verməyə başladı. Digər tərəfdən, Avropa Şurası tərəfindən Ermənistan—Azərbaycan münaqişəsinə obyektiv yanaşılmaqla münaqişənin təşkilat tərəfindən daha ətraflı öyrənilməsi Avropa Şurasında münaqişəyə və Azərbaycana münasibətdə dəyişikliklər yaratdı. Belə ki, artıq 1992-ci il mart ayının 12-də Avropa Şurası Nazirlər Komitəsinin qəbul etdiyi bəyanatda komitə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar dərin təşviş hissi keçirdiyini bildirirdi. Bəyanatda Azərbaycanın Dağlıq Qarabağ vilayətinin dinc əhalisi barəsində zorakılıq pislənilir və göstərilirdi ki, beynəlxalq birlik Dağlıq Qarabağda münaqişənin zor gücünə aradan qaldırılmasına razı ola bilməz. Bəyanatda sərhədlərin toxunulmazlığı prinsipinin gözlənilməsi zəruriliyinin qeyd olunması münaqişənin beynəlxalq hüququn prinsipləri əsasında nizama salınmasının vacibliyindən xəbər verirdi. Bəyanatda qeyd olunurdu ki, sərhədlər yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilə bilər. Erməni təcavüzkarları tərəfindən Kəlbəcər rayonunun işğal edilməsi ilə əlaqədar olaraq Avropa Şurası Nazirlər Komitəsi erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılması haqqında 16 aprel 1993-cü ildə bəyanat verdi. Sənəddə deyilirdi ki, Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası sədrinin bütün döyüş əməliyyatlarını dərhal dayandırmaq çağırışına tamamilə tərəfdar çıxır və bölgədə sülh və təhlükəsizlik üçün qorxu yaradan qüvvələrin oradan çıxarılmasını tələb edir.

Ümumiyyətlə isə Ermənistan qoşunları 1992-1993-cü illər ərzində Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Qubadlını, Cəbrayılı və Zəngilanı ələ keçirərək Azərbaycan torpaqlarının 16 min kvadrat kilometrlik bir hissəsini (halbuki Dağlıq Qarabağın ərazisi 4 min kvadrat kilometrdir) öz işğalı altına aldı.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə (822, 853, 874 və 884 saylı), Təhlükəsizlik Şurasının sədri isə 6 bəyanat qəbul etmişdi.

Avropa Şurası ilə Azərbaycan arasında işgüzar əlaqələrin qurulması 1993-cü ilin ortalarına aiddir. Hələ 1992-ci ilin oktyabr səfəri zamanı Azərbaycan nümayəndə heyəti Avropa Şurası ekspertlərini Azərbaycana dəvət etmişdi. 1993-cü il aprelin 28-30-da Avropa Şurasının ekspertləri, başda Baş Katibliyin Hüquqi Məsələlər üzrə Departamentinin direktoru E.Xerremus olmaqla Azərbaycanda oldular, hüquqi şəraiti öyrəndilər. Danışıqların gedişində milli qanunvericiliyin təkmilləşdirilməsi yolları, Azərbaycanın bir sıra konvensiyalara qoşulması məsələləri, Avropa Şurasının Azərbaycan qaçqınlarına ayıra biləcəyi humanitar yardım barədə ekspertlərin təklifləri geniş müzakirə edildi, maddi-texniki təminat məsələlərinə dair ilkin razılaşmalar əldə olundu.

1993-cü ilin sonundan ikinci mərhələyə qədər olan müddət tamamilə fərqli cəhətlərə malik olan dövrdür:

1993-cü ildən başlayaraq Azərbaycan xalqı müstəqil dövlətçiliyini inkişaf etdirərək öz tarixi seçimini etmiş, Avropa dəyərləri, normaları və standartları əsasında hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması yolunu tutmuşdur.

Avropa Şurasının üzvü olan dövlətlərin yüksək səviyyədə ilk konfransı 1993-cü ildə Vyanada kcçirilmişdi. Vyana Konfransı Avropanın gələcək inkişaf perspektivlərinə dair tarixi bəyannamənin qəbulu ilə başa çatmışdı. Burada yeni tarixi şəraitlə bağlı Avropa Şurasının qarşısında duran məqsəd və vəzifələr də açıqlanmışdı.

Məhz bu ildən etibarən Azərbaycanın xarici siyasətində Avropa Şurasına daxil olmaq istiqamətində həyata keçirilən kompleks tədbirlər, müstəqil Azərbaycanın dünyəvi dövlət quruculuğu sahəsində bu qurumdan öyrənmək meyillərini daha bariz şəkildə büruzə verirdi.

Bu dövrdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin beynəlxalq aləmdə cərəyan edən proseslərə incə və praqmatik yanaşma tərzi və Azərbaycanın vahid Avropa ailəsinə daxil olması istiqamətində apardığı məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması üçün zəmin yaradıldı.

1993-cü ilin ikinci yarısından sonra ölkəmizin beynəlxalq fəallığının güclənməsi, ictimai həyatın hərtərəfli demokratikləşdirilməsi sahəsində inamlı addımların atılması, Ermənistanla münaqişədə respublikamızın hərbi əməliyyatları dayandırılması və atəşkəsin əldə edilməsinə yönəlmiş fəaliyyəti Azərbaycanla Avropa Şurasının yaxınlaşması prosesinə zəruri impulslar verdi. 1994-cü ilin may ayında Ermənistan—Azərbaycan münaqişəsində atəşkəs əldə edilməsi Avropa Şurası ilə əməkdaşlıq üçün yeni üfüqlər açdı.

Ötən illər ərzində Azərbaycanda demokratik dəyərlərin bərqərar və inkişaf etdirilməsi, insan hüquqlarının və əsas azadlıqlarının təmin olunması sahəsində nəzərəçarpan nailiyyətlər qazanılmışdır. Azərbaycan cəmiyyətinin irəliyə doğru

inkişafının bünövrəsini 1995-ci ildə referendum yolu ilə qəbul edilən, insan hüquq və azadlıqlarını özündə əks etdirmək baxımından ən yüksək norma və standartlara cavab verən Azərbaycanın ilk Konstitusiyası qoymuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi göstərilir.

Konstitusiyada təsbit edilmiş prinsipləri və dəyərləri həyata keçirmək məqsədilə ölkədə genişmiqyaslı islahatlara başlanılır. Bu mərhələnin tarixi hadisələrinin xronoloji ardıcıllığına diqqət yetirdikdə Avropa Şurası ilə Azərbaycan arasında daha sıx və intensiv əməkdaşlığın qurulması açıq-aşkar hiss olunur. 1993-cü ilin oktyabr ayında ermənilər tərəfindən əldə edilmiş atəşkəsin pozulması ilə əlaqədar Avropa Şurası 9 noyabr 1993-cü ildə Dağlıq Qarabağa dair verdiyi bəyanatda deyilirdi:

"Avropa Şurası 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır. Avropa Şurası, ATƏM-in prinsiplərinə uyğun olaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir.

Avropa Şurası silahlı toqquşmalardan qaçmaqla canını qurtaran on minlərlə mülki şəxsin taleyindən xüsusilə narahatdır. Həmin qaçqınların qəbulu və müdafiə edilməsi beynəlxalq birliyin üstün vəzifələrindən olmalıdır. Bundan əlavə, bu qaçqınların olması münaqişənin beynəlxalq miqyas alması təhlükəsini artırır və bütün regionun sabitliyi üçün qorxu törədir.

Avropa Şurası zərər çəkmiş əhaliyə bundan sonra da humanitar yardım göstərəcəkdir. Bununla əlaqədar o, regionun bütün dövlətlərini yardımın çatdırılmasına kömək etməyə çağırır. Avropa Şurası Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini möhkəm siyasi vasitələrlə aradan qaldırmaq yolları axtarmaq məqsədilə ATƏM-in Minsk qrupunun göstərdiyi səyləri bütünlüklə dəstəklədiyini bir daha təsdiq edir. O, münaqişədə iştirak edən tərəfləri 1993-cü il oktyabrın 24-də pozulmuş atəşkəs vəziyyətini bərpa etməyə çağırır".

Ekspertlərin aprel səfərindən sonra Avropa Şurası Parlament Assambleyasının Komissiyası Qarabağ münaqişəsinə dair müzakirələr və birbaşa görüşlər keçirilməsinə dair təşəbbüslə çıxış etdi, lakin görüşün keçirilməsinə dair ilk təşəbbüs baş tutmadı. Belə ki, 1994-cü il yanvarın 24-28-də Strasburqda D.Atkinsonun sədrliyi ilə komissiyanın görüşündə Azərbaycan nümayəndə heyəti iştirakdan imtina etdi, çünki görüşə — Strasburq şəhərinə Ermənistan nümayəndələri ilə yanaşı, tərəf müqabili kimi Dağlıq Qarabağ ermənilərinin də nümayəndələri dəvət olunmuşdular. Azərbaycan tərəfinin görüşdən imtina etməsinə baxmayaraq, Avropa Şurası Komissiyası görüş keçirilməsinə nail oldu.

1994-cü il iyul ayının 4-dən 11-dək Strasburqda, Avropa Şurasının qərargah-mənzilində Avropa Şurası Parlament Assambleyasının qeyri-üzv ölkələr üzrə komissiyasının iclası keçirildi. İclasda Ermənistan və Azərbaycan parlament nümayəndələri, həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni və

azərbaycanlı icmalarının nümayəndələri iştirak etmişdir. İclasda Azərbaycan parlament nümayəndələri Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində respublikada yaranmış faciəli vəziyyəti şərh edərək göstərmişlər ki, dövlətimiz ATƏM çərçivəsində münaqişənin sülh yolu ilə həllinə çalışır və beynəlxalq hüququn norma və prinsiplərinə dönmədən riayət edir.

Azərbaycan nümayəndələrinin Avropa Şurasının yüksək vəzifəli şəxsləri ilə ikitərəfli görüşləri zamanı insan hüquqları, milli azlıqların hüquqları, demokratik hüquqi dövlətin infrastrukturlarının qurulması, Azərbaycan Respublikası Konstitusiyası və qanunların hazırlanmasında Avropa Şurası tərəfindən ekspert köməyi göstərilməsi sahəsində təcrübə mübadiləsi və əməkdaşlığın inkişafında maraqlı olduqları qeyd edilmişdir. Azərbaycan Respublikası ilə Avropa Şurası arasında yaranmış əlaqələr təşkilatın müxtəlif təsisatlarının nümayəndələrinin tez-tez Azərbaycana səfəri ilə nəticələnirdi. Bu səfərlər zamanı Azərbaycanın Avropa Şurası üzvlüyünə qəbulu, Ermənistan—Azərbaycan münaqişəsinin nizama salınması, Azərbaycanda demokratik təsisatların inkişafı, insan hüquqlarının müdafiəsinin təkmilləşdirilməsi məsələləri müzakirə olunurdu.

1994-cü il iyunun 10-da bütövlükdə Qafqaz regionunda, o cümlədən Azərbaycanda vəziyyətlə tanış olmaq və "xüsusi dəvət olunmuş qonaq" statusunun mahiyyətini dəqiqləşdirmək üçün regiona komissiya göndərmək qərara alındı. 1994-cü il noyabrın 14-dən 17-dək Bakıda olmuş komissiya respublikamız, onun daxili vəziyyəti, xarici siyasət istiqamətləri, çətinlikləri, qaçqınlar problemi, humanitar yardımların vəziyyəti haqqında ətraflı məlumat topladı. Təsadüfi deyildi ki, məhz həmin komissiyanın topladığı məlumatlar Avropada yayıldıqdan sonra respublikamıza Avropa İttifaqı və Avropa Şurası xətti ilə edilən yardımların miqdarı xeyli çoxaldı, Azərbaycana beynəlxalq aləmdə münasibət tədricən müsbət mənada dəyişməyə başladı, bununla belə, Azərbaycana "xüsusi qonaq" statusunun verilməsi məsələsi bir müddət açıq saxlanıldı.

Milli Məclisin dəvəti ilə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri 12 noyabr 1995-ci ildə Azərbaycan Respublikasının ali qanunvericilik orqanına keçirilən seçkilərdə və dövlətimizin yeni Konstitusiyasının referendumunun gedişində müşahidəçi kimi iştirak etmişdir. Avropa Şurası müşahidəçilərinin məruzəsində göstərilmişdi ki, parlamentə seçkilər seçicilərin azad seçki təcrübəsi olmadığı bir şəraitdə keçirilməsinə baxmayaraq, bu tədbir Azərbaycanın demokratikləşdirilməsi istiqamətində mühüm və yeni addım olmuşdur. Avropa Şurası ilə əlaqələrin genişlənməsi Azərbaycana bir sıra qanunvericilik aktlarına yenidən baxmaq üçün ekspert köməyi əldə etmək imkanı verdi.

1995-ci ildə qanunvericilik, yurisprudensiya, təhsil və mədəniyyət sahələrini əhatə edən hökumətlərarası əməkdaşlıq proqramının hazırlanması Avropa Şurası ilə əməkdaşlığın fəallaşmasına səbəb olur. Azərbaycanın Avropa təcrübəsi ilə tanışlığında ölkənin beynəlxalq ümumi hüquq, hüquqi əməkdaşlıq, insan hüquqları və cinayət hüququ məsələləri ilə bağlı hökumətlərarası fəaliyyətə

müşahidəçi qismində cəlb edilməsi mühüm rol oynamışdır. Avropa konvensiya və sazişləri ilə milli qanunların uyğunluğunu təmin etməyə yönəlmiş qanun yaradıcılığı işində Avropa Şurası ilə əməkdaşlıqdan maksimal dərəcədə istifadə etmək niyyəti olan Azərbaycan qanun vasitəsilə demokratiyaya doğru Avropa Komissiyasının fəaliyyətinə qoşulur.

Belə ki, 1996-cı il martın 1-2-də Azərbaycan nümayəndə heyətinin xahişi ilə Venesiya Ekspertlər Komissiyası 1996-cı il mayın 17-18-də olmuş iclasında Azərbaycanın komissiyaya qəbul olunması haqqında qərar qəbul etdi. Komissiya Avropa hüquq norma və standartları ilə milli qanunvericiliyin uyğunlaşdırılmasını nəzərdə tutan hüquqi islahatlar üzrə komissiyanın fəaliyyətini yüksək qiymətləndirmişdi. Bu məqsədlə bir sıra qanun layihələri ekspertlər tərəfindən qiymətləndirilmə üçün Avropa Şurasına göndərilmişdir. 1996-cı il iyunun 5-6-da Azərbaycan xarici işlər nazirinin Strasburqa səfəri, iyunun 2-6-da isə Avropa Şurası Parlament Assambleyasının qeyri-üzv dövlətlərlə iş komissiyasının sədri J.Setlenjin Bakıya səfəri Azərbaycanın Avropa Şurasının "xüsusi dəvət olunmuş" statusunu almasını xeyli sürətləndirdi.

1996-cı il iyunun 24-28-də Avropa Şurası Parlament Assambleyasının növbəti sessiyası Azərbaycanın demokratik cəmiyyət quruculuğundakı nailiyyətlərini nəzərə alaraq respublikamıza "xüsusi dəvət olunmuş" statusunun verilməsi haqqında qərar qəbul etdi, bununla da Azərbaycan diplomatiyasının dörd illik mübarizəsi uğurla nəticələndi.

Bundan bir qədər əvvəl, 1996-cı ilin iyun ayının 5-6-da isə Azərbaycan Respublikasının xarici işlər naziri Strasburqda təşkilatın qərargah-mənzilində rəsmi görüşdə olmuşdur. Nazir Avropa Şurası Nazirlər Komitəsində Azərbaycanın Avropa ilə tarixi əlaqələri, dövlətimizin xarici siyasəti, ölkəmizdə demokratik dəyişikliklərin gedişi haqqında çıxış etmişdir. Görüş zamanı mühüm siyasi məsələlər üzrə fikir mübadiləsi aparılmışdır. Səfər zamanı respublikamızın xarici işlər naziri Avropa Şurasının Baş katibi və müxtəlif bölmələrin rəhbərləri ilə görüşlər keçirmişdir. Görüşün nəticələri ilə əlaqədar Avropa Şurası ilə Azərbaycan arasında praktiki olaraq təşkilatın bütün fəaliyyət sahələrini əhatə edən geniş Fərdi əməkdaşlıq proqramı tərtib olunmuşdur. Qeyd edilmişdir ki, Fərdi proqram çərçivəsində Avropa Şurası ilə bu əməkdaşlıq Azərbaycanda demokratik institutların təkmilləşdirilməsi, inzibati struklurların və məhkəmə sisteminin yenidən qurulması, milli qanunvericiliyin Avropa sisteminə yaxınlaşdırılması, təhsil, elm, mədəniyyət və başqa sahələrin inkişafına kömək etməlidir. Bu proqramın həyata keçirilməsi ölkəmizdə islahatların gedişinə və demokratik inkişafına kömək edəcək, Azərbaycanın Avropa Şurasının tamhüquqlu üzvü olmaq barədə arzusunun reallaşmasına şərait yaradacaqdır. Proqramın əsas məqsəd və vəzifələri, həmçinin onun həyata keçirilməsinin forma və metodları Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 8 iyul 1996-cı tarixli "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" sərəncamında müəyyən edilmişdir. Sərəncam Avropa

Şurası ilə dövlətimizin 1996-1997-ci illərdə fəaliyyət planı kimi mühüm əhəmiyyət kəsb etmişdir.

Fərdi tərəfdaşlıq proqramı çərçivəsində Hüquq işləri üzrə Baş Direktorluğun köməyi ilə həyata keçirilən hüquqi islahatlar əsasən, məhkəmə sisteminin fəaliyyəti, qanunun aliliyinin inkişafı ilə bağlıdır. Məhkəmə hüquq islahatlarının həyata keçirilməsi istiqamətində ilk addımlardan biri məhkəmə sistemi islahatlarının əsas məqsəd və vəzifələrini, hüquqi dövlət çərçivəsində məhkəmə hakimiyyətinin müstəqil fəaliyyətinin, vətəndaşların ədalətli məhkəmə baxışına, hüquqi yardım əldə etməsinə, məhkəmə qərarlarından şikayətvermə hüququnun və sair məsələlərin təmin edilməsini nəzərdə tutan konsepsiyanın hazırlanması olmuşdur. Onlarla yeni qanun məhkəmə, vəkillik, ədliyyə orqanları və hüquq-mühafizə orqanlarının statut müddəalarını müəyyən etdi.

Bu məqsədlə ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il yanvarın 20-də "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il may ayının 14-də isə "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" sərəncamlar imzalanmışdır. Bu sərəncamlarda Avropa ölkələrində hamılıqla qəbul edilmiş standartlara və normalara uyğunluq baxımından Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələrinin hazırlanmasının sürətləndirilməsi, Azərbaycan Respublikasının Avropa Şurasının bir sıra konvensiya və sazişlərinə qoşulması məsələsinin öyrənilməsi tövsiyə edilmişdir.

Qanun layihələrinin Avropa standartlarına uyğun olması məqsədilə Avropa Şurasının Katibliyi və ekspertləri Azərbaycanın hakimiyyət orqanları ilə birgə onları müvafiq şərhlərlə və tövsiyələrlə təmin etmək üçün işlər görmüşdür. Bir çox qanunvericilik aktları Avropa Şurasına qəbul olunmazdan əvvəl və sonra bu təşkilatda ekspertizadan keçmişdir.

Beləliklə, qısa müddətdə Azərbaycan Respublikasının qanunvericilik sistemi tam yeniləşmiş, ölkədə məhkəmə-hüquq islahatları həyata keçirilmiş, bu məqsədlə müvafiq qanunvericilik aktları qəbul edilmiş, təşkilati və digər tədbirlər görülmüşdür. Yeni Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, Cəzaların İcrası məcəllələri, "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında" və digər qanunlar qəbul edilmişdir. Mövcud məhkəmə təsisatı tamamilə yenidən qurularaq üçpilləli məhkəmə sistemi yaradılmışdır. Test imtahanları və müsabiqə yolu ilə yeni hakimlər seçilmiş, Azərbaycanın penitensiar sistemi beynəlxalq standartlara uyğunlaşdırılmışdır.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlardan biri 1993-cü ildən etibarən ölüm cəzasının tətbiqi üzərinə moratorium qoyulması, 1998-ci ildən isə Şərqdə ilk dəfə olaraq bu cəzanın tamamilə ləğv edilməsi olmuşdur. Müqayisə üçün təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyevdən əvvəlki iqtidarın 1992-1993-cü illəri əhatə edən 13 aylıq hakimiyyəti dövründə 9 nəfər barəsində ölüm cəzası icra edilmişdir.

Beləliklə, ölkəmizin həyatında demokratik ictimai və siyasi dəyişikliklərin baş verməsi, yeni qəbul olunmuş Konstitusiyada və qanunlarda insan hüquq və əsas azadlıqlarının təsbit olunması Azərbaycanın İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmağa hazır olmasını bəyan etməyə imkan verdi. Vahid Avropa hüquq məkanına tamamilə daxil olmağa cəhd etməklə yanaşı, Azərbaycan sosial, texniki, elmi və mədəni sahələrə aid Avropa normativ sənədlərinə qoşulmaq arzusunu da bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurasının Baş katibinə ünvanladığı 13 iyul 1996-cı il tarixli məktubunda Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbul olunmaq və başqa üzv dövlətlər kimi İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğu bildirilirdi. Avropa Şurası Nazirlər Komitəsi Azərbaycanın bu arzusunu alqışlayaraq onun üzvlük məsələsini Avropa Şurasının gündəliyinə daxil etmişdi.

Beləliklə, xarici siyasət sahəsində ümummilli lider Heydər Əliyevin titanik səyləri öz bəhrəsini verdi və Azərbaycanın artıq Avropa Şurasına üzvlük məsələsi gündəmə gəldi.

**§ 2. II mərhələ:**

Azərbaycanın müasir xarici siyasətinin bir sıra həlledici uğurlarını özündə əks etdirən II mərhələdə Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu əldə etmiş Azərbaycan Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığı yeni çoxtərəfli əsaslarda qurmağa başlayır.

Bu dövrdə insan hüquqları sahəsində "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli fərmanı və İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı xüsusi qeyd edilməlidir.

1996-cı ildə "xüsusi dəvət olunmuş" statusu almaqla Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasında təmsil olunmasına və Şura tərəfindən qəbul olunmuş bəzi konvensiyalara qoşulmasına imkan yaranmışdır.

Bununla Azərbaycan Avropa Şurası Parlament Assambleyasında Ümumavropa problemlərinin müzakirəsində birbaşa iştirak etmək imkanı qazanır. Parlament Assambleyasının işində iştirak bir tərəfdən Azərbaycan üçün yaxşı parlament demokratiyası məktəbinə çevrilir, digər tərəfdən, Avropada Azərbaycanın mövqeyinin möhkəmlənməsinə xidmət edir.

Avropa Şurasında, mövcud qaydalara görə, "xüsusi qonaq statusu almış ölkədə vəziyyət, demokratik dəyişikliklərin gedişi, əməkdaşlıq yollarına dair fikir

mübadiləsinin aparılması, əlaqələrə konkret məzmun verilməsi üçün həmin ölkəyə yüksək səviyyəli səfərlər təşkil edilir.

"Xüsusi dəvət olunmuş" statusunu əldə etdikdən sonra məruzəçilərin səfərləri daha da intensivləşir və maraqlı dövlətə ünvanlanmış "sorğu vərəqi" ilə nəzarət olunur. Bu sorğu vərəqinə cavablar məruzəçilər tərəfindən rəy layihəsinin hazırlanmasında önəmli rol oynayır və təklif olunan öhdəliklər sırasında öz əksini tapır.

1996-cı il iyulun 12-14-də Avropa Şurası Nazirlər Komitəsinin sədri, Estoniya Respublikasının xarici işlər naziri S.Kallas və Avropa Şurasının Baş katibi D.Tarşisin başçılıq etdiyi missiya səfər zamanı Azərbaycanın, demək olar ki, bütün hökumət üzvləri, habelə respublika Prezidenti Heydər Əliyevlə danışıqlar apardılar. Danışıqlar nəticəsində Şura üzvləri Azərbaycandakı demokratik islahatlar proseslərinin dönməzliyini müşahidə etdiklərini bildirdilər. Bu da, Avropa Şurası ilə Azərbaycan arasındakı əlaqələrin gələcək inkişafına müsbət təsir göstərdi.

Bütövlükdə isə nümayəndə heyətinin səfəri Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq əlaqələrini yeni səviyyəyə qaldırdı, ölkəmizin bu təşkilata tam hüquqlu üzvlərdən olması üçün perspektivlərini gücləndirdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan diplomatiyasının məqsədyönlü fəaliyyəti nəticəsində ölkəmizdə baş verən proseslər, qarşılaşdığımız problemlər, Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycanın mövqeyi, respublikamızda sosial həyat şəraitinin, əhalinin sosial rifahının aşağı səviyyəsi, bütövlükdə regionda vəziyyət Avropa Şurasının diqqətini daha çox çəkməyə başlayır.

1997-ci ilin yanvar ayında Azərbaycan Respublikası Milli Məclisinin Sədri M.Ələsgərovun başçılıq etdiyi nümayəndə heyətinin iştirakı ilə Avropa Şurası Parlament Assambleyasının Qafqaz problemlərinə dair seminarı keçirilir. Daha sonra Cənubi Qafqaz respublikalarına göndərilmiş komissiyaların məlumatları əsasında aprel ayında regionda vəziyyətə dair müzakirələr keçirilir. Avropa Şurasının nümayəndəsi J.Setlenjin hazırladığı hesabat əsasında Avropa Şurasının Parlament Assambleyası elə həmin gün "Zaqafqaziya münaqişələrinə dair" 1119 saylı qətnamə qəbul edir. On bir bənddən ibarət qətnamədə regionun başlıca təhlükə ocaqları olan Abxaziya və Dağlıq Qarabağ münaqişələrinin həlli yollarından bəhs olunur və qeyd edilir ki, "xüsusi dəvət olunmuş" statusu almış hər üç Qafqaz respublikası yalnız münaqişə nizamlandıqdan sonra Avropa Şurasının daimi üzvləri sırasına qəbul edilə bilərlər.

Qətnamə hər iki münaqişənin nizamlanması üçün çıxış nöqtəsi kimi 1975-ci il Helsinki Yekun Aktının və 1990-cı il Paris Xartiyasının prinsiplərindən irəli gələn aşağıdakı müddəaların əsas götürülməsini irəli sürürdü:

sərhədlərin toxunulmazlığı;

regionun bütün xalqları üçün, əsasən, çoxmillətli sülhyaratma qüvvələri tərəfindən dəstəklənən təminatlı təhlükəsizlik;

cəlb olunmuş bütün tərəflərin Abxaziyaya və Dağlıq Qarabağa geniş muxtariyyət statusu verilməsi barədə razılaşması;

qaçqınların və köçkünlərin geri qayıtmaq hüququ və insan hüquqlarına hörmət əsasında onların yenidən inteqrasiyası.

Qətnamənin 9 və 10-cu bəndləri bilavasitə Ermənistan — Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı idi. 9-cu bənddə deyilirdi ki, Avropa Şurasının Parlament Assambleyası Ermənistan və Azərbaycanın parlament üzvləri arasında davam edən dialoqu, xüsusilə Avropa Şurasına üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin təşkil etdiyi 1996-cı il yanvarın 26-da Strasburqda keçirilmiş Cənubi Qafqazda münaqişələrə dair seminarı alqışlayır, habelə ATƏT-in Minsk qrupunun yenidən fəaliyyətə başlamasını, danışıqların dəstəkləndiyini bildirirdi.

Qətnamənin X bəndində münaqişənin siyasi yollarla nizamlanmasının vacibliyi əks olunmuşdu. Burada işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi, qaçqın və köçkünlərin geri qaytarılması, Dağlıq Qarabağın hüquqi statusunun müəyyənləşdirilməsi kimi məsələlərin dinc vasitələrlə həlli öz əksini tapmışdı.

Cənubi Qafqazda gedən inteqrasiya prosesləri, "Qafqaz evi" ideyasının inkişaf yolları haqqında kifayət qədər məlumata malik olan Avropa Şurasının Parlament Assambleyası qətnamənin II bəndində gələcəkdə Cənubi Qafqaz Dövlətləri Birliyi və Parlament Assambleyasının yaradılmasını arzu etdiyini bildirmişdi.

Qətnamənin əhəmiyyətindən bəhs edən dövlət başçısı Heydər Əliyev 1997-ci il oktyabrın 11-də Strasburqda Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısındakı çıxışında xüsusi olaraq qeyd edirdi ki, 1119 (1997) saylı Qətnamədə Azərbaycan dövlətinin ərazi bütövlüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Lissabon zirvə görüşünün prinsipləri təsdiq edilmişdir. Bu sənədlər hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq üçün yaxşı zəmindir.

Bununla belə, Avropa Şurası da, başqa beynəlxalq təşkilatlar kimi, münaqişəyə tarazlıq prizmasından yanaşır, təcavüzkarla təcavüzün qurbanlarını bir-birindən ayırmır, sülh danışıqlarına dair dünya dövlətlərinin və beynəlxalq təşkilatların çağırışlarına qoşulmaqla öz fəaliyyətini bitmiş hesab edirdi. Halbuki Parlament Assambleyasının 1994-cü il 10 noyabr tarixli 1047 saylı Qətnaməsində Avropa Şurası Ermənistanı müdafiə etdiyini dolayısı ilə bildirərək Türkiyəni və Azərbaycanı Ermənistanın blokadasını ləğv etməyə çağırırdı. 1988-ci ildən başlayaraq bölgədə genişlənən döyüş əməliyyatlarından narahatlığını bildirən Avropa Şurası öz qətnamə və qərarlarında Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına münasibət bildirmədən, münaqişənin mahiyyətinə aydınlıq gətirmədən mücərrəd sülhə çağırırdı ki, bunun da mənasızlığı göz önündə idi.

Avropa Şurasının Azərbaycana belə münasibəti, bir tərəfdən, respublikamızın Avropa inteqrasiya proseslərinə qoşulması yolunda əlavə maneələr yaradır, digər tərəfdən isə bütövlükdə regionda asayişin bərpa olunması prosesini sürətləndirməyə imkan vermirdi. Lakin Lissabon sammitinin məlum bəyanatından sonra Azərbaycana münasibətdə əsaslı dönüş yarandı ki, bu, Avropa Şurası ilə Azərbaycan arasında əlaqələrə də yeni məzmun gətirdi. Avropa Şurasının üzvü olan dövlətlərin Azərbaycanın iqtisadiyyatı ilə bağlılığı, bu dövlətlər tərəfindən Azərbaycana qoyulan investisiyalar, beynəlxalq aləmdə Azərbaycana dəyişilmiş münasibət, respublikamızın yüksəlməkdə olan imici, başqa qurumlarla olduğu kimi, Avropa Şurası ilə də əməkdaşlığın genişlənməsində mühüm rol oynayırdı.

Azərbaycanla Avropa Şurası arasında əməkdaşlığın genişləndirilməsi yolunda praktiki olaraq ən mühüm addım Heydər Əliyevin 1998-ci il 20 yanvar tarixli "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında" Sərəncamı olmuşdur. Sərəncamda insan hüquqlarının qorunmasına dair bir sıra beynəlxalq sənədlər imzalamış Azərbaycanın Avropa Şurasına qoşulmasına dair hazırlıq tədbirlərinin görülməsi öz əksini tapmışdı. Azərbaycanda ölüm hökmünün ləğv olunması söz azadlığının təmini və bütün kütləvi informasiya vasitələrinə sərbəstlik verilməsi və senzuranın ləğv edilməsi, Konstitusiya Məhkəməsinin yaradılması demokratik cəmiyyət quruculuğunun başlıca atributlarını əks etdirməklə yanaşı, ölkəmizin Avropa Şurasının üzvlüyünə qəbulu yolunda mühüm addım kimi qiymətləndirilirdi.

Avropa Şurası ilə bağlı Azərbaycan üçün mühüm hadisələrdən biri də 1997-ci il oktyabr ayının 10-11-də Strasburqda keçirilən Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının 2-ci zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirak etməsi idi. Şuranın 1993-cü ilin oktyabrında Vyanada keçirilən 1-ci zirvə görüşündən sonra ötən müddət ərzində Avropa Şurasına artıq 8 yeni üzv qəbul olunmuşdu.

2-ci zirvə toplantısı ərəfəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Avropa Şurasının iqamətgahında Şuranın Baş katibi Daniel Tarşislə görüşü zamanı Azərbaycanda demokratik proseslərin gedişi, ölkəmizin Avropa strukturları, o cümlədən Avropa Şurası ilə əlaqələri barədə ətraflı fikir mübadiləsi aparılmışdı. D.Tarşis bildirmişdi ki, Avropa Şurasına daxil olmaq üçün ölkələrin heç də hamısının dərhal mükəmməl demokratiyaya malik olması zəruri deyildir. Onların demokratiya prinsiplərinə sadiqlik nümayiş etdirməsi kifayətdir.

Prezident Heydər Əliyev Strasburqda AŞ PA-nın sədri Leni Fişerlə görüşü zamanı, habelə 1997-ci il oktyabr ayının 11-də Strasburqda üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə toplantısında söylədiyi nitqində Avropa ölkələrinin inteqrasiyası və Azərbaycanın bu prosesdə rolunu belə qiymətləndirmişdi: "Azadlıq, demokratiya və humanizm idealları ətrafında sıx birləşmiş yeni Avropa, həmişə olduğu kimi, bütün bəşəriyyətin tərəqqisində və çiçəklənməsində mühüm rol oynayacaqdır. Əminəm ki, çox böyük təbii sərvətlərə, zəngin mədəni və

intellektual potensiala malik olan Azərbaycan Respublikası bu nəcib prosesə öz layiqli töhfəsini verəcəkdir".

Zirvə toplantısında Avropa inteqrasiyası, sülh, təhlükəsizlik və demokratiya problemləri, üzvlüyə namizəd ölkələrin Avropa Şurasına qəbuluna hazırlıq məsələləri müzakirə edilir. 2-ci zirvə toplantısının Azərbaycan üçün əhəmiyyət kəsb edən cəhətlərindən biri də ondan ibarət idi ki, ilk dəfə olaraq Avropa Şurasının zirvə görüşündə Azərbaycan Respublikasının Prezidenti çıxış edərək Ermənistan — Azərbaycan münaqişəsi, bu münaqişənin həllində Azərbaycanın mövqeyini diqqətə çatdırmışdı. Zirvə görüşünün yekun bəyannaməsində deyilirdi: "Toplantı iştirakçıları əmindirlər ki, qitədə baş vermiş dərin dəyişikliklər, onun qarşılaşdığı genişmiqyaslı problemlər Avropanın bütün demokratik institutları arasında əməkdaşlığın güclənməsini tələb edir. Avropa Şurasının genişlənməsi qitədə demokratik təhlükəsizliyin daha çox yayılmasına zəmin yaratmışdır".

Dövlətin Avropa Şurasına qəbul olunması ilə əlaqədar təşkilatın iş xüsusiyyətlərindən biri səlahiyyətli nümayəndələr tərəfindən həmin dövlət haqqında məruzələrin hazırlanması və Parlament Assambleyasında oxunmasıdır. Bu cəhətdən Azərbaycanın Avropa Şurasına qəbul edilməsi barədə məruzə hazırlayan Fransa Milli Assambleyasının deputatı Jak Bomelin rəhbərlik etdiyi nümayəndə heyətinin 1997-ci il oktyabr ayının 13-də baş tutan Azərbaycana səfəri maraq doğurur. Nümayəndə heyəti Azərbaycanla tanışlıqdan sonra məruzə hazırlanması üçün məlumatlar toplayır.

1998-ci ilin yanvar ayının ortalarında Azərbaycan Respublikasının Avropa Şurasına daxil olmasına dair Avropa Şurası Parlament Assambleyasının məruzəçiləri Jak Bomel və Corc Kleyfart Azərbaycanda olmuş və dövlət başçısı tərəfindən qəbul edilmişlər. Jak Bomel Avropa Şurasına qəbul olunmaq sahəsində Azərbaycanda görülmüş işlərdən razılığını bildirərək demişdir: "Biz Bakıya səfərə Azərbaycanın Avropa Şurasına qəbul olunması prosesini hazırlama və bu işi tezliklə başa çatdırmaq ümidi ilə gəlmişik. Mən bu dəfəki səfərdə görürəm ki, Azərbaycanda, həqiqətən, böyük müsbət dəyişikliklər olmuşdur. Mən təsdiq edirəm ki, sizin respublikanızın həyatında həddindən artıq yaxşılaşma prosesi getmişdir. Mən bu müsbət dəyişiklikləri, yaxşılaşmanı birinci növbədə insanların həyatında, ikincisi isə cəmiyyətin demokratik yolla inkişafında görürəm". Jak Bomel, eyni zamanda, görülməsi zəruri olan işlərdən danışaraq demişdir: "Konkret olaraq Konstitusiya Məhkəməsi məsələsinin, müəyyən boşluq olduğunu hiss etdirən qanunların, xüsusilə Cinayət-Prosessual Məcəlləsi, "Vəkillər və məhkəmələr haqqında", "Mətbuat haqqında" qanunların müzakirə və qəbul edilməsi Azərbaycanı Avropa, yəni Qərb demokratiyası ruhuna daha da yaxınlaşdırardı. Bu da Azərbaycanın Avropa Şurasına qəbul olunmasında böyük bir addım olardı". Məruzəçi Azərbaycanda ölüm cəzasının ləğv edilməsini Strasburq, yəni, Avropa Şurası yolunda böyük addım" adlandırmışdır.

Avropa Şurasına doğru Azərbaycanda görülmüş işlərlə əlaqədar Belçikanın Baş naziri Jan Lük Deanın fikirləri də Azərbaycanın tezliklə Avropa Şurası üzvü

olmaq inamını təsdiq edirdi: "Son illər Azərbaycanda həyata keçirilən siyasi və iqtisadi dəyişikliklər, islahatlar artıq Azərbaycanın Avropa Şurasına üzv olması üçün əsaslar yaradır. Bu islahatlar davam etdirilir və bunlar tam həyata keçirildikdən sonra Azərbaycanın bütün hüquqi əsasları olacaqdır ki, Avropa Şurasının tamhüquqlu üzvü olsun".

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il aprel ayının 1-də AŞ PA-nın Hüquq məsələləri və insan hüquqları komitəsinin İnsan hüquqları üzrə yardımçı komitəsinin ölkəmizdə olan nümayəndə heyətini qəbul etmiş və Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv kimi qəbulolunma arzusunu bildirərək demişdi: "Biz Azərbaycanda Avropa Şurası ilə əməkdaşlığa xüsusi əhəmiyyət veririk. Avropa ölkəsi olaraq və Avropa standartlarına uyğun surətdə öz ölkəmizdə dövlət quruculuğu apararaq Avropa Şurasına tam hüquqlu üzv olmaq arzusundayıq". Corc Kleyfart və Hanniker Gelderblum Azərbaycanın Avropa Şurasına qəbulu ilə əlaqədar bir çox məsələlər barəsində fikir mübadiləsi aparmışlar.

1998-ci il mayın 22-də Azərbaycanda səfərdə olan Avropa Şurası Parlament Assambleyasının vitse-prezidenti Ernest Muleman respublika Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişdi. Görüş zamanı Azərbaycanla Avropa Şurası arasındakı əlaqələrdən danışılmış, Azərbaycanın təşkilata tamhüquqlu üzv kimi real əsasları olduğu qeyd edilmişdi. E.Muleman demişdi: "Azərbaycan üçüncü ölkədir ki, burada ölüm cəzası ləğv olunmuşdur. Sizin qanunvericiliyinizdə həddən artıq irəliləyişlər var. Sizin standartlarınız hətta Avropa Şurası üzvlərinin çoxlarının standartlarından yüksəkdir". Qonaq həmçinin qeyd etmişdir ki, bəziləri tərəfindən Azərbaycanın Avropa Şurasına qəbul edilməsində Dağlıq Qarabağ münaqişəsi maneə kimi qiymətləndirilir. Lakin şəxsən onun fikrincə, bu münaqişə Azərbaycanın Avropa Şurasına qəbul edilməsinə əngəl olmamalıdır.

Ermənistanın təcavüzünün dəf edilməsi, respublikamızın pozulmuş ərazi bütövlüyünün bərpası və işğalçıların ölkə ərazisindən çıxarılması, Dağlıq Qarabağ probleminin həlli ilə beynəlxalq aləmin dəstəyinin qazanılması, müstəqil dövlət quruculuğunun bütün dövrlərində Azərbaycan diplomatiyasının qarşısında duran ən mühüm vəzifələrdən biri olmuşdur.

1998-ci il iyunun 15-də AŞ PA-nın nümayəndə heyəti — Azərbaycanın və Ermənistanın Avropa Şurasına daxil olmaq üzrə məruzəçiləri Jak Bomel, Corc Kleyfart və Eyso Volter Prezident sarayında Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qəbul edilmişlər. Görüş zamanı Jak Bomel Ermənistan-Azərbaycan münaqişəsi barədə fikrini açıqlayaraq demişdi: "İstəyirik ki, münaqişə ədalətlə həll edilsin, Dağlıq Qarabağın statusu isə Helsinki aktına, Paris Xartiyasına və ümumən beynəlxalq hüquq normalarına əsasən müəyyən olunsun. Biz münaqişələrin sülh yolu ilə həlli, Azərbaycanın Avropaya qovuşması üçün əlimizdən gələni edəcəyik. Çünki bilirik ki, Azərbaycan əsl Avropa ölkəsidir və Avropa ölkələri arasında öz yerini tutmalıdır". Jak Bomel Ermənistanın münaqişə ilə əlaqədar qərəzli niyyəti barədə fikrini açıqlayaraq demişdi ki, rəsmi yox, adi dildə danışsaq, Ermənistan

Dağlıq Qarabağın müstəqilliyini tələb edir, sonrakı fikri isə onu bir vaxt Ermənistana birləşdirməkdir. Siz, əlbəttə, buna heç vaxt razı olmazsınız.

Dağlıq Qarabağa Azərbaycan Respublikası çərçivəsində muxtariyyət verilməsi barədə məruzəçilərin sualına cavab olaraq Azərbaycan Prezidenti Heydər Əliyev bildirmişdi ki, Dağlıq Qarabağa dünya ölkələrinin təcrübəsində mövcud olan hər hansı özünüidarə, muxtariyyət statusu verməyə hazırıq. Seçmə hüququnu isə Ermənistan tərəfinə veririk. Görüş zamanı Azərbaycanla Avropa Şurası arasında əlaqələrin müxtəlif cəhətləri barədə fikir mübadiləsi aparılmışdı.

Avropa Şurası nümayəndələrinin Azərbaycana növbəti səfəri 1998-ci ilin avqust ayında olmuşdu. Avropa Şurasının Baş katibi Daniel Tarşisin başçılıq etdiyi nümayəndə heyəti onları maraqlandıran məsələlər üzrə məlumatlar toplamış rəsmi görüşlər keçirmişdi. Səfərlə əlaqədar Yunanıstanın xarici işlər üzrə dövlət katibi İoanis Kranidiotis demişdi ki, vəzifəmiz səfərdən sonra Azərbaycanın bugünkü vəziyyəti haqqında AŞ PA-ya məruzə etməkdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşü zamanı Azərbaycanla Avropa Şurası arasında yaranmış əlaqələrdən bəhs edən D.Tarşis demişdi: "Son zamanlar Azərbaycan nümayəndələri Avropa Şurasının işində fəal iştirak edirlər. Avropa Şurasının tərkibindəki təşkilatlardan yalnız birində Azərbaycanın nümayəndəsi yoxdur. O, Yerli Seçki Dairələri Şurasıdır və burada ayrı-ayrı regionların nümayəndələri təmsil olunur. Mən istərdim ki, orada Azərbaycanın da nümayəndəsi olsun".

Bu da onu təsdiq edir ki, Avropa Şurası nümayəndələrinin Azərbaycana hər bir səfəri Azərbaycanın Avropa Şurası təşkilatına inteqrasiya prosesini sürətləndirir. Ölkəmizin bu təşkilatda daha geniş təmsil olunması üçün yeni imkanlar açır. 1998-ci ilin sentyabr ayının birinci ongünlüyündə Avropa Şurasının texniki və məsləhətçi orqanı olan Venesiya Komissiyasının nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdu. 11 sentyabr 1998-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Belçikanın Konstitusiya və Arbitraj Məhkəməsinin sədri Mişel Melşorun rəhbərlik etdiyi Venesiya Komissiyasının nümayəndə heyətini qəbul etmişdi. Görüşdə Venesiya Komissiyası ilə Azərbaycan arasında əlaqələrə rəhbərlik edən Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri X.Hacıyev də iştirak etmişdi. Mişel Melşor qeyd etmişdir ki, səfər zamanı Venesiya Komissiyası Bakıda üçüncü seminarını keçirmişdir. Azərbaycanda ölüm hökmünün ləğv edilməsi, bütün kütləvi informasiya vasitələrinə sərbəstlik verilməsi, ölkədə Konstitusiya Məhkəməsinin yaradılması demokratik islahatların içərisində ən vacibləridir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Misel Melşorun Konstitusiya Məhkəməsini hakimiyyətin dördüncü qanadı hesab etməsi fikrinin əhəmiyyətli olduğunu qeyd etmiş və bildirmişdi ki, Konstitusiya Məhkəməsi Azərbaycanda demokratiyanın inkişafı, dövlətçiliyin möhkəmləndirilməsi və dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi üçün öz xidmətlərini göstərəcəkdir.

Azərbaycan Respublikası Prezidentinin seçkilərindən sonra 1998-ci il oktyabrın 12-də ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və AŞ PA-nın kütləvi informasiya vasitələri üçün Azərbaycanda prezident seçkilərinin gedişi barədə keçirdiyi mətbuat konfransında müşahidəçilər bildirmişlər ki, ATƏT (DQİHB) və AŞ PA 1998-ci il oktyabrın 11-də Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərini birgə müşahidə etmişlər. Seçki günü 150-dən artıq beynəlxalq müşahidəçi ölkənin birgə bölgələrində yerləşdirilmişdi. AŞ PA-nın siyasi məsələlər üzrə komitəsi noyabr ayının 3-də keçirdiyi iclasda Azərbaycanda prezident seçkilərinə Nəzarət Bürosunun Xüsusi komitəsinin məruzəsini dinləmiş və təsdiq etmişdi. Məruzədə aşağıdakılar qeyd olunmuşdu: "Xüsusi komitə hesab edir ki, 1995-ci illə müqayisədə seçkilər ölkənin demokratikləşdirilməsi istiqamətində irəliyə atılmış uğurlu addımdır. Seçki prosesinin, habelə seçki kampaniyasının təşkilində açıq-aşkar tərəqqi əldə edilmişdir. Təcrübənin olmamasına baxmayaraq, səsvermənin özü düzgün təşkil olunmuşdur.

Bütün qeyd edilənlərlə yanaşı, Avropa Şurası, öz növbəsində, Azərbaycanda demokratik təsisatların inkişafına və birliyinə kömək göstərilməsini davam etdirməlidir".

1999-cu il fevralın 28-dən martın 4-dək Bakıda "Avropada yerli hakimiyyət orqanlarının modelləri və bələdiyyə idarəçiliyi" mövzusunda Azərbaycan Respublikasının Milli Məclisi ilə Avropa Şurasının birgə təşkil etdiyi seminar, 1999-cu ilin may ayında AR Milli Məclisində Avropa Şurasının 50 illiyinə həsr edilmiş elmi-praktik konfrans və 1999-cu il iyulun 29-30-da "Azərbaycanda qeyri-hökumət təşkilatları haqqında" Azərbaycan Respublikasının qanun layihəsini müzakirə etmək üçün Avropa Şurasının ekspertləri ilə birgə seminar keçirilmişdir. AŞ PA-nın siyasi məsələlər komitəsinin sədri Viktor Ruffi, AŞ PA-nın siyasi məsələlər komitəsinin Azərbaycan üzrə məruzəçisi Jak Bomel, bu beynəlxalq təşkilatın Hüquq məsələləri və insan hüquqları komitəsi katibliyinin rəhbəri Allard Plat, komitənin Azərbaycan üzrə məruzəçisi Corc Kleyfart və AŞ PA-nın siyasi məsələlər komitəsinin katibi Petr Şixdən ibarət nümayəndə heyəti 1999-cu il dekabrın 7-dən 10-dək respublikamızda olmuşdur. Nümayəndə heyətinin üzvləri Milli Məclisin Sədri ilə görüşmüş, Azərbaycan qanunvericiliyinin Avropa Şurasının standartlarına uyğunlaşdırılması üçün görülmüş işlər barədə geniş məlumat almışlar.

1999-cu il dekabrın 10-da Milli Məclisin iclasında bütün dünyada demokratiyanın və sosial tərəqqinin dayaqlarından biri olan Avropa Şurasının 50 illiyi ilə əlaqədar məsələ müzakirə olunmuş, bu nüfuzlu beynəlxalq təşkilatın fəaliyyətinə dair maraqlı çıxışlar edilmişdir.

2000-ci il martın 27-28-də Azərbaycan Respublikası Milli Məclisinin Avropa Şurasının 8 konvensiyasına qoşulmasına dair respublika rəhbərliyinin imzaladığı müqavilələri ratifikasiya etməsi Azərbaycanın Avropa Şurasına qəbuluna dair müzakirələri şərtləndirdi.

Azərbaycan Respublikasında 2000-ci il noyabrın 5-də keçirilmiş parlament seçkilərini Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun, ATƏT-in Parlament Assambleyasının və Avropa Şurası Parlament Assambleyasının nümayəndə heyətlərindən ibarət Beynəlxalq Seçkiləri Müşahidə Komissiyasının üzvləri izləmişlər. Beynəlxalq müşahidəçilərdən ibarət nümayəndə heyəti seçkilərdən bir gün sonra mətbuat üçün məlumat yaymışlar. Məlumatda xüsusilə qeyd olunmuşdu ki, Azərbaycanda parlament seçkilərinin beynəlxalq standartlardan aşağı olmasına baxmayaraq, irəliləyiş vardır.

Beynəlxalq müşahidəçilər xüsusilə siyasi plüralizmin güclənməsi baxımından irəliləyiş olduğunu, seçkilərin Avropa Şurası Venesiya Komissiyasının və ATƏT/DTİHB-in tövsiyələrini özündə birləşdirən təkmilləşdirilmiş qanunvericilik çərçivəsində aparıldığını bəyan etmişlər. Bütün bunlarla yanaşı, müşahidəçilər tərəfindən seçki qanunvericiliyinin həyata keçirilməsində ciddi çatışmazlıqlar qeydə alınmışdır. Belə ki, namizədlərin birmandatlı seçki dairələri üçün qeydiyyata alınması əsaslı şəkildə düzgün aparılmamış və son nəticədə namizədlərin təqribən yarısının seçkilərdə iştirak etməsinin qarşısı alınmışdı.

Seçki günündə AŞ PA-dan olan 18 parlament üzvünün də daxil olduğu 200-dən artıq beynəlxalq seçkiləri müşahidə missiyasının nümayəndələri Azərbaycan ərazisində yaradılmış 5 min seçki məntəqəsinin 700-də olmuş və səsvermənin, ümumiyyətlə, sakit şəraitdə aparıldığını bildirmişlər. Bununla belə, beynəlxalq müşahidəçilər hakimiyyət orqanlarına təcili surətdə qanun pozuntularının şəffaf şəkildə araşdırılması və dərhal lazımi tədbirlər görülməsi ilə bağlı müraciət etmişlər.

2000-ci ilin iyulundan noyabrınadək davam edən müzakirələrdən sonra noyabrın 9-da AŞ PA-nın 222 saylı rəyi əsasında Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında 14 saylı xüsusi qətnamə qəbul edildi. Qətnamədə deyilirdi:

Azərbaycanın Avropa Şurasına üzv olmağa və nizamnaməyə qoşulmağa dəvət edilməsi;

Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndələrinin sayının 6 nəfər həddində müəyyənləşdirilməsi;

Qətnaməyə uyğun olaraq Azərbaycanın Avropa Şurasına müxtəlif bölgülü maliyyə ödəmələrinin miqdarının müəyyənləşdirilməsi.

**§ 3. III mərhələ:**

- Ölkəmiz Avropa Şurasına qəbulunu hazırlamaq məqsədilə yaradılmış Monitorinq qrupu lazımi sənədləri təqdim etdikdən sonra 2001-ci il yanvarın 17-də Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv qəbul edildi və rəsmi mərasim yanvarın 25-nə təyin olundu. Bununla da Azərbaycan diplomatiyası Avropa inteqrasiya proseslərinə qoşulmaq uğrunda mübarizədə böyük qələbə əldə edərək Avropanın üzvi hissəsinə çevrildiyini işdə sübut etdi.

Bu gün beynəlxalq aləmdə respublikamıza qarşı münasibətdə hiss olunan müsbət dəyişikliklərin yaranmasından və mövcud əlverişli situasiyadan kifayət qədər səmərəli istifadə edilməlidir.

Həmçinin Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü kimi öz fəaliyyətində çalışmalıdır ki, Avropa Şurasının Parlament Assambleyası Qafqaz regionunda baş verən prosesləri daim diqqət mərkəzində saxlasın.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında münasibətlərə tam aydınlıq gətirmək üçün bu münasibətlərə Azərbaycanın ən ağrılı yeri olan Dağlıq Qarabağ münaqişəsi kontekstindən yanaşmaq maraqlı olardı.

Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə — bu gün Azərbaycan ərazisinin 20 faizi işğal altında qalmaqdadır, bir milyon azərbaycanlı əvvəlki kimi qaçqın və köçkün vəziyyətində əzab çəkməkdədir. Azərbaycan — Ermənistan arasında Dağlıq Qarabağ regionu üzrə həllini tapmamış 17 illik münaqişə öz neqativ təsirini təkcə Azərbaycana deyil, bütün Cənubi Qafqaz regionunun təhlükəsizliyinə və stabilliyinə göstərir, demokratik inkişafı ləngidir.

1993-cü ildə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Azərbaycanın ərazisində işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. 1992-ci ildən başlayaraq ATƏT bilavasitə bu münaqişənin həlli naminə fəaliyyət göstərir. Təəssüf ki, qəbul edilmiş qətnamə və qərarlar hələ ki yerinə yetirilməyib. Fikrimizcə; yaranmış mürəkkəb vəziyyətə baxmayaraq, Azərbaycan dövləti atəşkəs rejimini saxlamalı və münaqişənin nizamlanması prosesini sürətləndirməlidir.

Söylənilən fikirləri əsaslandırmaq üçün qeyd etməliyik ki, Dağlıq Qarabağ probleminin həlli ilə əlaqədar Avropa Şurası təşkilatının 1997-ci ildə qəbul etdiyi 1119 nömrəli qətnamədə, münaqişənin Lissabon sammitinin prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyünün qorunması şərti ilə beynəlxalq hüquq normaları çərçivəsində həllinin vacibliyi öz əksini tapmışdır. Bu sənədlər hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüquq normaları əsasında sülhə nail olmaq üçün yaxşı zəmindir.

Avropa Şurasına "xüsusi dəvət olunmuş" statusu əldə etdiyi vaxtdan bu mötəbər təşkilata tamhüquqlu üzv olduğu dövrə qədər olan müddətdə, yəni, 5 ildə Azərbaycanın xarici siyasət konsepsiyası bir neçə prinsipial məqamı ilə diqqəti cəlb edir. Öncə bu siyasət Azərbaycanın dünyanın nəbzi vurduğu geosiyasi məkana doğru hərəkətini təmin edən siyasət olmuşdur. Bunu təkcə Qərbə doğru siyasət adlandırmaq, yəqin ki, düz olmazdı. Bu, Azərbaycanın xarici siyasətinin aparıcı — siyasi və iqtisadi cəhətləri özündə birləşdirən istiqamətlərdən biridir.

Siyasi tərəfi ondan ibarətdir ki, Azərbaycanın elan etdiyi prinsiplər dünyəvi, demokratik, açıq və dünyada baş verməkdə olan mütərəqqi inkişaf prosesləri üçün qapılarını açan, o proseslərə cəlb olunmaq istəyən bir dövlətdir. Müxtəlif mövqelərdən müstəqilliyimizə xələl gətirmək istəyən qüvvələrə qarşı Azərbaycan dünyanın güc mərkəzlərinə, o cümlədən Avropaya açıq siyasətlə inteqrasiyaya gedir və bu bizim müstəqilliyimizə bir təminatdır.

İqtisadi tərəfi — sirr deyil ki, Azərbaycan çox maraqlı və əhəmiyyətli geosiyasi məkanda yerləşir, ölkənin kifayət qədər mənbələri, neft və qaz ehtiyatları var. Hesab edirik ki, xarici iqtisadi əlaqələr Azərbaycanın indiki vəziyyətində onun dünya iqtisadi inteqrasiyası, öz müstəqilliyinə təminat almaq mənasında Azərbaycan üçün çox uğurlu bir vasitədir. Burada qeyd etdiyimiz istiqamətin siyasi və iqtisadi hissəsi bir-biri ilə tamamilə uyğunlaşır.

Bütövlükdə xarici siyasət strategiyasının düzgün müəyyənləşdirilməsi nəticəsində Azərbaycanın Avropa Şurasına üzv qəbulu ümummilli maraqlarımıza cavab verən böyük siyasi hadisə kimi cəmiyyət daxili siyasi çəkişmələrdən, siyasi əqidə mənsubiyyətindən irəli gələn subyektiv mülahizələrdən qat-qat yuxarıda durduğundan layiqincə qiymətləndirilməlidir. Əks halda biz beynəlxalq aləmdə ümummilli mənafeyimizin xeyrinə baş vermiş hadisələrə obyektiv qiymət vermək, bu hadisələrdən qürurlanmaq və faydalanmaq vərdişindən məhrum olarıq.

İnsan hüquqları sahəsində Avropa Şurası təşkilatı ilə əməkdaşlıq əldə olunmuş nəticələr baxımından müsbət qiymətləndirilməlidir.

İnsan hüquqlarının qorunması sahəsində Avropa Şurası Azərbaycanla əlaqələrinin qruplaşmasına imkan verir: insan hüquqları üzrə beynəlxalq müqavilələr sisteminə qoşulmaq, insan hüquqlarının pozulması faktlarının üzə çıxarılması və onların aradan qaldırılması sahəsində əməkdaşlıq Azərbaycanda Avropa standartlarına uyğun qanun yaradıcılığının həyata keçirilməsi, insan hüquqları üzrə Avropa Şurası konvensiyalarının hazırlanmasında bu sahəyə dair konfrans və toplantılarda iştirak, Avropa Şurasının insan hüquqları üzrə həyata keçirdiyi texniki əməkdaşlıq proqramlarında fəal iştirak.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əlaqələrin politoloji təhlili nəticəsində aşkarlanır ki, müasir dövrdə beynəlxalq aləmdə, xüsusən Avropa məkanında baş verən proseslərə qoşulmaq, digər Avropa ölkələri ilə münasibətlər yaratmaq və bu münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək, beynəlxalq əməkdaşlıqdan və qlobal problemlərdən kənarda qalmamaq üçün Avropa Şurasının üzvü olmaq əsas amillərdən biridir.

Avropa Şurasının tamhüquqlu üzvü kimi insan hüquqlarının qorunmasına aid konvensiya və paktlara qoşulmaq, onlardan irəli gələn öhdəliklərə əməl etmək dünya birliyi tərəfindən Azərbaycanın demokratik dövlət kimi tanınmasında əhəmiyyətli rol oynamaqla yanaşı, Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsinin təmin olunması üçün hüquqi baza yaradılmasına, əhalinin sosial təminatının Avropa standartlarına uyğunlaşmasına, Avropa ölkələri ilə siyasi, iqtisadi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığın yeni, daha yüksək mərhələyə keçməsinə təminat verir.

Ümummilli liderimiz Heydər Əliyevin formalaşdırdığı balanslaşdırılmış çoxşaxəli xarici siyasət konsepsiyası əsasında beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi diqqət yetirilməlidir. Onlardan ən önəmlisi Avropa Şurası ilə əlaqələrdir. Avropa Şurası Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi faktını tanıyan hələlik yeganə təşkilatdır. Bu məsələnin əhəmiyyəti

yalnız Avropa purasının Avropayönümlü təşkilat olması ilə deyil, həm də burada erməni lobbisinin güclü olması, bu beynəlxalq qurumun dünya ictimai rəyinə təsir imkanlarının yüksək olması ilə bağlıdır.

Ümummilli liderin titanik səyləri nəticəsində Azərbaycanın 2001-ci ildə bu beynəlxalq təşkilata daxil olması beynəlxalq münasibətlər sistemində ölkəmizin mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirdi.

Həmin dövrdə AŞ PA-da Azərbaycan nümayəndə heyətinə rəhbərlik edən İlham Əliyev cənablarının bu siyasi forumda atdığı ardıcıl və qətiyyətli addımlar elə ilk sessiyadan öz bəhrəsini verməyə başladı.

Ermənistanın işğalçı siyasəti və beynəlxalq hüquqa zidd əməlləri Avropa ictimaiyyətinin diqqətinə çatdırılmaqla, Azərbaycanın mövqeyini əks etdirən, ölkəmizin ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal olunması, bir milyona yaxın insanın qaçqın və məcburi köçkünə çevrilməsi, işğal olunmuş ərazilərin qanunsuz silah və narkotik daşınması üçün tranzit əraziyə çevrilməsi və sair kimi məsələləri ehtiva edən bir sıra qətnamələrin qəbuluna nail olunur.

*III fəsil*

## Azərbaycan parlament nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasındakı uğurlu fəaliyyətinin İlham Əliyev dövrü

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyevin diplomatiya cəbhəsində qazandığı uğurların davamı kimi Avropa Şurasında bir-birinin ardınca əldə edilən müvəffəqiyyətlərə və ümumiyyətlə bu təşkilatda aparılan işin Azərbaycan üçün nə dərəcədə əhəmiyyətli olduğuna qiymət vermək üçün nümayəndə heyətinin rəhbəri İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçildiyi dövrədək olan fəaliyyətinə diqqət yetirilməsi zərurəti yaranır.

Qeyd etdiyimiz kimi, Ümummilli lider Heydər Əliyevin uzaqgörən, daxili və xarici siyasətinin məntiqi nəticəsi olaraq 2001-ci il yanvarın 17-də Avropa Şurasının Nazirlər Komitəsi Azərbaycanın təşkilatın tamhüquqlu üzvlüyünə qəbul olunması barədə qərar qəbul etdi.

2001-ci il yanvarın 25-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda, Avropa Şurasının binası önündə müstəqil dövlətimizin üçrəngli bayrağının ucaldılması Azərbaycanın Avropa ailəsinə qovuşduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv olması tarixi əhəmiyyət kəsb edən bir hadisə idi.

Bu hadisəni Ümummilli liderimiz Heydər Əliyev belə qiymətləndirirdi: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

2001-ci il yanvarın 25-dəki tarixi çıxışında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu qurumla ölkəmiz arasındakı qarşılıqlı münasibətlərin əsas istiqamətlərini müəyyənləşdirdi. Təbii ki, bu çıxışda qeyd edilən məsələlər AŞ PA-da fəaliyyət göstərəcək Azərbaycanın nümayəndə heyəti üçün bir fəaliyyət proqramı idi.

AŞ PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri olmuş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın Avropa Şurasına üzv olmasının tarixi əhəmiyyətindən danışarkən deyirdi: "Bu, ölkəmiz üçün böyük nailiyyətdir. Təkcə ona görə yox ki, biz orada öz sözümüzü deyək, halbuki bu da çox vacibdir. Azərbaycan üçün belə bir tribuna, belə bir kürsü lazım idi ki, biz orada sübutlarla, dəlillərlə erməni işğalçılarını ifşa edə bilək. Avropa Şurası bu məqsəd üçün çox münasib bir yerdir".

Azərbaycanın bu quruma üzv olmasının digər önəmli məqamına toxunan Azərbaycan Respublikasının Prezidenti qeyd edirdi: "Avropa Şurasına üzv olmaq bizə ona görə lazım idi ki, Azərbaycanda gedən proseslər dünya standartlarına daha çox yaxınlaşsın. Biz bunun şahidi olduq. Azərbaycan Avropa Şurasına qəbul olunanda üzərinə müəyyən öhdəliklər götürdü və o öhdəlikləri indi yerinə yetirir. Bu öhdəliklər bizə imkan verəcək ki, daha azad, demokratik cəmiyyətdə yaşayaq.

Azərbaycan Avropa Şurasındakı fəaliyyətinin əsas vəzifələrini müəyyənləşdirərkən ilk növbədə ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla Ermənistanın işğalçı siyasətini ifşa etmək, azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi terror və soyqırımı, torpaqlarımızın 20 faizinin işğal edildiyi faktını tanıtdırmağı qarşısına məqsəd qoymuş, respublikamızda demokratik, hüquqi dövlət quruculuğu işini davam etdirmək, müstəqilliyi möhkəmləndirmək məqsədilə Avropa dəyərlərini mənimsəyərək bu birliyə inteqrasiya etmək istiqamətində fəaliyyətini genişləndirməyə xüsusi önəm vermişdir. Əsas vəzifələrdən biri də ölkəmizdə demokratik və hüquqi dövlət quruculuğu işində islahatları davam etdirmək üçün Avropa Şurasının Azərbaycan qarşısında qoyduğu konkret öhdəliklərin yerinə yetirilməsi və vətəndaş cəmiyyətinin inkişafının təmin edilməsi idi.

Şübhəsiz ki, hər üç vəzifə çox önəmli olmaqla, həm də böyük məsuliyyət tələb edirdi. Təsadüfi deyil ki, cənab İlham Əliyev bunun əhəmiyyətini dərindən hiss edərək bildirirdi ki, iqtidara gələn, yaxud iqtidarda olan qüvvə birinci növbədə məsuliyyəti dərk etməlidir. Düşünməlidir ki, mən bu məsuliyyətin altına girə bilərəmmi.

Ümumiyyətlə, müstəqil, tənqidi və çevik təfəkkür, möhkəm iradə ilə yanaşı, insani münasibətlərdə də müəyyən keyfiyyətlərə malik olmaq siyasətçi üçün vacib şərtdir. Çünki siyasətdə uğur qazanmağın əsasını bu keyfiyyətlər təşkil edir. İlham Əliyevin belə bir siyasətçi olması, konkret, aydın məqsədin müəyyən edilməsi nümayəndə heyətinin Avropa Şurasındakı uğurlu fəaliyyətini şərtləndirən başlıca amillərdən idi. Bütün bunlar nümayəndə heyətinin konkret fəaliyyətində özünü göstərirdi.

Qısa müddət ərzində Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyəti tərəfindən onlarla sənəd hazırlanmış və onlar şuranın rəsmi sənədləri kimi yayılmışdı. Təsəvvür etsək ki, bu qurumda 47 ölkənin parlamentlərinin deputatları fəaliyyət göstərir və qəbul edilmiş sənədlər həm onlara paylanır, həm də həmin ölkələrin parlamentlərinə göndərilir, onda qarşıya qoyulmuş birinci vəzifə ilə bağlı görülmüş işlərin miqyası haqqında konkret fikir formalaşa bilər. Belə ki, "Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında", "Dağlıq Qarabağda, zəbt olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi haqqında", "Ermənistanda və Dağlıq Qarabağda olan hərbi əsirlər və girovlar haqqında", "Qaçqın və məcburi köçkün uşaqların təhsili haqqında", "Azərbaycanda məcburi köçkünlərin vəziyyəti haqqında" və s. sənədlər Avropa Şurası Parlament Assambleyasında qəbul edilmişdir.

2002-ci ilin sentyabrında Strasburqda AŞ PA-da Azərbaycanın nümayəndə heyətinin rəhbəri olarkən cənab İlham Əliyev Azərbaycan Respublikası televiziyasına verdiyi müsahibədə bildirirdi: "Mən deyə bilərəm ki, Avropa Şurası deputatlarının indiyə qədər bu məsələ ilə bağlı o qədər böyük məlumatları yox idi. Çünki bu, bir tərəfdən erməni təbliğatı, erməni lobbisinin fəaliyyəti, digər tərəfdən isə Azərbaycanın bu qədər böyük tribunasının olmaması ilə bağlı idi. Amma biz Avropa Şurasına daxil olandan sonra bu tribunadan, bu kürsüdən çox səmərəli istifadə elədik".

Görülən işin miqyasını və əhəmiyyətini qiymətləndirmək üçün Avropa Şurasının strukturuna diqqət yetirmək kifayətdir.

Belə ki, Avropa Şurası Nizamnaməsinin 32-ci maddəsinə uyğun olaraq assambleya ildə bir dəfə özünün növbəti sessiyasına toplanır. Assambleya öz sessiyasını dörd kiçik sessiyaya bölür.

*"Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".*

***Heydər Əliyev***

Assambleyada beş siyasi qrup mövcuddur: sosialistlər qrupu, Avropa Xalq Partiyası qrupu, Avropa demokratları, liberallar, demokratlar və islahatçılar qrupu.

Parlament Assambleyası öz sessiyasında Avropa Şurasının səlahiyyətlərinə daxil olan və Nazirlər Komitəsi tərəfindən sessiyaya çıxarılmış, həmçinin komitənin təqdim etdiyi hesabat əsasında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə edir, Parlament Assambleyası iclaslarının gündəliyini sərbəst müəyyənləşdirir.

Dövrümüzün aktual və perspektiv məsələlərini, o cümlədən müasir cəmiyyətin problemləri və beynəlxalq siyasətin müxtəlif cəhətləri ilə bağlı məsələləri müzakirə edən assambleya yalnız məcburi qüvvəsi olmayan tövsiyələr vermək hüququna malikdir. Parlament Assambleyasının işi aşağıdakı sahələr üzrə ixtisaslaşdırılmış komissiyalar tərəfindən hazırlanır:

Siyasi məsələlər;
İnsan hüququ və hüquqi məsələlər;
Sosial məsələlər, səhiyyə və ailə məsələləri;
Ətraf mühit, regional planlaşdırma və yerli hakimiyyət orqanları;
Elm və texnologiya;
İqtisadiyyat və inkişaf məsələləri;
Kənd təsərrüfatı;
Avropa Şurasının üzvü olmayan Avropa dövlətləri ilə əlaqələr;
Miqrasiya, qaçqınlar və demoqrafiya;
Milli parlamentlər və ictimaiyyətlə əlaqələr.

Parlament assambleyası öz funksiyalarını xeyli genişləndirmişdir. Belə ki, Assambleya sessiyalararası müddətdə iclaslar keçirən çoxlu ixtisaslaşmış komitə yaratmışdır. Assambleyanın ixtisaslaşmış komitələrindən əlavə, xüsusi rolu olan daimi komitəsi də vardır. Assambleyanın bəzi səlahiyyətləri həmin komitəyə verilmişdir. Bu komitə sessiya üçün material hazırlayır, assambleyanın sessiyalararası müddətdə fəaliyyət göstərən komitələrinə rəhbərlik edir.

Parlament Assambleyası özünün daxili reqlamentini qəbul edir, öz üzvlərindən sədrini və onun müavinlərini seçir. Sədr və onun müavinləri (hazırda onlar sədr və 17 müavindən ibarətdir) Assambleya Bürosunu təşkil edir.

Avropa Şurasının tamhüquqlu üzvü olduqdan bu günə kimi ötən müddət ərzində assambleyanın sessiyalarında xüsusi fəallığı ilə fərqlənən Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyəti AŞ PA-nın 2001-ci il yanvarın 22-26-da Strasburqda keçirilmiş növbəti sessiyasında millət vəkili İlham Əliyevin rəhbərliyi ilə iştirak etmişdi. Nümayəndə heyətinin tərkibinə deputatlardan Səməd Seyidov, Gültəkin Hacıyeva, Nairə Şahtaxtinskaya, Vaqif Vəkilov, Qulamhüseyn Əlibəyli daxil idilər.

Bundan başqa, 6 deputatdan ibarət əvəzedici heyət də yaradılaraq Azərbaycan parlamentinin AŞ PA-da təmsilçilərinin sayı 12-yə çatmışdı.

Cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti 2001-ci il aprelin 23-27-də ilk dəfə olaraq tamhüquqlu üzv kimi Avropa Şurası Parlament Assambleyasının sessiyasında iştirak etmişdir.

2001-ci il aprel ayında AŞ PA-nın yaz sessiyası nümayəndə heyətimizin iştirak etdiyi ilk sessiya idi. "Avropanın iqtisadi və transmilli mütəşəkkil cinayətkarlığa qarşı mübarizəsi" mövzusunda aparılan müzakirələrdə çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyev bu problemin əhatə dairəsinin genişlənməsində Ermənistanın oynadığı rola dair konkret faktları iştirakçıların diqqətinə çatdırmış, Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi nəticəsində Dağlıq Qarabağda və ətraf rayonlarda qeyri-qanuni əməliyyatların keçirildiyini, xüsusilə bu ərazilərdə narkotiklərin yetişdirildiyini və nəql edildiyini, habelə bu ərazidə qeyri-qanuni silahlı birləşmələrin hazırlandığını qeyd etmişdir.

Tarixdə bəlkə də ilk dəfə idi ki, Cənubi Qafqazın qarşılaşdığı problemlər Ümumavropa siyasəti səviyyəsində belə ciddi şəkildə müzakirəyə çıxarılırdı. Belə diplomatik həmlə ermənilər üçün gözlənilməz idi və hadisələrin gedişi Ermənistan nümayəndələrinin bu cür qəfil gedişlərə hazır olmadıqlarını göstərirdi. Başlanğıc olduqca uğurlu alındı və ilk gündən nümayəndə heyəti qazanılmış üstünlüyü qoruyub saxlamağı bacardı.

Nümayəndə heyətimiz azərbaycanlılara qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı haqqında sənədin tanınması və azərbaycanlı girov, habelə hərbi əsirlərin Ermənistanda və Dağlıq Qarabağda saxlanılması barədə rəsmi sənədin qəbul olunması haqqında məsələ qaldırmış və belə bir sənədin qəbul edilməsinə nail olmuşdur.

Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev sessiyada daha uğurlu nəticələr əldə etmək üçün AŞ PA-nın bütün alt qurumlarında — komitə və komissiyalarında da mütəşəkkil təbliğat kampaniyasının aparılmasını təşkil etməyə müvəffəq oldu. Azərbaycanlı əsir və girovların sayı haqqında dəqiq məlumatlar, onların saxlanma şəraitinin nə qədər acınacaqlı olması, ermənilər tərəfindən ən zorakı işgəncələrə məruz qalmaları cənab İlham Əliyevin çıxışlarında qeyd olunurdu və digər Avropa ölkələri nümayəndələrinin diqqət mərkəzində saxlanılırdı. Bundan əlavə, yayılan sənədlərdə Dağlıq Qarabağ ərazisindən narkobiznes və insan alverində tranzit kimi istifadə olunmasına dair faktlar da beynəlxalq ictimaiyyəti regionda baş verən proseslərə yenidən baxmağın vacibliyinə inandıra bildi və bu da Azərbaycan diplomatiyasının uğuru idi.

Bu proses sonrakı mərhələlərdə də davam etdirildi və artıq payız sessiyasında İlham Əliyevin rəhbərliyi ilə nümayəndə heyətimiz yeni faktlar əsasında Ermənistanın mövqelərinə daha sarsıdıcı zərbələr endirməyə müvəffəq oldu. Aparılmış fəal təbliğat prosesi və diplomatik-taktiki addımlar ölkənin xarici siyasətində yeni uğurların əldə edilməsinə gətirib çıxardı. Hələ bu sessiyaya qədər Azərbaycan nümayəndə heyəti Avropa Şurasının Nazirlər Komitəsində üzv ölkələrin ərazi bütövlüyü məsələsinin müzakirəsinə nail olmuşdu və Ermənistan həmin müzakirələrin nəticəsi kimi ortaya çıxan sənədi imzalamamaqla, əslində, beynəlxalq ictimaiyyətin gözü qarşısında özünü ifşa etmişdi. Avropa Şurasının üzvü olan dövlətlərin hamısı sənədə imza atsa da, erməni deputatlar bundan imtina etdilər.

Avropa Şurası Parlament Assambleyasının 2001-ci il payız sessiyasında sentyabrın 24-də qəbul edilən qərarda Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll olunmasının zəruriliyi qeyd edilirdi. Bu, parlament nümayəndə heyəti səviyyəsində əldə edilmiş növbəti diplomatik uğur idi. Cənab İlham Əliyevin rəhbərliyi ilə hazırlanmış və Nazirlər Komitəsinə ünvanlanmış "Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması" yazılı sualı 43 ölkənin nümayəndələrinin iştirakı ilə müzakirəyə çıxarıldı. Ermənistan ona dəstək verən bəzi qüvvələrin qərarın qəbul olunmasına maneçilik törətməsinə baxmayaraq,

Nazirlər Komitəsi yeddi bənddən ibarət qərar qəbul etdi. Qərarda deyilirdi: "Nazirlər bütün Avropada beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərə, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə, eləcə də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, ATƏM-in Helsinki Yekun Aktında və digər müvafiq mətnlərdə əks olunmuş beynəlxalq hüquq prinsiplərinə hörmət edilməsinə dəstəklərini bir daha təsdiq edirlər".

Bununla Avropa Şurası Nazirlər Komitəsi öz qərarında xalqların öz müqəddəratını təyin etmək hüququndan bəhs olunarkən bu hüququn BMT Nizamnaməsinin məqsəd və prinsipləri, beynəlxalq hüququn normaları, o cümlədən dövlətlərin ərazi bütövlüyünə dair normalara uyğun olaraq həllini nəzərdə tutur.

Qərarda o da xüsusi vurğulanırdı ki, nəticə etibarı ilə bu hüquq yalnız sülh danışıqları əsasında həyata keçirilə bilər. Torpaq əldə etmək məqsədilə gücdən istifadə qəbuledilməzdir və ondan irəli gələn heç bir nəticə qanuni tanına bilməz.

Azərbaycan parlament nümayəndə heyəti sessiyada daha bir neçə vacib problem qaldırdı. Bunlardan biri də bütün dünyanın birmənalı şəkildə pislədiyi terrorizm idi. Amerika Birləşmiş Ştatlarında baş vermiş terror hadisəsi bir daha sübut etdi ki, bu bəla yalnız qüvvələrin birləşməsi ilə aradan qaldırıla bilər. Azərbaycan terrordan ən çox zərər çəkən ölkə kimi bu bəlanın nə kimi dəhşətlər törətdiyini yaxşı bilir.

Odur ki, bütün terror təşkilatlarına, o cümlədən nəinki Azərbaycanda, eləcə də bütün dünyada qanlı cinayətlər törətmiş erməni terrorçularına qarşı da bütün dünya, beynəlxalq ictimaiyyət qətiyyətlə mübarizə aparmalıdır.

Beynəlxalq terrorizm məsələsi geniş müzakirə edilmiş iclasda müxtəlif ölkələrdən olan deputatlar çıxış edərək minlərlə dinc əhalinin məhvinə səbəb olan terror aktlarını, xüsusilə sentyabrın 11-də Amerika Birləşmiş Ştatlarında törədilmiş vəhşilikləri qətiyyətlə pisləmiş, terrorçuluğun yeni forma — siyasi terror forması almasından narahat olduqlarını bildirmiş, dünya ölkələrini bu təhlükəyə qarşı mübarizəyə çağırmışlar.

Bu sessiyada Azərbaycan nümayəndə heyətinin başçısı İlham Əliyev tutarlı faktlarla çıxış edərək Ermənistanın Azərbaycana qarşı təcavüzə başladığı vaxtdan 30-dan artıq terror aktı törətdiyini və bunun nəticəsində 2 mindən çox Azərbaycan vətəndaşının həlak olduğunu vurğulamış, həmçinin ASALA erməni terror təşkilatının Ermənistan hökuməti ilə sıx əlaqədə işlədiyini bildirmişdir.

"Azərbaycan terrorizmə qarşı mübarizədə Amerika Birləşmiş Ştatları ilə bir alyansdadır. Biz bütün demokratik dünya ilə birlik və dünyada terrorizmə son qoymaq üçün əlimizdən gələn töhfəni verməyə hazırıq" — söyləyən Azərbaycan Prezidenti Heydər Əliyev Amerika Birləşmiş Ştatlarına qarşı yönəldilmiş hücumlardan sonra etdiyi çıxışında Azərbaycanın Birləşmiş Ştatlara tam dəstəyini ifadə etmişdi: "Azərbaycan özünün hava məkanını Birləşmiş Ştatlar üçün açmışdır və Birləşmiş Ştatlarda terror aktları törədənlərin ədalət məhkəməsi qarşısında

məsuliyyət daşıması üçün lazım ola biləcək infrastrukturları və kommunikasiyaları ABŞ-ın istifadəsinə verməyə hazırdır".

Bu baxımdan nümayəndə heyətimizin başçısı hər bir çıxışında avropalılara erməni təcavüzünün mahiyyətini açıqlayır, faktlarla sübut edirdi ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddiası bizim ölkəmizə nə kimi təhlükə yaradıb və Avropaya necə təhlükə yarada bilər.

"Dünyada terrorçuluğun bütün formalarına qarşı genişmiqyaslı antiterror kampaniyasına başlamağın və terrorçuluq ilə savaşda çox ciddi addımlar atmağın vaxtı gəlib çatmışdır" — söyləyən İlham Əliyev sessiyada ilk olaraq bu terror aktının bəşəriyyət üçün böyük təhlükə olduğunu və Azərbaycanın terrorizmə qarşı mübarizədə barışmaz mövqe tutduğunu, terrorizmlə mübarizədə hər bir əməli yardım və əməkdaşlığa ölkəmizin hazır olduğunu bildirərək bəyanat verdi. Bunun səbəbini izah edərkən İlham Əliyev həm də göstərdi ki, Azərbaycan daim Ermənistan tərəfindən terrora məruz qalmış, nəticədə minlərlə insan həlak olmuşdur. Avropanın bir çox ölkələrinin hələ seçim haqqında düşündüyü bir zamanda İlham Əliyevin qətiyyətli və cəsarətli bəyanatı Azərbaycan diplomatiyasının növbəti uğurlu addımı idi. Çünki bununla Azərbaycan bir həm demokratiyaya sadiq olduğunu, həm də erməni terroruna məruz qaldığını göstərdi.

Cənab İlham Əliyevin sessiyadakı çıxışında əsas diqqəti qondarma Dağlıq Qarabağ respublikasında terrorçular hazırlayan hərbi bazaların mövcudluğuna, bu ərazinin ermənilər tərəfindən məqsədyönlü şəkildə çirkli pulların yuyulması mərkəzinə çevrilməsinə yönəltməsi informasiya müharibəsində ermənilərin mövqelərinə ciddi zərbə kimi dəyərləndirildi.

11 sentyabr faciəsi göstərdi ki, heç bir dövlət belə dəhşətli terror aktlarından sığortalanmayıb və bu bəla ilə effektiv mübarizə aparılması üçün milli və dini mənsubiyyətindən, habelə coğrafi mövqeyindən asılı olmayaraq, bütün dünya dövlətlərinin birgə səy göstərməsi vacibdir.

Bundan başqa, AŞ PA-da azərbaycanlı məcburi köçkün və qaçqınların acınacaqlı vəziyyəti, işğal olunmuş ərazilərdə mədəniyyət abidələrinin məhv edilməsi, ali və orta təhsil müəssisələrinin tamamilə dağıdılması haqqında da müxtəlif sənədlər hazırlandı və yayıldı. Ermənistanın təcavüzü nəticəsində minlərlə azərbaycanlı uşağın təhsil hüququndan məhrum edilməsi, 616 orta məktəb, 234 məktəbəqədər müəssisə, 12 peşə məktəbi, 5 texniki məktəb, 1 universitet, 3 universitet filialı və 3 peşə məktəbi filialının məhv edilməsi, 20 min təhsil işçisinin, 130 min tələbə və şagirdin qaçqın düşməsi təşkilatda təmsil olunan ölkələrin nümayəndələrinin diqqətinə çatdırıldı. Sənədə assambleyanın bir çox deputatları imza atdılar.

AŞ PA Siyasi Komitəsinin tərkibində yaradılmış və Azərbaycan, Gürcüstan və Ermənistanın daxil olduğu işçi qrupunun görüşü keçirilmişdir. Görüşdə Cənubi Qafqaz bölgəsində sabitlik paktının hazırlanması, müharibə zamanı əsir və itkin düşənlərin qaytarılması və bir sıra sahələrdə əməkdaşlığın perspektivləri barədə

Gürcüstan nümayəndə heyətinin təklifi və layihə barədə fikir mübadiləsi aparılmışdır.

Azərbaycan tərəfi Cənubi Qafqaz bölgəsində sabitlik paktının yaradılmasının, bu sahədə müəyyən tədbirlər görülməsinin zəruriliyini və bununla bağlı müzakirələrə hazır olduğunu, müharibə zamanı əsir və itkin düşmüş insanların taleləri ilə maraqlanmağın vacibliyini, Azərbaycanın bu haqda zəruri sənədləri təqdim və qarşı tərəflə məsələni müzakirə etməyə hazır olduğunu bildirmişdir.

Azərbaycan, Gürcüstan və Ermənistanın əməkdaşlığı haqqında layihədə ekologiya, turizm sahələrində, habelə iqtisadiyyatın müəyyən sahələrində əməkdaşlıq barədə müddəalar var idi. Ermənistan nümayəndələri bu məsələlərə hazır olduqlarını bildirmişlər. Lakin Azərbaycan tərəfi buna qəti etiraz edərək Ermənistan—Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həllini tapmayınca, işğal olunmuş torpaqlar azad edilməyincə və bölgədə sülh bərqərar olmayınca, Ermənistanla hər hansı əməkdaşlıqdan söhbət gedə bilməyəcəyini vurğulamışdır. Cənab İlham Əliyev məsələ ilə bağlı qeyd etmişdir: "Münaqişə başlandığı dövrdən Ermənistan terror təşkilatları Azərbaycanda 32 terror aktı törətmişdir. Azərbaycan terrora məruz qalan bir ölkədir. Ermənistanın silahlı qüvvələri zəbt etdikləri Azərbaycan ərazilərini azad etməyincə iki ölkə arasındakı hər hansı bir əməkdaşlıqdan söhbət gedə bilməz".

AŞ PA-da hər bir nümayəndə heyəti öz ölkəsinin müxtəlif siyasi dairələrinin, o cümlədən müxalifət partiyalarının mənafelərini ifadə edir. Orada deputatlar öz nümayəndə heyətlərinin üzvləri olmaları ilə yanaşı, ayrı-ayrı siyasi baxışları əks etdirən siyasətçilər kimi fəaliyyətdədirlər. Demək, AŞ PA üzv ölkələrin müxtəlif siyasi-ictimai spektrlərinin fikirlərini əks etdirən deputatların məclisidir. Bu spektrdə Azərbaycan nümayəndə heyətinin nüfuzunun getdikcə artması asanlıqla başa gəlməyib. Ölkəmizin Avropa Şurasının tamhüquqlu üzvü olduğu ilk gündən Ermənistana tam dəstək verən ayrı-ayrı qruplar və siyasi komitələr daxilində Azərbaycana münasibətdə formalaşdırılmış yanlış fikirlərin təsiri sonda nümayəndə heyətimizin ardıcıl fəaliyyəti nəticəsində aradan qaldırıldı.

2002-ci il qış sessiyasının gündəliyinə digər məsələlərlə yanaşı, "Azərbaycanda siyasi məhbuslar" məsələsi də müzakirəyə çıxarılmışdı. Bu məsələnin gündəliyə çıxarılmasında Avropa Şurasının erməni lobbisinin xüsusi rolu olmuşdu. Təəssüf ki, belə bir məsələnin gündəmə çıxmasında Azərbaycan müxalifətinin və onun təsiri altında olan bəzi qeyri-hökumət təşkilatlarının fəaliyyəti də az olmamışdır. Müzakirələrə qədər nümayəndə heyətinin başçısı cənab İlham Əliyevin Avropa Şurası təşkilatının vəzifəli şəxsləri ilə və müxtəlif dövlətlərin nümayəndə heyətlərinin başçıları ilə keçirdiyi görüşlər öz nəticəsini verdi. Məruzəçilərin qeyri-obyektivliyinə baxmayaraq, Rusiyanı, Fransanı, Türkiyəni, Polşanı və digər dövlətləri təmsil edən deputatlar öz çıxışlarında "siyasi məhbus məsələsinin ümumiyyətlə qondarma bir termin olduğunu vurğuladılar.

Müzakirələrdə çıxış edən cənab İlham Əliyev bildirdi ki, Azərbaycanda "siyasi məhbuslar" yox, ağır cinayətlərə görə, o cümlədən terror aktı, dövlət çevrilişi cəhdləri və digər zorakı cinayətlərə görə məhkum olunmuş insanlar var. O bildirdi ki, Azərbaycan öz üzərinə götürdüyü öhdəliklərə sadiqdir və onların yerinə yetirilməsi üçün bütün addımlar atılır. Bununla belə, hər hansı bir məsələ ilə bağlı Azərbaycana təzyiq göstərilməsi yolverilməzdir.

Növbəti 2002-ci il yay sessiyası Dağlıq Qarabağ probleminin və qaçqınlarla bağlı həqiqətlərin Avropa Şurasının diqqətinə çatdırılması baxımından əhəmiyyətli olmuşdur. Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri İlham Əliyev Dağlıq Qarabağ Azərbaycan icmasının təmsilçiləri ilə birlikdə Avropa Şurasının sədri Valter Şvimmerlə, Avropa Şurasının insan hüquqları üzrə komissarı Alivero Xil-Robleslə görüşmüşdür. Görüşlər zamanı nümayəndə heyətinin başçısı İlham Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin—Dağlıq Qarabağın və onun ətrafındakı yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən isğal olunması, ölkəmizin 1 milyondan artıq qaçqın və məcburi köçkün problemi ilə üzləşməsi, onların çətin şəraitdə yaşaması barədə ətraflı məlumat vermiş və Avropa Şurasının öz nüfuzundan istifadə edərək Ermənistan—Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həllinə kömək göstərməsini xahiş etmişdir.

2002-ci ilin sentyabrında AŞ PA-nın növbəti sessiyasında Azərbaycan nümayəndə heyətinin iştirakı yenə də uğurlu sayılmalıdır. Bu sessiyanın müzakirələrində həm Azərbaycanın, həm də Ermənistanın Avropa Şurası qarşısında götürdükləri öhdəliklərin yerinə yetirilməsi məsələsi ilə bağlı çıxış edən İlham Əliyevin prinsipial mövqeyi nəticəsində məruzələrdə Azərbaycan üçün çox əhəmiyyətli düzəlişlər edildi, ən başlıcası isə, Azərbaycan diplomatiya tarixinə qızıl hərflərlə yazılmış Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğal edilməsi faktı Avropa Şurası Parlament Assambleyasının sənədində öz əksini tapdı.

Bununla bağlı cənab İlham Əliyevin respublika televiziyasına müsahibəsində deyilirdi ki, "aparılmış bütün müzakirələr zamanı Avropa Şurasının, deyə bilərəm, deputatlarının tam əksəriyyəti artıq açıq-aydın bəyan edir ki, bəli, Ermənistan işğalçı bir dövlətdir, Ermənistan Azərbaycan torpaqlarını işğal edib, bu işğal nəticəsində Azərbaycanda bir milyondan artıq qaçqın və məcburi köçkün yaranıbdır. Bu münasibətlə də Ermənistanı çox ciddi tənqid etdilər".

Azərbaycan və Ermənistanın öhdəlikləri ilə bağlı aparılan müzakirələrdə nümayəndə heyətinin konstruktiv, obyektiv mövqe tutması imkan verdi ki, hazırlanmış məruzələrə çox ciddi düzəlişlər edilsin. İlk dəfə olaraq beynəlxalq təşkilatın qəbul etdiyi ümumi yekun sənəddə Azərbaycan torpaqlarının işğal edilməsi faktı öz əksini tapdı. Bu düzəlişlərin həm tarixi, həm də siyasi əhəmiyyəti böyükdür. Bir tərəfdən "işğal" anlayışının qəbul edilməsi məsələnin sülh yolu ilə həlli prosesində siyasi yanaşma kontekstində ciddi dəyişikliklərə səbəb olacaq və "tarazlaşdırma" siyasətinin zəifləməsinə, nəhayət, aradan qaldırılmasına təkan

verəcəkdir. Digər tərəfdən isə, tarixi baxımdan "işğalçının" kim olduğu, işğal edilmiş ərazilərin kimə məxsusluğu məsələsi öz müsbət həllini tapacaqdır.

Bütün bu irəliləyişlərin əsasında gərgin, məqsədyönlü işlər dayanırdı. Cənab İlham Əliyevin nümayəndə heyəti fəaliyyətinin əsas istiqamətləri haqqında fikirlərini təhlil edərkən bir çox maraqlı məqamları aşkar etmək mümkündür. Nümayəndə heyətinin üzvləri ilə siyasi qruplardakı fəaliyyətimizin qurulması barəsində fikir mübadiləsi apararkən əksəriyyət bildirdi ki, qüvvələri qruplar arasında parçalamaq olmaz. Bir-iki qrupda fəaliyyət göstərilərsə, onda üstünlük qazanmaq olar. Bu məsələ ilə bağlı nümayəndə heyəti tərəfindən qərar qəbul edilərkən qrupun demokratik lider olmadığı, onun ən optimal və uzaq məqsəd güdməni müəyyən etmək potensialının böyük olduğu aşkar oldu. Təhlillər göstərdi ki, siyasi qrupların hamısında işin səmərəli qurulması deputatlara obyektiv informasiya ötürülməsinə və Azərbaycan haqqında düzgün təsəvvürün formalaşmasına, eyni zamanda nümayəndə heyəti üzvlərinin Şuranın işinə geniş cəlb edilməsinə şərait yarada bilər. Doğrudan da qısa bir müddət ərzində qrup üzvləri müxtəlif siyasi qruplardakı fəaliyyətlərinə görə AŞ PA-nın monitorinq komitələrinə üzv seçildilər. Bir nəfər üzv AŞ PA-nın Cənubi Qafqaz üzrə medianın vəziyyətinə dair məruzəçi təyin edildi. Bu da, təbii ki, Azərbaycan nümayəndə heyətinin fəal işinin nəticəsi idi. Bu bizim obyektiv mövqeyimizdən irəli gəlirdi, qısa müddətdə AŞ PA-da gördülər ki, Azərbaycan demokratiya prinsiplərinə sadiqdir. Bu prinsipləri nümayəndə heyətimiz AŞ PA-dakı fəaliyyəti ilə bir daha nümayiş etdirdi. Təbii ki, burada Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyevin böyük zəhməti var idi. Onun hər bir iclasda, siyasi, daimi komitələrdəki çıxışları Azərbaycanın ədalətli olduğunu nümayiş etdirmək üçün mühüm əhəmiyyət kəsb edirdi.

Nümayəndə heyətinin fəaliyyəti nəticəsində Azərbaycana münasibət müsbət mənada dəyişdi və Avropanın böyük dövlətlərinin nümayəndə heyətləri ilə eyni səviyyədə qəbul olunmağa başladı.

Cənab İlham Əliyev nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyəti barədə deyirdi: "Azərbaycan nümayəndə heyətinin burada apardığı işlər öz bəhrəsini verir. Obyektivlik naminə qeyd etməliyik ki, burada qazanılmış uğurlar nümayəndə heyəti rəhbərinin şəksiz zəhmətinin nəticəsidir. Düzgün qurulmuş iş nəticəsində nümayəndə heyətindən siyasi qrupların təklifinə əsasən üç nəfər azərbaycanlı AŞ PA-nın Monitorinq Komitəsinə üzv seçilmişdir. Parlament Assambleyasında hazırda beş qrup var. Bu qrupları partiya da adlandırmaq olar. Həmin siyasi qruplara say tərkibindən asılı olaraq Monitorinq Komitəsində mandatlar (kvota) verilir. Yəni, deputatlar buraya milli nümayəndə heyətinin təklifi ilə seçilməlidir".

Bu, Azərbaycanın böyük nailiyyətidir ki, belə bir nüfuzlu komitədə 12 nəfərdən ibarət nümayəndə heyətinin üç üzvü iştirak edir. Monitorinq Komitəsi yeganə komitədir ki, orada yalnız üzvlük institutu mövcuddur və 76 üzvdən ibarətdir. Azərbaycan AŞ PA-ya üzv olarkən İlham Əliyev tərəfindən müəyyən edilmiş siyasət öz bəhrəsini verdi. Tam əsasla demək olar ki, qruplarda bir çox

məsələlərin həllində nümayəndə heyətinin mövqeyi həlledici əhəmiyyətə malik idi. Deputatlarımız hər bir qrupda Azərbaycan haqqında obyektiv ictimai rəyin formalaşması üçün fəal işlə məşğuldurlar. Təsadüfi deyil ki, bu gün Ermənistan mətbuatı da yazır ki, Azərbaycan nümayəndə heyəti AŞ PA-nın üzünü Azərbaycana tərəf çevirdi.

İki ilə yaxın bir müddətdə İlham Əliyev Dağlıq Qarabağ münaqişəsi üzrə AŞ PA-nın xüsusi məruzəçisinin təyin edilməsinə çalışırdı. Çünki götürülmüş öhdəlikdə də bu münaqişənin sülh yolu ilə həllinə çalışmaq xüsusi qeyd edilmişdi. Lakin Ermənistan nümayəndə heyəti bu məsələdən yayınmağa cidd-cəhdlə çalışırdı. Nəhayət ki, bu məsələ də öz həllini tapdı.

2003-cü il Azərbaycan diplomatiyasının yeni uğurları ilə başladı. Avropa Şurası Parlament Assambleyasının qış sessiyasının ilk günündə daimi nümayəndə heyətinin başçısı, millət vəkili İlham Əliyev AŞ PA-nın sədr müavini və büro üzvü seçildi.

Bu hadisənin əhəmiyyətini daha yaxından dərk etmək üçün AŞ PA-nın idarəetmə sisteminə nəzər salmaq yerinə düşərdi: Parlament Assambleyasının reqlamentinə görə, qış sessiyasının ilk günündə bir il müddətinə prezident və vitse-prezidentlər seçilir. Bir qayda olaraq, əlahiddə hadisə baş verməzsə, seçilən şəxs iki dəfə məsul vəzifəyə sahiblik edir.

Parlament Assambleyası dairələrində yaxşı tanınan, yüksək nüfuza və təşkilatçılıq qabiliyyətinə malik olan şəxs seçilir. Qeyri-rəsmi olaraq prezident AŞ PA-ya daxil olan böyük dövlətlərin müsbət rəyinə malik olmalıdır.

Vitse-prezidentlər isə əhalisinin sayına görə dörd qrupa bölünən ölkələrdən seçilir. Azərbaycan əhali sayına görə üçüncü qrupdadır və onun nümayəndəsinin rəyasət heyətinə seçilməsi heç də ancaq təmsilçiliklə bağlı deyil.

Avropa Şurası nüfuzlu beynəlxalq təşkilatdır və onun dünya proseslərinə təsiri, imkanları çox böyükdür. Avropanın aparıcı dövlətləri bunu yaxşı bildiklərindən təşkilatın səmərəli idarə edilməsinə çox həssaslıqla yanaşırlar. Buna görə də onun rəhbər orqanlarına kimlərin və hansı dövlət nümayəndələrinin seçilməsi çox böyük əhəmiyyət kəsb edir.

Vitse-prezidentlər AŞ PA sistemində statuslarına görə ikinci şəxs sayılırlar və heç birinin digərindən üstünlüyü yoxdur. Prezident olmadıqda vitse-prezidentlər assambleyanın iclaslarını aparmaq hüququna malikdirlər. Onlar büro iclaslarında ümumi və ya komitə iclaslarının gündəliklərinin formalaşmasında müstəsna hüquqlara malikdirlər. Eyni zamanda, prezidentin tapşırığı ilə vitse-prezidentlər Avropa Şurasının səlahiyyətlərinə aid məsələlərin həlli ilə də məşğul olurlar.

Nümayəndə heyətinin başçısı İlham Əliyevin timsalında kiçik bir ölkənin nümayəndəsinin Avropa Şurası sistemi çərçivəsində qazandığı uğurları istənilən avropalı siyasətçi arzu edə bilər. Qısa müddətdə İlham Əliyev özünü müasir dünya problemlərini bilən və onların həllinə dair real və konkret təkliflər verən strateq kimi tanıda bildi.

Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sədr müavini və büro üzvü seçilməsi ölkəmizin beynəlxalq münasibətlər sistemində öz yerinin möhkəmləndirilməsi və qloballaşan dünyaya inteqrasiyası istiqamətində atılan yeni bir uğurlu addım idi.

Azərbaycan nümayəndə heyətinin başçısı, Avropa Şurası Parlament Assambleyası sədrinin sədr müavini və büro üzvü İlham Əliyev Avropa Şurası ilə Azərbaycan arasında münasibətləri çox aydın görərək yüksək qiymətləndirmişdir: "Avropa Şurası tərəfindən Azərbaycana münasibət çox yüksəkdir, çox müsbətdir. Mənim AŞ PA sədrinin müavini və büro üzvü seçilməyim bir daha onu göstərir ki, Avropa Şurası ilə Azərbaycan arasında, eləcə də Azərbaycan nümayəndə heyətinin üzvləri arasında heç bir problem yoxdur. Əksinə, əməkdaşlıq, gözəl münasibət var. Biz birlikdə çalışacağıq ki, Azərbaycanda gedən demokratik prosesləri daha da genişləndirək. Eyni zamanda, Azərbaycan nümayəndə heyəti AŞ PA-da öz mövqeyini müdafiə edəcəkdir. Ermənistanı təcavüzkar, işğalçı dövlət kimi ifşa edəcək və bizim milli maraqlarımızı müdafiə edəcəkdir".

Azərbaycan parlament nümayəndə heyətinin başçısı İlham Əliyev qış sessiyasının gündəliyindəki "Cənub-Şərqi Avropa üçün sabitlik paktının imkanları" məsələsinin müzakirəsində etdiyi çıxışında AŞ PA-nın son sessiyasında Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması faktının tanınaraq bu məsələyə önəm verilməsini müsbət hal kimi qiymətləndirmişdir. O, xüsusilə vurğulamışdır ki, Azərbaycanın işğal olunmuş əraziləri sadalanmış sənədin sessiyada qəbul edilməsinə Avropa Şurasının üzvü olduqdan sonra Azərbaycan nümayəndə heyəti iki il vaxt sərf etmişdir.

Bütövlükdə görülmüş işlər nəticəsində indi Azərbaycan nümayəndə heyətinin qurumda rolu artmış və onunla hesablaşırlar. AŞ PA-nın komitələrində Azərbaycanın mənafeyinə xidmət edən məsələlərin qaldırılması, nümayəndə heyətimizin tək Azərbaycanla bağlı deyil, başqa dövlətlərə dair məsələlərə münasibət bildirməsi ölkəmizin beynəlxalq arenada çəkisini artırır, Azərbaycanın obyektiv olaraq demokratik, hüquqi dövlət imicinin təşəkkülünə müsbət təsir edir. Monitorinq Komitəsinin iclaslarında da azərbaycanlı deputatlar fəal şəkildə iştirak edirlər. Bir çox ölkələrlə bağlı öhdəliklərin müzakirəsi zamanı bizim mövqeyimizin həmin məsələlərə baxılıb-baxılmamasında həlledici rolu oldu. Müqayisə üçün qeyd etmək lazımdır ki, Ermənistandan cəmi bir nəfər Monitorinq Komitəsinə üzv seçilmişdi. Bizim üçün çox əhəmiyyətli olan Miqrasiya, qaçqınlar və demoqrafiya məsələləri üzrə Komitənin "Qaçqınların işi" alt komitəsinə ermənilərdən heç kim seçilə bilmədi. Azərbaycan isə orada iki nümayəndə ilə təmsil edilmişdir.

AŞ PA-nın 2003-cü il yaz sessiyasının gündəliyinə Ermənistanda prezident seçkilərinin nəticələri, Avropa Şurasının 50 illiyi çərçivəsində böyük Avropada nəqliyyat siyasəti, mühacirlərin vəziyyəti, kənd təsərrüfatı sahəsində yeni siyasət, Azərbaycan, İsveç və Ermənistandan Avropa Məhkəməsinə hakimlərin seçilməsi,

Avropa və Xəzər regionunda enerji ehtiyatlarının işlənilməsi, Avropa və İraq böhranı, üzv dövlətlərdə dillərin qorunması, Cənubi Qafqazda mədəniyyətin vəziyyəti və sair məsələlər daxil idi. Göründüyü kimi, sessiyanın gündəliyində bilavasitə Azərbaycana aid məsələlər də vardır.

AŞ PA sədrinin müavini və büro üzvü İlham Əliyevin Ermənistanda Prezident seçkilərinin nəticələri müzakirə olunarkən etdiyi çıxışı daha əhəmiyyətli sayılmalıdır. Erməni diasporunun maliyyələşdirdiyi rəsmi, qərəzli erməni təbliğatının yaydığı məlumatın əksinə olaraq, Ermənistanda keçirilmiş prezident seçkiləri zamanı ciddi pozuntulara yol verilməsini həmin ölkədə beynəlxalq hüquq normalarının mütəmadi pozulmasının məntiqi sonluğu sayan İlham Əliyev qeyd etdi ki, Ermənistan hamılıqla qəbul edilmiş hüquq qaydalarını, beynəlxalq təşkilatların sənədlərini pozaraq Azərbaycan torpaqlarını işğal altında saxlamaqda davam edir və bu təcavüzkar dövlətin təqsiri üzündən bütöv bir xalqın insan hüquqları tapdalanmışdır.

İlham Əliyev qondarma Dağlıq Qarabağ respublikası adlı ərazinin mövcudluğu faktını da beynəlxalq hüquq normalarının kobud surətdə pozulması hesab edərək dedi ki, Avropanın bu hissəsində beynəlxalq nəzarət yoxdur: "Əslində, bu ərazi hərbi rejimin əlindədir. Hamı bilir, beynəlxalq ictimaiyyət üçün də gizli deyil ki, Dağlıq Qarabağ müxtəlif növ beynəlxalq terrorçuların və digər kriminal ünsürlərin sığınacaq yerinə çevrilmişdir. Biz buna son qoymalıyıq. Avropa Şurasının üzvü olan Ermənistan bu beynəlxalq qurumun digər üzvünün — Azərbaycanın ərazisini işğal altında saxlamaqda davam edir". Ermənistanın yalnız Azərbaycan üçün deyil, regionun, Avropanın sabitliyi üçün təhlükə mənbəyinə çevrildiyini nəzərə çarpdıran İlham Əliyev AŞ PA-nın 47 deputatının imzaladığı sənədə əsasən indiyədək Gürcüstanda yerləşən Rusiya hərbi bazalarından silahların həmin ölkənin Ermənistandakı bazalarına daşındığını bildirdi. "Beləliklə, Ermənistan ölkəsinin və cəmiyyətinin militarizasiyası üçün daha bir qorxulu addım atır. Təcavüzkar ölkədən, terrorizmi dəstəkləyən dövlətdən, söz, mətbuat, fikir azadlığını boğan cəmiyyətdən azad və ədalətli seçkilər gözləməyə dəyməz".

"Cənubi Qafqazda mədəniyyətin vəziyyəti" mövzusunda məruzəsində Ermənistanın işğal etdiyi ərazilərimizdə Azərbaycan xalqının tarixi abidələrinin dağıdılmasından respublikamızın ictimaiyyətinin ciddi narahatlıq keçirməsi xüsusi vurğulanmışdır. İlham Əliyev məruzə ətrafında müzakirələrdə çıxış edərkən Cənubi Qafqaz ölkələrinin, o cümlədən Azərbaycanın qədim sivilizasiyaya, məşhur mədəniyyət incilərinə malik olduğunu və bu ölkələrin müstəmləkə rejimində yaşamalarına baxmayaraq, millət kimi, zəngin mədəni irsin sahibi kimi özlərini səciyyələndirən xüsusiyyətləri qoruyub saxladığını dedi. Lakin müstəqillik qazandıqdan sonra ölkəmizin ən əvvəl müharibədən əziyyət çəkdiyini, nəticədə ərazi itkisinə məruz qaldığını, vətəndaşlarının xeyli hissəsinin uzun müddətdir ki, qaçqın və məcburi köçkün kimi yaşadığını avropalıların diqqətinə bir daha çatdıran İlham Əliyev qeyd etdi ki, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan

ordusu tərəfindən 4400 mədəniyyət obyekti və sosial obyekt, 850 təhsil ocağı dağıdılmışdır. Mədəni abidələrin çoxu məhv edilmisdir və bu gün Bakıda İncəsənət muzeyinin həyətində işğal edilmiş ərazilərdən gətirilən musiqi və ədəbiyyat xadimlərinin abidələri üzərində erməni faşizminin nişanələri vardır. Azərbaycanlılara qarşı soyqırımı siyasəti yürüdən, məqsədlərinə terror hərəkətləri ilə çatmaq istəyən ermənilər vaxtilə Şuşada ucaldılan həmin abidələri də güllələbaran etmişdilər.

Nümayəndə heyətinin rəhbəri İlham Əliyev qeyd etmişdir ki, bugünkü Ermənistan ərazisinin 45 faizinin azərbaycanlıların əzəli torpağı olduğunu, soydaşlarımızın vaxtilə Dağlıq Qarabağda 130 min ermənіyə yaşayış yeri verdiyini bildirdi. Bununla sübut etdi ki, ermənilər iddia etdikləri torpaqda köklü əhali deyillər, onların Dağlıq Qarabağa iddiası tamamilə əsassızdır.

Azərbaycan torpaqlarının ermənilər tərəfindən yox, məhz Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyi faktını Avropa Şurası rəsmən tanımışdır, işğal edilmiş bölgələrin hamısının adları AŞ PA-nın rəsmi sənədində yazılmışdır. İlham Əliyevin fəaliyyəti nəticəsində AŞ PA Azərbaycan reallıqlarını qəbul edir, ermənilərin saxta məlumatlarına inanmır və Ermənistanı işğalçı kimi tanımaqda davam edir.

Cənab İlham Əliyev AŞ PA-nın aprel ayının 2-də keçirilən iclasında fransalı deputat B.Şrenerin "Avropa və Xəzər dənizi regionunda enerji ehtiyatlarının inkişafı" mövzusunda məruzəsinin müzakirəsində də çıxış etmişdir. "Dövlət müstəqilliyi qazandıqdan sonra xarici sərmayələri Xəzər dənizinə cəlb edən birinci ölkə kimi Azərbaycan adambaşına düşən xarici sərmayənin həcminə görə keçmiş SSRİ məkanında, habelə Şərqi və Mərkəzi Avropanın bir sıra ölkələri arasında liderdir. Xəzərin hüquqi statusu kiminsə arzularına uyğun deyil, dünyada qəbul olunmuş beynəlxalq təcrübəyə əsasən həllini tapacaqdır" — deyən İlham Əliyev Xəzəryanı ölkə kimi Azərbaycanın da enerji ehtiyatlarını inkişaf etdirmək hüququna malik olduğunu xatırlatdı, AŞ PA deputatlarını təmsil etdikləri dövlətin rəsmi mövqeyindən çıxış etməyə çağırdı.

Avropa Şurası Parlament Assambleyasının 2003-cü il yay sessiyası İlham Əliyevin beynəlxalq aləmdə yüksək nüfuza malik olduğunu bir daha sübut etdi. Belə ki, Avropa Şurası Parlament Assambleyasının iyunun 26-da keçirilən növbəti sessiyasında Azərbaycanda siyasi məhbuslar məsələsi barədə Hüquq məsələləri və insan hüquqları komitəsinin üzvü, belçikalı deputat Corc Kleyfartın məruzəsi dinlənilir. Azərbaycana qarşı qərəzli mövqe tutan məruzəçi ölkəmizin Avropa Şurasına üzv qəbul edildiyi vaxt "siyasi məhbus" problemi ilə bağlı götürdüyü öhdəlikləri yerinə yetirmədiyini bildirmiş, müxtəlif cinayətlərə görə məhkum olunmuş şəxsləri "siyasi məhbus" kimi qələmə vermişdir. Məruzəçi iki dəfə Azərbaycanda olduğunu, həbsxanalara baş çəkdiyini, məhbusların vəkilləri ilə görüşdüyünü bildirərək onların qarşıdakı prezident seçkilərində səsvermə hüququndan məhrum olunmalarına irad tutmuşdur.

Məruzə ətrafında gedən gərgin müzakirələrdə 12 deputat çıxış etmişdir. Onların əksəriyyəti məruzənin səthi hazırlandığını, qərəzli xarakter daşıdığını, hətta Avropa Şurasının meyarlarına uyğun gəlmədiyini, bəzi məqamların, o cümlədən Azərbaycan Prezidentinin 2003-cü il 17 iyun tarixli fərmanı ilə 106 məhbusun azad olunması faktının məruzədə öz əksini tapmadığını bildirmiş, bu məsələ ilə əlaqədar Avropa Şurasının Baş katibi Valter Şvimmer tərəfindən təyin edilmiş ekspertlər qrupunun rəyi ilə məruzəçinin mövqeyinin ziddiyyət təşkil etdiyini xüsusi vurğulamışlar. Deputatlar kimin "siyasi məhbus", kiminsə cinayətkar olmasının ciddi araşdırmalara ehtiyacı olduğunu bildirmiş, məsələyə tam aydınlıq gətirmək üçün müstəqil ekspertlər qrupuna əlavə vaxt verilməsi təklifini irəli sürmüşlər.

AŞ PA sədrinin müavini və büro üzvü İlham Əliyev Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi qətiyyət nümayiş etdirərək artıq gündəliyə salınmış "siyasi məhbus" haqqında məruzənin ziddiyyətli olduğunu və seçkiqabağı vəziyyətə təsir etmək məqsədi güddüyünü bəyan edir. Cənab İlham Əliyev demokratik qrupun yığıncağındakı çıxışında məruzə hazırlanandan sonra ölkədə əsaslı dəyişikliklər baş verdiyini və Prezidentin sonuncu əfv fərmanını sessiya iştirakçılarının nəzərinə çatdırdı: "Bu fərmana əsasən 106 məhbus həbsxanadan buraxılır. Azərbaycan Avropa Şurasına daxil olduğu vaxtdan bəri bəzi qeyri-hökumət təşkilatlarının hazırladığı 716 nəfərdən ibarət "siyasi məhbus" siyahısı 527 nəfər azalmışdır. Bu, o deməkdir ki, bizim Avropa Şurasındakı üzvlüyümüz dövründə bəzi qeyri-hökumət təşkilatlarının "siyasi məhbus" hesab etdiyi 527 dustaq azadlığa buraxılmışdır". Onların Kleyfartın sənədi ilə yox, Prezidentin fərmanı ilə bağışlandığını deyən Avropa Şurasının Baş katibi V.Şvimmerin təyin etdiyi müstəqil ekspertlərin "siyasi məhbus" saydığı iki şəxsin də dövlətimizin başçısının son fərmanı ilə azad olunduğunu bildirən İlham Əliyev məruzə ilə müstəqil ekspertlərin fikirləri arasında ciddi ziddiyyətlər olduğunu avropalı deputatlara çatdırdı: "Müstəqil ekspertlərin siyasi məhbus hesab etmədiyi bəzi şəxslər məruzəçi tərəfindən "siyasi məhbus" hesab olunur. Bu da öz əksini layihədə tapmışdır. İkinci səbəb məruzənin siyasi baxımdan sərt olmasıdır. Bu da Azərbaycanın siyasi həyatına çox mənfi təsir göstərə bilər". Avropa Şurasının fəaliyyəti tarixində ölkələrin prezident, yaxud parlament seçkiləri ərəfəsində bu cür məsələləri müzakirə etmək praktikasına rast gəlinməmişdir. AŞ PA xüsusən Ermənistanın problemlərinə həssaslıqla yanaşır. Heç zaman bu ölkənin daxili məsələlərini siyasiləşdirmək cəhdləri görünmür. İlham Əliyev məruzənin 25 paraqrafında dəyişikliklər etmək ehtiyacının yarandığını bildirdi, bütün bunlara görə bu məsələnin AŞ PA-nın qış sessiyasınadək təxirə salınmasını təklif etdi. Azərbaycanın təklifini Rusiya, İtaliya, Gürcüstan, Fransa, İngiltərə və başqa ölkələrin nümayəndələri dəstəklədilər və ölkəmizi qrup şəklində müdafiə edəcəklərini bildirdilər. Siyasi məsələlər, Hüquqi məsələlər və İnsan hüquqları komitələrində də Azərbaycanın təklifinə həssaslıqla yanaşıldı. Siyasi məsələlər komitəsi qurumun Baş katibinə ünvanladığı məktubunda müzakirə olunacaq

məsələnin yalnız Azərbaycan nümayəndə heyətinin nüfuzuna deyil, eyni zamanda qarşıdan gələn prezident seçkiləri prosesinə, eləcə də Dağlıq Qarabağ məsələsinə təsir edə biləcəyindən narahatlığını ifadə etdi.

Göründüyü kimi, nümayəndə heyətimizin başçısı öz diplomatik məharəti ilə ölkənin milli maraqlarını qorumağa yönələn kifayət qədər güclü dəstək qazana, nəticədə AŞ PA-nın məqbul qərara gəlməsinə nail ola bildi.

"Avropada muxtar vilayətlərin müsbət təcrübəsi" məsələsi ilə bağlı məruzə edən A.Qross dünyanın qaynar nöqtələrinə çevrilmiş və mənfi təcrübəsi olan muxtar vilayətlərin adlarını çəkməyəndə İlham Əliyev məruzəçini ciddi tənqid etdi. İlham Əliyevin təklifi ilə layihə qətnaməsinə "muxtariyyət verilməsi dövlətin özünün suverenliyinə və ərazi bütövlüyünə əsaslanmalıdır" və "muxtar qurumların beynəlxalq aləmdə tanınmış sərhədləri pozmağa hüququ yoxdur" əlavələri salındı. Beləliklə, bu sessiyada Azərbaycan nümayəndə heyətinə sanksiyalar təklif ediləcəyi barədə mülahizələr yürüdən şəxslər növbəti dəfə məyus oldular. Nəzərə alsaq ki, C.Kleyfartın məruzəsində "siyasi məhbus" məsələsinə görə əməkdaşlıqdan yayındığı üçün nümayəndə heyətinin mandatına baxılması məsələsi də öz əksini tapmışdı, onda şəxsi mülahizələrə əsaslanan bu bəndin İlham Əliyev tərəfindən ciddi tənqid edilməsinin səbəbi aydınlaşar: "Hesab edirəm ki, belə məsələlərdə insanlar gərək şəxsi hisslərdən bir az uzaq olsunlar. Amma eyni zamanda oraya salınan bənd şəxsən məni heç də qorxutmur. Bu, qəbul olunsa da, mənim şəxsi mövqeyimdə heç bir dəyişiklik olmayacaqdır".

Dağlıq Qarabağ üzrə məruzənin hazırlanmasına nail olaraq Avropa Şurasının növbəti dəfə öz sənədlərində Ermənistanı "işğalçı dövlət" adlandırmasına və Azərbaycan torpaqlarının azad edilməsinə çalışan İlham Əliyev "Vəzifəm burada Azərbaycanın milli maraqlarını qorumaqdan ibarətdir" — dedi. O bildirdi ki, bu yolda onu nə Kleyfartın hədələri, nə də layihəyə salınan maddələr qorxudur. Çünki Kleyfartın Azərbaycanda bəyəndiyi bəzi siyasi qurumlar və şəxslər var ki, onlar bir-biri ilə qrup marağından işbirliyi yaratmaqdadırlar.

Xüsusilə qeyd edilməlidir ki, AŞ PA-nın bəzi deputatları Azərbaycana qarşı aqressiv mövqeləri ilə həmişə seçilmişlər. Bu məsələ ilə bağlı İlham Əliyev iyunun 26-da verdiyi müsahibədə deyirdi: "Bir qrup deputat var ki, Azərbaycana münasibətdə daim ədalətsiz mövqe nümayiş etdirir, ikili standartla yanaşır, Azərbaycanla bağlı hər hansı xırda məsələni şişirdir və beləliklə, ölkəmiz haqqında mənfi imic formalaşdırmaq istəyir.

Biz belə hallarla əvvəllər də rastlaşmışdıq. Bu sessiyada da belə hallar mövcud idi. Amma buna baxmayaraq, assambleyada təmsil olunan deputatların əksəriyyəti Azərbaycana böyük rəğbətlə, böyük maraqla, böyük hörmətlə yanaşır. Biz bu xoş münasibəti burada daim hiss edirik. Elə buna görə də siyasi məhbuslarla bağlı məsələ sessiyanın gündəliyindən çıxarılıbdır".

Beləliklə, AŞ PA "siyasi məhbus" məsələsi ilə bağlı məruzəni qeyri-təkmil və ziddiyyətli sayaraq yenidən işləmək və payız sessiyasında müzakirəyə çıxarılması üçün komitəyə qaytarmış, bu uğura səbəb isə İlham Əliyevin

Azərbaycanın ümummilli mənafeyini qorumaq vəzifəsini bir daha inamla, heç bir şərt qəbul etmədən prinsipiallıqla yerinə yetirməsi olmuşdur.

AŞ PA-nın 2003-cü il payız sessiyasında Avropa Şurasında müşahidəçi statusu ilə təmsil olunan dövlətlərdə ölüm cəzasının ləğvi, təşkilatla qeyri-hökumət qurumları arasında münasibətlər, milli azlıqların hüquqları, miqrasiya və sığınacaq sahəsində ümumi siyasət və digər məsələlər müzakirəyə çıxarılmışdır.

Sessiyada iştirak edən Azərbaycan nümayəndə heyətinin üzvləri müzakirələrə qatılaraq müəyyən məsələlərə öz münasibətlərini bildirmişlər. Sessiyanın gedişi zamanı müxtəlif komitələrdə yığıncaqlar keçirilir. Monitorinq komitəsinin iclasında ölkəmizdə olmuş komitə üzvü Martines Kassan öz səfəri barədə məlumatında Azərbaycanda siyasi vəziyyət, seçkiqabağı proseslər, seçki kampaniyasının aparılması ilə bağlı məsələlərə toxunur.

Komitənin digər üzvü, macarıstanlı deputat isə qərəzli mövqe tutaraq heç bir fakta əsaslanmadan guya ölkəmizdə demokratik ideyalara təzyiq göstərildiyini qeyd etmişdir. Xatırladaq ki, bu deputat artıq deputatlıq səlahiyyəti bitmiş belçikalı Corc Kleyfartı ölkəmizə qarşı qərəzli mövqe tutmaqda həmişə dəstəkləmişdir.

Azərbaycan nümayəndəsi onun ölkəmizdə gedən demokratik inkişaf barədə digər deputatlarda yanlış təsəvvür yaratmaq səyinə qarşı kəskin etirazını bildirərək komitədə belə neofaşist fikirlərin səslənməsinə son qoymağa çağırmış, müstəqil Azərbaycan dövlətinə, ölkəmizdə bərqərar olan demokratik proseslərə hörmətlə yanaşmağı tələb etmişdir. Eyni zamanda, o, komitə üzvlərinin diqqətini Azərbaycanda demokratik təsisatların normal işləməsinə, seçkiqabağı kampaniyanın demokratik şəkildə aparılmasına, müxalifətin seçkilərdə iştirakına tam şərait yaradılmasına, hətta AŞ PA deputatlarının onların yaratdıqları internet saytlarına daxil olaraq apardıqları kampaniya ilə ətraflı tanış ola bildiklərinə yönəltmişdir.

Deputatımızın Azərbaycanda demokratik seçkilər keçiriləcəyi, xalqımızın öz iradəsini ifadə edərək prezidentini seçəcəyi barədə məlumatını komitə üzvləri böyük razılıq hissi ilə qarşılamışlar.

AŞ PA-nın Elm, təhsil və mədəniyyət komitəsinin növbəti iclasında Ermənistan xarici işlər naziri Vardan Oskanyanın sessiyanın gedişi zamanı Strasburqda Avropa Şurasının Baş katibi Valter Şvimmerə şəxsən təqdim etdiyi məktub, parlamentin üzvünün isə bu beynəlxalq quruma ünvanladığı bir neçə sənədlə əlaqədar məsələ müzakirə olunmuşdur.

Məktub və sənədlərdə Naxçıvan Muxtar Respublikasının Culfa rayonu ərazisində ermənilərə məxsus qəbiristanlıq və qədim abidələrin olduğu və onların dağıdıldığı iddia edilmiş, Avropa Şurasından bu barədə ciddi ölçü götürmək xahiş olunmuşdur. Xatırladaq ki, hələ aprel ayında məsələ ilə əlaqədar Ermənistan nümayəndə heyəti Elm, təhsil və mədəniyyət məsələləri komitəsinə müraciət etmişdi. Ermənilərin bu təşvişi həmin dövrdə Milli Məclisin deputatının AŞ PA sessiyasında — Cənubi Qafqazda mədəniyyətin vəziyyəti barədə məruzəsində işğal

edilmiş ərazilərimizdəki milli-mədəni sərvətlərin ermənilər tərəfindən dağıdılması haqqında məlumatından irəli gəlmişdir.

Komitə üzvləri Avropa Şurası Katibliyində həmin materiallarla yaxından tanış olmuş və bununla bağlı müzakirə keçirmişlər. Müzakirə zamanı Culfa rayonu ərazisindəki qəbiristanlığın və digər abidələrin alban tayfalarına məxsus olduğu, başqa dövlətlərin mədəni irsinə kölgə salmağa vərdiş etmiş ermənilərin həmin abidələri öz adlarına çıxdığı, Ermənistan tərəfindən işğal edilmiş ərazilərimizdə, habelə Ermənistan ərazisində olan və YUNESKO-nun rəsmi qeydiyyatından keçmiş abidələrimizin dağıdıldığı konkret faktlarla açıqlanmış, həmişə dünya ictimaiyyətinin diqqətini əsas məsələdən yayındırmağa çalışan ermənilərin növbəti bəhanələrinin əsassız olduğu bildirilmişdir. İşğal altında olan ərazimizdəki qədim Azıx mağarasında ermənilərin bir neçə ölkənin mütəxəssisləri ilə birlikdə qazıntılar aparmaları barədə Azərbaycanın xarici işlər naziri V.Quliyevin Avropa Şurasının Baş katibinə göndərdiyi məktub və onun məzmunu xatırladılmışdır. Məktubda xalqımızın milli sərvəti olan Azıx mağarasında aparılan qazıntılara kəskin etiraz bildirilmiş, mədəniyyət abidələrinin qorunması barədə beynəlxalq konvensiyanın dördüncü maddəsinin ciddi şəkildə pozulduğu vurğulanmışdır.

Geniş və qızğın müzakirələrdən sonra komitə Cənubi Qafqazın hər üç ölkəsində məsələni yerindəcə araşdırmaq üçün müstəqil ekspertlər qrupunun yaradılmasını məqsədəuyğun saymışdır. Xatırladaq ki, ermənilər Gürcüstan ərazisində də onlara məxsus abidələrin dağıdıldığını iddia edirlər.

Komitə ekspertlər qrupunun fəaliyyəti üçün şərait yaradılması barədə hər üç ölkəyə müraciət etməyi, sənədlərdə göstərilən yerlərə qrupun səfərinin təşkili, onun məlumatının komitədə, əgər ciddi məsələlər üzə çıxarsa, AŞ PA-nın sessiyalarının birində müzakirəyə çıxarılması üçün Avropa Şurasının rəhbərliyinə müraciət etmək barədə qərar çıxarmışdır.

Azərbaycan nümayəndə heyətinin uğurları ilə bağlı çoxlu fakt göstərmək olar. Təşkilata tamhüquqlu üzv olduğumuz qısa müddət ərzində AŞ PA-nın iki mühüm komitəsinin Qaçqınlar və miqrasiya, İqtisadi məsələlər üzrə komitələrinin iclasları Bakıda keçirilmişdir. İqtisadi məsələlər üzrə komitənin iclası çərçivəsində Xəzərin hüquqi statusu və enerji sərvətlərinin istismarı ilə bağlı seminarın keçirilməsi xüsusi qeyd edilməlidir. AŞ PA-nın müvafiq strukturlarının təklifi ilə bu iclasın və seminarın işinə nümayəndə heyətimizin rəhbəri İlham Əliyev sədrlik etmişdi. Digər fakt: bu dövr ərzində nümayəndə heyətimizin üzvlərindən biri AŞ PA-nın çox mühüm komitəsi olan monitorinq, yəni, üzv ölkələrdə öhdəliklərin yerinə yetirilməsinə nəzarət üzrə komitənin üzvü seçilmiş, nümayəndə heyətinin başqa bir üzvü isə Elm, təhsil və mədəniyyət komitəsinin Cənubi Qafqaz üzrə məruzəçisi təyin olunmuşdu.

Göründüyü kimi, Azərbaycan nümayəndə heyəti digər beynəlxalq qurumlara nisbətən daha çox bu təşkilatda uğur qazanmışdır. Sözsüz ki, bu, nümayəndə heyətinin rəhbəri İlham Əliyevin nüfuzu ilə bağlıdır.

Ümumiyyətlə, AŞ PA-da Azərbaycan parlament nümayəndə heyətinin fəaliyyəti təqdirəlayiqdir. Hadisələrin inkişafı göstərir ki, Avropa ictimaiyyəti Azərbaycan həqiqətlərinə biganə deyil və Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzünün doğurduğu ağır nəticələrin aradan qaldırılmasına öz töhfəsini verə bilər.

Azərbaycan nümayəndə heyətinin nailiyyəti bu mənada indiyə qədər eyni qəbildən olan fəaliyyət görsəntilərindən məhz qaldırılan problemlərin Avropa müstəvisinə maksimum yaxınlaşdırılması xüsusiyyətləri ilə fərqlənir. Məlum məsələdir ki, AŞ PA öz tərkibinə görə çoxspektrli bir qurum olduğundan, burada bir-birinə zidd siyasət yeridən, dövlət maraqları qlobal miqyasda toqquşan ölkələrin nümayəndələri toplaşır, üstəlik, onların siyasi baxışları çoxcəhətlidir. Belə bir geniş auditoriyada yalnız ümumdünya və Ümumavropa əhəmiyyətli problemlərdən bəhs etməklə, siyasi baxış və görüşlər fərqinə yüksəlməklə uğur qazanmaq mümkündür.

AŞ PA-da nümayəndə heyətimizin üzvləri Azərbaycanın milli maraqları ilə bağlı məsələlərdə siyasi ambisiyalarını bir kənara qoyduqları, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmağa çalışdıqları üçün bu mühüm beynəlxalq qurumda çox dəyərli sənədlərin qəbuluna nail olublar. Ermənistandan fərqli olaraq, Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin hamısına vaxtlı-vaxtında əməl etməsi, cənab İlham Əliyevin sözləri ilə desək, uzun illər ərzində Avropa ölkələrinin keçdiyi yolu qısa bir zamanda keçmək istəməsi, Azərbaycanın rəsmi mövqeyini ifadə edərək beynəlxalq təşkilatda Ermənistan nümayəndə heyəti ilə əlaqələr yaratmaqdan imtina edilməsi — bütün bunlar insan hüquqları və demokratikləşmə prosesinin sistemli şəkildə irəli getdiyindən xəbər verir.

Beləliklə, səmərəli fəaliyyətin nəticəsi olaraq Azərbaycanın təmsilçisi bu mötəbər beynəlxalq təşkilatda əsas söz sahiblərindən birinə çevrilmiş, AŞ PA-nın siyasi idarəetmə iyerarxiyasında təmsil olunaraq qurumun fəaliyyət istiqamətlərini, siyasətini müəyyənləşdirən rəhbər heyətin üzvü olmaq haqqını qazanmışdır. Bu yüksəliş İlham Əliyevin şəxsində Azərbaycanın qazandığı elə bir uğurdur ki, bir millət olaraq biz bu kimi nailiyyətləri çox az yaşamışıq.

2003-cü il oktyabr ayının 15-də Azərbaycanda keçirilmiş prezident seçkilərində böyük üstünlüklə qalib gəlmiş İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi və bununla əlaqədar olaraq AŞ PA-dakı fəaliyyətini dayandırdı. Onu da qeyd etmək lazımdır ki, Avropa Şurası bu seçkilərə böyük maraq göstərdi və böyük bir nümayəndə heyətini beynəlxalq müşahidəçi qismində seçki prosesini izləmək üçün Azərbaycana göndərdilər. Təşkilat və onun Azərbaycan üzrə məruzəçiləri beynəlxalq standartlara uyğun keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin qalib gəldiyini rəsmi şəkildə bəyan edərək ölkəmizdə yaranmış yeni siyasi şəraitlə əlaqədar bir sıra təkliflər verdilər.

Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti rəhbərinin müavini, millət vəkili Səməd Seyidov ölkəmizin Avropa Şurasında təmsil olunduğu heyətə rəhbər təyin edildi.

AŞ PA-nın 2004-cü il yaz sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı əlamətdar bir tarixə təsadüf edirdi. Dövlət başçımızın AŞ PA-da ölkəmizin nümayəndə heyətinə rəhbərlik etdiyi 3 illik dövr ciddi nailiyyətlərlə yadda qaldı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özü də AŞ PA-da fəaliyyət göstərdiyi illərin onun üçün çox qiymətli olduğunu vurğulayırdı: "Həyatımın bu dövrü mənim üçün, bəlkə də ən maraqlı, mühüm zaman kəsiyidir və bu dövr gələcək fəaliyyətimdə, əlbəttə ki, bugünkü vəzifəmdə də vacib rol oynadı".

Azərbaycan Prezidentinə AŞ PA-nın fəxri üzvü diplomu və medalının təqdim olunmasını bu təşkilatın İlham Əliyevin səmərəli fəaliyyətinə və işgüzarlığına verdiyi yüksək qiymət kimi səciyyələndirmək olar. "Biz ən fəal deputat və nümayəndə heyətinin rəhbəri, habelə AŞ PA-nın ən fəal rəhbərlərindən biri, nəhayət, ən fəal dövlət başçısı kimi qiymətləndirdiyimiz Azərbaycan Prezidenti İlham Əliyevi yenidən öz yanımızda görməkdən fərəh hissi keçiririk. Sizin Avropa dəyərlərinə, Avropa Şurasına xüsusi diqqətiniz hamımızda minnətdarlıq hissi doğurmuşdur". Bu sözləri AŞ PA-nın sədri Piter Şider Azərbaycan Prezidentinə fəxri üzv diplomunu və medalını təqdim edərkən söyləyib.

Prezidentin ən müxtəlif görüşlərdə, o cümlədən AŞ PA-dakı çıxışında və burada keçirdiyi mətbuat konfransında vurğuladığı məqamlar Azərbaycan haqqında Avropada həqiqi və obyektiv təsəvvürlərin formalaşmasını təmin etməyə istiqamətləndirilmişdir.

"The Quardian" qəzeti Azərbaycan Prezidentinin sabiq həmkarları ilə görüşünü tarixi hadisə adlandıraraq qeyd etdi ki, İlham Əliyevin Strasburqa səfəri Ermənistan hakimiyyətini çaşqın duruma saldı. Təsadüfi deyil ki, İlham Əliyevin AŞ PA-da çıxışından bir gün sonra Ermənistan hakimiyyət partiyalarının parlament fraksiyaları bir araya gələrək mövcud vəziyyəti müzakirə etdilər. Ermənistan siyasi dairələrinin bu narahatlığı İlham Əliyevin sessiyada işğalçı rejimin ünvanına söylədiyi sərt ittihamlardan və Ermənistanı ifşa etməsindən irəli gəlirdi.

Səfərin nəticələri belə deməyə əsas verdi ki, Avropada Azərbaycana regionun ən inkişaf etmiş ölkəsi kimi baxırlar və respublikamızın iqtisadi tərəqqisini ifadə edən amillər, eyni zamanda demokratiyanın təşəkkülü sahəsində irəliləyişlər müstəqil dövlətimizin yalnız hüquqi anlamda deyil, həm də faktiki baxımdan beynəlxalq birliyin bərabərhüquqlu üzvü kimi özünü təsdiqlədiyini göstərir.

2005-ci il parlament seçkiləri: Qərbə sürətlə inteqrasiya edən və Avropa dəyərlərini mənimsəyən Azərbaycanda və ölkə hüdudlarından kənarda böyük maraqla izlənilən 2005-ci il parlament seçkiləri demokratikləşmə proseslərini sürətləndirən bir çox pozitiv yeniliklərlə yaddaqalan olmuş, nəticə etibarilə xalqın

iradəsini əks etdirmişdir. Bu reallıq istər prosesdə bilavasitə iştirak edən maraqlı tərəflər, istərsə də parlament seçkiləri kampaniyasının gedişini ilk mərhələdən diqqətlə izləyən çoxsaylı müşahidəçi qruplar tərəfindən açıq etiraf olundu. 2005-ci il noyabr ayının 6-da Azərbaycanda keçirilmiş parlament seçkilərinin nəticələrinə görə Yeni Azərbaycan Partiyası böyük üstünlüklə qalib gəldi.

Bu seçkilərdə Azərbaycan tarixində ilk dəfə "exit-poll" keçirildi və əksər dairələrdə "exit-poll"un nəticələri ilə MSK-nın elan etdiyi nəticələr üst-üstə düşdü. Seçkiləri, həmçinin, 45 ölkədən 1586 beynəlxalq müşahidəçi izləmişdir. Onların tərkibinə gəlincə, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosundan 663 nəfər, Avropa Şurasından 1 nəfər, Avropa Şurası Parlament Assambleyasından 51 nəfər, MDB-dən 361 nəfər, habelə bir çox ölkələrin hökumət və qeyri-hökumət təşkilatlarından yüzlərlə müşahidəçi seçkilərin gedişini müşahidə etmişdir.

Seçkiləri Beynəlxalq Müşahidə Missiyasının (SBMM) ilkin faktlar və nəticələr haqqında bəyanatında 6 noyabr parlament seçkilərinin obyektivliyi öz əksini tapır. Azərbaycanda keçirilmiş parlament seçkilərini müşahidə edən Seçkiləri Beynəlxalq Müşahidə Missiyası ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin, ATƏT-in Parlament Assambleyasının, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, NATO Parlament Assambleyasının birgə fəaliyyətidir. Seçkiyə hazırlıq prosesində, eləcə də səsvermə gedişində nəzərə çarpan müsbət meyillər bu bəyanatda xüsusi qiymətləndirilir. Missiyanın bəyanatında SBMM-in seçki günü müşahidə apardığı məntəqələrin 87 faizində səsvermə müsbət dəyərləndirilmişdir.

SBMM-in və bütövlükdə seçkiləri yaxından izləmiş digər müşahidə missiyalarının bəyanatlarında müəyyən qüsurlara, çatışmazlıqlara baxmayaraq, 6 noyabr parlament seçkilərinin ümumilikdə demokratik və azad şəraitdə keçirilməsi, xalqın mütləq əksəriyyətinin iradəsini əks etdirməsi xüsusi qeyd edilmişdir.

2006-cı ilin ilk günləri Azərbaycanın Avropa məkanında növbəti uğura imza atması ilə əlamətdar oldu. Ümumiyyətlə, Avropa Şurasının rəsmi sənədlərində Azərbaycan ərazilərinin Ermənistan hərbi birləşmələri tərəfindən işğal olunması faktı dəfələrlə qeyd edilmişdir. Bu müsbət prosesin davamı kimi 2006-cı il yanvar ayının 9-da AŞ PA-nın Dağlıq Qarabağ problemi üzrə alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında lord Rassel Constonun hazırladığı yeni hesabatda Azərbaycan ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi və s. faktların öz əksini tapması yuxarıda qeyd edilənlərə sübutdur.

Beləliklə, bu mötəbər qurum növbəti dəfə bəyan etdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Avropa Şurasının və rəsmi Bakının mövqeləri üst-üstə düşür.

Avropa Şurası Parlament Assambleyasının 2006-cı il qış sessiyasında ölkəmizdə keçirilən 2005-ci il parlament seçkilərinin nəticələri ilə bağlı aparılan ilkin müzakirələr bir sıra maraqlı məqamları üzə çıxardı. Məsələlərə qeyri-obyektiv yanaşma tərzi ilə seçilən AŞ PA-nın isveçrəli həmməruzəçisi Andreas Qross

Azərbaycana münasibətdə bu dəfə də qərəzli mövqe nümayiş etdirdi. Həmməruzəçinin çıxışında beynəlxalq müşahidəçilərin və nüfuzlu parlament seçkilərini izləyən müşahidə missiyalarının prosesin şəffaf və demokratik keçirilməsi ilə bağlı rəylərinə birbaşa zidd məqamlar özündə yer alıb. Subyektivizmə söykənən, bilavasitə dünyanın nüfuzlu qurumlarının və dövlətlərinin müşahidə missiyalarının rəylərinə qarşı yönəlmiş hesabatda yalnız qanun pozuntuları öz əksini tapmışdır. Odur ki, bu hesabatı bütövlükdə parlament seçkiləri haqda deyil, seçkilər zamanı yol verilmiş qanun pozuntuları haqda çıxış adlandırmaq daha doğru olardı.

Azərbaycan nümayəndə heyətinin mandatı məsələsi sessiyada geniş müzakirəyə səbəb oldu. Həm məruzədə, həm də çıxışlarda Azərbaycan nümayəndə heyətinin üzvlərinə mandat verilməsinin vacibliyi vurğulanmışdır və bu məsələ ilə əlaqədar səsvermə keçirildi. Səsvermənin nəticələrinə uyğun olaraq Azərbaycan nümayəndə heyəti üzvlərinin mandatı təsdiq edildi.

Sessiyanın ilk günlərində nümayəndə heyətinin üzvü R.Hüseynov "Avropa Şurasının təməl prinsiplərinə və əsas meyarlarına zidd fəaliyyət göstərən işğalçı Ermənistanın bu təşkilatın üzvlüyündə qalmasının yolverilməzliyi" adlı sənəd hazırladı. Ümumiyyətlə, Avropa Şurasında bir sıra sənəd formaları mövcuddur: tövsiyə üçün təkliflər, yazılı bəyanat və Nazirlər Komitəsinə ünvanlanan yazılı sual. R.Hüseynovun Nazirlər Komitəsinə ünvanlanmış yazılı sual şəklində yeni hazırladığı sənəddə göstərilirdi ki, Ermənistan Avropa Şurası qarşısındakı öhdəliklərini müntəzəm olaraq Azərbaycana qarşı işğalçılıq siyasətinə son qoymaq barədə öhdəliyinə əməl etmək əvəzinə, bu işğalı daha da dərinləşdirmək istiqamətində yeni addımlar atdığına və eləcə də öz ölkəsi daxilində insan hüquqlarına münasibətdə son dərəcə mənfi mövqedə dayandığına görə Avropa Şurası sıralarında qala bilməz.

Bir sözlə, yeni sənədin əsas məqsədi Ermənistanın işğalçı dövlət olduğunu, bu ali təşkilatın tələblərinə cavab vermədiyini, meyarlarına uyğun gəlmədiyini bir daha Avropa deputatlarına göstərməkdən ibarət idi.

Beləliklə, bu sessiyada Azərbaycanın Avropaya inteqrasiyasında maraqlı olmayan, ölkəmizi demokratik görmək istəməyən qüvvələrin cəhdləri iflasa uğradı. Bir daha hamı üçün aydın oldu ki, Avropa Şurası özünün demokratiya ideallarına sadiqdir. Avropa Şurası ayrı-ayrı şəxslərin emosiyasını və şəxsi ambisiyasını rəhbər tutmur. Demokratiya ideallarının və Avropa standartlarının özünün əsas prinsipi olduğunu bir daha göstərdi və göründüyü kimi, ədalətli qərar qəbul edilərək deputatlarımızın mandatı təsdiq edildi.

Həmin sessiyadan ötən 4 il ərzində Azərbaycan Parlament nümayəndə heyətinin AŞ PA-dakı fəaliyyəti yüksək qiymətə layiqdir. Azərbaycan diplomatiyasının uğurlu dövrü sayıla biləcək bu zaman kəsiyi bir sıra ciddi nailiyyətlərlə yadda qalmışdır. AŞ PA sessiyalarının gündəliyindəki mövzuların aktuallığı Azərbaycan nümayəndə heyətinin sessiyalarda xüsusilə fəal iştirakına, heyət üzvlərinin bu məsələlər üzrə ölkəmizdə mövcud olan vəziyyəti diqqətə

çatdırmalarına, Azərbaycan həqiqətlərini Avropa Şurası tribunasından bir daha səsləndirmələrinə əlverişli şərait yaratmışdır. Bu şəraitdən maksimum yararlanan nümayəndə heyətimizin üzvləri Azərbaycanın əldə etdiyi nailiyyətləri böyük iftixar hissi ilə dilə gətirməklə yanaşı, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün yaratdığı problemləri də təəssüf doğuran fakt kimi mütəmadi olaraq Avropa parlamentarilərinin diqqətinə çatdırırlar.

S.Seyidovun rəhbərlik etdiyi Azərbaycan parlament nümayəndə heyəti qurumun sessiyalarında daim fəallığı ilə seçilmişdir. Bu gün Avropa Şurasının ayrı-ayrı komitələrində, habelə alt komitələrdə rəhbər vəzifələrdə təmsil olunan deputatlarımız tərəfindən bir sıra vacib ümumavropa problemləri ilə bağlı məruzələr və onlarla sənəd hazırlanmışdır. Nümayəndə heyətinin üzvləri müxtəlif qlobal və ümumbəşəri əhəmiyyətə malik məsələlərin müzakirələrində fəal iştirak edərək öz mövqelərini bildirirlər.

Beləliklə, Azərbaycandan bir qədər əvvəl və ya eyni vaxtda Avropa Şurasına qəbul edilmiş ölkələrlə müqayisədə Azərbaycanın bu qurumda qazandığı nəticələri təhlil etdikdə, habelə Azərbaycan parlament nümayəndə heyətinin tövsiyələri ilə hazırlanmış məruzələrin sayını götürdükdə, Azərbaycan təmsilçilərinin Avropa Şurasını zənginləşdirmək, bu mötəbər qurumun öz işini daha səmərəli təşkil etməsi üçün nə qədər ardıcıl çalışdığının şahidi olarıq.

Keçmiş sovet məkanında müstəqillik əldə etmiş, sonra müxtəlif səbəblərdən Avropa Şurasından kənarda qalmış ölkələr də var. 10 il əvvəl əksər parametrləri ilə Azərbaycana bənzəyən bu ölkələrdən Azərbaycan indi qat-qat irəlidədir. Şübhəsiz ki, bu müvəffəqiyyətdə demokratiya məktəbi sayılan Avropa Şurasının faydalı dərsləri və təcrübələrinin də böyük rolu var. Lakin bu illərdə Azərbaycan Avropa Şurası ailəsi və məktəbində təkcə öyrənməklə məşğul olmağa çalışmamışdır. 10 il əvvələ nisbətən Avropa Şurası da dəyişib, inkişaf edib və bu inkişafda Azərbaycanın da payı az deyildir.

Bir sözlə, Avropa Şurasında bu günə qədər əldə edilmiş uğurlar respublikamızın dünya birliyinə inteqrasiyasında bu mötəbər qurumla əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyini bir daha sübut edir.

*IV fəsil*

## Avropa Şurası qarşısında götürülmüş öhdəliklər kontekstində əməkdaşlıq

İnsan hüquqlarının və plüralistik demokratiyanın müdafiəsi, Avropa mədəniyyətinin müxtəlifliyinin saxlanılmasına və bu müxtəliflikdə vahid Avropa dəyərlərinin inkişaf etdirilməsinə, üzv ölkələrdə siyasi və hüquqi islahatların həyata keçirilməsinə kömək göstərilməsini özünün prioriteti elan edən Avropa Şurasına Azərbaycanın tamhüquqlu üzv olması istiqamətində mühüm işlər görülmüşdür. Ümummilli lider Heydər Əliyevin 1996-cı il iyulun 8-də "Avropa Şurası ilə Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi tədbirləri haqqında", 1998-ci il yanvarın 20-də "Avropa Şurası ilə

Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu ilin may ayının 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə zəmin yaratdı. Bu sərəncamlara əsasən, Avropa standartlarına uyğunluq baxımından Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Mülki və Mülki-Prosessual məcəllələri, digər qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir. Bu qanunlar bütün fəaliyyət sahələrində Avropa standartlarının implementasiyası üçün təminatlar yaratmışdır.

Qeyd edilən müsbət proseslərin məntiqi davamı olaraq Avropa Şurasına qəbuldan ötən dövr ərzində Azərbaycan demokratik və hüquqi dövlət quruculuğunda, insan hüquq və azadlıqlarının etibarlı təminində xeyli iş görmüşdür. Ölkəmizdə çoxpartiyalı plüralist cəmiyyət formalaşmış, azad söz və mətbuat azadlığı gündəlik mühitimizin ayrılmaz hissəsinə çevrilmişdir. Azərbaycan Avropa Şurası qarşısında götürülmüş öhdəliklərə uyğun olaraq bir sıra qanunların qəbulu ilə yanaşı, vacib beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, onların milli qanunvericiliyə implementasiyasını həyata keçirmişdir.

Qeyd etmək lazımdır ki, milli qanunvericiliyin AŞ prinsip və standartına tam uyğunlaşdırılması, yəqin ki, mümkün deyil. Hazırda heç bir dövlət bu yüksək standartlara tam cavab vermir, əks təqdirdə Avropa İnsan Hüquqları Məhkəməsinin işi öz əhəmiyyətini itirərdi. Lakin uyğunlaşmağa cəhd zəruridir. Təcrübədə bu məqsədə nail olmaq üçün iki yol var. Bu qanunvericilik orqanının planlaşdırılmış işi gedişində qanunvericiliyə dəyişikliklər edilməsi və Avropa məhkəməsinin qərar çıxarması ilə əlaqədar normativ-hüquqi aktlara və hüquq tətbiqi təcrübəsinə dəyişikliklər edilməsidir. Avropa İnsan Hüquqları Konvensiyasında göstərilən hüquqlarının pozulması ilə əlaqədar Azərbaycan vətəndaşlarının Avropa Məhkəməsinə çoxsaylı iddialarının qaçılmaz olduğunu nəzərə alaraq müvafiq pozuntuları müəyyən edən məhkəmənin qərarları da qaçılmazdır. Beləliklə, normativ-hüquqi aktlara və hüquq tətbiqi təcrübəsinə dəyişikliklərin də qarşısı alınmazdır. Bu cür proseslərin qarşısını almaq üçün Avropa Şurasına qəbul ərəfəsində bəzi ölkələr, o cümlədən Azərbaycan Şuranın köməyi ilə milli qanunvericiliyin Avropa İnsan hüquqları Konvensiyası ilə müqayisəli təhlilini apardı. Bundan əlavə, Azərbaycanın Avropa Şurasına qəbul ərəfəsində öz üzərinə götürdüyü öhdəliklərlə əlaqədar Avropa İnsan Hüquqları Konvensiyası standartlarını Konstitusiyada təsbit etmək üçün 2002-ci il avqustun 24-də keçirilən referendum nəticəsində ölkənin Əsas Qanununa dəyişikliklər edildi. Dəyişikliyə görə, insanın yaşamaq hüququ daha təminatlı edildi, parlamentin səlahiyyətləri genişləndirildi, vətəndaşlara Konstitusiya Məhkəməsinə müraciət etmək və digər hüquqlar verildi. Bu prosesin davamı olaraq 2009-cu il martın 18-də Konstitusiyaya növbəti dəyişikliklər edildi.

Üzvlüyə qəbuldan sonra İnsan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatı yaradıldı. Azərbaycan İnsan Hüquqları üzrə Avropa Konvensiyasına qoşulduqdan sonra hər bir vətəndaş hüquqlarının pozulduğunu hesab etdiyi hallarda Avropa Məhkəməsinə müraciət etmək hüququ əldə etdi. Avropa məhkəməsinə Azərbaycandan olan hakim seçildi.

Ölkədə yüzlərlə qəzet, onlarla jurnal, 30-dan çox müstəqil teleradio şirkəti fəaliyyət göstərir. "Kütləvi informasiya vasitələri haqqında" qanuna edilən dəyişikliklər onların daha da müstəqil olmasına şərait yaratdı. İctimai televiziya, Milli Teleradio Şurası yaradıldı.

Ölkəmiz açıq cəmiyyət olduğunu siyasi sahə ilə yanaşı, iqtisadi sahədə də sübuta yetirdi. Sahibkarlığın inkişafı üçün bütün maneələr aradan götürüldü, vergi və gömrük normaları xeyli liberallaşdırıldı. Xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi üçün hüquqi təminat sistemi yaradıldı.

Azərbaycanın Avropa Şurası qarşısında üzərinə götürdüyü öhdəliklərin hazırkı icra vəziyyəti onu deməyə əsas verir ki, Avropa Şurası Parlament Assambleyasının 28 iyul 2000-ci il tarixli 222 saylı Tövsiyəsində nəzərdə tutulan öhdəliklərin əksəriyyəti yerinə yetirilmişdir.

Belə ki, bu sənəddə diqqət tələb edən, zəif, inkişaf etməmiş və demokratiya proseslərini əngəlləyən halların aradan qaldırılması zərurəti qeyd olunur.

Avropa Şurasının üzərimizə qoyduğu öhdəlikləri 5 əsas qrupa bölmək olar:

Bir sıra vacib Avropa konvensiyalarının ratifikasiyası, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli, daxili qanunvericilikdə islahatlar, aparılması insan hüquqlarının vəziyyətini yaxşılaşdırmaq, öhdəliklərin yerinə yetirilməsinin monitorinqini təşkil etmək.

Göstərilən hər bir kateqoriya isə özündə Avropa Şurasının konkret müddətlər müəyyən etdiyi bir neçə öhdəliyi birləşdirir.

Beləliklə, öhdəliklərin və onların yerinə yetirilməsinin xronoloji ardıcıllığına diqqət yetirək.

## ÖHDƏLİKLƏR

### Dərhal

*I. Konvensiyalarla bağlı:*

1. Avropa İnsan Hüquqları Konvensiyasını və onun 1 4, 6 və 7 saylı protokollarını imzalamaq;
2. Avropa Şurasının İmtiyaz və immunitetləri haqqında Baş sazişi və ona əlavə protokolları imzalamaq.

*II. Daxili qanunvericiliklə bağlı:*

Seçkilər haqqında qanunvericiliyə, xüsusilə Mərkəzi Seçki Komissiyası haqqında qanuna və seçkilər haqqında qanuna, əvvəlki seçkilər zamanı beynəlxalq müşahidəçilər tərəfindən irəli sürülmüş tövsiyələri nəzərə almaqla, yenidən baxmaq.

**1 il müddətində**

Konvensiyalarla bağlı:

1. Avropa İnsan Hüquqları Konvensiyasını və onun 1, 4, 6 və 7 saylı protokollarını təsdiq etmək;
2. İşgəncə və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftar və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyasını və onun protokollarını imzalamaq və təsdiq etmək;
3. Milli azlıqların müdafiəsi haqqında Avropa Şurasının Çərçivə Konvensiyasını imzalamaq və təsdiq etmək;
4. Yerli özünüidarə haqqında Avropa Xartiyasını imzalamaq və təsdiq etmək;
5. Avropa Şurasının imtiyaz və immunitetləri haqqında Baş sazişi və ona əlavə protokolları təsdiq etmək.

daxili qanunvericiliklə bağlı:

1. Avropa Şurası ekspertlərinin qeydlərini nəzərə almaqla, Cinayət Prosessual Məcəlləni qəbul etmək;
2. Ombudsman haqqında qanun qəbul etmək;
3. Korrupsiyaya qarşı mübarizə haqqında qanun qəbul etmək;
4. Birliklərin qeydiyyatını tənzimləyən normalara və şikayət prosedurlarına yenidən baxmaq və onlara əlavə və dəyişikliklər etmək.

**2 il müddətində**

Konvensiyalarla bağlı:

1. Ərazi birlikləri və hakimiyyət orqanları arasında sərhədaşırı əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası və onun əlavə protokollarını imzalamaq və təsdiq etmək;
2. Ekstradisiya haqqında Konvensiyanı imzalamaq və təsdiq etmək;
3. Cinayət məsələlərində qarşılıqlı yardım haqqında Konvensiyanı imzalamaq və təsdiq etmək;
4. Cinayətkar yollarla əldə edilmiş gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirəsi haqqında Avropa Konvensiyasını imzalamaq və təsdiq etmək;
5. Məhkum edilmiş şəxslərin verilməsi haqqında Konvensiyanı imzalamaq və təsdiq etmək;
6. Avropa Sosial Xartiyasını imzalamaq;
7. Korrupsiya haqqında cinayət hüquqi Konvensiyasını imzalamaq və təsdiq etmək;
8. Korrupsiya haqqında mülki hüquq Konvensiyasını imzalamaq və təsdiq etmək;

daxili qanunvericiliklə bağlı:

1. Korrupsiyaya qarşı mübarizə haqqında dövlət proqramı qəbul etmək;
2. Avropa standartlarına uyğun olaraq alternativ xidmət haqqında qanun qəbul etmək;

3. Ən gec olaraq Avropa Şurasına daxil olduğu iki il müddətində kütləvi informasiya vasitələri haqqında qanuna yenidən baxmaq və ona əlavə və dəyişikliklər etmək;

4. Konstitusiya Məhkəməsinə müraciətin şərtlərinə yenidən baxmaq və Azərbaycan Respublikası hökumətinə, Baş prokurora, bütün səviyyələrdə olan məhkəmələrə, ayrı-ayrı hallarda isə fərdlərə də müraciət hüququ vermək.

**3 il müddətində**

Konvensiyalarla bağlı:

Avropa Sosial Xartiyasını təsdiq etmək. Daxili qanunvericiliklə bağlı:

1. Növbəti yerli seçkilərə qədər, yerli hakimiyyət orqanlarının səlahiyyətlərini tənzimləyən mövcud qanunvericiliyə, onlara daha geniş vəzifələr və müstəqillik vermək istiqamətində, Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin bu barədə tövsiyələrini nəzərə almaqla, əlavə və dəyişikliklər etmək;

Ayrı-seçkiliyə yol verilməməsi haqqında Konstitusiyada və Cinayət Məcəlləsində təsbit olunmuş müddəaları tamamlayan və milli azlıqlar haqqında Azərbaycan Respublikası Prezidentinin məlum fərmanını əvəz edən azlıqlar haqqında qanun qəbul etmək;

Vəkillik haqqında qanuna yenidən baxmaq və ona əlavə və dəyişikliklər etmək;

Hakimlərin təyin olunması prosedurlarına və səlahiyyət müddətinə yenidən baxmaq və onlara əlavə və dəyişikliklər etmək.

**Müddəti göstərilməyən öhdəliklər:**

1. İcraedici hakimiyyət qarşısında qanunverici hakimiyyətin möhkəmləndirilməsi məqsədilə islahatları davam etdirmək, belə ki, o, hökumət üzvlərinə parlament sorğuları vermək hüququndan istifadə edə bilsin;

2. Həbsxanalarda cəza çəkən və ya intizam batalyonlarında xidmət edən vicdanla bağlı səbəblərdən hərbi xidmətdən imtina etmiş bütün şəxsləri, silahsız hərbi xidmət və ya alternativ mülki xidmətin icrasına icazə verməklə ("Alternativ xidmət haqqında" qanun qüvvəyə mindikdən sonra) bağışlamaq.

3. Beynəlxalq Qızıl Xaç Komitəsi ilə, onun məhbuslarla məhdudiyyətsiz və qeyd-şərtsiz görüşmək imkanına dair saziş imzalamaq;

4. İnsan hüquqlarının müdafiəsi üzrə təşkilatlar tərəfindən "siyasi məhbuslar" kimi tanınan məhbusları, xüsusilə İsgəndər Həmidovu, Əlikram Hümbətovu və Rəhim Qazıyevi azad etmək və ya onların işinə məhkəmədə yenidən baxmaq;

5. Öz vəzifə borclarının icrası zamanı insan hüquqlarını (xüsusilə işgəncənin qadağan edilməsi) pozmuş hüquq-mühafizə orqanları əməkdaşlarını cinayət hüquqi qaydada təqib etmək;

6. Söz azadlığı və mətbuat və jurnalistlərin müstəqilliklərini təmin etmək, xüsusilə mətbuat azadlığını məhdudlaşdıran inzibati tədbirlərdən istifadəni

istisna etmək;

7. Milli televiziya kanalını müstəqil inzibati şura tərəfindən idarə edilən ictimai kanala çevirmək.

Cədvəl vasitəsilə Azərbaycan Respublikasının Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi ilə bağlı məlumatlara nəzər salaq:

| **AŞ PA-nın 222 saylı Rəyi üzrə** | **Azərbaycanın Avropa Şurası qarşısında öhdəlikləri** | **Avropa Şurası qarşısında öhdəliklərin yerinə yetirilməsi vəziyyəti** |
|---|---|---|
| **1** | **2** | **3** |
| **14(i) (a)** | Qəbul olduğu zaman 2 və 11 saylı protokolların əlavə edildiyi Avropa İnsan Hüquqları Konvensiyasını (AİHK) və onun 1, 4, 6, 7 saylı protokollarını imzalamaq. | Avropa İnsan Hüquqları Konvensiyası və onun 1, 4, 6, 7 saylı protokolları 25 yanvar 2001-ci ildə imzalanmışdır. |
| **14(i) (b)** | Qəbul oldunduğu vaxtdan keçən bir il ərzində AİHK və onun 1, 4, 6, 7 saylı protokollarını ratifikasiya etmək. | Avropa İnsan Hüquqları Konvensiyası və onun 1, 4, 6, 7 saylı protokolları 25 dekabr 2001-ci ildə ratifikasiya olunmuşdur. |
| **14(i) (c)** | Qəbul oldunduğu vaxtdan keçən bir il ərzində İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftar və cəzalandırmanın qarşısının alınması haqda Avropa Konvensiyasını və onun protokollarını imzalamaq və ratifikasiya etmək. | İşgəncə və qeyri-insani və ya alçaldıcı rəftar və cəzalandırmanın qarşısının alınması haqda Avropa Konvensiyası və onun protokolları 21 dekabr 2001-ci ildə imzalanmış və 25 dekabr 2001-ci ildə ratifikasiya olunmuşdur. |
| **14(i) (d)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində Avropa Şurasının milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasını imzalamaq və ratifikasiya etmək | Azərbaycan Avropa Şurasının milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasına 16 iyun 2000-ci ildə qoşulmuşdur. Konvensiya 1 oktyabr 2000-ci ildə qüvvəyə minmişdir. |
| **14(i) (e)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində Regional dillər və Azlıqların Dilləri haqqında Avropa Xartiyasını imzalamaq və ratifikasiya etmək. | Regional dillər və azlıqların dilləri haqqında Avropa Xartiyası 21 dekabr 2001-ci ildə imzalanmışdır. Xartiyanın ratifikasiya edilməsi ilə əlaqədar müvafiq ölkədaxili prosedurlar həyata keçirilir. |
| **14(i) (f)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində Yerli özünüidarə haqqında Avropa Xartiyasını imzalamaq və ratifikasiya etmək. | Yerli özünüidarə haqqında Avropa Xartiyası 21 dekabr 2001-ci ildə imzalanmış və 25 dekabr 2001-ci ildə ratifikasiya olunmuşdur. |

| | | |
|---|---|---|
| **14 (i) (g)** | Qəbul olunduğu vaxtdan keçən iki il ərzində Ərazi birlikləri və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası və onun əlavə protokolları, eləcə də Avropa Şurasının ekstradisiya haqqında, cinayət məsələlərində qarşılıqlı yardım haqqında, cinayətkar yollarla əldə olunmuş gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirəsi haqqında və məhkum edilmiş şəxslərin verilməsi haqqında konvensiyalarını imzalamaq və ratifikasiya etmək və eyni zamanda burada əks olunmuş başlıca prinsipləri tətbiq etmək. | —Ərazi birlikləri və hakimiyyət orqanları arasında transsərhəd əməkdaşlıq haqqında Avropa Çərçivə Konvensiyası və onun əlavə protokolları 6 yanvar 2004-cü ildə imzalanmış və 13 yanvar 2004-cü ildə ratifikasiya olunmuşdur. — Ekstradisiya haqqında Avropa Konvensiyası 7 noyabr 2001-ci ildə imzalanmışdır və 17 may 2002-ci ildə ratifikasiya olunmuşdur. — Cinayət məsələlərində qarşılıqlı yardım haqqında Avropa Konvensiyası 7 noyabr 2001-ci ildə imzalanmış və 1 mart 2003-cü ildə ratifikasiya olunmuşdur. — Cinayətkar yollarla əldə olunmuş gəlirlərin leqallaşdırılması, axtarışı, həbsi və müsadirəsi haqqında Avropa Konvensiyası 7 noyabr 2001-ci ildə imzalanmış və 1 mart 2003-cü ildə ratifikasiya olunmuşdur. — Azərbaycan Məhkum edilmiş şəxslərin verilməsi haqqında Avropa Konvensiyasına 12 dekabr 2000-ci ildə qoşulmuşdur. |
| **14(i) (h)** | Qəbul olunduğu vaxtdan keçən iki il ərzində Avropa Sosial Xartiyasını imzalamaq və qəbul olunduğu vaxtdan keçən üç il müddətində onu ratifikasiya etmək və dərhal Xartiyada öz əksini tapmış prinsiplərə uyğun siyasətin həyata keçirilməsinə çalışmaq. | Avropa Sosial Xartiyası 18 oktyabr 2001-ci ildə imzalanmış və 2 sentyabr 2004-cü ildə ratifikasiya olunmuşdur. |
| **14(i) (i)** | Qəbul olunduğu vaxtdan keçən iki il ərzində Korrupsiya haqda cinayət hüququ Konvensiyası və Korrupsiya haqda mülki hüquq Konvensiyasını imzalamaq və ratifikasiya etmək. | — Korrupsiya haqda cinayət hüququ Konvensiyası 21 may 2003-cü ildə imzalanmış və 30 dekabr 2003-cü ildə ratifikasiya olunmuşdur. — Korrupsiya haqda mülki hüquq Konvensiyası 21 may 2003-cü ildə imzalanmış və 30 dekabr 2003-cü ildə ratifikasiya olunmuşdur. |
| **14(i) (j)** | Qəbul olunduğu zaman Avropa Şurasının imtiyaz və immunitetləri haqqında Baş Saziş və ona əlavə protokolları imzalamaq və qəbul olunduğu vaxtdan keçən bir il ərzində ratifikasiya etmək. | Azərbaycan Avropa Şurasının İmtiyaz və immunitetləri haqqında Baş Sazişə və ona əlavə protokollara 4 dekabr 2001-ci ildə qoşulmuşdur. |

| | | |
|---|---|---|
| **14(ii) (a) (b)** | II. Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə: a. Münaqişəni yalnız dinc yollarla nizamlamaq üçün səyləri davam etdirmək. b. Beynəlxalq və yerli mübahisələri, qonşulara qarşı güc tətbiqi ilə hər hansı hədələmədən qəti imtina etməklə, dinc vasitələrlə və beynəlxalq hüququn prinsiplərinə uyğun şəkildə həll etmək (Avropa Şurasının üzvü olan bütün dövlətlərin üzərinə düşən öhdəlik). | Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar ATƏT-in Minsk qrupu çərçivəsində aparılır. Azərbaycan münaqişəni hamılıqla tanınmış beynəlxalq hüquq prinsiplərinə uyğun şəkildə həll etmək üçün səylərini davam etdirir. Bundan əlavə, AŞ PA-nın 1416(2005) saylı qətnaməsinə əsasən, AŞ PA-nın ad hoc komitəsi təsis edilmiş və o, mütəmadi olaraq öz iclaslarını keçirir. |
| **14(iii) (a)** | Seçkilər haqqında qanunvericiliyi, xüsusilə Mərkəzi Seçki Komissiyası haqda qanun və Seçki qanununu əvvəlki seçkilər zamanı beynəlxalq müşahidəçilər tərəfindən irəli sürülmüş tövsiyələri nəzərə almaqla yenidən nəzərdən keçirmək, belə ki, 2000-ci ilin payızında növbəti ümumi seçkilər əldə edilmiş tərəqqini qəti şəkildə təsdiq etsin və onların nəticələri seçkilərdə iştirak edəcək siyasi partiyaların əksəriyyəti tərəfindən qəbul edilsin və beynəlxalq müşahidəçilər tərəfindən azad və ədalətli hesab edilsin. | 2001-ci ildə, qüvvədə olan seçki qanunvericiliyi əhəmiyyətli dərəcədə yenidən nəzərdən keçirilmişdir: Venesiya Komissiyası və ATƏT/DTİHB ilə sıx əməkdaşlıqda yeni Seçki Məcəlləsi hazırlanmış və beynəlxalq təsisatlar tərəfindən bəyənildikdən sonra 27 may 2003-cü ildə qəbul olunmuşdur. Seçki praktikasının təkmilləşdirilməsi ilə bağlı AR Prezidenti 2005-ci il mayın 11-də və oktyabrın 25-də sərəncam imzalamışdır. Seçki Məcəlləsinə Əlavələr və dəyişikliklər haqqında Qanun 2008-ci il iyunun 23-də qəbul olunmuşdur. Qanunda AŞ Venesiya Komissiyasının təklif etdiyi əksər dəyişikliklər nəzərə alınmışdır. |
| **14(iii) (b)** | Növbəti yerli seçkilərdən öncə yerli hakimiyyət orqanlarının səlahiyyətlərini nizamlayan cari qanunvericiliyi, onlara daha geniş məsuliyyətlər və müstəqillik verməklə və Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin bununla bağlı tövsiyələrini nəzərə almaqla təkmilləşdirmək. | Sonuncu ümumi bələdiyyə seçkiləri 2004-cü ilin dekabr ayında, qismən təkrar seçkilər isə 2006-cı il oktyabrın 6-da keçirilmişdir. Yerli hakimiyyətin maliyyə müstəqilliyinin gücləndirilməsi, bələdiyyə torpaqlarının müəyyənləşdirilməsi, mülkiyyətin verilməsi və s. məqsədlər daşıyan bir sıra xüsusi qanunvericilik və inzibati səciyyəli tədbirlər görülmüşdür. Yerli hakimiyyət haqqında qanunvericiliyə düzəlişləri nəzərdə tutan qanun layihəsi (bu qanun layihəsi AŞ Yerli və Regional Hakimiyyətlər Konqresinin tövsiyələrini nəzərə almaqla |

| | | |
|---|---|---|
| | | hazırlanmışdır) 2004-cü il dekabrın 30-da AR Prezidenti tərəfindən imzalanmışdır. Nazirlər Kabineti tərəfindən "Bələdiyyələrə ötürüləcək dövlət əmlakının siyahısının təsdiq edilməsi" barədə qərar verilmişdir. Əvvəlki qərardan fərqli olaraq, bu sənəd təkcə regional bələdiyyələr deyil, həmçinin Bakı şəhər bələdiyyəsini də əhatə edir. 2005-ci il mayın 3-də Bələdiyyələrin regional assosiasiyalarının nümunəvi Əsasnaməsi Milli Məclis tərəfindən qəbul edilmişdir. 2006-cı il mayın 26-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən «Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin gücləndirilməsi tədbirləri barədə» sərəncam imzalanmışdır. Həmin sərəncama əsasən, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş Mərkəzi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin mərkəzi aparatının tərkibinə daxil edilmişdir və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılmışdır ki, nazirliyin müvafiq yerli (regional) bölmələrini yaratsın. Bundan əlavə, 2006-cı ilin sonunda Azərbaycanda bələdiyyələrin 3 milli assosiasiyası (şəhər, qəsəbə və kənd) yaradılmışdır. 2007-ci il iyunun 27-də keçirilən bələdiyyələrin ümumrespublika toplantısında 3 milli assosiasiyanın Əlaqələndirmə Şurasının yaradılması təşəbbüsü dəstəklənmişdir. 23 oktyabr 2007-ci il tarixli qanunla "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və 28 oktyabr 2008-ci il tarixli "Bələdiyyə torpaqlarının torpaq hərracları və ya müsabiqələri vasitəsilə verilməsinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının Qanunu ilə bələdiyyə torpaqları üzərində mülkiyyət, istifadə və icarə hüquqlarının həyata keçirilməsi mexanizm təkmilləşdirilmişdir. Eyni zamanda, 25 aprel 2008-ci il tarixli qanunla "Bələdiyyələrin statusu |

| | | |
|---|---|---|
| | | haqqında" və "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" Azərbaycan Respublikası qanunlarına əlavələr və dəyişikliklər edilərək bələdiyyələrə birləşmək üçün sadə mexanizm yaradılmışdır. 25 iyul 2008-ci ildə keçirilmiş Bələdiyyə sədrlərinin II ümumrespublika toplantısında Azərbaycanda hər il yerli demokratiya həftəsinin qeyd edilməsi barədə qərarına uyğun olaraq noyabr ayının 17-dən 23-dək ölkənin bütün şəhər və rayonlarında yerli demokratiya həftəsi keçirilmişdir. Bələdiyyələrin hesabatlılığı və müstəqilliyinin təmini ilə bağlı 18 mart 2009-cu il tarixində keçirilən referendum nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilmişdir. 22 iyul 2009-cu ildə "Bələdiyyələrin birləşməsi yolu ilə yeni bələdiyyələrin yaradılması haqqında Qanunun tətbiqi ilə bağlı AR Prezidentinin sərəncamı imzalanmışdır. |
| **14(iii) (c)** | Qanunvericilik hakimiyyətinin icra hakimiyyəti qarşısında müstəqilliyinin gücləndirilməsinə yönəlmiş islahatları davam etdirmək, belə ki, qanunvericilik hakimiyyəti hökumət üzvlərinə parlament sorğuları vermək hüququndan istifadə edə bilər. | 1995-ci ildə qəbul edilmiş Konstitusiyanın 95-ci maddəsinin 14-cü bəndinə əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsini Azərbaycan Respublikasının Milli Məclisi həll edir. 2001-ci ildə qəbul edilmiş Konstitusiya qanununun adı bu cür səslənir: Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında. Yəni, bu Konstitusiya qanununun məqsədi Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi hüququnun təsis edilməsindən yox, məhz bu hüququn əlavə təminatları mexanizminin təsis edilməsini nəzərdə tutur. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi hüququnun əlavə |

| | | |
|---|---|---|
| | | təminatları mexanizmi aşağıdakılardır: hər il Azərbaycan Respublikasının Milli Məclisinin yaz sessiyasının beşinci iclasında Azərbaycan Respublikası Nazirlər Kabineti öz fəaliyyəti haqqında hesabat verir; Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair sorğu ilə müraciət edə bilər, həmin sorğuya cavab Azərbaycan Respublikasının Nazirlər Kabinetini təmsil edən səlahiyyətli şəxs tərəfindən Azərbaycan Respublikası Milli Məclisinin iclasında bir aydan gec olmayaraq təqdim edilir. Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının sorğularına cavab vermək üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinin iş qaydaları ilə müəyyən edilmiş hallarda Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri Azərbaycan Respublikası Milli Məclisinin iclasında iştirak edirlər. Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad göstərilməsi məsələsi Azərbaycan Respublikası Prezidentinin və ya Azərbaycan Respublikası Milli Məclisi deputatlarının seçkiləri gününə 6 aydan az qaldıqda müzakirəyə çıxarıla bilməz və bu məsələ birinci müzakirədən yalnız ay keçdikdən sonra təkrarən yenidən müzakirəyə çıxarıla bilər. |
| **14 (iii) (d)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində Avropa Şurası ekspertlərinin qeydlərini nəzərə almaqla, Cinayət-Prosessual Məcəlləsini qəbul etmək. | Cinayət Prosessual Məcəllə 14 iyun 2000-ci ildə qəbul olunmuşdur. |
| **14(iii) (e)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində ombudsman haqqında qanun qəbul etmək. | İnsan hüquqları müvəkkili (ombudsman) haqqında Konstitusiya Qanunu 28 dekabr 2001-ci ildə qəbul olunmuşdur. 2002-ci il iyulun 2-də Azərbaycan Respublikasının ilk |

| | | |
|---|---|---|
| | | ombudsmanı seçilmişdir. |
| **14(iii) (f)** | Qəbul olunduğu vaxtdan keçən bir il ərzində korrupsiyaya qarşı mübarizə haqqında qanun və qəbul olunduğu vaxtdan keçən iki il müddətində isə korrupsiyaya qarşı mübarizə haqqında dövlət proqramı qəbul etmək. | "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun 13 yanvar 2004-cü ildə qəbul olunmuşdur. 2004-cü il aprelin 21-22-də Bakı şəhərində keçirilmiş seminarda "Korrupsiyaya qarşı mübarizə haqqında" qanun və dövlət proqramının layihəsi Avropa Şurasının ekspertləri ilə müzakirə olunmuşdur. Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı (2004-2006-cı illər) 2004-cü il sentyabrın 3-də AR Prezidenti tərəfindən təsdiq olunmuşdur. Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya öz fəaliyyətinə başlamışdır. 2004-cü il oktyabrın 28-də Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin Əsasnaməsi qəbul edilmişdir. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası yanında Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya haqqında Əsasnamə" və "Vəzifəli şəxslər tərəfindən maliyyə xarakterli məlumatların təqdim edilməsi Qaydaları" qəbul olunaraq qüvvəyə minmişdir. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi fəaliyyət göstərir. 2007-ci il iyunun 28-də Azərbaycan Respublikasının Prezidenti Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiyanın və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planının təsdiq edilməsi barədə sərəncam imzalamışdır. Fəaliyyət Planına müvafiq olaraq, 2007-ci ilin dekabrında Aİ Komissiyası və Avropa Şurasının ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD) tərəfindən maliyyələşdirilən "Azərbaycanda korrupsiyaya qarşı mübarizə strategiyasına dəstək (AZPAC)" adlı birgə layihəsi başlamışdır. AZPAC layihəsi çərçivəsində vətəndaş cəmiyyətinin "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin yuyulması və |

| | | |
|---|---|---|
| | | terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanun layihəsinin işlənib hazırlanması prosesinə cəlb edilməsi məqsədilə 22 iyul 2008-ci ildə seminar keçirilmişdir. Bundan əlavə, 2008-ci ildə Ədliyyə Nazirliyi bələdiyyələr üçün şəffaflığın artırılması və korrupsiya ilə mübarizənin müxtəlif aspektlərini əhatə edən 17 seminar keçirmişdir. 2008-ci il 30 dekabr qanunu ilə Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Komissiyasının Nizamnaməsinə əlavələr və dəyişikliklər edilmişdir. Azərbaycan Avropa Şurası Korrupsiyaya qarşı Ölkələr Qrupunun (GRECO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İstanbul planı çərçivəsində bütün tövsiyələrini yerinə yetirmişdir. 2009-cu il 23 fevralda isə dövlət başçısı "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə fərman imzalamış və bu fərman əsasında Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 16 iyul tarixli fərmanı ilə Maliyyə Monitorinqi Xidmətinin əsasnaməsi təsdiq edilmişdir. |
| **14(iii) (g)** | Qəbul olunduğu vaxtdan keçən iki il ərzində Avropa standartlarına uyğun olaraq alternativ xidmət haqqında qanun qəbul etmək, eyni zamanda həbsxanalarda cəza çəkən və ya intizam batalyonlarında xidmət edən vicdanla bağlı səbəblərdən hərbi xidmətdən imtina etmiş şəxsləri, silahsız hərbi xidmət və ya alternativ mülki xidmətin icrasına icazə verməklə (alternativ mülki xidmət haqqında qanun qüvvəyə | Alternativ xidmət haqqında qanun layihəsi ekspert qiymətləndirməsi üçün 2006-cı ilin iyul ayında Avropa Şurasına göndərilmişdir. Avropa Şurası ekspertlərinin 2006-cı ilin noyabr ayında təqdim etdikləri rəylər hazırda hakimiyyət qurumları tərəfindən nəzərdən keçirilir. |

| | | |
|---|---|---|
| | mindikdən sonra) bağışlamaq. | |
| **14(iv) (a)** | Beynəlxalq Qızıl Xaç Komitəsi ilə, onun məhbuslarla məhdudiyyətsiz və qeyd-şərtsiz görüşmək imkanına dair saziş imzalamaq | Beynəlxalq Qızıl Xaç Komitəsi ilə, onun məhbuslarla məhdudiyyətsiz və qeyd-şərtsiz görüşmək imkanına dair saziş 1 iyun 2000-ci ildə imzalanmışdı və Prezident fərmanı ilə 9 iyun 2000-ci ildə təsdiq edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli və 2005-ci il 3 iyun tarixli sərəncamları ilə həmin sazişin qüvvədə olma müddətinin uzadılması haqqında protokollar təsdiq edilmişdir. |
| **14(iv) (b)** | İnsan hüquqlarının müdafiəsi üzrə təşkilatlar tərəfindən "siyasi məhbus" kimi tanınan məhbusları, xüsusilə İsgəndər Həmidov, Əlikram Hümbətov və Rəhim Qazıyevi azad etmək və ya yenidən məhkəmə keçirmək. | AR Prezidentinin 2005-ci il martın 20-də imzaladığı əfv fərmanı ilə Avropa Şurasının müxtəlif siyahılarında göstərilən 53 məhbus da daxil olmaqla, cəmi 114 nəfər (o cümlədən adları tez-tez hallandırılan R.Qazıyev, N.Əfəndiyev, F.Muxtarov, T.Qasımov və digərləri) azadlığa buraxılmışdır. Beləliklə, Avropa Şurası Baş katibinin təyin etdiyi müstəqil ekspertlər tərəfindən siyasi məhbus" hesab edilmiş şəxslərdən üçünün işinə yenidən baxılmış (E.Əmiraslanov, A.Kazımov və S.Poladov), bütün qalan "siyasi məhbus" hesab edilmiş şəxslər isə azadlığa buraxılmışlar. Bundan əlavə, insan hüquqlarının müdafiəsi təşkilatlarının siyahılarında göstərilən 4 nəfər məhkəmələr tərəfindən, 30-dan çoxu isə Azərbaycan Respublikası Prezidentinin 20 iyun 2005-ci il tarixli fərmanı ilə əfv olunaraq azadlığa buraxılmışlar. Hüquq müdafiəçilərinin siyahılarında adları çəkilən daha 10 nəfər "siyasi məhbus" AR Prezidentinin 19 mart 2007-ci il tarixli əfv fərmanı ilə azadlığa çıxmış, 1 nəfərin cəzasının müddəti azaldılmış və 1 nəfərin şərti cəzası ləğv edilmişdir. 2005-ci il iyunun 11-də məsələnin tam bağlanması üçün Azərbaycanın hakimiyyət qurumları və insan hüquqlarını müdafiə təşkilatlarının nümayəndələrindən ibarət işçi qrupu yaradılmış və birgə memorandum imzalanmışdır. |

| | | |
|---|---|---|
| | | Memoranduma görə, Azərbaycan üçün həssas olan bu problemin insan hüquqlarının müdafiəsi təşkilatlarının nümayəndələrinin dövlət hakimiyyəti ilə əməkdaşlığı çərçivəsində ölkə daxilində həll olunması nəzərdə tutulmuşdur. |
| **14(iv) (c)** | Hüquq-mühafizə orqanlarının öz vəzifə borclarının icrası zamanı insan hüquqlarını pozmuş (xüsusilə işgəncənin qadağan edilməsi) üzvlərini hüquqi yolla təqib etmək. | İnsan hüquqlarını pozan (xüsusilə işgəncələr, qeyri-insani və alçaldıcı rəftar, qeyri-qanuni həbs və saxlanma) hüquq-mühafizə orqanları üzvlərinin cəzasız qalmaması üçün bütün müvafiq tədbirlər görülmüşdür. 2005-2007-ci illər ərzində polisə qarşı şikayətlər əsasında aparılmış təhqiqat nəticəsində 634 heyət üzvünün qanun pozuntusuna yol verdiyi aşkar olunmuşdur. Bunlardan 202 nəfəri işdən və ya vəzifədən azad edilmiş, 96-sının vəzifəsi və ya rütbəsi aşağı salınmış, digərləri müxtəlif növ intizam cəzasına məruz qalmışlar. 33 halda cinayət işi açılmışdır. 201 nəfər məhz insan hüquqlarını pozduqlarına görə məsuliyyətə cəlb olunmuş, bunlarda da 41-i işdən azad edilmiş, 31-nin vəzifə və ya rütbəsi aşağı salınmışdır. 26 may 2009-cu ildə "Polis haqqında" Azərbaycan Respublikası Qanununa hüquqa zidd və cəmiyyətə qarşı hörmətsiz davranışın qarşısının alınması məqsədilə maarifləndirmə təbliğatının aparılması haqda bənd də daxil olmaqla əlavələr edilmişdir. |
| **14(iv) (d)** | İfadə azadlığı və mətbuat və jurnalistlərin müstəqilliklərini təmin etmək, xüsusilə mətbuat azadlığını məhdudlaşdıran inzibati tədbirlərdən istifadəni istisna etmək. | Söz azadlığının həyata keçirilməsini asanlaşdırmaq və mətbuatın müstəqilliyini təmin etmək üçün xüsusi qanunverici, təsisati və başqa tədbirlər görülmüşdür. Dərc olunan müstəqil mətbuata müəyyən vacib imtiyaz və istisnalar verilmişdir. Beləliklə, mətbuat məhsulları ƏDV-dən və mənfəət vergisindən azad |

| | | |
|---|---|---|
| | | olunub və dövlət proqramında kommunal və rabitə qurğularının istifadəsində bir sıra üstünlüklər nəzərdə tutan dövlət proqramı mövcuddur. Qəzet kağızına ikiqat gömrük vergisi ləğv olunub. 25 iyun 2002-ci ildə qəbul olunmuş Televiziya və radio yayımı haqqında Qanun Avropa Şurasının ekspertləri ilə ətraflı müzakirə olunmuşdur. 5 oktyabr 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti Avropa Şurasının standartlarına uyğun olan Radio Televiziya Yayımı üzrə Dövlət Şurasının yaranması haqqında fərman vermiş, şura 2003-cü ilin yanvar ayında işə başlamışdır. 15 mart 2003-cü ildə Mətbuat Şurasının tərkibi seçki yolu ilə formalaşdırılmışdır. "Dövlət sirri haqqında" qanun layihəsi Milli Məclisin 2004-cü il payız sessiyasında, "İnformasiya əldə etmək haqqında" qanun isə 2005-ci ilin sentyabrında qəbul edilmişdir. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu hər kəsin sərbəst, maneəsiz, hamı üçün bərabər şərtlərlə informasiya əldə etməsinə hüquqi təminat yaratmışdır. Media sahəsində mövcud problemləri aradan qaldırmaq məqsədilə 2008-ci il avqustun 31-də Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinə dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etmişdir. Konsepsiyaya əsasən, 2009-cu il aprelin 3-də dövlət başçısı "Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Fondunun Nizamnaməsinin təsdiq edilməsi haqqında" fərman imzalamışdır. 22 iyun 2009-cu il Prezident fərmanı ilə Milli Mətbuat Günü münasibətilə bəzi xəbər agentlikləri və qəzetlər 10 min manat həcmində birdəfəlik maliyyə yardımı almışlar. Hazırda Azərbaycanda 3300 KİV dövlət qeydiyyatına alınmışdır. Onlardan yalnız 600-ü fəaliyyət göstərir ki, bunlardan 400-ə yaxını |

| | | |
|---|---|---|
| | | qəzet və jurnal, 20-dən artığı telekanal, 50-yə yaxını elektron KİV-dir. |
| **14(iv) (e)** | Qəbul olunduğu vaxtdan keçən iki ildən gec olmayaraq KİV haqqında qanunu yenidən nəzərdən keçirmək və təkmilləşdirmək. | 7 dekabr 1999-cu il tarixli KİV haqqında Qanun 28 dekabr 2001-ci ildə yenidən nəzərdən keçirilmişdir. Xüsusilə qanunun jurnalistlərin akkreditasiyası və kütləvi informasiya vasitələrinin bağlanması proseduruna dair müddəalara Avropa Şurasının tövsiyələri əsasında düzəlişlər edilmişdir. 2008-ci il mayın 7-də KİV haqqında Qanuna dəyişikliklər və əlavələr edilmişdir. |
| **14(iv) (f)** | Milli televiziya kanalını müstəqil inzibati şura tərəfindən idarə edilən ictimai kanala çevirmək | "İctimai televiziya və radio yayımı haqqında" Qanun 28 sentyabr 2004-cü ildə qəbul edilmiş və noyabrın 9-da müvafiq Prezident fərmanından sonra dərc edilmişdir. Prezident fərmanına əsasən İctimai televiziya Azərbaycan televiziyasının 2-ci kanalı və Dövlət Radiosunun 1-ci kanalı əsasında yaradılmış və 2005-ci il avqustun 29-da fəaliyyətə başlamışdır. Prezidentin 2005-ci ilin martında imzaladığı başqa bir fərmanla Dövlət Televiziya və Radio Şirkəti qapalı səhmdar cəmiyyətə çevrilmişdir, yəni, onun idarəçiliyi dövlət tabeliyindən çıxarılaraq Səhmdar Cəmiyyətin idarə heyətinə verilmişdir. Qapalı Səhmdar Cəmiyyətin səhmlərinin 51 faizi dövlətə məxsusdur. |
| **14(iv) (g)** | Qəbul olduğu vaxtdan keçən üç il ərzində Konstitusiya və Cinayət Məcəlləsində əks olunmuş ayrı-seçkiliyin yolverilməzliyi haqqında müddəaları tamamlayan və milli azlıqlar haqqında prezident fərmanını əvəz edən azlıqlar haqqında qanun qəbul etmək. | Milli azlıqlar haqqında Qanun hazırlanma prosesindədir. |

| | | |
|---|---|---|
| **14(iv) (h)** | Qəbul olunduğu vaxtdan keçən bir ildən gec olmayaraq assosiasiyaların qeydiyyat və müraciət prosedurlarını nizamlayan qaydaları yenidən nəzərdən keçirmək və təkmilləşdirmək. | Avropa Şurası ekspertlərinin və yerli QHT-lərin yaxından əməkdaşlığı ilə hazırlanmış Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Qanun 12 dekabr 2003-cü ildə qəbul olunmuşdur. Qanun QHT-lər də daxil olmaqla, hüquqi şəxslər üçün tamamilə yeni qeydiyyat proseduru nəzərdə tutur. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 27 iyul 2007-ci ildə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" qəbul edilmişdir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 13 dekabr 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası yaradılmışdır. Şura 2009-cu il üçün 226 layihəyə dəstək olaraq 1 milyon 848 manat vəsait ayırmışdır. 2009-cu il iyun ayının 30-da QHT-lər haqqında qanuna dəyişikliklər edilmişdir. |
| **15(i)** | Qəbul olunduğu vaxtdan keçən üç ildən gec olmayaraq Vəkillik haqqında qanunu yenidən nəzərdən keçirmək və təkmilləşdirmək. | "Vəkillər və vəkillik fəaliyyəti haqqında" 28 dekabr 1999-cu il tarixli Qanuna müxtəlif dövrlərdə dəyişikliklər edilmişdir. Son belə dəyişikliklər 2005-ci il iyunun 14-də Milli Məclis tərəfindən qəbul olunmuşdur. Həmin dəyişikliklər AŞ ekspertləri tərəfindən də müsbət qiymətləndirilmişdir. |
| **15(ii)** | Qəbul olunduğu vaxtdan keçən iki ildən gec olmayaraq Konstitusiya Məhkəməsinə müraciət şərtlərini yenidən nəzərdən keçirmək və hökumət, Baş prokuror, bütün səviyyəli məhkəmələr və xüsusi hallarda isə fərdlərə müraciət hüququ vermək. | Konstitusiya Məhkəməsi haqqında yeni Qanun 23 dekabr 2003-cü ildə qəbul olunmuşdur. Qanun şəxslərə, bütün instansiya məhkəmələrinə, o cümlədən ombudsmana Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verir. 2004-cü ilin iyununda Venesiya Komissiyası Konstitusiya Məhkəməsinin Prosedur Qaydalarına dair rəy vermişdir. 2009-cu il 18 mart referendumu nəticəsində Konstitusiyanın 130-cu maddəsinin IX hissəsinə Konstitusiya Məhkəməsinin |

| | | |
|---|---|---|
| | | qərarlarının dərc edilməsi ilə əlaqədar müddəa əlavə edilir. |
| **15(iii)** | Qəbul olunduğu vaxtdan keçən üç ildən gec olmayaraq hakimlərin təyin edilməsi və fəaliyyət müddətləri prosedurlarını yenidən nəzərdən keçirmək və təkmilləşdirmək. | 24 avqust 2002-ci ildə keçirilmiş referenduma əsasən, hakimlərin təyinedilmə proseduru və onların fəaliyyət müddətinə dair Konstitusiyanın müvafiq müddəalarına düzəlişlər edilmişdir. Hal-hazırda apellyasiya məhkəmələrinin hakimləri parlament tərəfindən təyin olunur. Onların fəaliyyət müddəti 10 ildir. Konstitusiya Məhkəməsi hakimlərinin fəaliyyət müddəti 15 il müəyyənləşdirilmişdir. Hakimlərin təyinatı qaydasının təkmilləşdirilməsi üzrə Fəaliyyət Planı tərtib edilmişdir. Fəaliyyət Planına uyğun olaraq hazırlanmış və Avropa Şurasında ekspertizadan keçirilərək 2005-ci il yanvarın 31-dən qüvvəyə minmiş "Məhkəmə-Hüquq Şurası haqqında" və "Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununa əlavə və dəyişikliklər edilməsi haqqında" qanunlara əsasən, yeni demokratik üsullarla formalaşdırılmış Məhkəmə Hüquq Şurası fəaliyyətə başlamışdır. Ədliyyə naziri Şuranın sədri seçilmiş, beynəlxalq mütəxəssislərin tövsiyələrinə uyğun hazırlanaraq Avropa Şurasında ekspertizadan keçirilmiş "Hakimlərin Seçki Komitəsi haqqında Əsasnamə" və "Vakant olan hakim vəzifələrinə hakim olmayan namizədlərin seçilməsi Qaydaları" təsdiq olunmuşdur. Eyni zamanda, yeni qanunvericiliyin tələblərinə əsasən, 20-dək normativ sənədin, o cümlədən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, intizam icraatının aparılması qaydaları haqqında təlimatların və s. sənədlərin hazırlanması üzrə tədbirlər görülmüş, bəzi sənədlər qəbul olunmuşdur. Avropa Şurasının ekspertləri Azərbaycanda məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi və ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə tədbirləri yüksək qiymətləndirmiş, bu sahədə yeni qəbul |

| | | |
|---|---|---|
| | | edilmiş qanunların Avropa standartlarına tam uyğun olduğunu və Azərbaycanda mükəmməl məhkəmə sisteminin yaradılmasına xidmət edəcəyini bildirmişlər. Məhkəmə sisteminin strukturunun təkmilləşdirilməsi və hakimlərin iş yükünün azaldılması məqsədilə müvafiq təhlillər aparılmış, bütün hakimlər arasında anket sorğusu keçirilmiş və bu sahədə beynəlxalq təcrübə əsasında hakimlər üçün məqbul hesab edilən iş yükü və hər məhkəmə üçün nəzərdə tutulan hakimlərin sayı müəyyənləşdirilmişdir. Bununla əlaqədar "Məhkəmələr və hakimlər haqqında" və "Məhkəmə-Hüquq Şurası haqqında" qanunlara əlavələr və dəyişikliklər edilməsi barədə qanun 30.12.2005-ci il tarixdə qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmış Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və qeyd olunan qanunun tətbiqi barədə 2006-cı il 19 yanvar tarixli Fərmanla Azərbaycanda yeni məhkəmələr yaradılmış, ədalət mühakiməsinin səmərəliliyinin, məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq edilməsi, məhkəmə aparatlarının strukturunun və işinin daha optimal şəkildə qurulması, habelə digər mühüm məsələlərin həll edilməsi üçün tədbirlər həyata keçirilmişdir. Bu istiqamətdə işlər davam etdirilir. 2006-cı ilin birinci yarısında hakimlərin müstəqilliyi, seçilməsi, təyin edilməsi və fəaliyyətinin qiymətləndirilməsi və hakim vəzifələrinə namizədlərin və hakimlərin tədrisi işinin təkmilləşdirilməsi üzrə birgə Azərbaycan—Avropa Şurası işçi qrupunun və ekspert komissiyasının iclasları keçirilmişdir. Bu tədbirlər çərçivəsində Azərbaycanda Ali Ədliyyə Məktəbinin yaradılması ilə bağlı xarici ölkələrin təcrübəsi, o cümlədən Fransa Milli Hakimlər Məktəbinin fəaliyyəti öyrənilmişdir. Azərbaycan |

| | | |
|---|---|---|
| | | Respublikası Məhkəmə-Hüquq Şurasının 22 iyun 2007-ci il tarixli qərarı ilə Hakimlərin Etik Davranış Kodeksi təsdiq edilmişdir. Hakimlərin təyinatı qaydalarının təkmilləşdirilməsi üzrə tədbirlər həyata keçirilmişdir. Hakim vəzifəsinə namizədlərin peşəkar bacarıqlara yiyələnməsi üçün xüsusi proqrama uyğun olaraq ilkin təlim kursları təşkil edilmişdir. Bu məqsədlə Ədliyyə Nazirliyində Avropa Şurası ilə birgə təlim Komissiyası yaradılmış və ora tanınmış beynəlxalq ekspertlər, ədliyyə və prokurorluq işçiləri daxil olmuşlar. 2009-cu il may ayında 60 vakant hakim vəzifəsi yerinə 438 namizədin iştirakı ilə test imtahanı keçirilmişdir. İmtahan 30-dək beynəlxalq və yerli QHT tərəfindən müşahidə olunmuşdur. Qeyd edək ki, indiyədək Azərbaycanda hakimlərin seçilməsi üzrə 5 imtahan keçirilmişdir. Onlardan üçü Bakıda, ikisi isə Naxçıvan MR-də keçirilmişdir. Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli fərmanı ilə Ali Məhkəmə və digər yuxarı instansiya məhkəmələrinə Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi işini təşkil etmələri və məhkəmə təcrübəsində nəzərə almaları barədə verilən tövsiyələrə əsasən 2006-cı il martın 30-da Ali Məhkəmənin Plenumu "Avropa Konvensiyası müddəalarının və Avropa Məhkəməsi presedentlərinin tətbiqi barədə" qərar qəbul etmişdir. Bundan əlavə, 2006-cı il dekabrın 28-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı"nda da insan hüquqlarının müdafiəsini tənzimləyən beynəlxalq sənədlərin müddəalarının məhkəmə təcrübəsində tətbiqi məqsədilə tədbirlərin görülməsi Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə və Ali Məhkəməsinə tövsiyə edilmişdir. |

| | | |
|---|---|---|
| | | |

**I.** Bu günədək Azərbaycan Avropa Şurasının bir çox sənədinə (konvensiyalar, onların protokolları və digər sənədlər) qoşulmuş, bu da ölkəmizin Avropa hüquq məkanına inteqrasiyası üçün əsas yaratmışdır.

İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya, — daha çox bu müqavilə qısaca Avropa İnsan Hüquqları Konvensiyası adlanır, — 1950-ci il noyabrın 4-də, yəni Avropa Şurası təsis olunduqdan bir il sonra qəbul edilmiş və 1953-cü ilin sentyabrında qüvvəyə minmişdir. Konvensiyanın bugünkü mətni onun 11 saylı Protokolunun qüvvəyə mindiyi gündən — 1998-ci il noyabrın 1-dən qüvvədədir. Hal-hazırda Avropa Şurasının bütün üzv dövlətləri, yəni 47 dövlət bu konvensiyanın iştirakçısıdır.

Avropa İnsan Hüquqları Konvensiyasının Avropa Şurasının ən mühüm sənədi olduğunu və əslində, Avropa Şurasının bu konvensiyasız təsəvvür edilmədiyini nəzərə alaraq, təşkilata daxil olan hər bir yeni dövlətin üzərinə bu konvensiyanı müəyyən müddət ərzində imzalamaq və təsdiq etmək məcburi vəzifə kimi qoyulur.

İnsan hüquqları müdafiəsinin Avropa sisteminin tədqiqatçısı A.Robertson konvensiyanın Avropa Şurasının mühüm nailiyyətini özündə əks etdirməklə beynəlxalq hüququn inkişafında mühüm mərhələ olması fikrini əsaslandırmaq üçün konvensiyanın aşağıdakı xüsusiyyətini qeyd edirdi: "Konvensiyanın müddəalarına müvafiq olaraq iştirakçı dövlətlər onların yurisdiksiyasında olan şəxslərin İnsan Hüquqlarının Ümumi Bəyannaməsində elan edilmiş bir sıra hüquq və azadlıqlarını təmin etməyi öhdəsinə götürür. Həmin konvensiyanın iştirakçısı olan dövlətlərin üzərinə götürdükləri öhdəliklərə riayət edilməsini təmin etmək üçün Avropa Komissiyası və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi yaradılmışdır. İnsan hüquqlarının pozulmasına gorə şikayətlə komissiyaya təkcə dövlətlər müraciət etmir, həm də ayrı-ayrı şəxslər özlərinin hökumətlərindən bu cür şikayətlər vermək hüququna malikdir. Bir şərtlə ki, sonuncular bu yeni proseduru qəbul etmiş olsunlar".

AŞ PA-nın Azərbaycanla bağlı 222 saylı Rəyində dövlətimizin üzərinə qoyulan öhdəliyə uyğun olaraq, Azərbaycan Parlamenti Avropa İnsan Hüquqları konvensiyasını və onun 1, 4, 6, 7 və 14 saylı protokollarını ratifikasiya etmişdir.

Avropa İnsan Hüquqları Konvensiyası insan hüquqları sahəsində mövcud olan və Azərbaycan Respublikasının iştirak etdiyi bütün digər müqavilələrdən əsas etibarı ilə onunla fərqlənir ki, bu konvensiya onda təsbit olunmuş hüquq və azadlıqların təmin edilməsi üçün olduqca səmərəli bir hüquqi mexanizm nəzərdə tutur. Bu, fərdi şikayət mexanizmi və dövlətlərarası şikayət mexanizmidir. Bu mexanizmlərin məğzi ondan ibarətdir ki, konvensiyada və ya protokollarda əks olunmuş hüquqlardan hər hansı birinin dövlət tərəfindən pozulduğunu güman edən hər bir şəxs həmin dövlətdə mövcud olan bütün səmərəli hüquq müdafiə

vasitələrindən istifadə etdikdən sonra Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edə bilər. Eyni zamanda, bir iştirakçı dövlət digər iştirakçı dövlətə qarşı onun, konvensiyanın və ya protokolların müddəalarını pozması ilə bağlı məhkəmə qarşısında şikayət qaldıra bilər və qeyd edilməlidir ki, indiyə qədər xeyli sayda belə şikayət olmuşdur.

Avropa dövlətləri kollektiv nəzarət mexanizmi yaratmaqla Ümumavropa dəyərlərinə, hüququn aliliyinə, ədalət və demokratiyaya söykənən vahid hüquqi məkanda hər bir şəxsin hüquqlarını təmin etməyi öz qarşılarına başlıca vəzifə kimi qoymuşlar.

Avropa İnsan Hüquqları Konvensiyası bu şikayət prosedurları olmadan, daha doğrusu, Avropa İnsan Hüquqları Məhkəməsi olmadan heç bir zaman indiki kimi effektiv, canlı və işlək bir mexanizm ola bilməzdi. Bu gün tamamilə doğru deyirlər ki, bu konvensiyasız Avropa Şurası, məhkəməsiz isə konvensiya heç nədir. Məhz Avropa İnsan Hüquqları Məhkəməsinin sayəsində, onun çoxsaylı, presedent xarakterli qərarlarının sayəsində Avropa İnsan Hüquqları Konvensiyası elə də mükəmməl olmayan, əksər insan hüquqlarını özündə heç əks etdirməyən regional bir sənəddən ümumdünya əhəmiyyətli, dövlətlərin qanunvericiliyinin və hüquqi praktikasının inkişafına əhəmiyyətli dərəcədə təkan vermiş, beynəlxalq və milli məhkəmələrdə geniş surətdə istinad edilən müqaviləyə çevrilmişdir.

Ümumiyyətlə, Avropa İnsan Hüquqları Məhkəməsi insan hüquqlarının pozulması ilə bağlı şikayətlərə baxan və fərdin bilavasitə beynəlxalq məhkəməyə müraciətini təmin edən ilk beynəlxalq məhkəmə orqanıdır. O, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq mexanizmlərin ən səmərəlisidir.

Avropa İnsan Hüquqları Məhkəməsinin tərkibi müəyyən sayda olan üzvlərdən deyil, "hər bir iştirakçı dövlətdən bir hakim" prinsipi əsasında təşkil olunmuşdur. Bu o deməkdir ki, hal-hazırda AİHM-də 47 hakim, o cümlədən Azərbaycandan da bir hakim vardır. Hakimlər dövlətin təqdim etdiyi üç namizəd arasından AŞ PA tərəfindən seçilir.

Hazırda Azərbaycandan AİHM-ə hakim seçilmiş Xanlar Hacıyev 2003-cü il aprel ayından bu qurumda ölkəmizi təmsil edir.

Bununla da Azərbaycan Avropa Şurasına qəbul edilərkən üç il üçün öz üzərinə götürdüyü öhdəliklərə tam əməl etmişdir və bundan sonrakı dövr üçün nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsi üçün başlanmış işləri davam etdirir.

**II.** Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə vəziyyətə gəlincə, demək lazımdır ki, Azərbaycan ərazisinin 20 faizi erməni silahlı birləşmələrinin işğalı altında qalmaqdadır, bir milyon azərbaycanlı əvvəlki kimi qaçqın və köçkün vəziyyətində əzab çəkməkdədir. Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ regionu üzrə həllini tapmamış 20 illik münaqişə öz neqativ təsirini təkcə Azərbaycana deyil, bütün Cənubi Qafqaz regionunun təhlükəsizliyinə və stabilliyinə göstərir, demokratik inkişafı ləngidir.

1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazisindən işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etməsinə, 1992-ci ildən başlayaraq ATƏT-in bilavasitə bu münaqişənin həlli naminə fəaliyyət göstərməsinə baxmayaraq, qəbul edilmiş qətnamə və qərarlar hələ ki yerinə yetirilməyib.

Yaranmış mürəkkəb vəziyyətə baxmayaraq, Azərbaycan hökuməti atəşkəs rejimini saxlayır və münaqişənin nizamlanması prosesinin sürətləndirilməsi məqsədilə bütün gücünü sərf edir. Azərbaycan Respublikasının Prezidenti Avropa Şurasının Baş katibinə və Avropa Şurası Parlament Assambleyasının sədrinə göndərdiyi məktubda Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında sülh yolu ilə ATƏT-in Minsk qrupu çərçivəsində həll edilməsinə sadiq olduğunu bir daha təsdiq etmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti R.Koçaryan, daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan prezidentləri R.Koçaryan və S.Sarkisyanla çoxsaylı ikitərəfli görüşlər keçirmişdir. Bu görüşlərdə Azərbaycan tərəfi Ermənistanın ATƏT-in Lissabon sammitində qəbul edilmiş prinsiplərini tanımasına və BMT-nin Təhlükəsizlik Şurasının yuxarıda adı çəkilən qətnamələrini yerinə yetirməsinə təkidlə yanaşaraq Dağlıq Qarabağa muxtariyyət modelinin ən yüksək dərəcəsini təklif etmişdir.

1997-ci il aprel ayının 22-də Strasburqda, Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasında Cənubi Qafqaz münaqişələrinə dair 1119 (1997) saylı qətnamədə həmin prinsiplər öz ifadəsini tapmışdır. Qətnamənin Dağlıq Qarabağ barəsindəki bölməsində göstərilir:

"Assambleya Ermənistanın və Azərbaycanın parlament üzvləri arasında davam edən dialoqu, xüsusən üzv olmayan Avropa ölkələri əlaqələr komitəsinin təşkil etdiyi 1996-cı il yanvar ayının 26-da Strasburqda keçirilmiş Zaqafqaziyada münaqişələrə dair seminarı alqışlayır. Bununla əlaqədar, assambleya ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun yenidən fəaliyyətə başlamasını alqışlayır və onun münaqişəni tezliklə nizama salmağa yönəlmiş danışıqları davam etdirməsini dəstəkləyir.

Assambleya münaqişənin siyasi yolla nizama salınmasına nail olmaq, bunun sayəsində işğal olunmuş ərazilərin azad edilməsinə, qaçqınların və köçkünlərin geri qayıtmasına, Dağlıq Qarabağ üçün qənaətbəxş alternativ statusa, habelə təhlükəsizliyə təminat yaratmaq məqsədilə münaqişənin bütün tərəflərini birbaşa danışıqlar aparmağa çağırır. Nəhayət, assambleya arzu etdiyini bildirir ki, gələcəkdə üç Zaqafqaziya dövləti — Ermənistan, Azərbaycan və Gürcüstan Zaqafqaziya dövlətləri birliyi və birgə parlament assambleyası yaradılmasının mümkünlüyü məsələsinə baxılacaqdır".

Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağdakı münaqişəyə dair 1047 (1994) saylı 10

noyabr 1994-cü il tarixli qətnaməsi mühüm əhəmiyyət kəsb edir. Qətnamədə deyilir:

"Assambleya məmnunluqla qeyd edir ki, 1994-cü il mayın 12-də qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, bunun ardınca müharibə edən tərəflər arasında tezliklə sülh müqaviləsi imzalanacaq;

1988-ci ildə başlanmış bu münaqişə 20 min nəfərin ölümünə və bir milyondan çox adamın qaçqın olmasına gətirib çıxarmışdır;

Assambleya ATƏM-in Minsk qrupunun, Rusiya Federasiyası hökumətinin, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının, BMT Parlamentlərarası Assambleyasının, özünün iştirakçı olmayan Avropa dövlətləri ilə münasibətlər üzrə Komitəsinin müharibə edən tərəfləri sülh müqaviləsi imzalamağa inandırmaq cəhdlərini məmnunluqla qeyd edir;

O, Ermənistan və Azərbaycan müdafiə nazirlərinin və Dağlıq Qarabağ ordu komandanının atəşkəsi gözləmək Öhdəliyini və siyasi sazişin imzalanmasını sürətləndirmək barədə istəyi bəyan etdikləri 26 iyun 1994-cü ildə imzalanmış sazişi alqışlayır və bütün müharibə edən tərəfləri 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsin mövcudluğuna təhlükə törədəcək hər hansı bir hərbi hərəkətlərdən çəkindirməyə təkidlə çağırır;

O, sülh müqaviləsinin bərqərar olmasının tezləşməsində ən yaxşı vasitələrlə, xüsusən maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə kömək etməyə hazır olduğunu bəyan edir;

Yekun olaraq o, müharibə edən tərəfləri, 1251 saylı Tövsiyədə nəzərdə tutulduğu kimi, birinci dərəcəli vacib iş kimi qaçqınların və məcburi köçkünlərin doğma torpaqlarına qayıtmaları üçün şərait yaratmağa və azlıqların hüquqlarına hörmət etməyə, Azərbaycan və Türkiyəni Ermənistana qarşı kommunikasiya blokadasına dərhal son qoymağa çağırır".

**III.** Daxili qanunvericiliklə bağlı bütün layihələr Avropa Şurası ekspertlərinin, o cümlədən Venesiya Komissiyası mütəxəssislərinin rəy və tövsiyələri nəzərə alınmaqla hazırlanmış və bu əməkdaşlıq davam etdirilməkdədir.

2003-cü il oktyabrın 15-də keçirilmiş Azərbaycan Respublikasında prezident seçkiləri ilə əlaqədar olaraq 3 iyun 2003-cü il tarixdən Azərbaycan Respublikasının Seçki Məcəlləsi qüvvəyə minib.

Qəbul edilmiş bu məcəllənin əhəmiyyətindən söz açarkən ilk növbədə qeyd olunmalıdır ki, Seçki Məcəlləsi Avropa Şurası ekspertlərinin iştirakı və tövsiyələri nəzərə alınmaqla, xüsusilə də Venesiya Komissiyası mütəxəssislərinin hazırladıqları və təklif etdikləri alternativ variantdan yararlanmaqla qəbul edilmişdir.

Vətəndaşların seçki və referendumlarda öz iradələrini sərbəst surətdə bildirməsinə dövlət demokratik prinsipləri və seçki hüququ normalarını müdafiə etmək yolu ilə təminat verir. 1995-ci ildə Konstitusiya qəbul edildikdən sonra seçki qanunvericiliyi bütövlükdə təzələnmişdir. Seçki hüququ isə qanunvericiliyin ən çox işlənilmiş sahələrindən birinə çevrilmişdir.

İlk öncə "Referendum haqqında" 1997-ci il 30 dekabr tarixli Qanun, daha sonra "Azərbaycan Respublikası Prezidentinin seçkiləri haqqında" 1998-ci il 9 iyul tarixli Qanun qəbul edilmişdir. Bu qanun müasir seçki qanunvericiliyinin əsasını qoyaraq, bir növ, örnək qanun olmuşdur. Daha sonra "Bələdiyyələrə seçkilər haqqında" 1999-cu il 27 iyun, "Milli Məclisə seçkilər haqqında" 2000-ci il 5 iyun tarixli qanunlar qəbul edilmişdir.

Yeni qəbul edilmiş Seçki Məcəlləsi seçkilər haqqında mövcud olan beş qanundan ibarət toplu əsasında tərtib olunmuşdur:

Milli Məclisə seçkilər haqqında Qanun
Prezident seçkiləri haqqında Qanun
Referendum haqqında Qanun
Bələdiyyələrə seçkilər haqqında Qanun
Mərkəzi Seçki Komissiyası haqqında Qanun

Beləliklə, Seçki Məcəlləsi seçkilərin və referendumun keçirilməsi barədə vahid sənəddir. Son 15 ildə Azərbaycanda seçkilərlə bağlı kifayət qədər təcrübə toplanıb. Təkcə son 5 ildə prezidentliyə, Milli Məclisə, bələdiyyələrə seçkiləri və referendumu yada salmaq kifayətdir. Ancaq daim bir problem mövcud olub. Bu, qanunun eyni cür tətbiqi ilə bağlı problemdir. Yəni, hər bir seçki ayrı-ayrı qanunlarla tənzimlənirdi və müxtəlif formalarda həyata keçirilirdi. Bu baxımdan məcəllənin əsas məqsədi seçkiləri və referendumu eyni qaydada tənzimləməkdir ki, bu da irəliyə doğru çox müsbət bir addımdır.

**III.a.** Ümumdünya İnsan Hüquqları Bəyannaməsi 1948-ci ildə qəbul ediləndə Azərbaycan müstəqil olmadığından ona səs verə bilməmişdir. Yalnız müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası insan hüquqlarına və demokratiyaya sadiq qalacağını bəyan etmişdir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında böyük bir fəsil məhz insan hüquqlarına həsr edilmiş və bəyannamənin müddəalarını özündə əks etdirmişdir.

Ombudsman təsisatının yaradılması ilə Azərbaycanda demokratikləşmənin inkişafının davam etdirilməsi üçün sonrakı islahatların təməli qoyuldu. Ölkəmizdə belə bir təsisatın yaradılması üçün kifayət qədər əsaslar olmuşdur. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və "İnsan hüquqları müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" 18 iyun 1998-ci il tarixli Sərəncamına uyğun olaraq respublikamızda bu sahədə bir çox işlər görülmüşdür. Təbii ki, Avropa Şurası qarşısında götürülmüş öhdəliklərin yerinə yetirilməsi baxımından da ombudsman təsisatının yaradılması zəruri idi.

Ombudsmanın mahiyyətinin nədən ibarət olduğuna aydınlıq gətirək.

Bəzi dövlətlərdə (Fransa, ABŞ) ombudsman icra strukturu tərəfindən təyin edilir ki, bu da təklif olunur. Ancaq elmi və ictimai fikirdə "ombudsman" daha çox qəbul olunur, çünki bununla bu xidmət başqa hüquq müdafiə sistemlərindən seçilir.

Bu xidmətin nəzarət-təftiş funksiyaları şəffafdır, o, vasitəçidir, müstəqil tədqiqatçıdır.

Ombudsman — formal prosessual tələblərdən azad və konkret hüquqi çərçivə ilə məhdudlaşmayan hüquqi yardım növüdür.

Müasir dünyada ombudsman inandırmaq institutudur. Onun silahı aşkarlıq, tənqid və inandırmaqla, göstərməklə işləyir. O, qərəzsiz və müstəqil araşdırıcı rolu oynayır.

Müvəkkil təsisatının yaradılmasının konstitusiya xarakterli bir məsələ olduğunu və insan hüquqları üzrə müvəkkilin özünün dövlətin siyasi-hüquqi sisteminin vacib bir komponenti olduğunu nəzərə alaraq, bu qanunvericilik aktı məhz Konstitusiya qanunu kimi, Konstitusiyaya əlavə kimi qəbul olunur.

Ombudsman xidmətinin təsisi bugünkü gerçəkliyin mühüm tələbatı olmaqla yanaşı, bu təsisatın yaradılması nəinki hüquq müdafiə strukturları sistemini tamamlayır, həm də mövcud olan hüquqi boşluqları doldurur, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi mexanizmində qüsurları aradan qaldırır.

İnsan hüquqları üzrə müvəkkil (ombudsman) əməli hüquq müdafiə fəaliyyəti göstərməklə vətəndaşların real problemləri ilə yaxından tanış olur. O öz əməli fəaliyyətinin nəticələrini sistemləşdirib təhlil etməklə qanunvericiliyin yeniləşməsinə də kömək edir.

Ombudsman təsisatı cəmiyyətin birləşməsinə yönəlmişdir. Müvəkkil təsisatı səriştəsiz idarəetmə və hakimiyyətdən sui-istifadə məsələlərini qaldırmaqla dövlət orqanları və onların vəzifəli şəxslərinə verilmiş hakimiyyət hüduduna riayət edilməsinin təminatçısı xidmətini göstərir. Bu təsisat vətəndaş və dövlət arasında münasibətləri daha yüksək dərəcəyə qaldırır, ikitərəfli etimadın yaranması prosesinə kömək edir ki, bu da daxili siyasi gərginliyi xeyli dərəcədə azaldır və dövlətçiliyə inamı möhkəmləndirir. Beləliklə, ombudsman birbaşa əhalinin maraqlarına xidmət edir.

**IV.** Avropa Şurasının tövsiyələrinə uyğun olaraq "Beynəlxalq Qızıl Xaç Komitəsinin azadlıqdan məhrumetmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə" Azərbaycan Respublikası hökuməti və Beynəlxalq Qızıl Xaç Komitəsi arasında 2000-ci il iyunun 1-də saziş imzalanmışdır. Bu saziş Beynəlxalq Qızıl Xaç Komitəsi nümayəndələri tərəfindən azadlıqdan məhrumetmə yerlərində zəruri olan daxili intizam və əsas təhlükəsizlik qaydalarına riayət edilərək həbs edilmiş, saxlanılmış və ya başqa üsullarla azadlıqdan məhrum edilmiş şəxslərə, məhkumlara, habelə məhkum olunmamış şəxslərə, onların həbsdə olduqları bütün mərhələlərdə başçəkilmə prosedurlarının həyata keçirilməsini tənzimləyir.

Penitensiar müəssisələrin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün 2000-ci ildə Cəzaların İcrası Məcəlləsi qəbul olunmuşdur.

Bu qanun hazırlanarkən BMT-nin 1955-ci il "Məhkumların davranış qaydalarının minimum standartları", Avropa Şurası tərəfindən qəbul olunmuş

"Avropa penitensiar qaydaları" və digər beynəlxalq konvensiya və aktlar nəzərə alınmışdır.

Yeni qanunvericiliklə məhbuslara şəxsi təhlükəsizlik, vicdan və din azadlığı, telefon danışıqlarından istifadə hüququ, məzuniyyət və digər hüquqlar verilmiş, növbəti bağlama və sovqat alınmasında, məktub və teleqram göndərilməsində nəzərdə tutulmuş məhdudiyyətlər aradan qaldırılmış, onlara bir sıra yeni imtiyazlar verilmişdir.

Bu məcəllə ilə məhbusların saxlanılması şəraiti yaxşılaşdırılmış, onların hüquqları genişləndirilmiş, penitensiar sistemdə dərin islahatların əsası qoyulmuşdur.

Həmin qanunun əsas məqsədi məhkumları islah etmək, yeni cinayətlərin qarşısını almış, məhkumların hüquqlarını və qanuni mənafelərini qorumaq, cəzaların icrası və çəkilməsi qaydalarını və şərtlərini tənzimləməkdən ibarətdir. Qanun şəxsin vəkillə senzura olmadan yazışmasına və görüşməsinə, istirahət hüququna, dini etiqad azadlığına təminat verir, həmçinin qohumlarla qısa və uzunmüddətli görüşlərin vaxtının uzadılmasını nəzərdə tutur.

**IV.a.** Məhbuslara münasibətdə Azərbaycan dövləti öz üzərinə götürdüyü öhdəliklərə hörmətlə yanaşır və onların yerinə yetirilməsi üçün mühüm işlər görür.

Belə ki, ilk növbədə Azərbaycanda ölüm cəzasının ləğvi və cəza siyasətinin humanistləşməsi ölkəmizin Avropa ailəsinə qoşulmasını təmin edən mühüm amillərdən biri olmuşdur. Bir çox Avropa dövlətləri ölüm cəzasını ləğv edənə qədər uzun illər bu məsələni araşdırmış və çox zaman da qəti qərar verməkdə çətinlik çəkmişlər. Təsəvvür edin ki, 1950-ci ildə qəbul edilmiş İnsan hüquqlarına dair Avropa Konvensiyasında yaşamaq hüququ maddəsində ölüm cəzasının mövcudluğu qeyd olunmuşdur. Ancaq 1983-cü ildə Avropa Şurası tərəfindən qəbul edilmiş bu konvensiyanın 6 saylı əlavə Protokolunda ölüm cəzası ləğv olunmuşdur.

Göründüyü kimi, ölüm cəzasını ləğv etmək üçün Avropa dövlətlərinə uzun illər lazım olmuşdur. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldikdən sonra ilk qərarlarından biri ölüm cəzasına moratorium qoyulması oldu. Bundan sonra ölüm cəzasının ləğv olunması yolunda bir neçə siyasi addım atıldı. Prezident Heydər Əliyev ölüm cəzasının ləğvi ilə bağlı qəti qərar verməzdən əvvəl bu məsələ ictimaiyyət tərəfindən müzakirə olundu. Müzakirələrdən sonra ölkə Prezidenti qətiyyətli və humanist bir addım ataraq Şərqdə ilk dəfə ölüm cəzasının ləğv olunması ilə bağlı qərar qəbul etdi.

1995-ci ildə qəbul olunmuş yeni Konstitusiyada ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərildi və artıq daimi cəza növü kimi nəzərdə tutulmadı.

Bundan sonra 1996-cı ilin may ayında Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsünü parlament dəstəklədi və yaşı 65-dən yuxarı kişilərin ölüm cəzasından azad olunması haqda qərar qəbul edildi. Eyni zamanda, ölüm

cəzasının tətbiqini nəzərdə tutan cinayətlərin sayı qanunvericilikdə 33-dən 12-yə endirildi.

Nəhayət, 1998-ci il fevral ayının 3-də ölkə Prezidenti Milli Məclisə ölüm cəzasının ləğv olunması ilə bağlı müraciət etdi. Dövlət başçısı müraciətdə cinayət hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirdi və bu tarixi bəyanatın zəruriliyini əsaslandırdı.

Parlament ölüm cəzasının ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəklədi və Azərbaycanda ölüm cəzası ləğv olundu.

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra atdığı ilk addımlardan biri də əfv institutunun bərpası oldu. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 4 may 1995-ci il tarixli fərmanı ilə Əfv məsələləri komissiyası yaradıldı. Həmin dövrdən bu günə qədər komissiya tərəfindən minlərlə məhkumun sənədləri araşdırılmışdır. Nəticədə Azərbaycan Prezidenti tərəfindən 45 əfv fərmanı imzalanmış və 4869 nəfər əfv edilmişdir.

Bu dövr ərzində humanizm siyasətinin davamı olaraq məhkum olunmuş şəxslərə münasibətdə əfv siyasəti ilə yanası, amnistiya aktlarının tətbiqi də həyata keçirilmiş, 1995-ci ildən indiyə kimi 9 amnistiya aktı 96 mindən çox şəxsə tətbiq edilmiş, o cümlədən təxminən 25 min məhkum cəzaçəkmə müəssisələrindən azad olunmuşdur.

Qeyd edilən amnistiya aktlarından biri Avropa Şurasına üzvlüklə bağlı idi. Belə ki, 2001-ci il yanvarın 16-da respublika Prezidenti Heydər Əliyev Azərbaycanın Avropa Şurası üzvlüyünə qəbul edilməsi münasibətilə növbəti dəfə amnistiya haqqında qərar layihəsini qanunvericilik təşəbbüsü ilə Milli Məclisə təqdim etdi.

Bu amnistiya aktının tətbiqi nəticəsində cəzaçəkmə yerlərindən təqribən 2300 şəxs azadlığa buraxılmış, 800 şəxsin cəzası yarıya endirilmiş, 4400 şəxs azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalardan azad edilmiş, istintaq orqanları və məhkəmələr tərəfindən 1300 şəxs barəsində cinayət təqibinə xitam verilmiş, habelə intizam xarakterli hərbi hissədən 120 hərbi qulluqçu azad olunmuşdu.

Bu humanist siyasət indi də davam etdirilir. Son iki amnistiya aktı Azərbaycanın birinci xanımı, Milli Məclisin üzvü, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın təşəbbüsü ilə Milli Məclis tərəfindən qəbul edilmişdir.

Əfv və amnistiya institutlarının bərpa edilməsi Azərbaycan Respublikasının Konstitusiyasında və beynəlxalq aktlarda təsbit olunmuş insan hüquq və azadlıqlarına, ümumbəşəri dəyərlərə, humanizm və insanpərvərlik ənənələrinə, azadlıq və demokratiya ideallarına hörmət və ehtiramı təcəssüm etdirir.

Milli Məclis tərəfindən 2000-ci ilin iyul ayında qəbul edilmiş və sentyabrın 1-dən qüvvədə olan Cəzaların İcrası Məcəlləsi isə penitensiar sahədə islahatların yeni mərhələsinin hüquqi bazası olmuşdur. Bu hüquqi sənəd cəza siyasətinin

humanistləşməsinə, məhkumların vətəndaş hüquqlarının qorunmasına və penitensiar müəssisələrdə saxlanma şəraitinin ümumi qəbul olunmuş beynəlxalq normalara uyğunlaşmasına yönəldilmişdir.

Qanun hazırlanarkən BMT tərəfindən 1955-ci ildə qəbul olunmuş "Məhkumlarla rəftar qaydalarının minimum standartları", Avropa Şurası tərəfindən 1987-ci ildə qəbul olunmuş "Avropada penitensiar qaydalar", habelə törətdikləri cinayətə görə dövlət məcburiyyət tədbirləri təsirinə məruz qalmış şəxslərin saxlanmasına və onlarla davranışa həsr olunmuş digər beynəlxalq aktlar nəzərə alınmışdır.

Son illərdə respublikanın cəzaçəkmə müəssisələrində məhkumlar üçün normal yaşayış, sosial-məişət şəraitinin yaradılması, onların sağlamlıqlarının qorunmasına yönəlmiş tədbirlər, kütləvi informasiya vasitələri ilə əlaqələrin genişləndirilməsi, penitensiar sahədə ötən dövrdən yadigar qalmış məxfilik pərdəsinin aradan götürülməsi, beynəlxalq və insan haqlarını müdafiə edən qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın inkişaf etdirilməsi islahatların ilkin nəticələridir.

Bütün islah-əmək müəssisələrində əsaslı şəkildə təmir-tikinti, abadlıq işləri aparılmış, məhkumların saxlanma vəziyyəti, onların yaşayış, maddi-məişət şəraitləri nəzərəçarpacaq dərəcədə yaxşılaşdırılmışdır.

Məhkumların sağlamlığının qorunması sahəsində müsbət dəyişikliklər baş vermişdir. Azadlıqdan məhrumetmə yerlərində fəaliyyət göstərən tibb xidmətləri yenidən qurulmuş, məhkumların ambulator və stasionar şəkildə müalicəsi üçün hər bir şərait yaradılmışdır.

Həll olunan problem vacib sayılaraq bu işə Beynəlxalq Qızıl Xaç Komitəsi də cəlb olunmuşdur. 01 iyun 2000-ci il tarixdə Azərbaycan Respublikası ilə Beynəlxalq Qızıl Xaç Komitəsi arasında azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərə dair səlahiyyətləri həyata keçirmək haqqında saziş imzalanmış və hazırda həmin təşkilatın nümayəndələri cəzaçəkmə yerlərinə maneəsiz baş çəkirlər. Bütün bu tədbirlər, həmçinin məhkumların yaşayış şəraitinin, onların qidalanmasının yaxşılaşdırılması son nəticədə azadlıqdan məhrumetmə yerlərində məhkumların ölüm hallarının kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 fevral tarixli "İnsan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi sahəsində tədbirlər haqqında" Fərmanında və onun 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması və cəza çəkənlərin beynəlxalq tələblərə uyğun saxlanması üçün zəruri tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

1999-cu il fevral ayının 11-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "İslah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunçuluğun möhkəmləndirilməsi, cəzaların icrası qaydalarının təmin edilməsi və hüquqi islahatların həyata keçirilməsinə dair tədbirlər haqqında" Fərman

imzalamışdır. Bu qanunverici sənəd Azərbaycanın penitensiar sistemində aparılan islahatların hüquqi bazasını daha da möhkəmləndirmiş və cəzaçəkmə yerlərinin fəaliyyətinin təkmilləşdirilməsi üçün əlverişli zəmin yaratmışdır. Bu fərmanla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Komissiyası yaradılmışdır. Komissiyaya islah-əmək müəssisələrində və istintaq təcridxanalarında qanunvericilik, təşkilati və digər məsələləri nəzərdə tutan tədbirlər proqramı hazırlamaq, cəzaçəkmə yerlərinin beynəlxalq standartlara uyğun təşkili və fəaliyyətinin təmin edilməsi üçün onların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir nəzarət, mühafizə, mühəndis-texniki qurğularla və digər xüsusi vasitələrlə təchiz olunması üçün zəruri tədbirlər görmək, penitensiar müəssisələrin əməkdaşlarının sosial-müdafiəsinin yaxşılaşdırılması, onların əmək haqqının artırılması, cəzaçəkmə yerlərində məhkumların saxlanılması şəraitinin daha da yaxşılaşdırılması sahəsində tədbirləri davam etdirmək tapşırılmışdır. Dövlət komissiyası ölkə başçısının fərmanına əsasən tədbirlər proqramı hazırlamış və proqram təsdiq edilmişdir. Bu proqramda Azərbaycanın penitensiar sistemi qarşısında duran bir çox vacib problemlər öz həllini tapmışdır.

2000-ci il oktyabr ayının 9-da Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan iki fərman da penitensiar sistem üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, ölkəmizdə vahid penitensiar siyasəti həyata keçirmək və istintaq təcridxanalarının fəaliyyətini Avropa Şurasının standartlarına uyğunlaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin nəzdində olan üç istintaq təcridxanası Ədliyyə Nazirliyinin tərkibinə verilmişdir.

İkinci fərman isə dövlətimizin penitensiar sistemində həyata keçirilən islahatların gücləndirilməsinə, islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin daha da yaxşılaşmasına yönəldilmişdir. Fərmanda islah-əmək müəssisələrinin və istintaq təcridxanalarının işinin təkmilləşdirilməsi, qarışıq rejimli islah-əmək müəssisələrinin yaradılması, məhbus və məhkumların saxlanılma şəraitinin və onlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması üçün qanunvericilik, təşkilati və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

**IV.b.** İşgəncələrin və digər qəddar, qeyri-insani hərəkətlərin, yaxud ləyaqəti alçaldan rəftarın qarşısının alınması üçün beynəlxalq təşkilatlar tərəfindən təklif edilmiş tövsiyələrin Azərbaycan Respublikası tərəfindən yerinə yetirilməsi üçün konkret tədbirlər görülmüşdür. Belə ki, qəbul edilmiş yeni Cinayət Məcəlləsinə işgəncəyə görə cinayət məsuliyyəti nəzərdə tutan 132 və 133-cü maddələr daxil edilmişdir. Həmin maddələrə əsasən, şəxsdən məlumat almaq və ya onu etirafa məcbur etmək, yaxud törətdiyi və törədilməsində şübhə doğurduğu əmələ görə həmin şəxsi cəzalandırmaq məqsədilə öz qulluq mövqeyindən istifadə etməklə vəzifəli şəxs tərəfindən və ya onun təhriki ilə şəxsə işgəncə vermə, yəni, onu mütəmadi olaraq döymə və ya psixi iztirablar vermə cinayət məsuliyyətinə səbəb olur və beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə növündə cəza müəyyən edilir.

"BMT-nin İşgəncələrə Qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatı ilə əlaqədar tədbirlər haqqında" Azərbaycan Respublikasının Prezidenti Sərəncam imzalamış və hesabatda göstərilən faktların yoxlanılması və tədbir görülməsi, bu sahədə insan hüquqlarının müdafiəsi ilə məşğul olan beynəlxalq təşkilatlarla işin səmərəli təşkil olunması məqsədilə işçi qrupu yaradılmış və respublikanın hüquq-mühafizə orqanları tərəfindən müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı ilə müəyyən edilmişdir ki, təhqiqat, ibtidai istintaq dövründə və ya cəza çəkilərkən, habelə hərbi xidmət dövründə vəzifəli şəxslər tərəfindən vətəndaşların və ya həqiqi hərbi xidmətə çağırılmış gənc əsgərlərin işgəncələrə və ləyaqəti alçaldan, qeyri-insani rəftar və cəza növlərinə məruz qalmaları cinayət qaydasında cəzalandırılmalı əməllərdir və belə məlumatlara məhkəmə bütün hallarda münasibətini bildirməlidir. Azərbaycan Respublikası Baş prokurorunun əmri ilə təhqiqat və ibtidai istintaq zamanı işgəncə və digər qanunsuz metodların tətbiq olunması hallarının qarşısının alınması və belə hallara yol verən əməkdaşlar barəsində qanunun bütün gücündən istifadə edilməsi və vətəndaşların pozulmuş hüquqlarının bərpa edilməsi üçün prokuror nəzarətinin həyata keçirilməsinin təmin edilməsi nəzərdə tutulmuşdur.

Başqa dövlətə təslim edilən şəxsə qarşı bu dövlətdə Beynəlxalq Amnistiyanın tövsiyələrində nəzərdə tutulmuş işgəncələr verilməsini ehtimal etməyə ciddi əsaslar olduqda, onun təslim edilməsinə dair İşgəncələrə dair Konvensiyanın 3-cü maddəsinin tələbləri yeni Cinayət Məcəlləsində öz təsbitini tapmışdır.

**IV.c.** 1999-cu il dekabrın 7-də Azərbaycan Respublikasında fikir və söz azadlığını, mətbuat və jurnalistlərin müstəqilliyini təmin edən, xüsusilə mətbuat azadlığını məhdudlaşdıran inzibati tədbirlərdən istifadəni istisna edən "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanunla kütləvi informasiya vasitələri üzərində dövlət senzurasına yol verilmir, vəzifələr və məsuliyyət doğuran məlumat almaq və ya yaymaq azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndinə müvafiq olaraq demokratik cəmiyyətdə zəruri olan rəsmiyyətlərə və ya cərimə sanksiyalarına məruz qala bilər. Qanuna əsasən, kütləvi informasiya vasitələrinin istehsalı və yayımı təsisçinin və ya məhkəmənin qərarı ilə müvəqqəti dayandırıla, yaxud ona xitam verilə bilər və vəzifəli şəxslər tərəfindən hər hansı müdaxilə, o cümlədən senzura tətbiq etmə, peşə müstəqilliyini pozma, kütləvi informasiya vasitələrinin istehsalını və yayımını dayandırma, tirajı müsadirə etmə və digər hüquqların pozulması Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq mülki, inzibati, cinayət və digər məsuliyyətə səbəb olur.

Mətbuat haqqında qanunvericiliyin İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına tam uyğunluğunun təmin edilməsi üçün müvafiq qanuna dəyişikliklər və əlavələr edilmişdir.

**IV.d.** Milli azlıqlar haqqında Qanuna dair onu qeyd etmək lazımdır ki, hazırda milli azlıqlar haqqında qanun layihəsi hazırlanmış və Azərbaycan Respublikası Milli Məclisinin müvafiq komitəsinə müzakirəyə verilmişdir.

**IV.e.** İctimai birliklərin və fondların yaradılması və fəaliyyət göstərməsi ilə bağlı münasibətləri tənzimləyən "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" yeni Qanun hüquqi şəxs kimi qeyri-hökumət təşkilatlarının yaradılmasının, qeydiyyatının, fəaliyyətinin yenidən təşkil edilməsi və ləğv edilməsi qaydalarını, qeyri-hökumət təşkilatlarının fəaliyyətini, idarə olunmasını, dövlət hakimiyyəti orqanları ilə münasibətlərini müəyyən edir.

Qeyd edilən münasibətlərin yaranmasında müstəsna xidmətləri olmuş Heydər Əliyev bu əlaqələrin əhəmiyyətini yüksək qiymətləndirmişdir: "Biz Azərbaycanda bu gün əsl vətəndaş cəmiyyəti qururuq. Çoxsaylı ictimai təşkilatlar, partiyalar, müxtəlif fondlar və cəmiyyətlər vətəndaş cəmiyyətinin strukturunu təşkil edərək Azərbaycanın bir çox mühüm məsələlərinin həllində dövlətlə uğurlu əməkdaşlıq edirlər".

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" AR Qanununun 12 dekabr 2003-cü il tarixdə dövlət başçısı İlham Əliyev tərəfindən imzalanaraq 09 yanvar 2004-cü ildən qüvvəyə minməsi bu müsbət proseslərin davamı kimi dəyərləndirilməlidir. Belə ki, bu qanuna görə, hüquqi şəxslərin dövlət qeydiyyatı xeyli sadələşdirilərək Avropa standartlarına uyğunlaşdırılmışdır. Bundan əlavə, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 27 iyul 2007-ci ildə "Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası" qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 13 dekabr 2007-ci ildə Azərbaycan Respublikası Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurası yaradılmışdır.

**V.** "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ittiham və müdafiə tərəfinin hüquq bərabərliyinə, hüquqi müdafiəyə dair Konstitusiya hüquqlarına, İnsan hüquqlarına dair Avropa Konvensiyasının 6-cı maddəsinə uyğun olaraq işlərin məhkəmədə ədalətli araşdırılması hüququna və vəkillik peşəsinin müstəqilliyinə təminat yaradır.

**V.a.** Azərbaycan Respublikası Konstitusiyasının, "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında" qanunların, habelə Mülki-Prosessual və Cinayət-Prosessual məcəllələrinin müvafiq maddələri Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə müraciət etmək qaydasını müəyyən etmişdir. Belə ki, hər hansı bir vətəndaşın hüquqları və azadlıqları qüvvədə olan normativ-hüquqi aktlarla pozulduğu təqdirdə o, müvafiq məhkəmə instansiyaları vasitəsilə Azərbaycan Respublikasının Ali Məhkəməsinə müraciət edərək şikayətin Konstitusiya Məhkəməsinə sorğu vermək yolu ilə göndərilməsini xahiş edə bilərdi.

2002-ci ildə Konstitusiyaya dəyişikliklərlə əlaqədar keçirilən referendumdan sonra 2003-cü il dekabrın 23-də Konstitusiya Məhkəməsi haqqında yeni Qanun qəbul olunur. Qanun şəxslərə, bütün instansiya məhkəmələrinə, o

cümlədən ombudsmana Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək hüququ verir.

2009-cu il 18 mart referendumu nəticəsində Konstitusiyanın 130-cu maddəsinin IX hissəsinə Konstitusiya Məhkəməsinin qərarlarının dərc edilməsi ilə əlaqədar müddəa əlavə edilir.

Beləliklə, Azərbaycan Respublikası ilə Avropa Şurası arasında sıx əməkdaşlığın nəticəsi kimi ölkəmiz AŞ PA-nın 222 (2000) saylı Rəyinə müvafiq olaraq bu təşkilat qarşısında üzərinə götürdüyü öhdəlikləri vaxtında yerinə yetirir. Azərbaycan Prezidenti İlham Əliyev AŞ PA-nın 2004-cü il yaz sessiyasındakı çıxışı zamanı ölkədə siyasi islahatların aparılması sahəsində müvəffəqiyyətlər qazanıldığını diqqətə çatdıraraq qeyd etmişdir ki, Azərbaycan Avropa Şurası qarşısında götürdüyü öhdəliklərin bir çoxunu yerinə yetirmişdir: "Ölkəmiz siyasi islahatlar sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Avropa Şurasına üzv olduğumuz üç il müddət Azərbaycanın demokratiya yolu ilə irəliləməsində həlledici rol oynamışdır. Avropa Şurasının tövsiyələri ilə yeni-yeni qanunlar qəbul edilmişdir. Təşkilata üzv qəbul olunarkən ölkənin üzərinə götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi də bu sahədə yardımçı olmuşdur".

Bu gün Azərbaycan Avropa standartlarına uyğun surətdə inkişaf edir, sivil ölkələr səviyyəsinə yüksəlmək üçün respublikamızda zəruri tədbirlər həyata keçirilir. Söz yox ki, bu tədbirlərin həyata keçirilməsi yolunda bəzi reallıqlarla da hesablaşmaq lazım gəlir. Lakin bütün bunlara baxmayaraq, bu gün cəsarətlə demək olar ki, Azərbaycan Avropa ailəsinin tamhüquqlu üzvü kimi insan hüquqlarının qorunması yolunda inamla addımlayır. Ümummilli lider Heydər Əliyevin Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi mərasimindəki nitqində dediyi kimi: "Biz bundan sonra da Azərbaycan xalqının və dövlətinin humanizm, insanpərvərlik ideallarına və prinsiplərinə, demokratiyaya, qanunun aliliyinə, insan hüquqlarına və əsas azadlıqlara hörmət bəslənməsinə əsaslanan dəyərlərə sadiqliyini nümayiş etdirəcəyik".

# NƏTİCƏ

Ötən əsrin 80-ci illərinin sonunda, 90-cı illərinin əvvəllərində dünyanın siyasi mənzərəsi yenidən dəyişəndə müstəqillik qazanmış Azərbaycan Avropaya inteqrasiya yolunu tutaraq həm daxildə, həm də xaricdə sabitlik yaratmağa çalışdı.

Bu istiqamətin məntiqi nəticəsi kimi qısa dövr ərzində çox çətin tarixi sınaqlardan keçməli olmuş və ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi siyasət nəticəsində gələcəyə inamla baxan, demokratik inkişaf yolu ilə qətiyyətlə addımlayan bir dövlətə çevrilmiş Azərbaycan Avropa Şurası kimi beynəlxalq təşkilatın tamhüquqlu üzvlüyünə qəbul edildi.

Azərbaycan Respublikasının Avropa Şurasına qəbul edilməsi yeni əsrin əvvəllərində xalqımızın taleyində baş verən ən mühüm hadisələrdən biridir. Ölkəmizin Avropa xalqları ailəsinə inteqrasiyasını reallığa çevirmiş bu hadisə Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı, bazar iqtisadiyyatı prinsiplərinin bərqərar edilməsi ilə əlaqədar aparılan köklü islahatların nəticəsi olmuşdur.

Azərbaycanın Avropa Şurasına daxil olmasında məqsəd ölkəmizin qarşısında duran bir sıra vəzifələrin həlli olmuşdur:

— Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaqla Ermənistanın işğalçı siyasətini, simasını ifşa etmək, azərbaycanlılara qarşı ermənilərin həyata keçirdiyi soyqırımı və torpaqlarımızın 20 faizinin işğal edildiyi faktını tanıtdırmaq, hüquqları pozulmuş qaçqın və məcburi köçkünlərin ağrılı-acılı həyatını anlatmaq, bununla belə, ölkəni cəlb olunduğu regional münaqişədən onun ərazi bütövlüyünü saxlamaq şərti ilə dinc yolla çıxarmaq;

— demokratik, hüquqi dövlət quruculuğu işini davam etdirmək, qazanılmış müstəqilliyin möhkəmləndirilməsi məqsədilə Avropaya inteqrasiya etmək;

— demokratik və hüquqi dövlət quruculuğu istiqamətində islahatların davam etdirilməsi, vətəndaş cəmiyyətinin inkişafının və insan hüquqlarının müdafiəsinin təmin edilməsi;

— Avropa dövlətləri ilə diplomatik münasibətlərin yüksək səviyyədə qurulması və inkişaf etdirilməsi və ölkənin xarici siyasətinin dinc yanaşı yaşamaq, sülhü və təhlükəsizliyi qorumaq və s. beynəlxalq hüquq prinsiplərinə əsaslandığını nümayiş etdirərək bu dövlətlərə çatdırmaq;

— məqsəd və məramlarımız haqqında məlumat vermək üçün Avropa Şurasının ali tribunasından istifadə etmək.

Bu gün region dövlətləri arasında siyasi məsuliyyət hissini unutmamaq, bütün demokratik və insan hüquqları təsisatları ilə birgə nümunəvi bir ölkəyə çevrilmək Azərbaycanı müsbət mənada fərqləndirən xüsusiyyətlərdən biridir.

Avropa Şurasının tamhüquqlu və fəal üzvü kimi onunla əməkdaşlıq edən, bu əməkdaşlığı günbəgün gücləndirən Azərbaycan Respublikası Şuranın insan hüquqlarının qorunması, demokratik proseslərin inkişaf etdirilməsi, dövlətlərarası münasibətlərin bərabərlik, qlobal problemlərin həllinə yardım göstərmək,

beynəlxalq öhdəliklərə vicdanla əməl etmək kimi prinsiplərini rəhbər tutur, bu təşkilatla əməkdaşlığı yüksələn xətt üzrə inkişaf etdirir.

Ümummilli lider Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sessiyasında çıxışı zamanı qürur hissi ilə deyirdi: "Bu gün Azərbaycanda demokratik inkişaf prosesi dönməz xarakter alıbdır, azadlığın və qanunun aliliyinin möhkəm təminatı yaradılıbdır. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

Xüsusilə qeyd etmək lazımdır ki, Avropa Şurası Parlament Assambleyasında fəaliyyət göstərən nümayəndə heyətimizə cənab İlham Əliyevin rəhbərlik etdiyi dövr Avropa məkanında gələcək uğurlarımıza zəmin yaratdı.

Azərbaycan nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının ilk sessiyasından, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan parlament qrupuna rəhbərlik etdiyi dövrdən etibarən çox ciddi və səmərəli fəaliyyətdədir. Bu gün Avropanın ən ali tribunasından Azərbaycanın mövqeyi səslənir, deputatlar Azərbaycan həqiqətlərini açıq şəkildə deyirlər. Azərbaycan Avropa Şurasının şəxsində yeni bir mübarizə cəbhəsi açdı. Bu cür iş birliyinin nəticəsidir ki, dünyada ictimai rəy Azərbaycanın xeyrinə dəyişməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurasına daxil olarkən bildirdiyi "Azərbaycan Avropanın çox dəyərli üzvü olacaqdır" vədi reallığa çevrildi.

## ƏLAVƏ – 1

### Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi ilə əlaqədar təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı

Hörmətli cənab sədr!
Hörmətli cənab Nazirlər Komitəsinin sədri!
Hörmətli cənab baş katib!
Hörmətli mərasim iştirakçıları!

Bu gün Avropa parlamentarizminin mərkəzində - Strasburqda, Avropa Şurasının bu möhtəşəm sarayında həm Azərbaycan Respublikası, həm də Avropa üçün çox mühüm əhəmiyyətə malik olan bir hadisə baş verir - Azərbaycan Avropa ailəsinə qəbul edilir. Bununla da Avropanın yalnız tarixi və mədəni baxımdan deyil, siyasi baxımdan da tamlaşması, bütövləşməsi başa çatır.

1991-ci ildə Sovet İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan yalnız son on ildə deyil, tarixinin son iki əsri ərzində ardıcıl olaraq Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə can atmışdır. Şərqlə Qərbin, Avropa ilə Asiyanın kəsişdiyi nöqtədə yerləşən Azərbaycan dinlərin, tarixlərin və mədəniyyətlərin qovuşduğu mərkəzə, iki qitə və iki sivilizasiya arasında körpüyə çevrilmişdir. Azərbaycan xalqı öz Şərq köklərindən ayrılmayaraq, Qərb sivilizasiyasının sintezinə əsaslanan nadir bir mədəniyyət yaratmış, Qərbin mütərəqqi dəyərlərini Qafqazda, Yaxın və Orta Şərqdə yaymışdır. Məhz Avropa ilə sıx və məqsədyönlü təmasın nəticəsidir ki, XIX əsrin ortalarından başlayaraq, müsəlman Şərqində ilk qəzeti, ilk Avropa tipli məktəbləri, ilk teatrı, ilk yenilikçi ədəbiyyatı və ictimai fikri, nəhayət, demokratik respublika tipli ilk dünyəvi dövləti 1918-ci ildə Azərbaycan xalqı yaratmışdır. Bu gün biz yalnız son bir neçə ildəki siyasi əməkdaşlığımızın deyil, həm də iki əsrlik tarixi təcrübəmizin bəhrəsini görürük.

1991-ci ildə dövlət müstəqilliyi qazanan Azərbaycan birmənalı şəkildə Avropaya, onun humanist və demokratik dəyərlərinə inteqrasiya yolunu tutdu. Tarixən çox qısa bir müddət ərzində biz qabaqcıl Avropa təcrübəsinə əsaslanaraq çox şeyə nail ola bildik. Biz bütün çətinliklərə baxmayaraq, liberal iqtisadiyyat və sivil cəmiyyət quruculuğu yolu ilə irəlilədik. Biz insan haqlarının qorunmasını önə çəkdik, vətənimizin və vətəndaşlarımızın totalitarizm dövrünün ağır irsindən xilas olmasına çalışdıq. Biz demokratiyanın inkişafı üçün mühüm şərtlərdən olan daxili sabitliyə nail olduq. Biz azad söz, azad mətbuat və çoxpartiyalı siyasi sistem yaratdıq. Biz müddəalarının üçdə biri insan haqlarının və əsas azadlıqlarının qorunmasına həsr olunmuş yeni Konstitusiya qəbul etdik. Şərqdə ilk dəfə ölüm hökmünü aradan qaldırdıq, yeni qanunvericilik sistemini yaratdıq, prezident,

parlament və bələdiyyə seçkiləri keçirdik. Bir sıra mühüm siyasi və iqtisadi islahatlar apardıq və aparırıq.

Lakin təəssüflər olsun ki, bütün səylərimizə baxmayaraq, biz Avropa Şurasına üzv olarkən yalnız müsbət dəyişiklikləri və uğurları deyil, müəyyən problemlərimizi də özümüzlə gətiririk. Bu, hər şeydən əvvəl bu gün eyni vaxtda Avropa Şurasına üzv olan Azərbaycanla Ermənistan arasında öz həllini tapmamış Dağlıq Qarabağ problemidir. Bu problemin Azərbaycanda doğurduğu çətinliklər, ilk növbədə isə çoxsaylı qaçqınlar ordusu, ağır iqtisadi və sosial vəziyyət təkcə bizim ölkəmizin deyil, bütün regionun demokratiyaya doğru inkişafını ləngidir, insan haqlarının qorunmasında ciddi maneələr yaradır.

Biz ölkəmizin Avropa Şurasına qəbulunu yalnız indiyə qədər gördüyümüz işlərə, həyata keçirdiyimiz islahatlara verilən qiymət kimi deyil, həm də ölkəmizə və xalqımıza doğru uzadılan dost əli kimi qiymətləndiririk və ona görə də bir sıra problemlərin vahid Avropa ailəsi daxilində həllini tapacağına inanırıq.

Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalılaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşur, öz həqiqi yerini tutur. Hamınıza minnətdarlığımı bildirirəm.

Strasburq, 25 yanvar 2001-ci il

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham Əliyevin Avropa Şurası**
**Parlament Assambleyasında çıxışı**

Hörmətli cənab sədr!

Xanımlar və cənablar, əziz qonaqlar!

Buraya dəvət olunmaq və Avropa Şurasında çıxış etmək mənim üçün böyük şərəfdir. Bu, həm də şəxsən mənim üçün çox xoş hadisədir. Cənab sədrin qeyd etdiyi kimi, mən üç il müddətində Avropa Şurası Parlament Assambleyasının üzvü olmuşam. Həyatımın bu dövrü mənim üçün, bəlkə də, ən maraqlı, mühüm zaman kəsiyidir və bu dövr gələcək fəaliyyətimdə, əlbəttə ki, bugünkü vəzifəmdə də vacib rol oynadı.

Azərbaycan yalnız üç il bundan əvvəl Avropa Şurasının üzvü oldu. Ondan əvvəl isə ölkə bir çox problemlərlə üzləşirdi. 1991-ci ildə müstəqillik əldə etdikdən sonra Azərbaycanda vəziyyət çox çətin idi. Bu, həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan tam xaos dövrü idi. İqtisadiyyat sürətlə tənəzzül edirdi. Faktiki olaraq, ölkə dağılmaq ərəfəsində idi: vətəndaş müharibəsi, bir neçə hərbi çevriliş cəhdləri və əlbəttə ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü. Bu amillər ölkəyə normal, azad, iqtisadi tərzdə inkişaf etmək imkanı verə bilməzdi.

Yalnız keçmişin çətin irsini adladıqdan, ictimai-siyasi sabitlik təmin edildikdən sonra və Ermənistanla Azərbaycan arasında atəşkəs rejimi əldə olunandan sonra ölkə müxtəlif sahələrdə inkişaf etmək imkanı qazana bildi. İqtisadiyyatımızda artım başladı. Bu gün iqtisadi inkişaf baxımından Azərbaycan sürətlə inkişaf edən ölkədir. Son yeddi ildə ümumi daxili məhsulun artımı 90 faiz təşkil etmişdir, son 7 ildə inflyasiya 2-3 faizi aşmamışdır. Adambaşına düşən birbaşa xarici sərmayə baxımından Azərbaycan həm keçmiş SSRİ, həm də Mərkəzi Avropa ölkələri arasında aparıcı mövqedədir.

Bütün bu amillər, üstəgəl, irimiqyaslı iqtisadi islahatlar, torpaq islahatı, torpağın özəlləşdirilməsi və ümumiyyətlə, müəssisələrin özəlləşdirilməsi ölkəyə iqtisadiyyatını bazar iqtisadiyyatı prinsipləri əsasında qurmağa imkan verdi. İndi ümumi daxili məhsulda özəl sektorun payı 75 faizə bərabərdir. Xüsusilə nəzərə alsaq ki, neft sektoru hələ də dövlətin inhisarındadır, onda bu, böyük rəqəmdir. Ümumi daxili məhsulda 75 faiz o deməkdir ki, praktiki olaraq, bütün ticarət, bütün sənaye növləri özəlləşdirilibdir.

Biz bunun yaxşı nəticələrini görürük. Ölkənin necə inkişaf etdiyini, iqtisadiyyatın artdığını görürük və bu, bizə nəhəng beynəlxalq layihələri həyata keçirmək imkanı verir. Bugünkü gündə dünyanın ən iri enerji layihəsi Azərbaycanda həyata keçirilir. Artıq 10 ildir ki, Azərbaycan karbohidrogen ehtiyatlarından dünyanın aparıcı şirkətləri ilə birlikdə istifadə edir.

Bu, çox uğurlu təcrübədir. Özü də bu uğurun bir neçə əsas elementi var. Birincisi, çox gözəl sərmayə mühitinin olmasıdır. Bizim sərmayəçilər özlərini və

sərmayələrini təhlükəsiz hiss edir və əmindirlər ki, qoyduqları vəsait lazımınca qorunur. Azərbaycandakı bütün əsas sərmayə layihələri parlamentimiz tərəfindən ratifikasiyadan keçib qanun statusu almışdır. Onları heç kim dəyişə bilməz. Digər səbəb şəffaflıqdır. Şəffaflıq da neft-qaz sektorunda və ümumiyyətlə, bütün istehsal sahələrində uğurun əsasını təşkil edən elementlərdəndir. Azərbaycan bu mənada nəzərəçarpacaq nailiyyət qazanmışdır. Biz hasilat sənayelərində şəffaflıq təşəbbüsünə lap əvvəldən qoşulmuşuq və regionda bu prosesdə liderliyimizi davam etdirmək əzmindəyik.

Beynəlxalq maliyyə təsisatları ilə çox sıx əlaqələrimiz və əməkdaşlığımız var. Xüsusilə də, Beynəlxalq Valyuta Fondu ilə. Bu təşkilatla biz əsas iqtisadi xəttimizi razılaşdırırıq. Bütün bu amillər ölkəyə milyardlarla dollar vəsait cəlb etməyə imkan verdi.

Son illər ərzində Azərbaycana qoyulmuş sərmayələrin miqdarı 17 milyard dollara bərabərdir. Bunun da 12 milyard dolları birbaşa xarici sərmayədir. Sərmayəçilər Azərbaycandakı ictimai-siyasi sabitliyə əmin olmasaydılar, hadisələrin gedişini əvvəlcədən proqnozlaşdıra bilməsəydilər, əlbəttə ki, onlar risk edib öz vəsaitlərini qoymazdılar. Biz bu siyasətimizi davam etdirməkdə tam qərarlıyıq. Növbəti üç il ərzində Azərbaycanın təkcə neft və qaz sənayesinə, təxminən, daha 10 milyard dollar sərmayə qoyulacaqdır.

Bu gün reallaşdırılan iri boru kəmərləri layihələri təkcə bizim ölkə, ərazilərindən kəmərlərin keçəcəyi digər ölkələr üçün yox, həm də bütün region üçün vacibdir. Bu layihələr regional təhlükəsizlik və sabitlik üçündür, regional əməkdaşlıq üçündür. Azərbaycan regional əməkdaşlıq sahəsində çox fəal ölkədir və bugünkü gündə bu əməkdaşlıq qənaətbəxşdir. Biz gələcəkdə də bu yöndə fəal rol oynamağa hazırıq.

Azərbaycanın Xəzər dənizindəki neft və qaz ehtiyatları ölkəmizə imkan verəcək ki, bunlardan düzgün istifadə edərək, iqtisadiyyatını hərtərəfli inkişaf etdirsin. Neft və qazın hasilatı və nəqli qarşımızdakı son məqsəd deyildir. Bu, yalnız iqtisadiyyatımızı hərtərəfli inkişaf etdirmək, müasir, sivilizasiyalı, iqtisadi cəhətdən güclü cəmiyyət qurmaq, siyasi islahatları gələcəkdə də həyata keçirmək və cəmiyyətin demokratikləşməsi yolunu davam etdirmək vasitəsidir. Əldə etdiyimiz nailiyyətlər və yaxın gələcəkdə həyata keçiriləcək layihələr, əlbəttə ki, ölkəmizin iqtisadiyyatını gücləndirməyə imkan verəcəkdir.

Azərbaycan lap yaxın gələcəkdə iqtisadi baxımdan çox güclü ölkə olacaqdır. 2005-2006-cı ildə artıq əsas neft və qaz kəmərləri işlək vəziyyətdə olacaq və layihədə iştirak edən bütün ölkələrə öz əhalisinin həyat səviyyəsini yaxşılaşdırmağa imkan verəcəkdir.

Amma əlbəttə ki, bütün bunlar ölkəmizin bugünkü həyatının yalnız bir hissəsidir. Ölkə inkişafdadır, həm iqtisadi, həm də sosial baxımdan inkişaf edir. Çoxsaylı sosial proqramlar həyata keçiririk. Bizim iqtisadi siyasətimiz bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Amma büdcəmizin strukturuna nəzər salsanız, görərsiniz ki, büdcənin çox böyük hissəsi sosial məsələlərə yönəldilmişdir. Məncə,

bazar iqtisadiyyatı ilə sosial müdafiənin bu cür kombinasiyası da uğurun əsaslarını təşkil edən amillərdəndir.

Ölkəmiz siyasi islahatlar sahəsində də mühüm nailiyyətlər əldə etmişdir. Avropa Şurasının üzvü olduğumuz üç il müddət Azərbaycanın demokratiya yolu ilə irəliləməsində həlledici rol oynamışdır. Avropa Şurasının tövsiyələri ilə yeni-yeni qanunlar qəbul edilmişdir. Təşkilata üzv qəbul olunarkən ölkənin üzərinə götürdüyü öhdəliklər və onların yerinə yetirilməsi də bu sahədə yardımçı olmuşdur. Ona görə də mən istərdim ki, Avropa Şurasındakı bütün həmkarlara öz səmimi minnətdarlığımı bildirim. Konstruktiv əməkdaşlıq, məsləhətlər, tövsiyələr, bölüşdüyünüz təcrübə - bunların hamısı Azərbaycan cəmiyyətinin gələcək demokratikləşməsinə, Azərbaycanın Avropa ailəsinə tam üzv olmasına xidmət etmişdir.

Yerinə yetiriləcək vəzifələr çoxdur. Həyatımızın bir çox sahələri beynəlxalq standartlara cavab vermir. Bunun obyektiv və bəzi hallarda subyektiv səbəbləri var. Müharibədən, işğaldan əziyyət çəkmiş, vətəndaş müharibəsi və digər faciəvi hallarla üzləşmiş ölkə birdən-birə tam demokratik və tam azad ola bilməz. Amma bu yol bizim seçimimizdir, strateji seçimimizdir. Prezident seçkilərindən sonra gedən proseslər, hökumətimizin qəbul etdiyi qərarlar bizim yüksək qiymətləndirdiyimiz dəyərlərə sadiq olduğumuzu göstərir. Bizim azad, demokratik, plüralist cəmiyyət qurmaq əzmimizi göstərir.

İqtisadi artım və cəmiyyətin demokratikləşməsi siyasətimizin əsas elementləridir və biri digərsiz mümkün ola bilməz. İqtisadi cəhətdən güclü ola bilərsən, amma demokratiya yoxdursa, şəffaflıq yoxdursa, insan haqları qorunmursa, uğur qazana bilməzsən. Biz neft hasil edən bəzi ölkələrin təcrübəsini öyrənmişik və təəssüflə şahidi olmuşuq ki, onların heç də hamısında neft amili uğurla nəticələnmir. Bəzən neft amili firavanlıq gətirmək əvəzinə, mənfi hallarla müşayiət olunur. Ona görə də bütün bu mənfi təcrübəni görərkən biz qərarlıyıq ki, səhvə yol verməyək.

Eyni zamanda, ölkəmizin problemləri də çoxdur. Bizdə yoxsulluq var. Yoxsulluğa qarşı mübarizə aparırıq. Hazırda yoxsulluğun azaldılmasına dair Dünya Bankı ilə birlikdə proqram həyata keçiririk. Bizdə işsizlik var və iqtisadi və sosial-iqtisadi inkişaf proqramının əsas elementlərindən biri yüz minlərlə yeni iş yerləri açmaqdan ibarətdir və mən bunu rəsmi bəyan etmişəm.

Regionlara xüsusi diqqət yetiririk ki, yalnız paytaxt yox, əsas şəhərlər yox, bütün ölkə, Azərbaycanın bütün bölgələri hərtərəfli, dinamik inkişaf etsin. Ən ucqar kəndlər də iqtisadi inkişafı öz həyat tərzlərində hiss etməlidir. Yalnız bütün əhalimiz özünün daha yaxşı yaşadığını hiss etdiyi bir vaxtda, hökumətimiz vəzifəsini yerinə yetirmiş hesab edə bilər. Budur, bizim məqsədimiz - vətəndaşlara eyni şərait yaratmaq. Qoy iqtisadi artımdan, neft sənayesinin inkişafından hamı bəhrələnsin. Hər bir Azərbaycan vətəndaşı eyni hüquqlardan istifadə etsin. Bu yöndə bizim çox gözəl nailiyyətlərimiz var. Ölkəmizin ən böyük nailiyyətlərindən biri də etnik və dini dözümlülükdür. Yalnız müstəqillik dövründə deyil, Sovet

İttifaqı dönəmində də tolerantlıq Azərbaycana xas idi və bu siyasət indi də davam etdirilir. Azərbaycan çoxmillətli ölkədir. Bütün millətlər və bütün dinlərin nümayəndələri Azərbaycanı öz evi hesab edirlər.

Uzun müddət ölkəmizin üzləşdiyi əsas problem Azərbaycan ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal olunmasıdır. Bu işğal Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar separatçı irtica ilə başlamışdır. Bu siyasət Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin və onun inzibati sərhədlərindən kənarda yerləşən daha 7 rayonumuzun işğalı ilə nəticələndi. Azərbaycanın bu 7 rayonunda heç zaman ermənilər yaşamamışdır. Onlar tamamilə azərbaycanlılar məskunlaşan ərazilərdir. Ermənistanın bu işğalı yüz minlərlə adamın qaçqın və köçkün vəziyyətinə düşməsi ilə nəticələndi. Bu faktlar Assambleyaya yaxşı məlumdur. Nümayəndə heyətimizin üzvləri bu haqda dəfələrlə çıxışlar ediblər və bu faktlar Avropa Şurası Parlament Assambleyasının sənədlərində də öz əksini tapmışdır. Bugünkü Ermənistanın ərazisindən 250 min azərbaycanlı qaçqın düşmüşdür. Azərbaycan ərazisində işğal olunmuş 7 rayonun 700 min sakini məcburi köçkün oldu. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan 50 min azərbaycanlı da məcburi köçkündür. Üstəlik, digər münaqişə zonalarından, başqa ölkə ərazilərindən də qaçqınlar Azərbaycanda sığınacaq tapmışlar. Azərbaycanın 8 milyonluq əhalisinin 1 milyonu qaçqın-köçkündür. Bu, dünyada əhalinin sayına nisbətdə qaçqın-köçkünlərin ən yüksək faizidir.

Bu vəziyyət 10 ildən artıqdır ki, davam edir. Bu ilin may ayında Ermənistanla Azərbaycan arasında atəşkəsin onuncu ili olacaqdır və 10 ilə qədərdir ki, aparılan danışıqlar nəticə vermir. Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara-köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin - Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik.

Beynəlxalq ictimaiyyət bu vəziyyətlə razılaşmamalıdır. Əlbəttə, biz ümid edirik ki, beynəlxalq birliyin birgə səyi imkan verəcək ki, bu problem həll olunsun. Biz Avropa Şurasına minnətdarıq ki, bu mövzu ətrafında fikir mübadilələri başlayıbdır. Bildiyiniz kimi, hazırda Siyasi məsələlər komitəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məruzə üzərində işləyir. Ümid edirik ki, məruzə vəziyyəti olduğu kimi əks etdirəcək və ən vacibi isə, məsələyə siyasi qiymət verəcəkdir.

Ermənilərin münaqişə ilə bağlı öz iddiaları var. Sadəcə onlara şərh verim ki, sizdə tam təsəvvür yaransın, yalnız bir tərəfin dediklərini eşitməyəsiniz. Onların iddiası belədir ki, Dağlıq Qarabağda yaşayan ermənilərin öz müqəddəratını təyin

etmək hüquqları var. Öz müqəddəratını təyin etmək insanlara verilmiş çox mühüm hüquqdur. Biz hamımız buna hörmətlə yanaşırıq. Amma sizin diqqətinizi bir mühüm məsələyə yönəldim. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər, onların Ermənistan dövləti var. Bu o deməkdir ki, bir millət kimi ermənilər artıq bu hüquqdan istifadə etmişlər. Təsəvvür edin ki, onların yaşadığı hər bir yerdə öz müqəddəratını həll edəcəyi halda nə baş verər?! Bu nə deməkdir? Bu o deməkdirmi ki, milli azlıqların yaşadığı hər bir yerdə separatizm olmalıdır? Məgər bu o deməkdir ki, milli azlıq yaşadığı hər bir ərazidə öz müstəqil dövlətini qura bilər? Əlbəttə ki, yox!

Avropa ölkələri də daxil olmaqla, bir çox ölkələrdə milli azlıqlar yaşayırlar. Azərbaycanlılar da yaşadıqları bir sıra ölkələrdə milli azlıqdır. Gürcüstanda təxminən yarım milyon azərbaycanlı yaşayır. Rusiyada da, digər ölkələrdə də yaşayan çoxsaylı azərbaycanlılar var. Ermənilər də həmçinin. Gürcüstanda 200 min erməni yaşayır - Dağlıq Qarabağda yaşayan ermənilərin sayından 4 dəfə artıq. Bu o deməkdir ki, onlar hər yerdə öz müqəddəratını təyin etməlidirlər? Bu konkret halda öz müqəddəratını təyin etmək prinsipi işləmir. Ona görə də bu halda ərazi bütövlüyü ilə öz müqəddəratını təyin etmək prinsipləri arasında əkslik yoxdur. Başqa sözlə, biz gözləyirik ki, beynəlxalq ictimaiyyət bu münaqişənin həll olunmasında çox fəal rol oynayacaq, bu həll beynəlxalq hüquq normalarına əsaslanacaqdır.

Hörmətli xanımlar və cənablar! Qeyd etdiyim kimi, burada olmaq mənim üçün həm xoşdur, həm də şərəfdir. Məmnuniyyətlə çıxış edirəm. Dediyim kimi, Azərbaycan müstəqilliyini qazandıqdan sonra böyük nailiyyətlər əldə edibdir. Bu gün bizim strateji seçimimiz Avropaya, Avropa ailəsinə, strukturlarına inteqrasiyadır. Bu yolun davamı var. Biz bu siyasətimizə möhkəm sadiqik. Əlimizdən gələni edəcəyik ki, Azərbaycan Avropaya xas olan bütün standartlara, bütün ölçülərə cavab versin. Bütün Avropa strukturlarına xas olan standartlara uyğun gəlsin. Budur bizim siyasətimiz və uzun müddətdir onu həyata keçiririk. Bu gün Azərbaycanda baş verənlər bu siyasətin davamının nəticəsidir. Biz Avropa Şurasındakı fəal üzvlüyümüzü davam etdiririk.

Biz Avropa dəyərlərinə tam sadiqik, bu dəyərləri bölüşürük. Bizim nümayəndə heyəti Avropa Şurasında həmişə fəal olmuşdur. Bizim problemləri başa düşdüklərinə görə mən Avropa Şurası Parlament Assambleyasının üzvlərinə minnətdaram. Biz burada çoxlu dostlar qazanmışıq, şəxsən mən özüm bir çoxları ilə dost olmuşam. Mən onların hamısını salamlayıram. Avropa demokratik qrupunda işlədiyimiz həmkarları salamlayıram və Assambleyanın bütün üzvlərinə minnətdarlığımı bildirirəm. Sizə deyim ki, mən həqiqətən, Avropa Şurası Parlament Assambleyasının üzvü olduğum, sizinlə birgə işlədiyim vaxtlar üçün darıxıram. Bu gün mən başqa vəzifədəyəm, başqa öhdəliklərim var. Amma sizi əmin edirəm ki, son illər Azərbaycanda aparılan siyasət davam etdirilir və bu, ölkəmizə, regionumuza sülh və firavanlıq gətirəcəkdir. Diqqətinizə görə çox sağ olun. Strasburq, 29 aprel 2004-cü il.

## Millət vəkili İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən sənədlər

***I. Ermənistan və Dağlıq Qarabağda həbs edilmiş hərbi əsirlər və girovlar barədə***

*Sənəd 9063*

Hazırkı təklif assambleyada müzakirə olunmamışdır və yalnız onu imzalayan şəxslər tərəfindən təsdiq edilmişdir.

1. 1988-ci ildə başlanmış, sonra isə Ermənistan tərəfindən Azərbaycana qarşı hücum şəklinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikasının təxminən 20 faizi işğal olunmuşdur.
2. 10 aprel 2001-ci il tarixində bəyan edilmiş məlumata görə, həmin hücum nəticəsində 4 959 insan itmişdir ki, onlardan 1092 nəfəri azad olunmuş (1992-ci ildən 2001-ci ilə qədər) və Beynəlxalq Qızıl Xaç Komitəsinin məlumatına görə, onlardan 176 nəfəri öldürülmüşdür.
3. Lakin hal-hazırda daha vacib məsələ ondan ibarətdir ki, Ermənistan və işğal olunmuş ərazilərində 783 nəfər azərbaycanlı saxlanılır; 18 uşaq, 43 qadın və 56 nəfər yaşlı insanlardır. Buna baxmayaraq, Ermənistan tərəfi bu fikrin doğruluğunu qəbul etmir.
4. 6 aydan çoxdur ki, Beynəlxalq Qızıl Xaç Komitəsi, öz məlumatına görə, həmin hərbi əsirləri görə bilmir.
5. Artıq 3 aydır ki, Azərbaycan və Ermənistan Avropa Şurasının tamhüquqlu üzvləridir və bu qurumun üzvü olan ölkənin ərazisində heç bir insan hüququna malik olmayan çoxsaylı hərbi əsirlərin saxlanılması faktı heç cür qəbul edilə bilməz.
6. Əsirlikdən azad olunmuş şahidlərin dediklərinə görə, bütün əsirlər qulluqçuluq edir, onların hüquqları kobud şəkildə pozulur və onlara əzab verilir. Onların normal yeməkləri yoxdur və lazımi tibbi xidmət göstərilmir.
7. Assambleya Nazirlər Kabinetinə müraciət edərək bildirib ki, o, üzv olan dövlət — Ermənistan və işğal olunmuş Azərbaycan ərazilərində Avropa Konvensiyasında qeyd olunmuş insan hüquqlarının yerinə yetirilməsini Ermənistandan tələb etsin.
8. Assambleya Hüquqi məsələlər və insan hüquqları komitəsinə müraciət edərək xahiş edir ki, o, həmin problemin nizamlanmasında çıxış yolunu tədqiq edən məruzəçini tezliklə təyin etsin.

*İmzalayanlar — 20 nəfər.*

***II. Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş genosidin etiraf edilməsinə dair***

*Sənəd 9066*

Yazılmış Deklarasiya No. 324 II buraxılış, orijinalı 26 aprel 2001-ci il tarixində hazırlanmışdır.

Hazırkı yazılı deklarasiya yalnız imza atmış şəxslər tərəfindən təsdiq edilmişdir.

Genosid Azərbaycan tarixinin ayrılmaz bir hissəsi oldu və bu, 1813-cü ildə Gülüstan, 1828-ci ildə isə Türkmənçay müqavilələrinin imzalanması və bununla ərazilərin parçalanmasından baş götürür.

1905-1907-ci illərdə ermənilər "Böyük Ermənistan" dövlətini qurmaq məqsədilə azərbaycanlılara qarşı vəhşi və dəhşətli qırğınlar törətdilər. 1918-ci ilin mart ayında ermənilər azərbaycanlıları Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa regionlarından qovmuşdular.

Sovet rejiminin köməyi ilə Ermənistan 1920-ci ildə Zəngəzur və başqa Azərbaycan torpaqlarını özünə birləşdirdi. 1948-1953-cü illərdə kommunist rejimi azərbaycanlı əhalini onların Ermənistanda olan doğma torpaqlarından Azərbaycana göndərdi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsinin başlanmasında yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından sürgün olundu.

26 fevral 1992-ci il tarixində ermənilər Xocalı şəhərinin bütün əhalisini vəhşicəsinə qırıb şəhəri bütövlüklə darmadağın etdilər.

Dağlıq Qarabağda erməni separatizmi və hazırkı Azərbaycan torpaqlarının 20 faizini işğal etməsi minlərlə ölümə və milyondan çox qaçqının yaranmasına səbəb oldu.

Aşağıda imza edən assambleya üzvləri Parlament Assambleyasının bütün üzvlərinə müraciət edərək xahiş edir ki, assambleya XIX əsrdən bəri ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş genosidin etirafı üçün müvafiq addımlar atsın.

*İmzalayanlar — 30 nəfər.*

### *III. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanıması*

*Sənəd 9140*

*Nazirlər Komitəsinə müraciət olunmuş sual n-396 Hacıyeva xanımları tərəfindən*

Nazirlər Kabinetinin 10 və 11 may 2001-ci il tarixlərində keçirilmiş 108-ci iclasında Balkan və Qafqazda vəziyyətlə bağlı məsələlər müzakirə olunmuşdu. Görüş zamanı Ermənistan Respublikasının xarici işlər naziri V.Oskanyan cənabları bəyan etdi ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər qəbul etmir və etməyəcək.

*Aşağıdakıları nəzərə alaq ki,*

həm Azərbaycan, həm də Ermənistan Avropa Şurasının tamhüquqlu üzvləridir;

Azərbaycan Respublikasının ərazi bütövlüyü bütün beynəlxalq təşkilatlar, BMT, ATƏT, Avropa Şurası daxil olmaqla və bütün dünya dövlətləri tərəfindən qəbul edilir;

Yeganə Avropa Şurasının üzvü — Ermənistan o biri üzvün — Azərbaycanın ərazi bütövlüyünü qəbul etmir;

Ermənistan Azərbaycanın 20 faiz ərazilərini işğal etmiş və bu, kütləvi insan hüquqları normalarının pozulmasına səbəb olmuşdur.

*C.Hacıyeva Nazirlər Komitəsinə müraciət edir ki, o, Ermənistan Respublikasını aşağıdakıları yerinə yetirməyə çağırsın:*

Beynəlxalq hüquqi dövlətlərin ərazi bütövlüyü və müstəqilliyi prinsipinə riayət etsin və Azərbaycanın ərazi bütövlüyünü qəbul etsin.

***IV. Azərbaycan mədəni irsinin dağıdılması və ələ keçirilməsi barədə***

*Sənəd 9147*

Azərbaycan Respublikasına qarşı törədilmiş erməni təcavüzünün faciəvi nəticələrindən biri ölkə ərazisinin 20 faizinin işğal edilməsindən başqa, Azərbaycanın milli və mədəni irsinin dağıdılması və ələ keçirilməsidir. Beynəlxalq təşkilatların bir çox çağırışlarına baxmayaraq, Ermənistan Azərbaycanın işğal edilmiş regionlarda qalmış mədəni sərvətinin təhlükəsizliyinin təmin edilməsi sahəsində heç bir konstruktiv addım atmamışdır.

500 tarixi memarlıq abidəsi və 100-dən çox arxeoloji abidə, 22 muzey, 4 incəsənət qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı Azərbaycanın işğal edilmiş ərazilərində qalmışdır.

Hərbi əməliyyatların nəticəsi olaraq Kəlbəcər və Laçında olan Tarix və Regional Tədqiqat muzeyləri, Şuşa və Qarabağın tarixi muzeyləri, Zəngilanda olan Daş Abidələr muzeyləri və həmçinin, bir çox digərləri oğurlanmış və dağıdılmışdır. İşğal nəticəsində Bürünc dövrünün təkrarsız abidələri, təxminən 100 qəbir təpəciklərindən ibarət olan Xocalı kurqan sahəsi yerlə yeksan edilmişdir.

Assambleya qiymətli abidə sayılan, insan sivilizasiyasının ən qədim yerlərindən olan Azıx mağarasının səhra silah anbarına çevrilməsindən dərin təşviş hissi keçirir.

İncəsənət və ədəbiyyat sahəsində Azərbaycana məxsus işlərin qanunsuz olaraq ermənilər tərəfindən bir sıra zəbtedilmə halları Azərbaycan Respublikasının Müəlliflik Hüququnun Müdafiə edilməsi Agentliyi tərəfindən yoxlanılaraq təsdiq edilmiş və bütün bunlar Azərbaycan xalqının ciddi narahatlığına səbəb olmuşdur.

Bir çox əsrlər boyu yaradılmış olan mədəni irsin ayrıca götürülmüş millətə və ya ölkəyə mənsub olması ilə bərabər, həmçinin bütün dünya mədəniyyətinin tərkib hissəsi olduğunu nəzərə almaqla, Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir ki, Azərbaycanın mədəni irsinin dağıdılması və qanunsuz olaraq mənimsənilməsini dayandırmaq üçün zəruri olan addımlar atsınlar.

*İmzalayanlar — 18 nəfər.*

***V. Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) ekoloji vəziyyət***

*Sənəd 9148*

Ekoloji problemlərin müasir dünyada qlobal mühümlüyünü nəzərə alaraq, Avropa Şurasını Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) müşahidə edilən indiki ekoloji vəziyyət narahat edir. Yuxarıda qeyd olunmuş Azərbaycan ərazilərində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazkənarı və Damaltı) yerləşir. Özünəməxsus unikal təbiət landşaftı, faunası və florası olan milli qoruqlara Azərbaycan tərəfindən heç bir surətdə nəzarət edilmir və məlumatlara görə, onlar sistematik olaraq talan edilir.

Yuxarıda qeyd olunmuş ərazilərdə yerləşən meşələrin ümumi sahəsi 264 000 hektardır. Hazırda qeyd olunmuş sahədə bütün nadir ağacların növləri kəsilib və heyvanlar, demək olar ki, tamamilə yox olublar. Nəticə olaraq, təbii komplekslər arasında olan ən mühüm bioloji əlaqələr pozulub və ekoloji böhran baş verib. Araz çayında olan suyun, Kür çayının ən uzun qolunun, Azərbaycanın ən mühüm su arteriyasının kimyəvi analizləri göstərir ki, suyun çirklənmə səviyyəsi mümkün normadan dəfələrlə artıqdır. Araz çayının əsas qollarının (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini və Ermənistan Respublikası tərəfindən Sərhədkeçən su arteriyalarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi Konvensiyasının (Helsinki, 2000-ci il) təsdiqlənməməsini nəzərə alaraq assambleya hazırkı vəziyyətlə əlaqədar öz narahatlığını bildirir. Bütöv Qafqaz regionunun yüksək seysmoloji səviyyəyə malik olduğunu nəzərə alaraq (Spitakdakı zəlzələ 1988-ci ildə, Bakıda — 2000-ci ildə), Ermənistan Respublikasında atom stansiyasının mövcud olması yalnız Qafqaz regionunda yox, həmçinin bütün Qərbi Avropa və Mərkəzi Asiya regionunda insan həyatına böyük potensial təhlükə yaradan bir mənbə kimi qiymətləndirilə bilər.

2001-ci il fevral ayında Azərbaycan Respublikası tərəfindən təsdiq edilmiş Baş Konvensiyanın təhlükəli tullantıların sərhəd sularından keçmə nəzarəti Əsasnaməsi və yuxarıda qeyd edilmiş ərazilər tamamilə nəzarət olunmaması faktını nəzərə alaraq assambleya Ermənistan Atom Stansiyasının Azərbaycan ərazilərinə nüvə tullantılarını atmaq mümkünlüyünə dair öz narahatlığını bildirir. Yuxarıdakıları nəzərə alaraq, assambleya Nazirlər Komitəsinə müvafiq addım atmaq xahişi ilə müraciət edir ki, Avropa Kontinentinin unikal və işğal altında olan hissəsində ekoloji fəlakət baş verməsin.

*İmzalayanlar — 16 nəfər.*

***VI. Azərbaycanda qaçqın və məcburi köçkünlərin Avropada təhsil sahəsində gələcək inkişaf proqramı çərçivəsində təhsil almaq hüququ***

*Sənəd 9237*

Azərbaycanın 10 il bundan əvvəl qazanılmış müstəqilliyi Avropa və beynəlxalq standartların yerinə yetirilməsi və Avropanın inkişaf etmiş təhsil mərkəzləri ilə fəal əməkdaşlığın yaradılması baxımından təhsil sahəsində əsaslı imkanlar yaratmışdır. Lakin son on iki ildə baş vermiş müharibə və işğal Azərbaycanda təhsil sisteminin inkişafına mane olmuşdur.

Ermənistan tərəfindən Azərbaycana qarşı edilmiş hərbi təcavüzün nəticəsi olaraq 616 orta məktəb, 234 məktəbəqədər mərkəz, 12 peşə məktəbi, 5 texniki məktəb, 1 universitet, 3 universitet filialı və 3 peşə məktəbi filialı dağıdılmış olaraq qalır. Dəymiş ziyan təxminən 1,5 milyard dollar məbləğində qiymətləndirilmişdir. Bu işğal təhsil sahəsində çalışan təxminən 20 000 işçinin və təxminən 130 000 şagird və tələbənin məcburi olaraq başqa yerə köçürülməsi ilə nəticələnmişdir.

Hal-hazırda Azərbaycanın 48 rayonunda 702 yalnız qaçqınlar təhsil alan orta məktəb vardır və bunların 30-u çadır düşərgələrində yerləşir. Təxminən 90 000 şagird bu məktəblərdə təhsil alır və 12 206 müəllim və təlimatçı onların təhsil və tərbiyəsi ilə məşğuldur.

Digər məcburi köçkün şagirdlər bütün ölkə ərazisində olan məktəblərdə yerləşdirilmişlər. Lakin bu, siniflərdə sagirdlərin sayının süni surətdə artmasına səbəb olmuşdur ki, bu da bütün ölkədə təhsilin keyfiyyətinə mənfi təsir göstərmişdir.

Qaçqınların üzləşdikləri təhsil sahəsindəki mövcud problemlərdən ciddi narahat olan Parlament Assambleyası bununla bağlı təkid edir ki, Nazirlər Komitəsi müvafiq məsələyə zəruri olan diqqəti yetirsin.

*İmzalayanlar — 23 nəfər.*

### VII. Ermənistan-Azərbaycan (Dağlıq Qarabağ) münaqişəsi

*Sənəd 9239*

*Məsləhət üzrə təklif cənab İlham Əliyev və başqaları tərəfindən təqdim olunmuşdur.*

*Hazırkı təklif assambleyada müzakirə olunmamış və yalnız onu imzalayan şəxslər tərəfindən təsdiq olunmuşdur.*

Ermənistan və Azərbaycan 25 yanvar 2001-ci il tarixdən etibarən Avropa Şurasının tamhüquqlu üzvləri oldular. Avropa ailəsinə bu ölkələri qəbul edərək, assambleya onların arasında ağır və qanlı münaqişənin olduğunu bilirdi; lakin onları Avropa Şurasına qəbul edərkən onlara problemin həllində kömək göstərmək məqsədi ən əsas amillərdən biri idi.

Bununla bərabər assambleya onu təsdiq edir ki, Azərbaycan və Ermənistanın Avropa Şurasına daxil olduqlarından bir il yarımdan çox vaxt ərzində Dağlıq Qarabağ ətrafında olan münaqişənin müzakirə olunma təklifi nəinki hər hansı komitəyə və yaxud assambleyanın özünə təqdim olunmamışdır. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların intensivləşməsinə baxmayaraq, yuxarıda deyilən münaqişənin hər hansı həllolunma çıxışına tərəflər gələ bilmədi.

Cənubi Qafqazda bu problemin vacibliyini anlayaraq və münaqişənin davamının Qafqaz bölgəsində sabitliyin pozulmasına gətirib çıxara biləcəyini nəzərə alaraq assambleya belə fikirdədir ki:

a. Artıq Ermənistan—Azərbaycan Dağlıq Qarabağ ətrafında olan münaqişənin həll yolunun tapılması vaxtıdır və Ermənistan və Azərbaycan xalqları arasında sülh, yaratma məsələsi bütövlüklə hər hansı bir tərəfə maraq göstərməyən

və qərəzsiz olan Avropa Şurasına tapşırılmalıdır və beləliklə, Cənubi Qafqazda, habelə bütün Avropada sabitlik yaranacaq.

b. Parlament Assambleyasının Siyasi Komitəsi bu məsələ üzərində müzakirələr aparmalı və assambleyanın keçirdiyi iclasın nəticələri üzrə müvafiq sənəd hazırlamalıdır.

*İmzalayanlar — 50 nəfər.*

***VIII. Azərbaycanda qaçqın qadın və uşaqların humanitar vəziyyətinə dair***

*Sənəd 9348*

*Məsləhət üzrə təklif xanım Gültəkin Hacıyeva və başqaları tərəfindən təqdim edilmişdir.*

*Hazırkı təklif assambleyada müzakirə olunmamışdır və yalnız onu imzalayan şəxslər tərəfindən təsdiq olunmuşdur.*

Ermənistan və Azərbaycan arasında münaqişə bir milyondan artıq insanın qaçqın və məcburi köçkün olması ilə nəticələndi və bu hal Azərbaycanda humanitar vəziyyətə ağır zədə vurdu. Problemin miqyası o qədər genişdir ki (qaçqın və məcburi köçkünlərin sayı ölkə əhalisinin 15 faizini təşkil edir), Azərbaycan Respublikası hökumətinin atdığı bütün addımlara baxmayaraq, bu problemi təkcə daxili qüvvələrlə həll etmək mümkün deyildir.

Dağlıq rayonlardan gəlmiş insanların isti vadi iqliminə alışmaları çətin keçmiş və onlar bir sıra ağır səhiyyə və psixoloji problemlərlə üzləşmişlər.

Artıq 9 ildir ki, 50 000-dən artıq məcburi köçkün çadırlarda, 33 000 icma evlərində, 34 000 yerüstü qazmalarda, 10 000 dəmiryol vaqonlarında, bəziləri isə icma vasitələri olmayan yataq otaqlarında, kommunal binalarda, inşası sona çatmamış binalarda və yaxud başqa çətin və dözülməz şəraitlərdə yaşayır. Belə şəraitlərdə yaşayan insanların 52,3 faizi qadın, 34,6 faizi isə uşaqdır.

Dəhşətli yaşayış standartları qaçqın və məcburi köçkünlər arasında xəstəliklərin yayılması üçün münbit şərait yaradır. Dörd min qadın artıq müxtəlif xəstəliklərlə (yoluxucu xəstəliklər, mədə-bağırsaq virusları, dəri xəstəlikləri, malyariya, difteriya, qarın yatalağı, depressiya, vərəm, anemiya, şəkər xəstəliyi və s.) yoluxub. Pis yaşayış şəraitləri 6 000 qadının sonsuzluğuna və yaxud ginekoloji xəstəliklərlə yoluxmasına səbəb oldu, 4000 anemiyadan, 7000 daxili orqan xəstələri və 3500 stomatitdən əzab çəkir. Qadın və uşaqların səhiyyəsi dövraşırı tibbi yoxlamalar və yoluxucu xəstəliklərə qarşı peyvəndləmə metodu ilə qorunmalı, həmin insanların ailə qurmaq və tibb xidmətləri haqqında tam təsəvvür yaratmaq üçün məsləhətlərlə təchiz olunmalıdır.

Bir çox tibb cihazlarının münasib olmayan binalarda yerləşdirilməsi, müasir tibb ləvazimatının yoxluğu onu göstərir ki, qaçqın və məcburi köçkünlərə təklif edilmiş tibb xidmətini və mühafizəsini yaxşılaşdırmaq mümkün deyil. Ağır humanitar vəziyyət həm təbii əhali artımına, həm də genetik sahəyə çox ciddi mənfi təsir göstərir.

Əhalinin artımı 1990-cı ildə aşağı düşmüşdür ki, bu problem də əsasən qaçqın və məcburi köçkünlər arasında müşahidə olunur. Onların arasında uşaq ölümü faizi ümumi əhaliyə nisbətən iki dəfə artıqdır. Əsasən bir-on iki yaş arasında olan məcburi köçkün valideynlərin uşaqlarında səhiyyə problemləri ciddi yanaşma tələb edir.

Assambleya Azərbaycana qaçqın qadın və uşaqların vəziyyəti ilə əlaqədar öz narahatlığını bildirir və xahiş edir ki, qayğı göstərmək istəyənlər əsas humanitar problemin həll olunmasında imkan yaratsınlar.

*İmzalayanlar — 35 nəfər.*

***IX. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantılarının basdırılması barədə***

Sənəd 9444

Ermənistan—Azərbaycan münaqişəsinin nəticələrindən biri Ermənistan hərbi qüvvələri tərəfindən işğal edilmiş torpaqlarda, Qarabağ dağlarında və Azərbaycan Respublikasının digər yeddi rayonunda nəzarət edilməyən nüvə zonalarının yaradılması olmuşdur ki, bu da bütün Cənubi Qafqaz regionu üçün ciddi təhlükə törədir.

İşğal edilmiş ərazidə 29 nüvə mərkəzi vardır. Bu sahədə radiasiya və nüvə tullantıları 80 000 hektar kənd təsərrüfatı torpağını, 150 000 hektar meşəni, 22 000 hektar şəxsi sahələri və iki yaşayış qəsəbəsini zəhərləmişdir.

Ermənistanın "Razdanmaş", "Armavir", "Akopyan", "Cak Mac Metals" və "Vartaniol" şirkələri nüvə texnologiyalarını Dağlıq Qarabağdan keçirməklə İrana və İraqa ötürmüşlər. Sonuncu şirkət, həmçinin, işğal edilmiş ərazidə "C-300" və "Tayfun" tipli raketlərin təkmilləşdirilməsi prosesinə cəlb edilmişdir.

Sankt-Peterburq Fizika İnstitutunun, Moskvanın Kurçatov adına Nüvə Texnologiyaları İnstitutunun və Minskin Nüvə Fizikası İnstitutunun laboratoriyaları Qarabağ dağlarında işləyir. Bu laboratoriyaların və Ermənistanın "Metsamor" atom stansiyasının nüvə tullantıları xüsusi çəlləklərdə Qarabağın dağlıq regionunda yerləşən Almalı, Kolatıq və Seyidbəyli yaşayış sahələrində basdırılmışdır.

Baham adalarında yerləşmiş olan "Union Atomic Garbage Plc" adlı atom tullantılarının yerləşdirilməsi üzrə podratçı şirkət, Qarabağ dağlarında nüvə tullantılarının basdırılması üçün xüsusi beton çalalar tikmişdir.

Azərbaycanın işğal edilmiş Cəbrayıl rayonunun təxminən yarısı İran vətəndaşlarına icarəyə verilmişdir. Nüvə tullantıları bu rayonun şərq hissəsində basdırılmışdır və 219 kvadrat kilometrlik sahə yüksək radiasiya ilə əhatə edilmişdir. Bu rayonun İrana yaxın hissəsi (93 kvadrat kilometr) on illiyə İranın sərhəd qüvvələrinə icarəyə verilmişdir.

Regionda mövcud olan nüvə təhlükəsi, həmçinin, ermənilər tərəfindən 1993-cü ildə Azərbaycanın Kəlbəcər rayonunun işğalı zamanı nüvə döyüş başlıqlarının istifadəsinin nəticəsi kimi özünü büruzə vermişdir və ekspertlərin

rəyi belədir ki, bu zəhərlənmiş zona ən azı iyirmi beş il ərzində təmizlənə bilər (Rusiya Federasiyası Elmlər Akademiyasının Mikrobiologiya İnstitutu, "Messenger", 1997, 14 noyabr).

Azərbaycanın işğal edilmiş Laçın rayonunun 280 kvadrat küometrlik meşə zonası Amerika vətəndaşı Q.Ohanyana icarəyə verilmişdir və o, bu ərazidə silah zavodu tikmişdir. Ermənistan Toksikologiya İnstitutunun 1996-cı il hesabatında göstərilmişdir ki, Laçın rayonunda olan 320 kvadrat kilometrlik sahə kütləvi qırğın zonasına çevrilmişdir.

Azərbaycan Respublikasının beynəlxalq nəzarətdən kənar olan işğal edilmiş ərazilərində nüvə silahlarının, nüvə texnologiyalarının və nüvə tullantılarının artması, Qafqazda sülhün və sabitliyin gələcəkdə yaradılması üçün ciddi maneəni və daha böyük fəlakətlərin baş verməsinin real təhlükəsini əks etdirir.

Assambleya belə hesab edir ki, Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz zonaların mövcudluğu bütün Qafqaz üçün real nüvə təhlükəsi yaradır.

Assambleya təkid edir ki, Ermənistan rəhbər dairələri regionda nüvə təhlükəsinin genişləndirilməsinə son qoysunlar. Assambleya Avropa Şurasına üzv olan ölkələri buna çağırır ki, işğal edilmiş Azərbaycan ərazilərində radiasiya zonaları yaradan Ermənistan və İranla hər hansı nüvə əməkdaşlığından çəkinsinlər.

Assambleya buna görə də özünün Siyasi işlər komitəsi və Ətraf mühit və kənd təsərrüfatı komitəsindən xahiş edir ki, göstərilmiş məsələni nəzərdən keçirsin və bu barədə tövsiyələr tərtib etsinlər.

*İmzalayanlar — 76 nəfər.*

***X. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi barədə***

*Sənəd 9489*

Azərbaycan Respublikasının 20 faizi Ermənistan tərəfindən işğal edilmişdir. İşğal edilmiş ərazilərdə beynəlxalq hüquq normalarına daha hörmət edilmir və bu torpaqlar Avropa kontinentindən təcrid edilərək dünya ictimaiyyəti üçün ciddi qeyri-təhlükəsizlik zonası təşkil edir.

İşğal edilmiş ərazilərdə yerləşmiş olan terrorçu qrupların maliyyə mənbələri narkotiklərin satışı, nüvə layihələri və həmçinin silahların daşınmasıdır. Dağlıq Qarabağ regionuna narkotiklərin becərilməsi və istehsalı üçün zəruri olan şəraitin yaradılması barədə ABŞ Dövlət Departamentinin mart, 2000-ci il tarixli hesabatı və həmçinin işğal edilmiş torpaqlarda qanunsuz nüvə layihələrinin yerinə yetirilməsi ilə məşğul olan erməni təşkilatlarına qarşı sanksiyaların tətbiq edilməsi üzrə ABŞ Dövlət Departamentinin may, 2002-ci il tarixli qərarının qəbul edilməsi Ermənistan dövlətinin müdafiəsi ilə bu cinayət fəaliyyətini idarə edən terrorçu şəbəkəsinə xüsusi diqqət yetirilməsinə olan ehtiyacı çox yaxşı sübut edir.

İşğal edilmiş ərazilərdə nəzarətin olmaması nəinki erməni terror təşkilatları olan ASALA, "Haudud" təşkilatları üçün əlverişli şərait yaradır, həmçinin təlim

düşərgələri yaratmaq və müvafiq fəaliyyət göstərmək üçün vəsaitə malik olan xarici terror təşkilatlarını da ruhlandırır.

İşğal edilmiş Kəlbəcər rayonunda Livanın "Qayıdan qəhrəmanlar təşkilatı" (rəhbəri: Ter-Qriqoryan, Beyrut mənşəli erməni), Laçın rayonunda kürdlərin PKK təşkilatı (rəhbəri: C.Samoyan) və "Vartan cəngavərləri" terrorist təşkilatı (rəhbəri: A.Babacanyan), Zəngilan rayonunda Livanın "Həmas" qrupunun Ziyəddin əl-Gissan" hərbi qolu, Xankəndidə yunanların "Milli dirçəliş təşkilatı" terrorçu qrupu (rəhbəri: E.Qalustyan) geniş fəaliyyətdədir.

ABŞ vətəndaşı Monte Melkonyan, İran vətəndaşı Vazgen Sisliyan və Suriya vətəndaşı, 1970-80-ci illərdə Fransada törətdiyi terrorçuluq əməlləri ilə məşhur olmuş Varucan Qarbicyan kimi beynəlxalq terrorçulara Ermənistan Prezidenti tərəfindən Qarabağ müharibəsinin milli qəhrəmanı adı verilməsi, onların dövlətin himayəsinə götürülməsi terrorizmin Ermənistanda dövlət səviyyəsində müdafiə edilməsini təkzibedilməz dərəcədə sübut edir.

Azərbaycanın işğal edilmiş ərazilərində olan "qanunsuz sahə"nin bütün Avropa üçün təhlükə yaratdığını vurğulamaqla, assambleya üzv olan ölkələri problemin həllini tapmaqda öz səylərini daha da artırmağa çağırır.

Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda və onunla bitişik olan Azərbaycanın yeddi rayonunda cari vəziyyətin ciddi yoxlanılması üçün monitorinq qrupu yaradılmasına olan zəruri ehtiyacı xüsusi qeyd edir.

Assambleya bunu tövsiyə edir ki, Nazirlər Komitəsi zəruri olan addımlar atsın ki, işğal edilmiş və beynəlxalq nəzarət altında olmayan zonadan terrorçu qrupları və şəbəkələri yaratmaq, narkotikləri becərmək və daşımaq, məxfi nüvə layihələrini yerinə yetirmək üçün istifadə edən Ermənistan beynəlxalq hüquq normalarına və Avropa Şurasının Nizamnaməsinə zidd olan özünün bu fəaliyyətini dərhal dayandırsın.

*İmzalayanlar — 22 nəfər.*

### *XI. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində tarixi qəbiristanlıqların dağıdılması və ermənilər tərəfindən yeni daimi "qəbiristanlıqların" yaradılması barədə*

Sənəd 9516

*Məsləhət üzrə təklif cənab R.Hüseynov və başqaları tərəfindən təqdim edilmişdir.*

*Hazırkı təklif assambleyada müzakirə olunmamışdır və yalnız onu imzalayan üzvlər tərəfindən təsdiq edilir.*

Ermənistan Respublikası tərəfindən işğal edilmiş Azərbaycan ərazisində ən çox güclü dağıntıya və viran edilməyə məruz qalmış mədəni irs nümunələri arasında, hər şeydən əvvəl, bütün dini abidələr, məbədlər və qəbiristanlıqlar göstərilməlidir. İşğalçılar Dağlıq Qarabağ regionunda və onu əhatə edən yeddi Azərbaycan rayonunda olan bütün müsəlman qəbiristanlıqlarını viran qoymuş və qiymətli başdaşlarını həmin yerlərdən oğurlamışlar. Bu vandalizm aktları

bir tərəfdən azərbaycanlıları təhqir etmək məqsədilə, digər tərəfdən isə tarixi sənəd kimi vacib əhəmiyyət kəsb edən qəbiristanlıqları viran qoymaq yolu ilə azərbaycanlıların bu torpaqlarda olan tarixi nişanələrini silib atmaq məqsədilə edilmişdir.

Ermənistan hərbi qüvvələri işğal edilmiş ərazilərdə viran qoyulmuş yüzlərlə Azərbaycan qəbiristanlığının yerində bir çox yeni ölü zonalar və qəbiristanlıqlar yaratmışlar ki, bunlar da gələcəkdə yeni ölüm hadisələrinə səbəb olacaqdır.

Belə ki, onlar işğal atında olan altı müxtəlif yerdə içində radioaktiv tullantılar olan minalanmış konteynerlər basdırmışlar. Bu konteynerlərin partlaması təxminən 300 kv.km olan sahənin ölü zonaya çevrilməsinə səbəb ola bilər.

Bu növdən olan başqa bir konteyner fuqas tipli partladıcı ilə doldurulmuş halda Ağdam və Əsgəran rayonları arasında basdırılmışdır ki, bu da 50 km radiuslu bir sahəni qəbiristanlığa döndərə bilər.

2000-ci il iyunun 12-də Ermənistanın Səhiyyə Nazirliyində keçirilmiş yeni müalicəedilməz vərəm virusları ilə mübarizəyə həsr edilmiş konfransdan sonra Azərbaycanın Ağdam rayonunun işğal edilmiş Məlikli, Maqsudlu, Əlimədətli kəndlərində xüsusi qəbiristanlıqlar yaradılmışdır. Təhlükəli infeksiyalardan və sağalmaz xəstəlikdən vəfat etmiş insanlar sistematik olaraq Ermənistandan buraya gətirilir və bu qapalı qəbiristanlıqlarda basdırılır. Azərbaycanın Füzuli rayonunun Qaraxanbəyli kəndində vərəm virusları ilə yoluxmuş cəsədlərin tədqiqi ilə məşğul olan tədqiqat laboratoriyası təşkil edilmişdir. Bu cəsədlər həmin laboratoriyadan 1 km aralıda yerləşən Kürdmahmudlu kəndində basdırılır. Bu laboratoriyanın həyat üçün təhlükəli olan çirkli və zəhərli suları Araz çayına axan Köndələnçay çayına atılır.

1999-cu ildə ermənilər Rusiya mütəxəssislərinin köməyi ilə Azərbaycanın Kəlbəcər rayonunun Çaykənd yaşayış sahəsində nüvə tullantıları üçün anbar qurmuşlar. Bundan əlavə, ermənilər Azərbaycanın işğal edilmiş Zabux, Migidərə (Laçın rayonu), Xanlıq, Bala, Soltanlı (Qubadlı rayonu), Xıdırlı, Göytəpə (Ağdam rayonu), Diligərdə, Pirəhmədli (Füzuli rayonu) kəndlərində nüvə tullantıları üçün qəbiristanlıq yaratmışlar.

Ermənilər hərbi əməliyyatların başlayacağı halda tərkibində antraks olan baktereoloji silahdan istifadə etməklə Naxçıvan və Gəncə istiqamətində olan geniş Azərbaycan ərazilərini qəbiristanlığa çevirməyi planlaşdırırlar (K.Alibekov: "Biological ganger", Washington, 2000).

Assambleya Ermənistan Respublikasının vətəndaşları və bütün regionun əhalisinin sağlamlığı üçün ciddi təhlükə törədən və törədəcək fəaliyyəti ilə əlaqədar dərin narahatlığını ifadə edir və bu problemi assambleyanın Sosial, sağlamlıq və ailə işləri üzrə komitəsində müzakirə etməyi zəruri sayır.

Assambleya bunu tövsiyə edir ki, Nazirlər Komitəsi yuxarıda göstərilmiş fəaliyyətə son qoymaq üçün Ermənistan Respublikasına təcili təzyiq mexanizmlərindən istifadə etsin.

*İmzalayanlar — 30 nəfər.*

***XII. Ermənistan Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına yönəldilmiş blokada siyasəti təhlükəsinin aradan qaldırılması zərurəti barədə***

*Sənəd 9586*

Sülhün yaradılması üzrə bütün cəhdlərə, o cümlədən son iki il ərzində Avropa Şurasının tövsiyə etdiyi cəhdlərə baxmayaraq, Azərbaycan Respublikası ərazilərinin Ermənistan Respublikası tərəfindən 1988-ci ildə başlamış olan işğalı indiyə qədər davam edir. Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan silahlı qüvvələrinin öz ərazilərini genişləndirmək niyyətindən doğan böyük təhlükə mövcuddur və onlar bu məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikasına münasibətdə öz iddiaları haqda açıq-aşkar danışırlar.

1988-1994-cü illər ərzində sərhədə yaxın olan ərazilərdən Naxçıvan Muxtar Respublikasına bir neçə dəfə təcavüz cəhdi edilmişdir.

1991-ci ildən bəri Ermənistan Naxçıvan Muxtar Respublikasını tammiqyaslı iqtisadi, nəqliyyat və kommunikasiya blokadası şəraitində saxlayır. Bu cür dəhşətli blokadanın nəticəsi olaraq 45 istehsal və emal müəssisəsi fəaliyyətini dayandırmalı olmuşdur. 50 min insandan ibarət olan işçi qüvvəsi işsiz vəziyyətə düşmüş, onlar Dağlıq Qarabağdan (Naqorno Karabakh) zor gücünə qovulmuş və Naxçıvana qaçqın kimi gəlmiş 1400 ailəyə əlavə olunmuşlar.

Hal-hazırda Ermənistan rəsmi olaraq Naxçıvana olan iddialarını bəyan edir və hətta onu öz ərazisinə ilhaq edəcəyi ilə hədələyir. Bunu qeyd etmək zəruridir ki, bu gün Naxçıvan çox çətin şəraitdə yaşayır və Azərbaycanın qalan hissəsi ilə yalnız hava yolu ilə əlaqə saxlayır. Ermənistanın bu yeni bədnam planı hər bir yerdə — onun təhsil, elm, siyasi və hərbi dairələrində geniş və açıq şəkildə bəyan edilir.

Nazirlər Komitəsi Avropa Şurasının icraçı orqanı olmaqla və özünün nizamnaməsinə müvafiq olaraq hansı növ mexanizmlərdən istifadə edə bilər ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı iddialarının qarşısını alsın və bu kontekstdə Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası tərəfindən 11 il davam edən tammiqyaslı blokadasının vurduğu ziyan Nazirlər Komitəsini narahat edə biləcək və onu məşğul edə biləcək bir sualdır.

***XIII. Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan torpaqlarında insan hüquqlarının bərpa edilməsi barədə***

*Sənəd 9599*

*Məsləhət üzrə təklif cənab Əliyev, xanım Hacıyeva və başqaları tərəfindən təqdim edilmişdir.*

*Bu təklif assambleyada müzakirə olunmamışdır və sənəd yalnız onun altından qol çəkən şəxslər tərəfindən qeyd edilib.*

1988-ci ildən etibarən Ermənistan dövləti qonşu Azərbaycana qarşı işğalçılıq müharibəsi aparır ki, Dağlıq Qarabağ vilayətini öz torpaqlarına əlavə etsin. Bu müharibə Azərbaycan xalqına dəhşətli zərbə vurdu. Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağ və onu əhatə edən 7 rayonu daxil etməklə Azərbaycanın 20 faizə yaxın torpaqlarını işğal etdi. Silahlı hücum nəticəsində 20 000-dən artıq azərbaycanlı öldürülmüş, 20 000-dən artıq yaralanmış, 5 000-ə yaxın oğurlanmış, 5 000 əsir götürülmüş və bir milyona yaxın azərbaycanlı məcburi köçkün olmuşdur. 877 şəhər və kənddə aparılmış müharibənin nəticəsində minlərlə sənaye və kənd təsərrüfatı müəssisələri, məktəblər, xəstəxanalar, tarixi və mədəniyyət abidələri məhv edildi, yandırıldı və yaxud talan edildi.

Ermənistan dövləti tərəfindən aparılan işğalçılıq müharibəsi bu dövlətin bir sıra qanunvericilik aktları ilə təsdiq olunubdur. Beləliklə, 2 dekabr 1988-ci il tarixində Ermənistan Sovet Sosialist Respublikasının Ali Şurası (parlamenti) "Ermənistan SSR-in Dağlıq Qarabağ ilə birləşdirilməsinə" dair qərar qəbul etdi və həmin qərarda Azərbaycanın hissəsi kimi tanınmış ərazi Ermənistana "birləşdirildi". Bundan əlavə, 23 avqust 1991-ci il tarixində qəbul edilmiş Ermənistan Dövlət Müstəqilliyi Bəyannaməsində Dağlıq Qarabağ Ermənistan Respublikası ərazisinin bir hissəsi kimi bəyan edilmişdir. Həmin bəyannamənin ali qanunvericilik gücü və əhəmiyyəti hazırkı Ermənistan Konstitusiyasının Preambulasında da təsdiq edilibdir.

Qeyd olunmalıdır ki, indiki zamana qədər BMT Təhlükəsizlik Şurası həmin münaqişə ilə bağlı dörd qərar qəbul etmiş (Qərar 822, 853, 874 və 884; bütün qərarlar 1993-cü ildə qəbul edilmişdir) və yuxarıda qeyd olunmuş qərarlara görə Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad olunması tələbi yerinə yetirilməmişdir.

İnsan hüquqları Azərbaycanın işğal edilmiş torpaqlarında tamamilə pozulmuşdur.

Ermənistanın yuxarıda qeyd olunmuş hərəkətlərini Avropada sülh, təhlükəsizlik və sabitliyə bir hədə kimi qiymətləndirərək assambleya belə hesab edir ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinə daxil olması, Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayəti və onun ətrafında yerləşən 7 regionun işğal edilməsi hücum aktı kimi müəyyən edilir və Ermənistanın qarşısına tələb qoyulubdur ki, Azərbaycan Respublikasının bütün işğal edilmiş əraziləri dərhal və qeyd-şərtsiz azad olunsun.

Assambleya məsləhət görür ki, Nazirlər Komitəsi monitorinqi başlasın və Ermənistan dövlətinə Avropa Şurasının Nizamnaməsinə müvafiq olaraq hər hansı sanksiyaların qoyulması mümkünlüyünü müzakirə etsin.

*İmzalayanlar — 24 nəfər.*

### *XIV. "Siyasi məhbus" anlayışına ümumi qənaətləndirici kriteriyanın müəyyən edilməsi probleminə dair*

*Sənəd 9652*

Baxmayaraq ki, siyasi motivlərlə həbsxanaya salmalar müxtəlif dünya ölkələrində, habelə Fransada nadir hal deyildir və siyasi məhbusları başqa ittihamlardan fərqləndirmək məqsədilə bir sıra müəyyən doktrinaya aid və təcrübəyə uyğun olan cəhdlər atılmışdır, "siyasi məhbus" anlayışına hələ ki dəqiq və mübahisəsiz aydınlıq verilməmişdir, habelə beynəlxalq sənədlərdə də müəyyən edilməmişdir. Bundan əlavə, Avropa İnsan Hüquqları Məhkəməsinin Hüquq Məcəlləsində belə anlayış yoxdur. Çox təəssüf, lakin Avropa Şurasının ekspertləri (cənab S.Tresel başda olmaqla) tərəfindən "siyasi məhbus" anlayışını müəyyənləşdirən beş kriteriya hər hansı konkret bir ölkəyə aid ola bilməz.

"Avropa Şurasının üzvü olan ölkədə hətta bir siyasi məhbusun olmasının həddən çox olduğunu" (cənab V.Şvimmer) bəyan edən, mütləq ədalətli bir tezisin yerinə yetirilməsi ətrafında davam edən müzakirələrin gedişində "siyasi məhbus" terminin keçmiş siyasətçilərin törətdikləri ciddi cinayət xarakterli qanun pozuntularının pərdələnməsi məqsədilə istifadə etmək üçün qərəzli cəhdlər göstərilmişdir. "Siyasətçi-məhbus" və "siyasi məhbus" anlayışları arasında hədlər müəyyən edilmədiyi üçün müxtəlif insan hüquq təşkilatları tərəfindən "siyasi məhbus" kimi təqdim edilən şəxslərin sayı subyektiv mülahizələr və həmçinin siyasi motivlər əsasında artırıla və ya azaldıla bilər. Həmişə yadda saxlamaq lazımdır ki, "siyasi məhbus" anlayışı hamı tərəfindən qəbul edilmiş hüquq və insan hüquqları prinsiplərinə, xüsusilə də hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinə, "res çudicata" və digər fundamental hüquq qaydalarına xələl gətirməməlidir.

"Siyasi məhbus" məfhumunun birinci hissəsi bu anlayışın siyasi xarakterini göstərir, ikinci hissəsi isə onun hüquqi aspektini özündə saxlayır. Buna görə də bu anlayışın parametrləri təsnif edilərkən xalis hüquqi və ya xalis siyasi yanaşma müsbət nəticə verməyəcəkdir və bu iki yanaşma üsulunun sərhəd xəttinə əsaslanan müvafiq kriteriyalar axtarılmalıdır.

"Siyasi məhbus" ideyası ətrafında gedən çoxsaylı mübahisələrə son qoymağın yeganə yolu bu məsələnin siyasi müzakirələrdən hüquqi çərçivə hədləri daxilinə köçürülməsi və hamı tərəfindən qəbul edilə bilən və hüquqi cəhətdən icbari olan kriteriyaların müəyyənləşməsidir. Bu deyilmiş termin üçün dəqiq müəyyənləşdirilmiş kriteriyaların zəruriliyi məsələsi hər dəfə Avropa Şurası hüdudları daxilində "Avropada siyasi məhbuslar", "Ukraynada siyasi məhbuslar" kimi adlandırılmış müvafiq sənədlər qarşıya qoyulduğu zaman qaldırılır.

Yuxarıdakıları nəzərə almaqla assambleya tövsiyə edir: Görkəmli hüquqşünasların iştirakı ilə assambleyanın himayəsi altında kollokvium keçirilməsi;

Siyasi işlər komitəsində və assambleyanın Siyasi işlər və insan hüquqları komitəsində "siyasi məhbus" termini üçün aydın ifadə edilmiş hüquqi kriteriyaların müəyyənləşdirilməsi məsələsi üzrə xüsusi müzakirələrin təşkil edilməsi;

Bu kriteriyaların assambleya tərəfindən qəbul ediləcək xüsusi qətnamədə təsdiq edilməsi.

*İmzalayanlar — 14 nəfər.*

***XV. Nazirlər Komitəsinin fəaliyyətinin koordinasiya edilməsinə dair müzakirə***

*Sənəd 9752*

Hazırda İraqda keçmiş müharibə məsələsinin dünya ictimaiyyətinin, o cümlədən Avropa Şurasının gündəlik mövzusunun əsas hissəsi olduğunu nəzərə almaqla,

Avropa Şurasının İraqda olan vəziyyətə öz münasibətini artıq bir neçə dəfə bəyan etdiyini nəzərdən keçirməklə,

Nazirlər Komitəsinin, demək olar ki, bütün Avropa ölkələrini daxil edən Avropa Şurasının əsas siyasi orqanı olmadığı və hələ ki bu məsələyə dair heç bir bəyannaməni hazır etmədiyi amilini qeyd etməklə,

Nazirlər Komitəsinin sədrinə, komitənin Avropa ictimaiyyətinin əsas problemi olan bu məsələyə dair hər hansı mövqeyi qəbul etməsi barədə sual vermək istərdi.

***XVI. Ölüm cəzasının ləğv edilməsi öhdəliyinin yerinə yetirilməməsinə dair Avropa Şurasında iştirakçı ölkələrin məsuliyyətləri***

*Sənəd 9784*

Avropa Şurasının bir çox iştirakçı ölkələri ölüm cəzasını artıq ləğv etmiş, qalan hissəsi isə ölüm cəzasının hətta müharibə dövründə ləğv olunmasına dair İnsan Hüquqları Avropa Konvensiyasının 13 saylı Protokolunun təsdiqedilmə mərhələsindədir. Lakin üzərinə ölüm cəzasının ləğv olunmasına dair rəsmi öhdəlik götürən bəzi dövlətlər bu günə qədər həmin öhdəliyi yerinə yetirməmiş və həmin dövlətlərin Avropa Şurası ailəsinə daxil olması narahatlıq hissi doğurur. Ölüm cəzasının ləğv olunmasından dövrün demokratik inkişafa sadiq və insan hüquqları prinsiplərinə hörmət bəsləyərək ölüm cəzası mexanizminin ölkə daxilində təzyiq və qorxutma məqsədilə istifadə edən dövlət tərəfindən uydurma olaraq uzadılması mənfi bir haldır. Ermənistan Respublikası mənfi nümunələrdən biri ola bilər.

25 yanvar 2001-ci il tarixdə Avropa Şurasına daxil olarkən Ermənistan Respublikası üzərinə götürdüyü əsas öhdəliklərdən biri həmin ölkədə ölüm cəzasının ləğv olunmasına dair İnsan Hüquqları Avropa Konvensiyasının 6 saylı Protokolunun təsdiq edilməsi olmuşdur. Onu da demək lazımdır ki, Ermənistan Respublikası bu sözü başqa beynəlxalq təşkilatlardan əvvəl vermişdi. 1998-ci ilin oktyabr ayında Cenevrədə, BMT-də Ermənistan nümayəndəsi İnsan hüquqları komitəsinə bildirmişdir ki, onun ölkəsində ölüm cəzasının ləğv olunması 1 yanvar 1999-cu il tarixdən qüvvəyə minəcəkdir.

26 sentyabr 2002-ci ildə keçirilən Avropa Şurasının Parlament Assambleyasının payız iclasında Ermənistan Respublikasının üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsi məsələsi müzakirə olunmuş və Ermənistan 6 saylı Protokolun təsdiq olunmamasına dair məsələ ilə bağlı tənqid olunmuşdu.

Vəkillərin bir çoxu Ermənistan tərəfindən ölüm cəzasının ləğv olunmaması məsələsi ilə bağlı Ermənistana təzyiq göstərmək təklifi ilə çıxış etdi və son tarix 2003-cü il yanvar ayına müəyyən olundu. Lakin prinsiplər məsələsinə daha liberal mövqedən yanaşdılar. Son tarixə qədər ölüm cəzasını ləğv etməyən ölkə üçün 2003-cü il iyun ayı müəyyən olundu.

Hadisələrin gedişini izləyərək demək olar ki, Ermənistan hətta etibar olunmuş uzadılmış müddət dövründə də ölüm cəzasının ləğv olunması niyyətində deyil. 25 may 2003-cü il tarixində ölkədə parlament seçkiləri keçiriləcək, yeni parlamentin qurulması, ölüm cəzasının ləğv olunması və 6 saylı Protokolun təsdiq olunması uzun sürəcək, o cümlədən Ermənistan qanunvericilik sistemində dəyişikliklər də uzun bir müddət tələb edəcəkdir.

Beləliklə, Ermənistan Avropa Şurası Assambleyasının iyunda keçiriləcək sessiyasına assambleya tərəfindən qoyulmuş şərtləri yerinə yetirməmiş gələcəkdir. Əlbəttə, Ermənistan həmin öhdəlikləri yerinə yetirmə müddətini uzadaraq hər hansı siyasi motivləri izləyir və Avropa Şurasının əsas prinsiplərə dair tələblərinə etinasız münasibəti yenə də narahatlıq hissləri doğurur.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq assambleya qərara alır:

Ermənistan Respublikasının üzərinə götürdüyü ölüm cəzasının ləğv olunması ilə bağlı öhdəliklərini müəyyən olunmuş tarix — 2003-cü il iyun ayına qədər yerinə yetirmədiyi halda Ermənistana qarşı təcili olaraq müvafiq tədbirlər görmək;

hazırkı problemin əhəmiyyətini nəzərə alaraq, hesab edilir ki, bu məsələ müvafiq komitələrdə təcili olaraq müzakirə olunmalıdır;

Nazirlər Komitəsinin səlahiyyətləri çərçivəsində sistemli olaraq hər hansı öhdəliklərin yerinə yetirilməsindən boyun qaçıran ölkədə müvafiq tədbirlər görmək.

*İmzalayanlar — 26 nəfər.*

## ƏLAVƏ – 2

***Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü, Azərbaycan Parlamentinin AŞ PA-dakı nümayəndə heyətinin başçısı, millət vəkili İlham Əliyevin qurumun iclaslarında çıxışları***

Azərbaycan Parlamentinin AŞ PA-dakı nümayəndə heyətinin başçısı, millət vəkili İlham Əliyevin AŞ PA-nın *"Avropanın iqtisadi və qlobal mütəşəkkil cinayətkarlıq ilə mübarizəsi"* iclasının 1-ci forumunda çıxışı (24.04.2001-ci il).

İlham Əliyevin AŞ PA-nın 2001-ci il payız sessiyasında gündəlikdəki *"Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları"* məsələsinin müzakirəsində çıxışı (25.09.2001-ci il).

İlham Əliyevin Azərbaycanın Avropa Şurasına daxil olmasının ildönümünə həsr edilmiş təntənəli mərasimdə çıxışı (23.01.2002-ci il).

İlham Əliyevin AŞ PA-nın 2002-ci il qış sessiyasında gündəlikdəki *"Terrorizmə qarşı mübarizə və insan hüquqlarına hörmət"* məsələsinin müzakirəsində çıxışı (24.01.2002-ci il).

İlham Əliyevin Bakıda keçirilmiş AŞ PA-nın İqtisadi məsələlər və inkişaf komitəsinin iclasında çıxışı (30.05.2002-ci il).

İlham Əliyevin Bakıda keçirilmiş AŞ PA-nın İqtisadi məsələlər və inkişaf komitəsinin iclası çərçivəsində *"Avropa və Xəzərin enerji ehtiyatlarının inkişafı"* mövzusunda beynəlxalq seminarda çıxışı (01.06.2002-ci il).

İlham Əliyevin AŞ PA-nın 2002-ci il yay sessiyasında gündəlikdəki *"Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqınların və məcburi köçkünlərin vəziyyəti"* məsələsinin müzakirəsində çıxışı (27.06.2002-ci il).

Azərbaycanın parlament nümayəndə heyətinin Strasburqda Avropa Şurasının mətbuat mərkəzində keçirdiyi mətbuat konfransında İlham Əliyevin çıxışı (26.06.2002-ci il).

İlham Əliyevin AŞ PA-nın 2002-ci il payız sessiyasında gündəlikdəki *"İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı və dünya iqtisadiyyatı"* məsələsinin müzakirəsində çıxışı (25.09.2002-cı il).

İlham Əliyevin AŞ PA-nın 2002-ci il payız sessiyasında gündəlikdəki "*Ermənistanın Avropa Şurası qarşısında öhdəlikləri yerinə yetirməsinin müzakirəsi"* ətrafında çıxışı (26.09.2002-ci il).

İlham Əliyevin AŞ PA-nın 2002-ci il payız sessiyasında gündəlikdəki *"Azərbaycanın Avropa Şurası qarşısında öhdəlikləri yerinə yetirməsinə dair"* məsələsinin müzakirəsində çıxışı (26.09.2002-ci il).

İlham Əliyevin AŞ PA-nın 2003-cü il payız sessiyasında gündəlikdəki *"Cənub-Şərqi Avropa üçün sabitlik paktının imkanları"* məsələsinin müzakirəsində çıxışı (27.01.2003-cü il).

AŞ PA-nın sədr müavini və büro üzvü İlham Əliyevin AŞ PA-nın 2003-cü il yaz sessiyasında gündəlikdəki *"Ermənistanda prezident seçkilərinin nəticələri"* ilə bağlı müzakirələrdə çıxışı (31.03.2003-cü il).

İlham Əliyevin AŞ PA-nın 2003-cü il yaz sessiyasında gündəlikdəki *"Avropa və Xəzər dənizi regionunda enerji ehtiyatlarının inkişafı"* ilə bağlı məsələnin müzakirəsində çıxışı (02.04.2003-cü il).

İlham Əliyevin AŞ PA-nın 2003-cü il yay sessiyasında gündəlikdəki *"Azərbaycanda siyasi məhbuslar məsələsi"nin* sessiyanın gündəliyindən çıxarılması təklifi ilə bağlı çıxışı (23.06.2003-cü il).

İlham Əliyevin AŞ PA-nın 2003-cü il yay sessiyasında gündəlikdəki *"Avropada muxtar vilayətlərin müsbət təcrübəsi"* məsələsi ilə bağlı müzakirələrdə çıxışı (24.06.2003-cü il).

## Avropa Şurasının əsas günləri

**5 may 1949 -** Avropa Şurasını təsis edən London müqaviləsi on dövlət tərəfindən imzalanmışdır: Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, İsveç və Böyük Britaniya.

**4 noyabr 1950 -** Romada insan hüquqlarının qorunmasını təmin edən ilk beynəlxalq hüquqi vasitə olan Avropa Şurasının İnsan hüquqlarının və əsas azadlıqların qorunması üzrə Konvensiyasının imzalanması.

**19 dekabr 1954 -** Avropa Şurasının Təhsil, mədəniyyət, gənclər və idman sahəsində fəaliyyətini formalaşdıran Avropa Mədəniyyət Konvensiyasının imzalanması.

**16 aprel 1956 -** Köçmə Fondu (hazırda Avropa Şurasının İnkişaf Bankı) üzv dövlətlərə sosialyönümlü layihələrə yardım etmək üçün təsis olunub.

**12 yanvar 1957 -** Avropa Şurası tərəfindən yerli və regional hakimiyyət nümayəndələrini bir yerə toplamaq məqsədilə Avropa Yerli və Regional Hakimiyyətlərinin Daimi Konfransı (hazırda Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi) yaradılmışdır.

**18 oktyabr 1959 -** Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq üzv dövlətlər tərəfindən götürülən öhdəliklərin yerinə yetirilməsini təmin etmək məqsədilə təşkilat tərəfindən Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilib.

**18 oktyabr 1961 -** Turində Avropa İnsan Hüquqları Konvensiyasının iqtisadi və sosial tərəfdaşı olan Avropa Sosial Xartiyası imzalanıb.

**1 iyun 1972 -** Avropa Şurasının Strasburqda (Fransa) ilk Avropa Gənclər Mərkəzi açılıb.

**26 noyabr 1987 -** Avropa Şurası tərəfindən hazırlanmış İşgəncə və qeyri-insani və ya alçaldıcı hərəkət və ya qarşısının alınması üzrə Avropa Konvensiyasının imzalanması.

**8 iyun 1989 -** Demokratiya yolunda inkişaf edən ölkələrlə daha yaxın əlaqələr qurmaq üçün Avropa Şurası Parlament Assambleyası nəzdində xüsusi qonaq statusu təsis edilib.

**30 aprel 1990 -** Lissabonda (Portuqaliya) Avropa Şurasının Şimal-Cənub Mərkəzi açılıb.

**10 may 1990 -** Demokratiyada hüquqi təminatlar məsələləri ilə məşğul olmaq məqsədilə Hüquq vasitəsilə demokratiya uğrunda Avropa Komissiyası (Venesiya Komissiyası) təsis olunub.

**6 noyabr 1990** - Keçmiş Sovet blokundan olan ilk ölkənin — Macarıstanın Avropa Şurasına üzv olması.

**Sentyabr 1991** - Avropa İttifaqının dəstəyi ilə Avropa İrsi Günlərinin təsis olunması.

**8 və 9 oktyabr 1993 -** Vyanada (Avstriya) keçirilən Avropa Şurası üzv dövlətlərinin dövlət və hökumət başçılarının birinci sammiti təşkilatın pan-avropa imkanlarına malik olmasını təsdiq edən və milli azlıqların müdafiəsində, irqçiliyin, ksenofobiyanın və dözümsüzlüyün bütün formalarına qarşı mübarizə yeni siyasi prioritetləri müəyyən edən bəyannamə qəbul edib.

**17 yanvar 1994 -** Nazirlər Komitəsi tərəfindən Avropa Yerli və Regional Hakimiyyətlər Daimi Konfransını əvəz edən Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi yaradılıb.

**1 fevral 1995** - Avropa Şurası tərəfindən hazırlanan Milli azlıqların müdafiəsi üzrə Çərçivə Konvensiyasının imzalanması.

**15 dekabr 1995** - Avropa Şurasının Budapeştdə (Macarıstan) ikinci Avropa Gənclər Mərkəzinin açılması.

**28 fevral 1996 -** Rusiya Avropa Şurasına üzv olur.

**4 aprel 1997 -** İnsan hüquqları və biotibb üzrə Avropa Konvensiyasının imzalanması.

**10 və 11 oktyabr 1997 -** Strasburqda (Fransa) keçirilən Avropa Şurası üzv dövlətlərinin dövlət və hökumət başçılarının ikinci sammiti.

**12 yanvar 1998 –** İnsanların klonlaşdırılmasını qadağan edən İnsan hüquqları və biotibb üzrə Avropa Konvensiyasına olan Əlavə Protokolun imzalanması.

**1 noyabr 1998 -** Avropa İnsan Hüquqları Konvensiyasına olan 11 saylı Protokola əsasən Strasburqda yeganə daimi Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilib.

**5 may 1995 -** Avropa Şurasının 50 illiyi.

**4 noyabr 2000 -** Avropa İnsan Hüquqları Konvensiyasının 50 illiyi.

**25 yanvar 2001 -** Azərbaycan və Ermənistan Avropa Şurasına üzv olub.

**23 noyabr 2001 -** Kibercinayət üzrə Konvensiyanın imzalanması.

**24 aprel 2002 -** Bosniya və Herseqovina Avropa Şurasına üzv olub.

**2 may 2002 -** Bütün hallarda ölüm hökmünü qadağan edən insan hüquqları üzrə Avropa Konvensiyasına olan 13 saylı Protokolun imzalanması.

**15 iyul 2002 -** İnsan hüquqları və terrorizmə qarşı Mübarizə Təlimatının qəbulu.

**28 yanvar 2003 -** Kompüter sistemləri vasitəsilə irqçi və ksenofobiya xarakterli cinayətlərin baş verməsi ilə bağlı Kibercinayət üzrə Konvensiyaya olan Əlavə Protokolun imzalanması.

**3 aprel 2003 -** Serbiya Avropa Şurasına üzv olub.

**15 may 2003 -** Terrorizmin tətbiqi üzrə Avropa Konvensiyasını dəyişən Protokolun imzalanması.

**5 oktyabr 2004 -** Monako Avropa Şurasına üzv olub.

**15 və 16 may 2005 -** Varşavada (Polşa) keçirilən Avropa Şurası üzv dövlətlərinin dövlət və hökumət başçılarının sammiti.

**13 dekabr 2005 -** Avropa bayrağının 50 illiyi.

**MÜNDƏRİCAT**

Ön söz
**I fəsil.** Avropa Şurası: ümumi məlumat
§ 1. Tarixi baxış
§ 2. Avropa Şurasının strukturu
§ 3. Avropa Şurasının fəaliyyət istiqamətləri
**II fəsil.** Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın inkişaf dinamikası
§ 1. I mərhələ
§ 2. II mərhələ
§ 3. III mərhələ
**III fəsil.** Azərbaycan parlament nümayəndə heyətinin Avropa Şurası Parlament Assambleyasındakı uğurlu fəaliyyətinin İlham Əliyev dövrü
**IV fəsil.** Avropa Şurası qarşısında götürülmüş öhdəliklər kontekstində əməkdaşlıq
**Nəticə**
Avropa Şurasının tarixi günləri

Texniki redaktor: **Vüsal Quliyev**
Səhifələyici: **Cəbrayıl Təhməzov**
Üz qabığının müəllifi: **Novruz Novruzov**
Korrektor: **Kəmalə Cəfərova**

**Azərbaycan və Avropa Şurası** ***(Avropa Şurasının 60 illik yubileyinə həsr olunur)***

Çapa imzalanmışdır: 10.12.2009.
Formatı 60x84 1/16. Həcmi 15 ç.v.
Sifariş 256. Tiraj 1000.

**CBS**
POLYGRAPHİC PRODUCTİON
mətbəəsində çap olunmuşdur